**ISSN 2413-7235**

AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİYYAT NAZİRLİYİNİN
İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

***ELMİ ƏSƏRLƏR TOPLUSU***

***XXI BURAXILIŞ***

**BAKI - 2021**

*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun*
*Elmi Şurasının qərarı əsasında nəşr olunur*

*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən*
*Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir: № 4271, 19.11.2019*

**"Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" elmi əsərlər toplusunun redaksiya heyəti**

**Baş redaktor**
***Arzu Doğru qızı Hüseynova,*** *iqtisad elmləri doktoru*

**Məsul katib**
***Sayalı Zal qızı Abbasəliyeva,*** *əməkdar mədəniyyət işçisi*

**Üzvlər**
***Vilayət Məmməd oğlu Vəliyev***, *iqtisad elmləri doktoru, professor*
***Oruc İbrahim oğlu İbrahimov,*** *iqtisad elmləri namizədi, dosent*
***Ədalət Bayraməli oğlu Əliyev,*** *iqtisad elmləri doktoru, texnika elmləri doktoru, professor*
***Zakir Məcid oğlu Nəcəfov,*** *iqtisad elmləri doktoru*
***Gülənbər Arif qızı Əzizova,*** *iqtisad elmləri doktoru, professor*
***Vəfa Hüseynağa qızı Rzayeva,*** *texnika elmləri namizədi*
***Arzu Sahib oğlu Süleymanov,*** *iqtisad üzrə fəlsəfə doktoru*
***Fərhad Qamboy oğlu Mikayılov,*** *iqtisad üzrə fəlsəfə doktoru*
***Malik Məmməd oğlu Mehdiyev,*** *iqtisad üzrə fəlsəfə doktoru*
***Vladimir Dmitriyeviç Parxomenko,*** *Ukrayna Pedoqoji Elmlər Akademiyasının müxbir üzvü, professor (Ukrayna)*
***Yelena Borisovna Lençuk,*** *iqtisad elmləri doktoru, professor (Rusiya)*
***İqor Germanoviç Mantsurov,*** *iqtisad elmləri doktoru, professor (Ukrayna)*
***Aleksandr Nikolayeviç Stratan,*** *iqtisad elmləri doktoru, professor (Moldova)*
***Saylau Bayzakoviç Bayzakov,*** *iqtisad elmləri doktoru, professor (Qazaxıstan)*

Elmi əsərlər toplusu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilmişdir.

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
AZ 1122, Azərbaycan Respublikası, Bakı şəhəri, H.Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70; Faks: (+99412) 430 03 06
Elektron poçt: journal.isrer@gmail.com

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2021

## MÜNDƏRİCAT

**AZƏRBAYCANDA TURİZM POTENSİALININ REALLAŞMASINDA MÜLKİ AVİASİYANIN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ**
*Arzu HÜSEYN* 5

**SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA FƏALİYYƏTİNİN AKTİVLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**
*Təranə ƏHMƏDOVA* 17

**МИРОВАЯ ПРАКТИКА ЛЬГОТНОГО КРЕДИТОВАНИЯ ЧАСТНОГО СЕКТОРА ЭКОНОМИКИ**
*Ляман КАШИЕВА* 27

**AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MALİYYƏ VƏ İNVESTİSİYA RESURSLARININ FORMALAŞMASI İMKANLARI**
*Pərvanə MƏMMƏDOVA* 44

**MDB ÖLKƏLƏRİNİN İNNOVASİYA SİSTEMİNİN SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ**
*Mətanət RƏSULOVA, Nilufər MURADOVA* 56

**AZƏRBAYCANDA ELMTUTUMLU MƏHSUL İSTEHSALI POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ**
*Samirə ABASOVA* 70

**COVİD-19 PANDEMİYASINDA İXRACA DÖVLƏT DƏSTƏYİ VƏ İXRACIN ƏMTƏƏ DİVERSİFİKASİYASI**
*Nicat HACIZADƏ* 80

**AZƏRBAYCANDA ƏHALİNİN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İDARƏ EDİLMƏSİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ**
*Novruz HÜSEYNOV* 94

**TEXNİKİ TƏNZİMLƏNMƏNİN AKSİOLOJİ ƏSASLARI VƏ İQTİSADİ EFFEKTLƏRİ**
*Nurlan HACIZADƏ* 106

**AZƏRBAYCAN BANK SEKTORUNDA QEYRİ-İŞLƏK KREDİTLƏR PROBLEMATİKASININ TƏHLİLİ**
*Əfqan İMANZADƏ, Ayaz MUSEYİBOV* 115

**KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MÜFLİSLƏŞMƏ PROBLEMLƏRİ**
*Ülkər SALIFOVA* 130

**KLASTERLƏRİN FORMALAŞMASINA DAİR BEYNƏLXALQ TƏCRÜBƏ**
*Nərminə QULİYEVA* 140

**ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ПРОМЫШЛЕННЫХ ПАРКОВ В РОССИЙСКОЙ ФЕДЕРАЦИИ: АНАЛОГИЯ С АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ**
*Нармина ИСМАЙЛОВА* *149*

**BIG DATA-NIN İQTİSADİ POTENSİALI**
*Məkrufə HACIRƏHİMOVA, Aybəniz ƏLİYEVA* *159*

**SU TƏCHİZATI SEKTORUNDA XƏRCLƏRİN AZALDILMASINDA TƏBİİ İNHİSARIN MİQYAS VƏ SIXLIQ EFFEKTLƏRİNİN ÖLÇÜLMƏSİNİN ƏHƏMİYYƏTİ BARƏDƏ**
*Kəmalə YUSİBOVA* *169*

**KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA “BİRLƏŞDİRİLMİŞ İXRAC” MARKETİNQ MODELİNİN PERSPEKTİVLƏRİ**
*Sənan YƏHYA* *177*

**KOMMERSİYA TƏŞKİLATLARININ FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ VƏ DÜZGÜN QƏRAR VERİLMƏSİNDƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABATIN DOLAYI METODLA HAZIRLANMASI VƏ ROLU**
*Abdullah ADİLLİ* *187*

**MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR** *196*

*UOT 33.379.85*

# *AZƏRBAYCANDA TURİZM POTENSİALININ REALLAŞMASINDA MÜLKİ AVİASİYANIN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ*

*Arzu Alim qızı HÜSEYN, i.ü.f.d., dosent,*
*Azərbaycan Turizm və Menecment Universiteti, kafedra müdiri,*
*a.huseyn@atmu.edu.az*

**Xülasə**

*Mülki aviasiyanın inkişaf etməsi, hava səyahət bazarının liberallaşması qlobal miqyasda turizmin inkişafına birbaşa təsir göstərmişdir. Xüsusən də XXI əsrin başlanığıcından etibarən hava səyahət bazarının liberallaşması, aşağı büdcəli havayolları şirkətlərinin bazarda yer alması, aviabilet sifarişlərini asanlaşdıran rəqəmsal və mobil texnologiyaların inkişafı beynəlxalq turist sayında artıma səbəb olmuşdur. Nəticədə 2008-ci illə müqayisədə beynəlxalq turistlərin sayı 2018-ci ildə 58 faiz artmışdır. Apardığımız təhlillər göstərir ki, Azərbaycan Respublikasında mülki aviasiyanın və yerli havayolu şirkətinin inkişafı turizm sektorunun inkişafına müsbət yöndə təsir göstərir. Belə ki, 2010-2019-cu illərdə Azərbaycana gələn turistlərin sayı 2,2 dəfə, hava yolundan istifadə edən beynəlxalq sərnişinlərin sayı isə 2,6 dəfə artmışdır. Bu müddətdə ölkəyə gələn turistlərin sayı ilə hava yolu ilə gələnlərin sayı arasındakı korrelyasiya 0,84 olmuşdur. Müəllif bu məqalədə Azərbaycanda mülki aviasiyanın inkişafının turizm sektoruna təsirini qiymətləndirir və bu sahənin inkişafı ilə bağlı təkliflər irəli sürür.*

*Tədqiqatın tətbiqi əhəmiyyəti – alınmış analitik nəticələr əsasında mülki aviasiyanın turizmin inkişafında rolu araşdırılmış, mülki aviasiyanın inkişafının turizm sektoruna təsiri qiymətləndirilmiş və bu sahələrin inkişafı ilə bağlı təkliflər irəli sürülmüşdür.*

*Tədqiqatın nəticəsi – ölkənin turizm sahəsindəki hədəflərinin reallaşması üçün hava nəqliyyatı sahəsinin liberallaşdırılması məqsədi ilə tədbirlərin sürətləndirilməsi zəruridir. Regionlarda beynəlxalq hava limanlarının aşağıxərcli hava yolları şirkətlərinin açılması ilə yerli hava limanlarının istifadə səviyyəsinin, gəlirlərin artırılması, ölkənin turizm və nəqliyyat-logistika qovşağı infrastrukturunun inkişafının dəstəklənməsinin vacibliyi qeyd edilmişdir.*

Tədqiqatın orijinallığı və elmi yeniliyi – *Azərbaycana gələn xaricilərin hava nəqliyyatından istifadə göstəricisi, ölkədə hava nəqliyyatı ilə sərnişin daşımalarının həcmi, turizm maraqlarına uyğun olaraq uçuş coğrafiyasının genişləndirilməsi imkanları və s. məsələlər araşdırılmışdır. Əldə edilən nəticə və təkliflərdən turizm sahəsinin inkişaf etdirilməsi üçün istifadə edilməsi məqsədəuyğundur. Hava nəqliyyatı inkişafının turizm sektoruna təsiri qiymətləndirilmiş, “hava azadlığı”nın tətbiq edilməsi ilə liberallaşdırlmanın aparılması məqsdəduyğun hesab edilmişdir.*

***Açar sözlər:*** *mülki aviasiya, turizm, hava yolu, sərnişin axınları, hava limanı*

## Giriş

Müstəqillik illərində Azərbaycan Respublikasında mülki aviasiyanın inkişaf etdirilməsi istiqamətində böyük işlər görülmüş, beynəlxalq statusa malik hava limanlarının tikilməsi dəstəklənmişdir. Bakıda yerləşən Heydər Əliyev Beynəlxalq Aeroportu ilə yanaşı, Naxçıvan, Gəncə, Qəbələ, Lənkəran və Zaqatala hava limanlarında da aviadaşıyıcılar üçün hər cür şərait yaradılmışdır. Heydər Əliyev

Beynəlxalq Aeroportu sərnişin və yük daşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük terminalının buraxılış gücünə görə Azərbaycanın və regionun ən böyük aeroportudur. 2019-cu il ərzində Heydər Əliyev Beynəlxalq Aeroportundan 37 sərnişin aviaşirkəti 60-dan çox müxtəlif istiqamətə uçuşlar həyata keçirmişdir.

Hazırda ölkədə beynəlxalq statusa malik 6 hava limanı fəaliyyət göstərir. Füzuli şəhərində isə beynəlxalq statusa malik yeni hava limanının tikintisi davam edir və daha 2 hava limanının (Zəngilan və Laçın rayonlarında) tikintisi planlaşdırılır. Paytaxt hava limanı “Skytrax World Airport Awards” versiyasına görə maksimal “5 Ulduz” statusuna layiq görülmüş, həmçinin ardıcıl olaraq 4 il MDB ölkələrinin bütün hava limanları arasında göstərilən xidmət səviyyəsinə görə ən yaxşılar siyahısına başçılıq etmişdir [10]. Eyni zamanda Mülki aviasiyanın inkişafına paralel olaraq son 2010-2019-cu illərdə ölkəmizdə turizmin də dinamik inkişafı müşahidə olunmuşdur. Belə ki, görülən tədbirlər nəticəsində Azərbaycan hava limanları sərnişin axınına görə regionda lider mövqeyə yüksəlmişdir. Azərbaycan iqtisadiyyatının sürətli inkişafı həm də mülki aviasiyanın inkişafının təminatçısı olmuşdur. Məhz dövlət dəstəyi nəticəsində "Azərbaycan Hava Yolları" Bakıdan Nyu-Yorka müntəzəm transatlantik uçuşlar yerinə yetirən, müasir “Boeing 787-8 Dreamliner”, “Airbus A340-500” uzaq magistrallı sərnişin təyyarələrinə sahib böyük bir şirkətə çevrilmişdir.

Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT, ingiliscə qısaltması ICAO) tərəfindən aparılan təhlillər göstərir ki, ölkələrin iqtisadi inkişaf səviyyəsi, yəni ÜDM artımı və əhali gəlirlərinin artımı ilə sərnişin axınları arasında müsbət korrelyasiya əlaqəsi mövcuddur. Belə ki, BMAT tərəfindən aparılmış araşdırmalar hava trafiki üzrə artımla iqtisadi trendlərin bir-birini tamamladığını, gəlir səviyyəsi və səyahətin qiyməti kimi iqtisadi faktorlar tərəfindən müəyyənləşdirildiyini göstərir [11]. Azərbaycanda mülki aviasiyanın inkişafı isə ölkənin turizm sektoruna da müsbət yöndə təsir göstərir.

Bu məqalədə də Azərbaycanda mülki aviasiyanın inkişafının turizm sektoruna təsiri qiymətləndirilmiş və bu sahənin inkişafı ilə bağlı təkliflər verilmişdir.

**Mülki aviasiyanın inkişafı və onun beynəlxalq turizmə təsiri**

Beynəlxalq Hava Nəqliyyat Assosiasiyasının (BHNA, ingiliscə qısaltması IATA) məlumatlarına əsasən dünya üzrə 1300-dən çox hava şirkəti, 3760-a yaxın hava limanlarından istifadə etməklə hər gün təxminən 12 milyon sərnişinə xidmət edir. Hava Nəqliyyatı Fəaliyyət Qrupunun (ingiliscə qısaltması ATAG) apardığı hesablamalara görə (2016-cı il üçün) aviasiya sənayesinin qlobal Ümumi Daxili Məhsulun (ÜDM) formalaşmasında payı 3.6% olmaqla bu sahə dünya üzrə ümumilikdə 65,5 milyon daimi iş yerlərinin yaradılmasına töhfə verir. Aviasiya sənayesi yüksək əmək məhsuldarlığının mövcudluğu ilə xarakterizə edilən bir sahədir. Belə ki, BMAT hesablamalarına əsasən bu sahədə çalışan işçilərin adambaşına yaratdığı əlavə dəyər 69000 ABŞ dollarıdır ki, bu da iqtisadiyyatın bir çox sahələrindən əhəmiyyətli dərəcədə yüksəkdir.

COVİD-19 pandemiyasına qədər qlobal səviyyədə aviasiya xidmətlərindən istifadədə davamlı böyümə müşahidə olunur. Bu da özünü artan sərnişinlərin sayında və yükdaşımaların həcmində göstərir. Belə ki, əgər 2000-ci ildə qlobal sərnişin daşımalarının sayı cəmi 1,7 milyard nəfər idisə, bu rəqəm 2019-cu ildə 2,7 dəfə artaraq 4,6 milyard nəfərə çatmışdır. Dünya üzrə əhalinin artım tempini, hava nəqliyyatından istifadəyə əlçatanlığın və eləcə də əhali gəlirlərinin artmasını nəzərə alsaq gələcəkdə də bu artım tempini proqnozlaşdırmaq olar. IATA-nın apardığı son hesablamalara görə

2037-ci ildə qlobal sərnişin daşımalarının həcmi 2019-cu ildə müşahidə olunan rəqəm ilə müqayisədə təxminən 1,8 dəfə və ya orta illik 3,5% artacaq, bu artımın da əsas drayveri Asiya ölkələrinin olacağı gözlənilir.

Proqnozlara görə sərnişin və yük daşımalarının böyüməsi öz növbəsində 2037-ci ildə dünya üzrə 5,5 milyard ABŞ dolları məbləğində əlavə dəyər yaradacaq və ümumilikdə 100 milyon daimi iş yerinin formalaşmasını dəstəkləyəcəkdir (buraya bir başa və dolayı təsirlər də aid edilir) [15].




*Mənbə: IATA*

***Şəkil 1. Dünya üzrə sərnişin daşımalarının həcmi***

Qlobal aviasiya sənayesi sərt rəqabət mühitinin müşahidə olunduğu bir bazardır**.** Hava nəqliyyatı sistemi 20 il bundan əvvələ qədər əsasən dövlətlərə məxsus idisə son illər bu sahədə genişhəcmli özəlləşdirmə aparılmışdır. Bununla yanaşı, bu sahədə kifayət qədər liberallaşma (bazara giriş maneələrinin aradan qaldırılması) baş vermişdir. Bu da öz növbəsində aviasiya xidmətləri göstərən şirkətlər arasında rəqabətin artmasına gətirib çıxarmışdır. Yeni aşağıbüdcəli hava nəqliyyatı xidmətləri göstərən şirkətlərin bazara daxil olması və nəzərə carpacaq dərəcədə böyüməsi üçün münbit şərait yaranmışdır. Təkcə 2018-ci ildə aşağıbüdcəsli hava nəqliyyatından istifadə edən sərnişinlərin sayı ümumi hava nəqliyyatından istifadə edən sərnişlərin sayının 31%-ni təşkil etmişdir ki, bu da 2005-ci il ilə müqayisədə 3 dəfədən də çox artım deməkdir. Aşağıbüdcəli hava nəqliyyatı xidmətlərindən isə ən çox Avropa ölkələrində istifadə edilir və hava nəqliyyatından istifadə edənlərin ümumi sərnişin sayında payı 36% təşkil edir, bu rəqəmin isə 2027-ci ildə 50%-i keçəcəyi gözlənilir [14].

Mülki aviasiyanın inkişafı turizm sektoruna da müsbət yöndə təsir göstərir və turistlər daha uzaq destinasiyalara rahatlıqla səfər etmək imkanı qazanırlar. Məhz 2008-ci ildə beynəlxalq turistlərin sayı 920 milyon nəfər olduğu halda, 2018-ci ildə 1,45 milyard nəfərə yüksəlməsində mülki aviasiyanın inkişafının da mühüm rol oynadığı danılmaz fakdır.

Dünya üzrə ortalama göstəriciyə görə, işgüzar məqsədlə səfər edən turistin hava yolu nəqliyyatından istifadəsi 20-30%, istirahət və əyləncə məqsədilə səfər edən turistin isə istifadə göstəricisi 70-80%-dir. Dünyada istirahət məqsədilə səyahət edən turistlərin payı durmadan artmaqdadır. İşgüzar səyahətçilər isə turizm bazarında kiçik

bir paya sahib olsa da, gəlirin əhəmiyyətli hissəsini təşkil edirlər. Bu vəziyyət işgüzar məqsədli səyahət edən turistlərin hava yolu şirkətləri üçün son dərəcə əhəmiyyətli olduğunu göstərməkdədir [6, səh. 35-37]. Qeyd etdiyim ki, işgüzar məqsədli səyahət edən turistlər daha çox hava yoluna üstünlük verirlər.

Qlobal iqtisadiyyatda mühüm payı olan xarici ticarət və turizm kimi sektorların inkişafında aviasiya sektoru da rol oynayır. Müasir dünyada aviasiya sənayesi yük və sərnişin daşınmasından asılı olmayaraq milli iqtisadiyyatın əsasını təşkil edir [13].

Turizm və hava nəqliyyatı arasındakı əlaqə tədqiqatlarda intensiv şəkildə təhlil edilmiş və güclü bir asılılıq göstərilmişdir [5]. Hava nəqliyyatı olduqca dinamik bir sektoru təmsil etdiyi üçün son illərdəki təkamülün turizm sənayesinə əhəmiyyətli təsiri oldu.

Qloballaşan dünyada hava səyahətləri məhsullara, kapitala və insanlara çıxış əldə edərək iqtisadi böyümənin vacib bir generatorudur. İqtisadi artım daha da inkişaf etmiş infrastruktur və daha yüksək yaşayış standartları təqdim edərək turizmin inkişafına kömək edir. Məlumdur ki, turizmin iqtisadiyyata birbaşa və dolayı təsiri var, bu səbəbdən də turizmin inkişafı gələcək iqtisadi artımı müəyyənləşdirir və davamlı olaraq dövr edir.




***Sxem 1. Hava nəqliyyatı-turizm-iqtisadi artım [7, s. 24-32]***

Göründüyü kimi, hava nəqliyyatı turizmin inkişafı ilə sıx bağlıdır. Daha doğrusu bu iki sahə arasında qarşılıqlı əlaqə mövcuddur. Son illərdə hava səyahətləri turizmin təkamülündə əhəmiyyətli dəyişikliklərə səbəb olmuş və yeni turizm formalarının yaranmasına təkan vermişdir. Turizmin inkişafı birbaşa hava səyahətinə təsir göstərir. Turizm bəzi sahələrdə inkişaf etdikcə və çoxlu sayda turist cəlb etdikcə, hava limanı şəbəkələrinin genişlənməsi xüsusi önəm daşıyır. Hava nəqliyyatı - turizmin inkişafı - iqtisadi artım arasındakı əlaqə sxem 1-də göstərilmişdir [7].

### *Azərbaycanda mülki aviasiyanın inkişafının mövcud vəziyyəti və turizmin inkişafında rolu*

Müstəqillik illərində mülki aviasiya inkişaf etmiş və hazırda ölkədə hava nəqliyyatı xidmətləri göstərən yerli şirkətlərdən “Azərbaycan Hava Yolları QSC-nin tabeliyində olan “Azərbaycan Hava Yolları” Sərnişin Aviasiya Şirkəti və “Buta Airways” Sərnişin Aviasiya Şirkəti və özəl sektor olan “SW Airlines” Yük Aviasiya

Şirkəti, "SW West Airlines" Yük Aviasiya Şirkəti, "SW Business Aviation" Şirkəti və "SW Helikopter" mövcuddur. "Azərbaycan Hava Yolları" (AZAL) böyük aviadaşıyıcı və MDB ölkələrinin aviasiya icmasının liderlərindən biridir. Aviaşirkətin ümumi marşrut şəbəkəsi 25 ölkədə 40 istiqamətdən ibarətdir [9]. "Azərbaycan Hava Yolları" və "Buta Airways" sərnişin aviasiya şirkətləri 7 növ olmaqla 25 hava gəmisindən ibarət yeni təyyarə parklarına sahibdir. Aviaşirkət "Boeing 787-8 Dreamliner", "Boeing 767-300", "Airbus 340-500", "Airbus 320", "Airbus 319", "Embraer 190" kimi müasir standartlara cavab verir və "Boeing 757-200" kimi nisbətən köhnəlmiş hava gəmilərini istismar edir.




| | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sərnişin daşınmışdır, min sərnişin | 701 | 1.211 | 1.017 | 1.394 | 1.599 | 1.664 | 1.788 | 1.818 | 1.980 | 2.359 | 2.399 | 2.704 |
| beynəlxalq | 301 | 645 | 807 | 969 | 1.110 | 1.157 | 1.236 | 1.284 | 1.432 | 1.770 | 1.785 | 2.080 |
| yerli | 400 | 566 | 210 | 425 | 489 | 507 | 552 | 534 | 548 | 589 | 614 | 624 |

***Şəkil 2. Azərbaycanda hava nəqliyyatı ilə sərnişin daşımalarının həcmi [16]***

Qeyd edək ki, 2020-ci il üçün sərnişin daşımaları ilə bağlı artım proqnozları olsa da, koronavirus pandemiyasının təsiri nəticəsində 2020-ci ildə sərnişin daşımaları 2019-cu illə müqayisədə 4,7 dəfə azalaraq 577,9 min nəfər təşkil etmişdir.




***Şəkil 3. Azərbaycana gələn xaricilər və onların hava nəqliyyatından istifadə göstəricisi, min nəfərlə [4; 16]***

Şəkildən də göründüyü kimi 2015-2019-cu illərdə Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı dinamik olaraq artmışdır. 2020-ci ildəki azalmaya səbəb isə koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması olmuşdur.

Burada son illər diqqəti cəlb edən bir tendensiyanı da qeyd edək ki, Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayındakı artıma bamayaraq hava nəqliyyatından istifadə edənlərin faiz ifadəsində azaldığı müşahidə edilmişdir.




***Şəkil 4. Azərbaycana gələn xaricilərin hava nəqliyyatından istifadə göstəricisi, faizlə [16]***

Azərbaycana gələnlərin digər nəqliyyat növlərinə üstünlük verməsinin bir səbəbi kimi də hava nəqliyyatının bahalı olması göstərilir. Xüsusən də Azərbaycanda aşağıbüdcəli aviaşirkətlərin fəaliyyətinin zəif olması məsələsi önə çıxır. Bunun üçün də 2017-ci ildən etibarən Azərbaycanın ilk aşağıbüdcəli aviaşirkəti hesab olunan “Buta Airways” fəaliyyətə başlamışdır. “Buta Airways” - “Azərbaycan Hava Yolları” QSC-nin tərkibinə daxil olan struktur bölmədir və aviaşirkətin hava gəmiləri parkına Embraer tipli müasir təyyarələr daxildir. Buta Airways tərəfindən 2018-ci ildə 463 291 sərnişin, 2019-cu ildə isə 602 min şərnişin daşınmışdır.

“Azərbaycan Hava Yolları” QSC-nin tabeliyində Heydər Əliyev Beynəlxalq Aeroportu, “Gəncə” Beynəlxalq Hava Limanı, “Naxçıvan” Beynəlxalq Hava Limanı, “Lənkəran” Beynəlxalq Hava Limanı, “Zaqatala” Beynəlxalq Hava Limanı, “Qəbələ” Beynəlxalq Hava Limanı fəaliyyət göstərir. Qeyd edək ki, Azərbaycan regionda ən böyük hava limanlarına malik olan ölkədir. Naxçıvan və Gəncə beynəlxalq hava limanları Bakıdan sonra ölkənin ən strateji limanlarıdır. 2019-cu ildən Heydər Əliyev beynəlxalq hava limanı 4,73 milyon sərnişinə xidmət göstərir [10]. Qeyd edək ki, 2014-cü ilə kimi Heydər Əliyev Beynəlxalq Aeroportu 3 milyon sərnişini qəbul etmək imkanına malik idi. Belə ki, 2014-cü ildə 6 milyon sərnişinə xidmət edəcək yeni aerovağzal kompleksinin açılışı olmuşdur və beləliklə Bakının hava limanından 9 milyon sərnişinin istifadə edə bilməsinə şərait yaranmışdır [18]. Bizim araşdırma isə göstərir ki, mövcud infrastruktura əlavələr etməklə (Həmçinin Zabrat hava limanının aşağıbüdcəli aviaşirkətlər tərəfindən istifadəsi üçün şərait yaratmaqla) regional

rəqabətdə əlverişli üstünlük qazanılması və bu rəqəmin ən azı 10 milyona çatdırılması imkanları mövcuddur.

***Cədvəl 1. Hava nəqliyyatında sərnişin axınlarının dinamikası, min nəfər***

| **Aeroportlar** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2015-ci illə müqayisə 2019-cu ildə, %** |
|---|---|---|---|---|---|---|
| Heydər Əliyev Beynəlxalq Aeroportu | 2930 | 3308,8 | 4063,1 | 4426,8 | 4737,5 | +62 |
| Naxçıvan | 529,1 | 564,1 | 610,8 | 636,4 | 646 | +22 |
| Gəncə | 259,7 | 196,2 | 172,1 | 139,4 | 153,7 | -41 |
| Lənkəran | 32,8 | 25 | 19,6 | 15,6 | 17,9 | -45 |
| Qəbələ | 35 | 26,1 | 13,4 | 10,6 | 5,1 | 6,9 dəfə azalıb |
| Zaqatala | 0,015 | - | 0,041 | 0,056 | 0,027 | +80 |
| Cəmi | 3786,6 | 4120,2 | 4879,1 | 5228,9 | 5560,2 | +47 |

*Mənbə: [8; 10]*

Cədvəldən də göründüyü kimi, 2019-cu ildə sərnişin dövriyyəsi 5,56 milyon nəfər təşkil etmişdir. Xüsusən də sərnişin dövriyyəsinin 85,1%-i Heydər Əliyev Beynəlxalq Aeroportunun payına düşmüşdür. Belə ki, 2019-cu ildə paytaxt aeroportu 4,74 milyon sərnişinə xidmət göstərmişdir ki, bu da 2018-ci ilin göstəricisindən 7% çoxdur.

2019-cu ildə Naxçıvan aeropotu 646 min sərnişinə (2018-ci ilin göstərisindən 1,5% çox), Gəncə 154 min sərnişinə (2018-ci ilin göstəricisindən 10% çox) və Lənkəran 18 min sərnişinə (2018-ci ilin göstəricisindən 14,5% çox) xidmət etmişdir [10].

Bir məqamı da qeyd edək ki, 2019-cu il ərzində paytaxt hava limanının baza aviadaşıyıcıları – AZAL və "Buta Airways" müvafiq olaraq 2 milyon və 602 min sərnişin daşımışlar.

Məlumatların təhlilindən aydın olunur ki, 2019-cu ildə beynəlxalq uçuşlarda 4,7 milyon sərnişinə xidmət göstərilmişdir. Sərnişin dövriyyəsi üzrə yerli aviaşirkətdən sonra "Türk Hava Yolları" önə çıxır. 2019-cu ildə bu şirkət 492 min sərnişin daşımışdır. Həmçinin 2019-cu ildə digər xarici şirkətlər də - "FlyDubai" (BƏƏ, 237 min), "Aeroflot" (Rusiya, 193 min), "AirArabia" (BƏƏ, 169 min), "UIA" (Ukrayna, 124 min), "Qatar Airways" (Qətər, 106 min), "Lufthansa" (Almaniya, 66 min) və "SCAT" (Qazaxıstan, 62 min) sərnişin daşımada paya sahib olmuşdurlar.

Araşdırmamız göstərir ki, Azərbaycanda hava yolu ilə sərnişin daşımada daha böyük potensial mövcuddur. Xüsusən də bu sahənin inkişafına mühüm təsir göstərə bilən faktorlar mövcuddur ki, bunlardan da turizmin inkişafı ən güclü inersiya amillərindən biri kimi qiymətləndirilir. Bakı hava limanının müasir, sərnişinlər və yüklər üçün əla rahatlığı olan 5 ulduzlu aeroportunun gücünün yalnız 55%-ə qədərindən istifadə olunur ki, gələcəkdə bu istiqamətdə potensialın artırılması və Bakı aeroportunun mühüm qitələrarası nəqliyyat habına və logistika qovşağına çevrilməsi üçün lazımi infrastruktur mövcuddur. Hazırkı infrastruktur ilə digər hava limanlarında bu göstəricilər bu rəqəmdən daha da yüksəkdir.

Beynəlxalq Hava Limanları Şurasının statistikalarının təhlili onu göstərir ki, dünya ölkələrinin əksəriyyətində özəl tipli hava limanları üstünlük təşkil edir. Eyni

zamanda son dövrlər sinerji effektinin əldə edilməsi məqsədilə bir çox aviaşirkətlərin hava limanı şirkətləri ilə birləşdirilməsi tendensiyası müşahidə olunur. Bu istiqamətdə Azərbaycan Modelinin seçilməsində qarışıq modelə üstünlük verilməsinin və dövlət-biznes tərəfdaşlığı formatında idarəedilməsinin təşkil olunması nəzərdən keçirilə bilər. Belə olduğu təqdirdə xarici investorların da cəlb olunduğu yerli hava limanı daha çox hava daşımaçılığı şirkətlərinin də diqqətini cəlb edəcəkdir.

Əvvəllər "Qəbələ" Beynəlxalq hava limanına "pilot layihə" kimi aşağıbüdcəli xarici aviaşirkətlər tərəfindən uçuşlar icra edilmiş, lakin sonradan həmin uçuşlar dayandırılmışdır: "Flybaghdad", "Pegasus Airlines", "Ural Airlines", "FlyDubai" və "Air Arabia". Təqdim olunan statistikaların təhlili göstərir ki, xarici aviaşirkətlərin mövcudluğu regional limanların fəaliyyətində canlanmaya səbəb ola bilir.

Xarici aviaşirkətlərin regionlarda yerləşən hava limanlarına uçuşlarının təşkili və həmin limanların onların istifadəsinə verilməsi turizmin inkişafına xidmət edərdi.

Azərbaycanın iqtisadi inkişaf göstəriciləri ilə bağlı proqnozları nəzərə alsaq, hava limanları üzrə gələcəkdə sərnişin axınlarının da sabit formada artacağını hesab edə bilərik. Müvafiq hava limanlarının işləməsinə özəl sektor cəlb olunmaqla infrastrukturun idarəedilməsi imkanları hələ də mövcuddur. Belə ki, bölgələrdə yerləşən limanlara aşağı büdcəli hava yolları şirkətlərinin cəlb edilməsi və digər ölkələrdə yerləşən hava limanları ilə sərnişin daşımaçılığı üzrə əlaqə kanallarının qurulması həyata keçirilə bilər. Bu baxımdan ilkin mərhələdə regional hava limanlarını (Qəbələ və ya Lənkəran hava limanı) özəl sektorun istifadəsinə vermək və oradan aşağıbüdcəli hava şirkətlərinin uçuşlarını təmin etmək imkanlarına baxıla bilər. Doğrudur, Gəncə və Naxçıvan hava limanlarından Moskvaya və İstanbula birbaşa uçuşlar həyata keçirilir. Həmçinin AZAL qış cədvəli çərçivəsində Lənkərandan Moskvaya və geri istiqamətə birbaşa aviareyslər həyata keçirir. Cədvəl 1-dəki rəqəmlərin təhlilindən aydın olur ki, regional hava limanlarının potensialının cüzi hissəsindən istifadə olunur. 5 il ərzində təkcə "Qəbələ" Beynəlxalq hava limanından istifadə edənlərin sayının 6,9 dəfə azalması çox şeydən xəbər verir. Hava limanlarının potensialından tam istifadə isə həm də ölkəyə gələn turist sayının artmasına müsbət yöndə təsir göstərəcəkdir.

**Azərbaycanın turizm maraqlarına uyğun olaraq uçuş coğrafiyasının genişləndirilməsi imkanları**

BMAT tərəfindən dərc edilmiş məlumatların təhlili göstərir ki, sərnişin daşımaları sahəsində ixtisaslaşmış milli aviadaşıyıcılar bir çox hallarda dövlətə məxsus olur (məsələn, Emirates, Etihad, FlyDubai, Qatar Airways, Czech Airlines və s.) və ya aviaşirkətin kapitalında (Aeroflot, Turk Hava Yolları, Polish Airlines, Singapore Airlines, Scandinavian Airlinesç Finnair və s. ) dövlət xüsusi paya malik olur [16]. Odur ki, Azərbaycan Hava Yolları aviaşirkəti özünün potensialı ilə regionda xüsusi seçilən şirkətlərdəndir və aşağıbüdcəli "Buta" ilə birlikdə regionun sürətlə inkişaf edən aviaşirkəti hesab olunur. Təkcə 2016-2019-cu illər ərzində "Azərbaycan Hava Yolları" aviaşirkətində sərnişin axını 46%, reyslərin sayı isə 27% artmışdır. 2019-cu ilin yay aylarında bu rəqəm xüsusilə artır ki, 2019-cu ilin müvafiq dövrü ərzində də rekord miqdarda - 50-dən artıq təyinat məntəqəsi, o cümlədən Yaxın Şərq, Fars körfəzi regionu, Çin və Hindistan kimi ölkələrdən Azərbaycana səfər edən turistlər tərəfindən daşımaçılıq xidmətləri üzrə tələbatlar daxil olmuşdur. Bununla birlikdə turizmin gələcək inkişafı ilə bağlı proqnozlar, həmçinin BMT-nin Dünya Turizm Təşkilatının (UNWTO) "Dünya Turizm Barometrinin" yanvar hesabatına əsasən Azərbaycanın

dünyada turizmi ən sürətlə inkişaf edən 20 ölkədən biri kimi qiymətləndirilməsi bu sahədə gələcək inkişaf perspektivlərinin də müsbət olduğunu deməyə əsas verir.

Azərbaycanda uçuş coğrafiyasının genişləndirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi zamanı gələcək turizm axınları və yüksək iqtisadi əlaqələrin olacağı istiqamətlərə üstünlük verilməsi zəruridir. Xüsusən də Azərbaycanın turizm maraqları nəzərə alınaraq xarici hava yolu şirkətlərinin Azərbaycana cəlb edilməsi yönündə işlər də sürətləndirilməlidir. Həmçinin Avropa İttifaqı ilə aviasiya sahəsində əməkdaşlıq genişləndirilməli, "Açıq səma" sazişinin imzalamasına ehtiyac yaranmalıdır.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yeni 3 hava limanın (Füzuli, Zəngilan və Laçın rayonlarında) inşası turizmin inkişafına təkan verəcəkdir. İqtisadiyyatın şaxələndirilməsində turizm sektorunun inkişafı ölkənin iqtisadi siyasətinin prioritet fəaliyyət istiqamətlərindən biridir. Regionda əlverişli coğrafi mövqeyə, qədim tarixə, ənənəvi dəyərlərə, cəlbedici təbiətə malik olmasından istifadə edilməklə hava əlaqəsinin əlçatanlığının artırılması yolu ilə ölkənin regionun turizm qovşağına çevrilməsinə nail oluna bilər.

Bu baxımdan 1 yanvar 2020-ci il tarixindən etibarən, Avropa, Şimali Amerika, Avstraliya və Cənub-Şərqi Asiyanın 40 ölkəsinə uçuşlar həyata keçirən hava yolu şirkətləri üçün Azərbaycanın bütün beynəlxalq hava limanlarında beşinci və yeddinci qrup "hava azadlığı"nın tətbiq edilməsinə başlanması liberallaşdırılma sahəsində atılmış addımdır.

Yuxarıda qeyd olunan hava azadlıqlarının təklif edilməsi Azərbaycanın hava nəqliyyatı infrastrukturundan və məkanından istifadə prosedurlarının sadələşməsinə, eləcə də hava yolu şirkətlərinin xərclərinin azalmasına səbəb olacaqdır ki, bu da öz növbəsində ölkənin nəqliyyat qovşağına çevrilməsi, hava nəqliyyatı sahəsində rəqabətin dərinləşməsi, təklif edilən xidmətlər üzrə qiymətlərin optimallaşdırılması və Azərbaycanın turizm ölkəsi kimi cəlbediciliyinin artırılması üçün yeni imkanlar açacaqdır.

**Nəticə**

Yekun olaraq qeyd edək ki, 2010-2019-cu illərdə Azərbaycanda həm mülki aviasiya, həm də turizm sektoru inkişaf etmişdir. Nəticədə 2010-2019-cu illərdə Azərbaycana gələn turistlərin sayı 2,2 dəfə, hava yolundan istifadə edən beynəlxalq sərnişinlərin sayı isə 2,6 dəfə artmışdır. Bu müddətdə ölkəyə gələn turistlərin sayı ilə hava yolu ilə gələnlərin sayı arasındakı korrelyasiya 0,84 olmuşdur və bu da dəyişənlər arasında əlaqənin güclü olmasını göstərir. Lakin araşdırmamız göstərir ki, ölkənin turizm sahəsindəki hədəflərinin reallaşması üçün hava nəqliyyatı sahəsinin liberallaşdırılması məqsədi ilə tədbirlərin sürətləndirilməsi zəruridir. 2019-cu ildə yerli hava yolu şirkəti olan AZAL 33 istiqamətə uçuş həyata keçirmişdir və 2021-ci ildə 12 yeni marşrutun əlavə olunması planlaşdırılırdı. Hazırda COVİD-19 pandemiyası bu planı təxirə salsa da postpandemiya dövrü üçün hazırlıqların aparılması və yeni marşrutların açılması vacibdir.

Regionlarda beynəlxalq hava limanlarının aşağıbüdcəli hava yolları şirkətlərinin açılması ilə yerli hava limanlarının istifadə səviyyəsinin, gəlirlərin artırılması, ölkənin turizm və nəqliyyat-logistika qovşağı infrastrukturunun inkişafının dəstəklənməsi aktuallıq daşıyır. Bu məsələdə starteji yol xəritəsində [1] əksini tapan tədbirlərin (tədbir 2.5.2 və s.) tam icrası vacibdir. Təəssüf ki, bu tədbirin icrası 2020-ci ildə yekunlaşmalı

olduğu halda, koronavirus pandemiyasının da təsiri ilə bu sahədə ciddi gecikmələr müşahidə olunur.

Həmçinin 2030-cu ildə Heydər Əliyev Beynəlxalq Hava Limanında sərnişin axınlarının həcminin 10 milyona çatdırılması hədəflənir. Bununla yanaşı, 2030-cu ildə ən azı 30 istiqamət üzrə yeni hava reyslərinin açılması, 2030-cu ildə “Azərbaycan Hava Yolları” aviadaşıyıcısı ilə 4620000 beynəlxalq və yerli hava xətləri ilə sərnişinlərin daşınmasının həyata keçirilməsi proqnozlaşdırılır.

Yerli hava limanlarının turistlər üçün cəlbediciliyini artırmaq üçün sərhəd-keçid və baqaj xidmətlərinin sürəti və keyfiyyəti artırılacaqdır. Turist axınlarını təmin etmək üçün yerli hava limanlarında yerli turizm xidməti potensialı yaradılacaqdır. Marşrut imkanlarının müəyyən edilməsi, münasib hava yolları variantlarının seçilməsi və hava xidmətinin inkişaf prioritetləri müəyyən edilib yerinə yetiriləcəkdir.

## Ə D Ə B İ Y Y A T


1. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”. Bakı: 2016 -/- http://e-qanun.az/framework/34254
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Nəqliyyat, informasiya və rabitə üzrə əsas statistik göstəricilər. Bakı: 2021. 23 s.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda nəqliyyat. Bakı: 2020. 86 s.
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm. Statistik məcmuə 2020. Bakı: 2020. 96 s.
5. Duval, 2013; Bieger və Wittmer, 2006; Graham, Papatheodorou və Forsyth, 2008
6. Hanlon, P. (2007). Global airlines: competition in a transnational industry, (3. Baskı) London: Routledge p. 35-37
7. Stoenescu Cristina. New Perspectives of the Tourism and Air Travel Relationship. Cactus Tourism Journal Vol. 15, Issue 2, 2017, Pages 24-32, ISSN 2247-3297
8. 2019 Air Traffic Report. Azeraeronavigation. 2020, 50 p.
9. “Azərbaycan Hava Yolları” QSC /- https://www.azal.az/az/about/history (30.04.2021)
10. Heydər Əliyev Beynəlxalq Aeroportu / https://www.airport.az/az/ (02.05.2021)
11. Report of The Asia/Pacific Area Traffic Forecasting Group (Apa Tfg) Sixteenth Meeting Montreal, 19 – 21 September 2012 https://www.icao.int/sustainability/Documents/APA-TFG16_Report.pdf (05.05.2021)
12. List of Government-owned and Privatized Airlines. https://www.icao.int/sustainability/SiteAssets/Pages/Eap_ER_Databases/FINAL_Airlines%20Privatization.pdf (15.04.2021)
13. www.uab.gov.tr (20.04.2021)
14. https://www.anna.aero/2018/07/18/lcc-capacity-in-europe-set-for-half-a-billion-seats-in-2018/ (26.04.2021)
15. https://www.iata.org/en/pressroom/pr/2018-10-24-02/ (28.04.2021)
16. https://www.stat.gov.az/source/transport/ (06.05.2021)
17. https://tourism.gov.az/page/statistics (08.05.2021)
18. https://president.az/articles/11516 (12.05.2021)

# *УВЕЛИЧЕНИЕ РОЛИ ГРАЖДАНСКОЙ АВИАЦИИ В РЕАЛИЗАЦИИ ТУРИСТИЧЕСКОГО ПОТЕНЦИАЛА АЗЕРБАЙДЖАНА*

*Арзу ГУСЕЙН*

**Резюме**

*Развитие гражданской авиации, либерализация рынка воздушного путешествия напрямую повлияло на развитие туризма в глобальном масштабе. Особенно с начала XXI века либерализация воздушного рынка, развитие низкобюджетных авиакомпании на рынке, разработка цифровых и мобильных технологий, упрощающих заказы на авиабилеты, вызвало увеличение количества международных туристов. В результате число международных туристов увеличилось на 58 процентов в 2018 году по сравнению с 2008 годом. Проведенный анализ показывает, что развитие гражданской авиации и местной авиакомпании в Азербайджанской Республике оказывает положительное влияние на развитие туристического сектора. Так, в 2010-2019 годы количество туристов, посещающих Азербайджан, увеличилось в 2,2 раза, а количество международных пассажиров, использующих авиакомпанию, увеличилось в 2,6 раза. В этот период коэффициент корреляции между количеством туристов, посетивших страну и количеством туристов, посетивших воздушным путем составлял 0,84. В данной статье автор оценивает влияние совершенствования гражданской авиации на развитие туристического сектора в Азербайджане и выдвигает рекомендации по развитию этой сферы.*

*Практическая значимость исследования - на основе полученных аналитических результатов исследована роль гражданской авиации в развитии туризма, оценено влияние развития гражданской авиации на развитие туристического сектора и выдвинуты предложения по развитию этих областей.*

*Результат исследования - необходимо ускорить меры по либерализации воздушного транспорта для реализации целей в туристической сфере страны. Почеркнута важность наряду с международными аэропортами открытия низкобюджетных компаний воздушных путей, увеличения уровня использования местных аэропортов, увеличения их доходности, поддержки развития туризма страны и транспортно-логистической инфраструктуры.*

*Оригинальность и научная новизна исследования. Были исследованы показатель использования воздушным транспортом туристами, посещающими Азербайджан, объем пассажирских перевозок через воздушный транспорт в стране, возможности расширения географии полета в соответствии с интересами туризма и т. д. Полученные результаты и предложения целесообразно использовать для развития сферы туризма.*

***Ключевые слова:*** *Гражданская Авиация, туризм, авиакомпания, пассажирские потоки, аэропорт.*

# *INCREASING THE ROLE OF CIVIL AVIATION IN THE REALIZATION OF TOURISM POTENTIAL OF AZERBAIJAN*

*Arzu HUSEYN*

**Abstract**

*The development of civil aviation and the liberalization of the air travel market have had a direct impact on the development of tourism on a global scale. Especially since the beginning of the 21st century, the liberalization of the air travel market, the presence of low-cost airlines in the market, the development of digital and mobile technologies that facilitate air ticket bookings have led to an increase in the number of international tourists. As a result, the number of international tourists in 2018 increased by 58 percent compared to 2008. Our analysis shows that the development of civil aviation and local airlines in the Republic of Azerbaijan has a positive impact on the development of the tourism sector. Thus, in 2010-2019, the number of tourists visiting Azerbaijan increased 2.2 times, and the number of international passengers using the airline increased 2.6 times. During this period, the correlation between the number of tourists arriving in the country and the number of those arriving by air was 0.84. In this article, the author assesses the impact of the development of civil aviation in Azerbaijan on the tourism sector and makes proposals for the development of this area.*

*Significance of the research - based on the obtained analytical results, the role of civil aviation in the development of tourism was studied, the impact of the development of civil aviation on the tourism sector was assessed and proposals for the development of these areas were made.*

*The result of the study- is that in order to achieve the country's goals in the field of tourism, it is necessary to accelerate measures to liberalize the air transport sector. The importance of supporting the development of the country's tourism and transport and logistics hub infrastructure by increasing the level of use of local airports, revenues by opening low-cost airlines of international airports in the regions was noted.*

*Originality and scientific novelty of the research - the indicator of the use of air transport by foreigners coming to Azerbaijan, the volume of air passenger traffic in the country, the possibility of expanding the flight geography in accordance with the interests of tourism, etc. issues were investigated. It is expedient to use the obtained results and proposals for the development of tourism.*

***Key words:*** *Civil Aviation, tourism, airline, passenger flows, airport*

*UOT 330.341.1.01*

# *SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA FƏALİYYƏTİNİN AKTİVLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ*

*Təranə Mütəllim qızı ƏHMƏDOVA,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Sumqayıt Dövlət Universiteti, Biznesin təşkili və menecment kafedrası,*
*tarana.7474@mail.ru*

**Xülasə**

*Məqalədə müasir iqtisadi sistemin əsas tərkib hissələrindən biri olan sənaye müəssisəsi innovativ iqtisadiyyatın inkişafı kontekstində öz funksiyalarını yerinə yetirən ayrı bir iqtisadi fəaliyyət subyekti kimi nəzərdən keçirilmişdir. İnnovasiyaların sənaye müəssisələrinin inkişafında rolu tədqiq edilmişdir. Müəssisənin innovativ potensialının məqsədləri və bu məqsədlərə uyğun qarşıya qoyulan əsas vəzifələr müəyyən edilmişdir. Sənaye müəssisələrinin innovativ inkişafına təsir göstərən müsbət və mənfi amillər araşdırılmışdır. İnnovativ iqtisadiyyatda idarəetmə subyektləri kimi sənaye müəssisələrinin innovasiya fəaliyyətinin keyfiyyət xüsusiyyətləri nəzərdən keçirilmişdir. Sənaye müəssisələrinin innovativ fəaliyyətinin stimullaşdırılması vasitələri araşdırılmışdır. Həmçinin, sənayedə innovasiya fəaliyyətinin aktivləşdirilməsi istiqamətləri üzrə tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *sənaye müəssisəsi, innovasiya, investisiya, iqtisadiyyat, istehsal, səmərə, idarəetmə, keyfiyyət*

## Giriş

Müasir dövrdə milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik probleminin həllinə sənaye müəssisələrinin innovasiya fəaliyyətinin aktivləşdirilməsi prosesinin yüksək səviyyədə təşkili olmadan nail olmaq mümkün deyil. Bu problemin mürəkkəbliyi və çoxölçülü olması, eyni zamanda innovasiyaların müəssisələrin səmərəliliyinin artırılması üçün yüksək əhəmiyyəti məqalənin mövzusunun nəzəri-təcrübi aktuallığını göstərir.

Məlumdur ki, qloballaşma prosesləri ölkənin sənaye müəssisələrinin inkişafına birmənalı təsir göstərmir. Yalnız resursların sürətli cəlb edilməsi, beynəlxalq bazarların genişlənməsi nəticəsində rəqabəti artırmır, həm də bilik və innovasiyaların ötürülməsini sürətləndirmək üçün imkanlar yaradır. Sənaye müəssisələrində innovasiyaların tətbiqi, innovativ fəaliyyətin inkişaf etdirilməsi problemləri elmi tədqiqatların əsas istiqamətlərindəndir. Sənaye müəssisələrində istehsal prosesinin səmərəliliyinin artırılması əsasən innovasiyaların inkişafı yolu ilə əldə edilir. Texniki və təşkilati həllərin inkişafı, idarəetmənin əsas prinsiplərinin təkmilləşdirilməsi müəssisələrdə təkrar istehsal proseslərinin yenilənməsinə şərait yaradır və sonrakı iqtisadi artım üçün əlavə təkan verir. İnnovasiyalar yalnız texniki və ya texnoloji inkişafları deyil, həm də tədqiqat və istehsalın bütün sahələrində müsbət dəyişiklikləri əhatə edir. Sənayedə avadanlıq və texnologiyaların sistematik şəkildə yenilənməsi innovasiya prosesini rəqabətə davamlı məhsul istehsalının, müəssisələrin bazarda mövqeyini qorumağın və məhsuldarlığın artırılmasının, eyni zamanda müəssisənin səmərəliliyinin əsas şərtinə çevirir. Ona görə də sənaye müəssisələrində innovasiyaları tətbiq etmək üçün yeni texnologiyanın sosial-iqtisadi səmərəliliyinin

müəyyənləşdirilməsi, elmi-texniki tərəqqini və səmərəliliyin idarə edilməsi metodikasını inkişaf etdirmək lazımdır.

**Sənaye müəssisələrində innovasiyaların tətbiqinin zəruriliyi**

İnnovativ iqtisadiyyatda sənaye müəssisəsi bir sıra xas keyfiyyət keyfiyyətlərinə malik, müxtəlif təşkilati və iqtisadi proseslərdə həyata keçirilə bilən, innovativ fəaliyyətlə məşğul olan iqtisadi subyekt kimi qəbul edilməlidir. Müasir iqtisadi sistemin əsas tərkib hissələrindən biri olan sənaye müəssisəsi innovativ iqtisadiyyatın inkişafı kontekstində öz funksiyalarını yerinə yetirən ayrı bir iqtisadi fəaliyyət subyektidir. Buna görə, postsənayeləşmə və bilik iqtisadiyyatının formalaşması prosesləri sənaye müəssisələrinə və fəaliyyətlərinə birbaşa təsir göstərir, onlarda baş verən iş proseslərini, funksiyalarını dəyişdirir.

Sənaye mühitində innovasiyaların tətbiqinə başlamaq üçün aşağıdakı amillər nəzərə alınmalıdır:

- innovasiyanın davamlı bir proses kimi nəzərə alınması;
- prosesin idarəolunanlığına diqqət yetirmək, yəni ona təsir etmək qabiliyyəti;
- sənaye müəssisəsi səviyyəsində müəyyən amillər və innovasiya şərtləri arasında ümumi asılılıqların olması.

Müəssisənin innovativ fəaliyyətinin idarə olunması və bu potensialın qiymətləndirilməsi üçün ən təsirli vasitə dəstini seçmək lazımdır. Bu, müəssisənin rəqabət qabiliyyətini artıracaq, yenilik üçün daxili imkanları tez bir zamanda müəyyənləşdirəcək, kommersiya fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə təşkilatın inkişafının gizli ehtiyatlarını aşkar edəcəkdir [2, s.103].

Sənaye müəssisəsində innovativ fəaliyyətin səmərəli idarə olunması metodologiyası innovasiya təşkilatının səmərəliliyinin qiymətləndirmə sistemini özündə cəmləşdirməlidir. Müasir şəraitdə sənaye müəssisələrinin innovasiya yönümlülüyünün təmin edilməsi istehsal olunan məhsulların istehlakını artıracaq və bütövlükdə bazarların fəaliyyətinin tarazlığına və səmərəliliyinə kömək edəcəkdir. Bu yanaşma ilə innovasiya davamlı iqtisadi inkişafın açarı hesab edilə bilər.

Sənaye müəssisələrinin innovasiya aktivliyinin qiymətləndirilməsi üçün, ilk növbədə, aşağıdakılara diqqət yetirmək tələb olunur:

- müəssisənin innovativ vəziyyətinin səviyyəsini mikrosəviyyədə ətraflı qiymətləndirmək;
- müəssisənin innovativ vəziyyətinin əsas xüsusiyyətlərində dəyişiklik dərəcəsini müəyyənləşdirmək;
- hazırlanmış sistemə uyğun olaraq müəssisənin sahədaxili vəziyyətini müəyyənləşdirmək;
- ən az inkişaf etmiş struktur vahidlərini müəyyənləşdirmək;
- müəssisənin innovativ aktivlik səviyyəsini yaxşılaşdırmaq üçün hazırlanmış təcrübi tövsiyələri və tədbirləri tətbiq etmək;
- dövlət və özəl tərəfdaşlığa əsaslanan mümkün maliyyə mənbələrindən istifadə etmək.

Sənaye müəssisələrində innovasiyaların səmərəli tətbiqinin mümkünlüyü onların innovativ potensialının göstəriciləri ilə müəyyən edilir. İnnovativ potensialın olması müəssisənin səmərəli inkişafının mümkün olduğu şərtdir. Müəssisənin innovativ potensialı müxtəlif bazar strukturlarının vəziyyətindən asılı olaraq iqtisadi proseslərin dinamikasında nəzərə alınır.

Müəssisənin innovativ potensialının məqsədləri bunlardır:

➢ müəssisənin innovativ inkişafı strategiyasının formalaşdırılması üçün tövsiyələrin hazırlanması;

➢ müəssisələrdə innovasiya proseslərinin təşkilində zəif tərəflərin müəyyənləşdirilməsi və onların aradan qaldırılması üçün tövsiyələrin hazırlanması;

➢ müəssisənin investisiya strukturları və ya səlahiyyətli qurumları tərəfindən böyük investisiya layihələri və proqramlarının dəstəklənməsi barədə qərar qəbul etmək üçün məlumatların hazırlanması.

Müəssisənin innovativ potensialının vəzifələrinə isə aşağıdakılar daxildir:

✓ müəssisənin innovasiyaya həssaslıq səviyyəsinin müəyyənləşdirilməsi;

✓ müəssisənin innovativ fəaliyyət səviyyəsinin müəyyənləşdirilməsi;

✓ müəssisənin rəqabət qabiliyyətinin qiymətləndirilməsi [4, s.40].

**Sənaye müəssisələrinin innovativ inkişafına təsir göstərən amillər**

İnnnovasiya proseslərinin genişləndiyi bir şəraitdə iqtisadiyyatın informasiyalaşdırılması və klasterləşmə prosesləri getdikcə daha çox əhəmiyyət kəsb edir. İnformasiyalaşdırma sənaye müəssisələrinin fəaliyyətində informasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsinə, innovativ şəbəkələrin formalaşmasına və yayılmasına kömək edir. Şəbəkə strukturları vasitəsilə informasiya texnologiyalarının inkişafına və onların cəmiyyətə təsirinə əsaslanan iqtisadiyyatın formalaşması kiçik, orta və iri sənaye müəssisələrinin səylərini birləşdirmələrini təmin edir.

İnnovativ iqtisadiyyatın informasiyalaşdırılması və klasterləşdirilməsi şəraitində ciddi dəyişikliklərə məruz qalan iqtisadi münasibətlərin subyektinə çevrilən sənaye müəssisələri innovasiyaların səmərəliliyini, rəqabətqabiliyyətliliyini, həm daxili, həm də xarici bazarlarda əlverişli mövqe tutmağı təmin edən idarəetmə mexanizmi formalaşdırmalıdırlar. Xarici mühitin dinamikliyi və qeyri-müəyyənliyinin artması sənaye müəssisələrinin inkişafı üçün idarəetmə sisteminə tələblərin səviyyəsini əhəmiyyətli dərəcədə artırır. Uzunmüddətli dövrdə iqtisadi sistemin sabitliyi və bütövlüyü idarəetmənin kifayət qədər çevikliyi ilə qorunur [5, s.30].

Sənaye müəssisələrinin idarəetmə sistemində islahatların aparılmasında məqsəd təkcə mənfəətin artırılması deyil, həm də innovasiyaya olan ehtiyacları ödəməyə əsaslanan, uzunmüddətli innovativ inkişaf hədəflərinə ən yaxşı cavab verən təşkilati modellərin tətbiqidir.

Sənaye müəssisəsinin innovativ aktivlik səviyyəsinin ətraflı qiymətləndirilməsinə, habelə bu səviyyəyə təsir göstərən xarici amillər nəzərə alınaraq, innovasiyalı inkişaf üçün strateji proqram formalaşdırmaq mümkündür.

Bəzi hallarda milli iqtisadiyyatda baş verən institusional dəyişikliklər sənaye müəssisələrinin idarə olunmasında bir sıra yeni vəzifələrin meydana çıxmasına səbəb olur. Bu cür prioritet vəzifələr arasında müəssisənin innovativ vəziyyəti səviyyəsinin yüksəldilməsini qeyd edə bilərik. İnnovasiyanın vəziyyəti təhlil edilərkən müəssisənin elmi, texniki və eksperimental layihələndirmə sahəsindəki infrastrukturunun inkişafını qiymətləndirmək, habelə innovasiyaları kommersiyalaşdırmaq qabiliyyətini müəyyənləşdirmək lazımdır. Müəssisənin gələcək məqsədyönlü inkişafı məqsədi ilə innovativ vəziyyətinin fəallaşdırılması yolunda ortaya çıxan ən vacib problemlərdən biri məhdud və ya lazımi maliyyə mənbəyinin olmamasıdır. Təcrübə göstərir ki, uzunmüddətli kreditləşmə ilə əlaqəli ənənəvi yollardan istifadə çox vaxt qənaətbəxş deyil. Bu, yüksək faiz dərəcələri, borcalan üçün həddindən artıq tələblər, girov üçün likvid əmlakın çatışmazlığı və s. əlaqədardır.

İnnovativ iqtisadiyyatda idarəetmə obyekti və subyekti olan sənaye müəssisələri xarici və daxili mühitin müxtəlif mənfi amillərinin təsirinə məruz qalır ki, bu da innovasiyaya əsaslanan dinamik və davamlı iqtisadi artımı təmin etmək imkanlarını məhdudlaşdırır (şəkil 1).




*Mənbə: müəllif tərəfindən hazırlanmışdır*

***Şəkil 1. Sənaye müəssisələrinin innovativ inkişafına mənfi təsir göstərən xarici və daxili mühit amilləri***

Müəssisələrdə innovasiya proseslərinin aktivləşdirilməsi çox vaxt məhdud resurslara görə əsas problemlərdəndir. Bu, elmi, texniki, iqtisadi və sosial xarakterli kompleks məsələlərin həllinə çətinlik yaradır. Sənaye müəssisəsinin innovativ inkişafı üçün yaxşı formalaşmış strategiya ilə dövlət dəstəyi şəklində maliyyə çatışmazlığı problemini aradan qaldırmaq olar. Bunun üçün həm də regional təşkilatlar səviyyəsində inkişaf etdirilən layihənin icrası zamanı subsidiyaların verilməsi, kredit faizlərinin, əlaqəli xidmətlərin maya dəyərinin azaldılması üçün müxtəlif metodlar hazırlanmalıdır. Dövlət orqanlarının həm regional səviyyədə, həm də müəssisələrin səviyyəsində innovativ inkişafın strateji problemlərinin həllində iştirakı uğur qazanmağın vacib və bəzən də həlledici şərtidir. Hal-hazırda dövlət-özəl tərəfdaşlıq geniş yayılmaqdadır ki, bu da bir tərəfdən bütövlükdə milli innovasiya sisteminin səmərəli fəaliyyətini təmin etmək üçün ən vacib vasitədir [3, s.111]. Digər tərəfdən, konkret sənaye müəssisələri çərçivəsində innovativ fəaliyyətlərin həyata keçirilməsi və onların innovativ sahibkarlıq səviyyələrində əhəmiyyətli dərəcədə artım üçün həyati şərtdir. Dövlət-özəl tərəfdaşlığı sayəsində dövlətin və müəssisələrin müxtəlif fəaliyyət sahələrində birgə iştirakı və elmi inkişafların qarşılıqlı maliyyələşdirilməsi təmin edilir. Fikrimizcə, sənaye müəssisələrinin uzunmüddətli perspektiv inkişafı baxımından belə bir mexanizm daha məqbuldur.

Ümumiyyətlə, innovativ inkişafın əsas vəzifələrini və istiqamətlərini müəyyənləşdirmək üçün müəssisənin maliyyə vəziyyətini və artım sürətini dəqiq bilmək vacibdir. Bütün vəzifələri müəyyənləşdirdikdən sonra innovativ inkişafın həyata keçirilməsi üçün maliyyə mənbələri axtarılmalıdır.

Yerli və xarici ədəbi mənbələrin təhlilinə əsaslanaraq deyə bilərik ki, müasir innovativ inkişafın əsas problemlərinin həllində biznesin, elmin və dövlətin səmərəli qarşılıqlı fəaliyyətinə hər cür töhfə verən texnoloji platformadır. Texnoloji platforma müəssisənin, bölgənin və sənayenin innovativ vəziyyətinin aktivləşməsinin ən vacib mənbəyidir. Qeyd etmək lazımdır ki, texnoloji platforma həmişə kifayət qədər maliyyələşdirmə mənbəyinə malik deyil. Hətta informasiya imkanları da müəssisənin innovativ aktivlik səviyyəsini artırmaq üçün cəlbedici şərait yaradır [7, s.76].

Mənfi amillərin təsirini azaltmaq üçün innovasiyanın intensivliyinə təsir edən müsbət amillərin müəyyənləşdirilməsi zəruridir. İnnovasiyanın intensivliyinə təsir edən amillərin vaxtında müəyyənləşdirilməsi daim dəyişən iqtisadi və siyasi mühitdə müəssisənin uğurlu fəaliyyətinin açarıdır. Amillərin sayı bir-biri ilə əlaqələrinin dərəcəsi və innovasiya proseslərinin intensivliyinə təsir göstərdikləri qüvvə, hər bir konkret müəssisə üçün unikal olan istehsal sisteminin xüsusiyyətləri, onun sənaye mənsubiyyəti və yerləşdiyi həyat dövrünün mərhələsi ilə müəyyən edilir. Xüsusi amillərin nəzərə alınması, onların mənfi təsirlərini azaltmağa və müsbətləri gücləndirməyə kömək etməklə yanaşı, riskləri azaldaraq, əlavə rəqabət üstünlükləri yaradaraq müəssisənin innovativ imkanlarını genişləndirir. Bu amillər mikro və makrosəviyyəli amillərdir.

Mikroiqtisadi amillərə aşağıdakılar daxildir:

- müəssisənin iqtisadi fəaliyyət növü və onun sənaye mənsubiyyəti;
- müəssisənin ölçüsü;
- innovativ fəaliyyətlərin maliyyələşdirilməsi üçün investisiya mənbələrinin mövcudluğu və yetərliliyi;
- resurs intensivliyi, əsas fondlardan istifadənin vəziyyəti və səmərəliliyi, həmçinin məhsulların keyfiyyəti daxil olmaqla istehsalın texnoloji səviyyəsi;
- işçilərin stabilliyi və peşəkarlığı və s.

Makroiqtisadi amillər bunlardır:

- dövlətin sosial-iqtisadi, vergi və amortizasiya siyasəti;
- regionda investisiya mühiti və sabitlik;
- inzibati, hüquqi və iqtisadi maneələrin olmaması;
- investisiya kreditləşməsinin dəyəri və mövcudluğu;
- avadanlıqların çatdırılma şərtləri;
- keyfiyyətli xammal və materialların bazarda mövcudluğu və onlar üçün qiymətlərin səviyyəsi;
- əhalinin alıcılıq qabiliyyəti;
- torpaq ehtiyatlarının mövcudluğu;
- xarici iqtisadi və geosiyasi vəziyyət;
- rəqabət mühiti və s.

Ümumiyyətlə, sənaye müəssisələrinin innovasiya aktivliyinin artırılması onların rəqabətqabiliyyətliliyinin artırılmasına təsir göstərir. Müəssisədə istehsalın səmərəliliyinin, məhsul və xidmətlərinin rəqabət qabiliyyətinin artırılması, ilk növbədə, elmi-texniki tərəqqinin nailiyyətlərinin həyata keçirilməsinə, istehsalın effektiv formalarına, sahibkarlığın gücləndirilməsinə və istifadə olunmamış ehtiyatların səfərbər edilməsinə əsaslanır.

Deməli, sənaye müəssisələrinin innovativ fəaliyyətini aktivləşdirmək üçün aşağıdakılar lazımdır:

- innovativ fəaliyyətin ən əhəmiyyətli amillərini və göstəricilərini daim müəyyənləşdirmək;

- bu amillərlə müəssisələrin innovativ fəaliyyət dərəcəsi arasındakı əlaqələrin forma və asılılıqlarını müəyyənləşdirmək;
- müəyyən edilmiş əlaqələr və asılılıqlara əsaslanaraq, bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün tövsiyələr hazırlamaq.

İndiki məqamda innovasiya fəaliyyətinin aktivləşmə vəziyyətinin obyektiv qiymətləndirilməsi bu sahədəki çatışmazlıqları üzə çıxaracaq və onların aradan qaldırılmasına kömək edəcəkdir.

Düzgün kadr siyasəti, səriştəli təşkilat və onun tətbiqi üzrə təcrübəvi iş sənaye müəssisələrinin uğurlu fəaliyyətinin vacib amillərindən biridir. İnnovativ fəaliyyətdəki artım yenilikləri inkişaf etdirə və tətbiq edə biləcək müasir mütəxəssislərin hazırlanması ilə ayrılmaz şəkildə bağlıdır. İnsan resurslarının bərpası və gücləndirilməsi, mövcud əmək ehtiyatlarından səmərəli istifadə, uzun iş təcrübəsi olan işçilərin yenidən hazırlanması və bazar iqtisadiyyatı qanunlarını yaxşı bilən, yeni nəsil kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi lazımdır. Müəssisələrdə kadrların elmi-texniki səviyyəsinin və potensialının qiymətləndirilməsi aparılmalı və onların köməyi ilə innovasiyalara həssaslıq əlamətləri aşkar olunmalıdır.

Bu istiqamətdə müəssisənin innovasiya fəaliyyətinin artırılmasına yönəlmiş tövsiyələrə aşağıdakılar daxildir: həvəsləndirici əmək haqqı sisteminin yaradılması; əmək prosesində öyrənməyə əsaslanaraq işçinin peşə bacarıqlarının inkişafı; xidmətdə yüksəliş; kadrların rotasiyası və s [6, s.44].

**Sənaye müəssisələrinin innovativ fəaliyyətinin stimullaşdırılması istiqamətləri**

İnkişafın innovativ yolu iqtisadi subyektlər səviyyəsində sənaye fəaliyyətinin intensivləşdirilməsini tələb edir. Bu, müvafiq elmi-texniki inkişafların, investisiyaların yaradılmasıdır. İnvestisiyaların yaradılması vergi stimullaşdırılması alətlərinin tətbiqindən xeyli dərəcədə asılıdır. İqtisadi subyektlər səviyyəsində sənaye fəaliyyətinin intensivləşdirilməsində vergi stimullarının rolu çox böyükdür. Vergi stimulları innovasiya və elmi-tədqiqat sahəsində kapitalın sürətli yığımına əlavə şərait yaratmaqla ictimai təkrar istehsalın strukturuna təsir göstərilir [1, s.58].

İnnovativ iqtisadiyyatda idarəetmə obyekti olan sənaye müəssisəsi eyni zamanda makro və mezo səviyyəli iqtisadi təşkilatdır. Buna görə dövlət və regional innovasiya strategiyalarının həyata keçirilməsi çərçivəsində sənaye müəssisələrinə göstərilən idarəetmə təsirləri onların daxili təlimatları və planları ilə aydın şəkildə əlaqələndirilməlidir. Bunun üçün milli və regional siyasətlərin prioritetləri nəzərə alınmaqla sənaye müəssisələrinin innovativ inkişaf konsepsiyasının hazırlanmasını məqsədəuyğun hesab edrik. Belə bir konsepsiya sənaye müəssisələrinin innovativ fəaliyyətini stimullaşdırmaq üçün bir sıra tədbirlər müəyyənləşdirməyə imkan verər.

İnnovativ iqtisadiyyatda idarəetmə subyektləri kimi sənaye müəssisələrinin innovasiya fəaliyyətinin keyfiyyət xüsusiyyətlərini nəzərdən keçirək:

• texnoloji yeniliklər sənaye müəssisələrinin innovativ inkişafı prosesində həlledicidir. Bir müəssisə əvvəlcə innovasiya fəaliyyətilə məşğul olmağa başlayırsa, bu cür fəaliyyət müasir, yeni mütərəqqi texnologiyalara əsaslanmalıdır;

• innovativ fəaliyyət göstərən sənaye müəssisələri üçün strateji alternativlər dəsti yalnız institusional mühitin yaratdığı şərtlərdən deyil, eyni zamanda onun nəticələri ilə bağlı innovasiyaların qeyri-müəyyənliyindən də asılıdır;

• sənaye müəssisələrinin innovasiya fəaliyyəti məqsəd deyil, genişmiqyaslı strateji inkişaf hədəflərinə çatmaq üçün bir vasitə kimi çıxış edir.

Sənaye müəssisələrində innovasiyaların stimullaşdırılması formaları və metodları təkmilləşdirilmədən innovativ aktivlik proseslərinin daha da inkişafı mümkün deyil.

Azərbaycanda innovasiyanı xarakterizə edən bir sıra göstəricilərin bir sıra digər ölkələrə nisbətən aşağı olmasına baxmayaraq, milli iqtisadiyyatın inkişafının müasir şəraitində innovasiyanın stimullaşdırılması istiqamətlərinin inkişaf etdirilməsi üçün kifayət qədər potensiallar mövcuddur ki, bu potensiallar səmərəli şəkildə tətbiq edilməlidir.

Sənaye müəssisələrinin innovativ fəaliyyətini stimullaşdırmaq üçün vasitələr genişləndirilmiş tərkibdə aşağıdakı şəkil vasitəsilə təqdim edilə bilər.




*Mənbə: müəllif tərəfindən hazırlanmışdır*

***Şəkil 2. Sənaye müəssisələrinin innovativ fəaliyyətinin stimullaşdırılması vasitələri***

Ölkənin sənaye müəssisələrinin innovativ fəaliyyətinin stimullaşdırılması aşağıdakı əsas sahələrdə hərtərəfli və sistemli şəkildə həyata keçirilməlidir:

1) milli sənayenin inkişafı üçün investisiyalara əsaslanan texnoloji genişləndirmə siyasətinin hazırlanması və həyata keçirilməsi;

2) sənaye müəssisələrinin innovativ fəaliyyəti üçün vergi güzəştləri mexanizminin formalaşdırılması və tətbiqi;

3) sənaye müəssisələrinin innovasiya layihələrinin maliyyələşdirilməsinin təmin edilməsi forması kimi güzəştli kreditlər və dövlət zəmanətlərinin verilməsi;

4) innovativ sahibkarlığı dəstəkləmək və inkişaf etdirmək üçün xüsusi infrastrukturun yaradılması;

5) daxili və xarici bazara çıxarkən innovativ müəssisələrin maraqlarının və əqli mülkiyyət hüquqlarının qorunması;

6) sənaye müəssisələrinin innovativ tədqiqatları və inkişafı üçün dövlət sifarişləri sisteminin formalaşdırılması.

Bütün bunlar sənaye müəssisələrində innovasiya fəaliyyətinin aktivləşdirilməsinə gətirib çıxaracaqdır.

**Nəticə**

Nəticə olaraq deyə bilərik ki, sənaye müəssisələrinin innovativ inkişaf yoluna keçməsi, böyük ölçüdə mövcud resursları səfərbər etmək və səmərəli istifadə etmək qabiliyyətindən asılıdır. İqtisadi inkişafın hazırkı mərhələsində innovasiyaların rolu əhəmiyyətli dərəcədə artmışdır ki, bu da sənaye müəssisələrinin innovativ fəaliyyətinin intensivləşməsini əvvəlcədən müəyyənləşdirir. Son nəticədə istehsalın səmərəliliyinin artırılması və məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi əsasında rəqabətqabiliyyətliliyinin güclənməsi təmin edilir. Beləliklə, sənaye müəssisələrində innovasiyaların səmərəli tətbiqi onların iqtisadi fəaliyyətinin cari və gələcək nəticələrinə birbaşa təsir göstərir.

Qeyd edilənləri yekunlaşdıraraq sənaye müəssisələrinin innovasiya fəaliyyətinin aktivləşdirilməsi istiqamətlərini ümumiləşdirərək aşağıdakıları təklif edə bilərik:

• rəqabətin, inkişafın əsasında innovasiyaların hüquqi və iqtisadi tənzimlənməsini təmin edən institusional mühit yaratmaqla müəssisələri innovativ fəaliyyətə cəlb etmək;

• innovativ müəssisələr üçün ətraf mühit və enerji təhlükəsizliyi üçün standartlarının işlənib- hazırlanmasına, dövlətin maliyyə dəstəyi ilə yaradılmış intellektual fəaliyyətin nəticələrinə dair hüquqların dövriyyəyə cəlb edilməsi, habelə elmi-texniki məhsullar bazarının yaradılması prosesinin stimullaşdırılması əsasında texniki tənzimləmə sisteminin inkişafı;

• tədqiqat və inkişaf etdirmə, habelə avadanlıq və texnologiyaların aktiv şəkildə yenilənməsi ilə məşğul olan müəssisələr üçün vergi güzəştləri sahəsində bir sıra tədbirlərin hazırlanması;

• elmi, təhsil və tədqiqat fəaliyyətin maliyyələşdirilməsi, eləcə də prioritet innovasiya sahələrində müəssisələrə qrant və subsidiyaların verilməsi yolu ilə yüksək ixtisaslı mütəxəssis axınının stimullaşdırılması;

• özəl biznes və vençur kapitalının elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə cəlb edilməsi üçün əlverişli investisiya mühitinin yaradılması, eyni zamanda güzəştli kreditləşmənin inkişafına əsaslanan innovasiya layihələrinin maliyyə dəstəyi mexanizmlərinin inkişafı, bu tip layihələr üçün birbaşa investisiya fondlarının yaradılması;

• dövlətin iştirakı ilə iri müəssisələrin innovativ inkişafı proqramlarının formalaşdırılması və milli iqtisadiyyatın inkişaf strategiyasının həyata keçirilməsi üçün innovasiya fəaliyyətlərinin daha səmərəli planlaşdırılması məqsədilə bu təcrübənin kiçik və orta sahibkarlar arasında yayılması;

• nəzarət tədbirlərinin həyata keçirilməsi əsasında innovasiya infrastrukturunun keyfiyyətinin artırılması;

• innovasiya mərkəzlərinin (elmi, tədqiqat və innovasiya infrastrukturunun) yaradılması, regionlarda innovativ sahibkarlığa effektiv dəstək verilməsi, rəqabətin inkişafı, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək üçün regional proqramların

hazırlanması və həyata keçirilməsi yolu ilə region səviyyəsində innovasiya siyasətinin aktivləşdirilməsi və s.

Yuxarıda qeyd edilən istiqamətlərdən sənaye müəssisələri tərəfindən innovasiyaların tətbiqini sürətləndirmək və innovasiya fəaliyyətinin nəticələrindən istifadə etmək üçün bir sıra vəzifələrin həllində metodoloji əsas kimi istifadə edilə bilər.

## ƏDƏBİYYAT

1. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2014, 184 s.

2. Балабанов И.Т. Инновационный менеджмент. СПб.: Изд-во «Питер», 2014, 208 с

3. Гончарова И.А. Приоритетные направления активизации инновационного состояния промышленного предприятия. Технологии пищевой и перерабатывающей промышленности АПК-продукты здорового питания, 2016, № 2, с.110-117

4. Кузин А.А. Роль и значение инноваций в функционировании предприятий. Экономика, №2, 2012, с.39-43

5. Никулин О.В., Потап К.В. Роль и значение промышленных предприятий в развитии инновационной экономики. Национальные интересы: приоритеты и безопасность, 42 (183), 2012, с.29-38

6. Омельченко М.А.Мотивационные аспекты инновационной деятельности персонала промышленных предприятий. Вестник университета 2018, № 3, с.44-46

7. Саликов Ю.А. Повышение инновационной активности предприятий через взаимодействие государства и бизнеса. Экономика. Инновации. Управление качеством. 2013, № 3 (4), с. 75-82.

## *НАПРАВЛЕНИЯ АКТИВИЗАЦИИ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ*

*Тарана АХМЕДОВА*

**_Резюме_**

*В статье рассматриваются промышленные предприятия, являющиеся основными составляющими современной экономической системы, в контексте развития инновационной экономики, как отдельные экономические субъекты, выполняющие свои функции. Рассматривается роль инноваций в развитии промышленных предприятий. Определены цели инновационного потенциала предприятия и соответствующие им основные задачи. Исследованы факторы положительно и отрицательно, влияющие на инновационное развитие промышленных предприятий. Рассмотрены характеристики качества инновационной деятельности промышленных предприятий как субъектов управления инновационной экономики. Исследованы методы стимулирования инновационной деятельности промышленных предприятий. Также, даны*

*предложения рекомендационного характера по направлениям активизации инновационной деятельности промышленных предприятий.*

***Ключевые слова:*** *промышленное предприятие, инновации, инвестиции, экономика, производство, эффективность, управление, качество*

## *DIRECTIONS FOR ENHANCING THE INNOVATIVE ACTIVITY OF INDUSTRIAL ENTERPRISES*

*Tarana AKHMEDOVA*

### *Abstract*

*The article examines industrial enterprises, which are the main components of the modern economic system, in the context of the development of an innovative economy, as separate economic entities performing their functions. The role of innovations in the development of industrial enterprises is considered. The goals of the innovative potential of the enterprise and the main tasks corresponding to them are determined. The factors positively and negatively influencing the innovative development of industrial enterprises have been investigated. The characteristics of the quality of innovative activity of industrial enterprises as subjects of management of an innovative economy are considered. Methods of stimulating innovative activity of industrial enterprises have been investigated. Also, suggestions of a recommendatory nature are given on the directions of enhancing the innovative activity of industrial enterprises.*

***Key words:*** *industrial enterprise, innovation, investment, economy, production, efficiency, management, quality*

*УДК 336.02; 336.7*

# *МИРОВАЯ ПРАКТИКА ЛЬГОТНОГО КРЕДИТОВАНИЯ ЧАСТНОГО СЕКТОРА ЭКОНОМИКИ*

*Ляман Айдын гызы КАШИЕВА,*
*Азербайджанский Государственный Экономический Университет, доцент,*
*lemankashiyeva@gmail.com*

**Резюме**

*В статье на примере индустриально развитых государств анализируется государственная политика этих стран в сфере взаимодействия с предпринимателями посредством льготного кредитования.*

*В исследовании обосновывается мысль о том, что льготное кредитование частного сектора является одним из значительных инструментов роста экономики развитых стран.*

*Основное содержание исследования составляет анализ финансово-кредитных структур в экономической системе некоторых из государств и их участие в процессе кредитования субъектов бизнеса.*

*Автор приходит к выводу, что изучение мировой практики механизма льготного кредитования частного сектора экономики зарубежных стран и применение его определенных инструментов в Азербайджане обусловит устойчивый рост экономики страны.*

***Ключевые слова:*** *льготное кредитование, частный сектор, финансово-кредитные структуры, субъекты МСБ, государственное участие*

**Введение**

Не во всех сферах экономики частный сектор может быть самодостаточным, т.е. существовать независимо, без участия стороннего капитала или другой какой-либо финансовой поддержки специально созданных для этих целей фондов. За длительный период существования предпринимательства в странах с развитой экономикой накоплен довольно богатый опыт кредитования частного сектора. В Азербайджане же процесс кредитования как механизма государственной поддержки частного сектора находится на начальных этапах формирования. Исходя из этого, очень важным является применение наиболее продуктивных инструментов кредитования предпринимательства, используемых за рубежом.

Исследуем особенности организации механизмов кредитования предпринимательства, как формы его государственного содействия в различных странах, для определения более перспективных вариантов его использования в отечественной практике.

**США.** Богатейший опыт в проблемах организации кредитования предпринимательства накоплен в США. В их экономике сложились две независимые формы финансовой поддержки бизнеса: государственное и частное

Государственная поддержка частных предприятий реализуется путем прямого финансирования, посредством специально созданной в 1953-ом году Администрации Малого Бизнеса США (SBA).

Государственная структура SBA имеет как региональные, так и межрегиональные подразделения, расположенных на всей территории страны, существующих в форме филиалов или локальных центров и финансируемые из государственного бюджета. Эти подразделения осуществляют предпринимателям услуги в различных сферах инфраструктуры бизнеса и на каждом этапе его реализации: от самозанятости до выхода на международный рынок. Организация такого типа структуры дало бы положительный результат и в Азербайджане.

В SBA каждый год разрабатываются и осуществляются программы развития малого и среднего бизнеса по различным направлениям. Самые распространенные из них – «7a» и «504» [7].

Основным преимуществом программы «7a» является организация возможности предоставления государственного обеспечения малому бизнесу при получении банковского кредита в случае, если он не имеет требуемых банком гарантий. Так, например, для суммы не более 750 тысяч долларов гарантия дается на 75% займа; не более 100 тысяч долларов - на 80% займов. Программа «7a» имеет внушительные сроки предоставления гарантий со стороны государства. До 25 лет на основной капитал и до 10 лет на оборотный, при том, процентная ставка по кредиту не должна быть выше 2,75 пункта ставки займа [7].

Другой продукт, который реализует Администрация Малого Бизнеса - программа «509». Роль ее в системе государственной поддержки малого бизнеса заключается в содействие предпринимателям в модернизации и расширении собственного дела. Бизнес-деятельность предприятия малого бизнеса тщательно анализируется в финансовом аспекте.

При благоприятном решении ему выдается долгосрочный кредит для приобретения частей основного капитала.

На сегодняшний день на всей территории Соединенных Штатов претворяется широкий выбор программ поддержания частного сектора. Финансовая поддержка большей частью реализуется посредством льготной системы кредитования. Сжатый перечень кредитов, предназначенный субъектам бизнеса в США отражен в таблице 1.

Следует подчеркнуть, что существует специально разработанная программа льготного кредитования для коренных малочисленных народов севера США, занимающихся бизнес-деятельностью, поддерживающая предприятия, расположенные в исторически малоиспользуемых бизнес-зонах (HUBZone) [3].

Помимо общих программ, разработанных для оказания финансовой поддержки субъектам предпринимательства, в США осуществляется программа льготного кредитования субъекта малого бизнеса, занятого в агробизнесе. Данные программы разрабатываются Министерством сельского хозяйства США.

На данный момент существует следующие программы льготного финансирования: программы содействия производителям биотоплива, инфраструктурных проектов сельских территорий, проектов по энергетической эффективности, предоставления грантов фермерам, предоставления льготных кредитов фермерам, субсидирования затрат сельскохозяйственных предприятий и пр.

Осуществление программ, подобных «7a» и «509» в Азербайджане

способствовало бы заметному улучшению механизма оказания финансовой поддержки частного сектора.

***Таблица 1. Некоторые программы льготного кредитования субъектов бизнеса в США***

| Программа льготного кредитования | Условия |
|---|---|
| Кредиты малому бизнесу | 50 тыс. долл. |
| Программа кредитования малого бизнеса 7(a)<br>Цели кредита, расходы на:<br>– модернизацию или ремонт бизнес-объектов;<br>– покупка оборудования, машин, мебели светильников и оптимизация арендованного имущества;<br>– финансирование дебиторской задолженности и повышение оборотного капитала;<br>– финансирование сезонных кредитных линий;<br>– покупка бизнеса;<br>– организация бизнеса;<br>– строительство коммерческих сооружений;<br>–рефинансирование существующей задолженности в конкретных условиях | Кредиты до 150 тысяч долларов, с гарантией до 85%.<br>Кредиты 150 тысяч долларов и более с гарантией до 75%.<br>Кредиты 5 млн долларов с гарантией 50%.<br>Годовая ставка – базовая +2,25% (2,75%)<br>Максимальные сроки погашения кредита для недвижимого имущества - 25 лет; для оборудования - до 10 лет (зависит от срока полезного использования оборудования и в общем до 7 лет для пополнения оборотного капитала).<br>Критерии для малых предприятий:<br>• Производство – от 500 до 1500 работников.<br>• Оптовая торговля – до 100 работников.<br>• Розничная торговля – 7-35,5 млн. долларов.<br>• Услуги – 2-35,5 млн. долларов в среднем годовой выручки.<br>•Сельское хозяйство, лесное хозяйство, охота, рыболовство – от 750 тысяч до 17,5 млн. долларов в среднем годовой выручки. |
| Экспресс-кредиты | Гарантия в 50% на кредит |
| Программа «Патриот-экспресс» - кредиты для ветеранов и участников военного сообщества, желающих расширить малый бизнес:<br>– инвалиды;<br>– ветераны;<br>участники постовой службы, имеющие право на переходную программу по оказанию помощи | Кредиты предоставляются в размере до 500 тысяч доларов. Гарантия Управления 85% по кредитам в размере 150 тысяч долларов или менее, а 75% на кредиты свыше 150 тысяч долларов до 500 тысяч долларов<br>Годовой процент 2,25-4,75%. |
| для военных;<br>– резервистов и членов национальной гвардии<br>– супруги, в том числе любого члена службы;<br>– овдовевшая супруга военного.<br>Цели кредитования: запуск, расширение бизнеса, оборотных средств, закупка оборудования и запасов. | |

| | |
|---|---|
| Кредитная программа CAPLines | – финансирование расходов, связанных с контрактами, субконтрактами или заказами;<br>– сезонная кредитная линия для поддержки накопления запасов;<br>– финансирование мелких подрядчиков и разработчиков по восстановлению и строительству или коммерческой или жилой недвижимости. |
| Программа международного кредитования | Поддержка экспорта<br>Гарантия 90%.<br>Кредит 5 млн. долларов |
| Программа развития кредитования (509 кредитов) | – 5 млн. долларов для предприятий, создающих определенное количество рабочих мест и/или рост производства;<br>– 5 млн. долларов для предприятий, которые отвечают конкретной цели государственной политики, а также для ветеранов;<br>– 5,5 млн. долларов для производителей, занимающихся реализацией энергетических проектов в пределах государственной политики |
| Инновационно-исследовательская программа для малого бизнеса<br>Инвестиционная программа для малого бизнеса<br>Программа трансфера технологий<br>Программа содействия малым предприятиям, расположенных в исторически малоиспользуемых бизнес-зонах (HUBZone).<br>Программа поддержки при стихийных бедствиях | |

*Источник: [6]*

**Германия.** После второй мировой войны в Германии стала проводиться государственная политика относительно финансово-кредитной системы, подчиненная «теории порядка», ставшая началом реализации принципа социального рыночного хозяйства, а это значило, что осуществление частной деятельности без участия государства повлечет за собой не эфективное функционирование национальной экономики.

Так, в Германии возникло немалое число кредитных институтов, в их числе и банки с государственной долей участия (БГУ), (к примеру, KfW - Банк восстановления экономики, IKB - Банк индустриального кредита, Сберегательный банк Мюнхена и др.), выполняющие специальные функции, фиксированные законодательными актами, и направленные на предоставление кредитов на длительный срок.

Согласно статистическим данным Европейского союза, по итогам 2017-го года, Германия является лидирующим государством по следующим показателям функционирования субъектов малого и среднего бизнеса (МСБ):

- численность персонала, занятого в малом бизнесе;
- общий оборот [8].

Отличительной особенностью поддержки МСБ в Германии является приоритет стимулирования самостоятельности малого и среднего бизнеса, а не его государственное содействия в полном объеме. Государство не оказывает воздействие на рыночные механизмы, это обусловливает поддержку конкурентоспособности в отраслях. Вместе с тем, это влечет к ликвидации

компаний, которые не способны адаптироваться под перемены в его конъюнктуре.

В Германии государство выделяет финансовые средства коммерческим кредитным компаниям, кредитующим частный сектор, с целью активизирования микрофинансирования бизнеса.

Особенность кредитования на льготных условиях по немецким государственным программам заключается в том, что в них, разработанные ясные и единые для всех правила согласуются с общими принципами банковского кредитования, т.е. кредиты могут выдаваться только кредитоспособным предпринимателям, а другие факторы во внимание не берутся [8].

Заявки на получение кредитов на льготных условиях подаются в частные банки, они, в свою очередь, заключают договор с финансовой группой KfW о рефинансировании кредитов, согласно которому коммерческие банки обязуются вернуть выделенные им средства. Государственный банк осуществляет перевод денег коммерческим банкам, а те, на следующем этапе, предоставляют кредиты малым предприятиям.

Между коммерческим банком и предприятием заключается кредитный договор, где указывается цель получения кредита, оговоренная в соглашение о рефинансировании с государственным банком. Выплаты предпринимателей по основному кредиту и по процентам переводятся от коммерческих банков государственным.

При этом, коммерческие банки несут ответственность за возврат предоставленных кредитов от 50 до 100%. За оказание услуг по реализации льготных кредитов коммерческие банки берут маржу [2, с 63].

Основным принципом финансового содействия субъектам малого и среднего бизнеса в Германии является то, что поддержка всегда оказывается посредством обслуживающего его банка. В немецкой банковской системе самым важным механизмом финансовой поддержки предпринимателя - кредитование по льготной процентной ставке с принятием банком на себя части риска, организация процесса которого включает в себя этапы, представленные на рисунке 1.:

- субъект МСБ предоставляет в банк требуемый пакет для анализирования его заявки с целью получения кредита;
- банк оценивает кредитоспособность потенциального заемщика, затем предоставляет документы KfW с проведенными расчетами принимаемого на себя кредитного риска, доля которого не должна составлять менее 50%;
- KfW проверяет полученные из банка документы о потенциальном заемщике и далее принимает решение о страховании оставшейся части рисков, что является главной особенностью немецкой модели, и предоставления финансовых средств банку с целью выдачи их заемщику;
- специализированным банком выдается кредит субъекту МСБ (8).

Основные требования для получения льготного кредита, предъявляемые к субъектам МСБ, представлены в таблице 2.




*Источник: [8]*

***Рис. 1. Организация процесса кредитования в отношении субъекта МСБ***

***Таблица 2. Основные требования для получения льготного кредит, предъявляемые к субъектам малого и среднего бизнеса в Германии***

| *№ п/п* | *Наименование условия* | *Особенности условия* |
|---|---|---|
| 1 | сроки ведения бизнеса | минимум 5 лет |
| 2 | цель получения кредита | инвестирование в средства производства |
| 3 | максимальная сумма кредита | 25 миллионов евро |
| 4 | процентная ставка | 1-7% |
| 5 | максимальный срок кредитования | 10 лет |

*Источник: [8]*

Вместе с тем, в немецкой модели предусмотрена выдача льготных кредитов и на открытие бизнеса, основные условия которых отражены в таблице 3.

***Таблица 3. Основные условия процесса получения физическим лицом льготного кредита на учреждения бизнеса в Германии***

| *№ п/п* | *Наименование условия* | *Особенности условия* |
|---|---|---|
| 1 | максимальная сумма кредита | 100 тысяч евро |
| 2 | максимальный срок кредитования | 10 лет |
| 3 | цель получения кредита | - любые инвестиции.<br>- поддержание деятельности МСБ в первые 5 лет с момента его учреждения |
| 4 | риска по кредиту | до 80% рисков берет на себя Банк KfW.<br>до 20% рисков берет на себя обслуживающий субъекта бизнеса банк. |

*Источник: [8]*

Таким образом, мы видим, что немецкая модель базируется не на прямом льготном кредитовании субъектов МСБ, а на косвенном - предоставление финансовых ресурсов государством кредитным институтам, сотрудничающих с субъектами.

К преимуществам системы льготного кредитования частного сектора в Германии можно отнести:

- низкую процентную ставку по кредитам;
- возможность долгосрочного возвращения кредита;
- освобождение от оплаты кредита в первые два года;
- допустимость долевого финансирования: посредством государственных ресурсов финансируется только некоторая часть бизнес-проекта, а остальная часть финансируется из других заемных или собственных средств [8].

Для Азербайджана важным является реализация всех выше указанных преимуществ льготного кредитования частного сектора. Пока в Азербайджане осуществляются только некоторые из данных условий: относительно низкие процентные ставки и допустимость долевого финансирования посредством государственных средств.

**Финляндия.** В Финляндии претворение государственного содействия предпринимательству происходит посредством созданного акционерного общества «Финнвера», сто процентов акций которого являются собственностью государства. Компания «Финнвера» тесно содействует с банками и прочими финансовыми учреждениями, дифференцируя свои финансовые услуги с целью удовлетворения реальных или потенциальных потребностей бизнесменов в особых кредитах с высоким риском.

Обычно, «Финнвера» осуществляет свою деятельность в роли соинвестора с прочими финансовыми учреждениями. Разделение рисков проводится посредством нескольких каналов финансирования, схема которого вырабатывается для каждого предприятия [9]. К преимуществам данного инструмента государственной поддержки предпринимательства следует отнести широкую дифференциированность услуг, которые оказывает акционерное общество «Финнвера». Они включают гарантии и льготные кредиты начинающим бизнесменам и малому бизнесу, гарантии и кредиты, направленные на инвестирование и развитие предприятия, финансирование для повышения собственного капитала компании, поручительства и гарантии на открытие рисков при деятельности предприятия на международном рынке, экспортной деятельности и пр. Кредиты, экспортные гарантии, поручительства, и другие услуги разрабатывались с учетом интересов бизнеса на всех этапах его функционирования. Вместе с тем, «Финнвера» является финансовым посредником Европейского инвестиционного банка, и региональным финансовым посредником по программам Европейского союза по развитию малого бизнеса.

Опыт Финляндии можно использовать и в Азербайджане. Это может быть создание государственной компании, которая могла бы стать инвестором по наиболее значимым и перспективным проектам, реализуемыми предприятиями МСБ. Помимо этого, компания может принять участие в системе бюджетного кредитования предприятий МСБ.

**Италия.** Глубокий экономический кризис в 1930-х гг., всесторонне затронувший национальную финансовую систему, заставил государство провести национализацию значительной части банков и основать два специализированных института в формате высших органов банковской системы - Банк Италии и Межминистерский комитет по кредитам и сбережениям.

Следующий уровень банковской системы был представлен различными коммерческими банками и другими специализированными кредитными организациями: кооперативными банками, народными банками, государственными банками, сберегательными кассами и т. д.

По формам собственности большинство коммерческих банков в Италии являются государственными, самыми крупными из них можно назвать следующие: Banca Di Sardegna, Banca Nationale Del Lavoro, Banca Monte Dei Paschi Del Siena и Banco Di Napoli.

Особенностью развития субъектов МСБ является разделение их по кластерам на базе формирования промышленных округов, осуществляющие на территории все стадии технологического процесса какого-либо продукта, что стало предпосылкой для демонстрации МСБ одних из высоких экономических показателей его развития по сравнению с другими европейскими странами.

Следует отметить, что в итальянской финансовой системе первостепенное место при сотрудничестве с субъектами МСБ занимает государственная поддержка посредством льготного кредитования при государственном содействие. Основными условия такого кредита являются:

- срок кредитования – до 15 лет;
- процентные ставки по кредиту – 36-60% от рыночной.

Также, активное финансовое содействие малому бизнесу в Италии оказывают различные Фонды поддержки. Так, в 2017-ом году в Италии начала осуществляться государственная программа, дающая возможность субъектам МСБ получать льготные кредиты, выдаваемые им на инвестиции, в границах которых Правительство Италии ввыделило 500 миллион евро на развитие МСБ. Для получения кредита в банке по линии государственной программы, утвержденной Министерством экономики, требуется соответствие некоторым критериям:

- быть зарегистрированным в реестре компаний Италии;
- отсутствовать в списке субъектов хозяйствования, замешанных в осуществлении нелегальных операций, опубликованных Европейским судом;
- не быть в стадии банкротства или добровольной ликвидации [11].

Основные условия для получения кредита на льготных условиях субъектами малого бизнеса отражены в таблице 4.

***Таблица 4. Основные условия льготного кредита для субъектов МСБ в Италии***

| *№ п/п* | *Наименование условия* | *Особенности условия* |
|---|---|---|
| *1* | диапазон размеров кредита | 20 тысяч евро - 2 миллионов евро |
| *2* | максимальный срок кредитования | 5 лет |
| *3* | цель получения кредита | Инвестиции |
| *4* | годовая процентная ставка | 2,75% (3,575% - кредиты для инвести-ций в сфере технологий) |

*Источник: [11]*

Таким образом, в банковской системе Италии одним из основных механизмов финансового содействия субъектов МСБ является кредитование по

льготной процентной ставке, процесс организации которого включает в себя этапы, представленные на рисунке 2.




*Источник: [11]*

***Рис. 2. Процесс организация предоставления льготного кредита субъекту МСБ посредством банков в Италии***

- банк подает заявку в Министерство экономики для выбора участников осуществления государственной программы;

- Министерством экономики принимается решение о возможности участия банка в реализации госпрограммы;

- субъект МСБ предоставляет в банк требуемый пакет дляисследования его заявки на получение льготного кредита;

- банком проводится проверка потенциального заемщика на соответствие требования государственной программы и оценка его кредитоспособности;

- специализированный банк отправляет запрос в Министерство экономики для получения гарантии по кредиту;

- банком выдается кредит субъекту МСБ.

Из вышесказанного следует тот факт, что в основе итальянской модели лежит косвенное кредитование - предоставление финансовых средств банкам, прежде всего, государственным банкам, сотрудничающим с субъектами МСБ.

**Китай.** Экономические реформа 1979-го года заложила фундамент развития финансово-кредитной системы Китая, в рамках которой была сформирована функционирующая сегодня двухуровневая банковская система.

На верхнем уровне банковской системы страны находится Народный банк Китая, ниже - коммерческие банки: национальные, государственные и региональные.

Кроме этого, имеются банки некоммерческого кредитования, реализующие финансовое обеспечение экономической политики Китая, а также кредитные кооперативные банки.

В процессе осуществления экономической реформы были созданы различные типы банков, но так как создание частных банков согласно китайскому банковскому законодательству запрещалось, они являлись частично или полностью государственными. В банковской системе Китая доля банков с иностранным капиталом незначительна относительно развитых стран, потому как запрет на их функционирование в Китае был снят лишь после присоединения страны к ВТО.

В процессе реализации реформ Народный банк Китая трансформировался

в «большую четверку» - четыре государственных коммерческих банка - Банк Китая, Строительный банк Китая, Сельскохозяйственный банк Китая и Промышленно-торговый банк Китая.

Китайскую модель организации льготного кредитования участникам МСБ посредством банков с государственным участием (БГУ) можно отразить на рисунке 3.




*Источник: [12]*

***Рис. 3. Организация процесса кредитования субъекта малого бизнеса через БГУ в Китае***

Кратко охарактеризуем каждый этап процесса льготного кредитования:

- субъектом малого бизнеса представляется в БГУ соответствующие документы для исследования заявки о выдаче ему льготного кредита;

- БГУ проводит проверку на подлинность документов, оценивает его кредитоспособность, и в том случае, если на территории функционирования БГУ не имеется организации-гаранта, банк возлагает на себя полный объем рисков и предоставляет кредит;

- если же на территории осуществления деятельности субъекта МСБ имеется организация-гарант, то заемщик вправе обратиться к нему за предоставлением гарантии по кредиту;

- в случае одобрения гарантии организация-гарант переправляет данную информацию в БГУ;

- выдача кредита с гарантией субъекту МСБ.

Следует отметить, что в Китае государственное содействие оказывается и предпринимателям, только начинающим собственное дело (первые три года), к видам которой относятся:

- льготное кредитование;

- назначение управленца-наставника субъекта малого бизнеса.

Основные условия льготного кредитования в Китае представлены в таблице 5.

***Таблица 5. Особенности льготного кредита для начинающихсубъектов МСБ в Китае***

| *№ п/п* | *Наименование условия* | *Особенности условия* |
|---|---|---|
| 1 | размеры кредита | 30-50 тысяч юаней |
| 2 | максимальный срок кредитования | 3 года |
| 3 | размер процентной ставки (годовой) | 3% |

*Источник: [12]*

Также, Министерство финансов Китая установило льготы и для государственных банков, кредитующих МСБ. Так, в 2018-ом году:

- с 1 сентября 2018-го года до 31 декабря 2020-го года доходы банков от процентов по кредиту освобождены от оплаты НДС

- доходы банков от процентов по кредиту, процентная ставка которого, не превышает 15% от базовой ставки кредитования, тоже освобождены от НДС.

Данная модель демонстрирует присутствие дополнительных действующих государственных организаций, сотрудничающих с банковским сектором для кредитования МСБ.

Проведенное исследование о механизме льготного кредитования предприятий частного сектора индустриально-развитых стран позволило нам сделать вывод о том, что в международной практике накоплен немалый опыт в области льготного кредитования бизнеса.

**Азербайджан.** В Азербайджане, как и в международной практике, также существует ряд институтов, оказывающих государственную поддержку развитию частного сектора, в том числе и содействие в их финансировании.

К ним относятся:

• Фонд Развития Предпринимательства (ФРП);
• Агентство Аграрного Кредита и Развития;
• Агентство Инноваций;
• Молодежный Фонд Азербайджанской Республики;
• ОАО «Азербайджанская Инвестиционная Компания».

Основная особенность этих учреждений заключается в том, что предоставляемые ими кредитные ресурсы выделяются из государственного бюджета. В то же время кредиты, предоставляемые этими учреждениями, имеют льготную категорию и зачастую дешевле, чем на рыночном уровне.

Большая доля выдаваемых льготных кредитов в Азербайджане из перечисленных выше организаций приходится на ФРП.

Неоспоримое значение в деятельности ФРП имеют льготные кредиты, которые в настоящее время, наряду с банковским сектором, выделяются ФРП для субъектов бизнеса и инвестируемые, в основном, на приоритетные направления развития экономики и бизнеса, к которым относятся:

- создание производственных и перерабатывающих площадей, предусмотренных указами и распоряжениями Президента Азербайджанской Республики, государственными программами;
- создание агропарков;
- создание комплексов мясного и молочного скотоводства;
- создание фермерских хозяйств с применением современных оросительных систем;
- поддержка стартап-проектов;
- развитие туризма, а также поддержка проектов сельского туризма;
- переработка плодоовощной продукции, а также создание предприятий по производству сушеных и замороженных овощей и фруктов (в том числе малых и средних);
- создание мясных и молочных предприятий (в том числе малых и средних);
- создание интенсивных садоводческих (виноградных, яблочных, гранатовых, оливковых, миндальных, кукурузных и др.) рассадных хозяйств;

- создание мощных кормовых производств;
- создание садоводческих хозяйств по традиционным сортам фруктов («Гызылахмади», «Ганди-синаб» и др.);
- создание современных хлебопекарных предприятий; создание производственных и технологических площадей технических предприятий;
- создание логистического центра (хранение, транспортировка и продажа продовольственных и непродовольственных товаров), зернохранилища, зеленых рынков и фермерских магазинов;
- создание современных оросительных систем и предприятий по производству строительных материалов;
- создание предприятий в других сферах производства, переработки и услуг (легкая, пищевая, химическая, машиностроительная и др. отраслей промышленности);
- создание предприятий по производству и переработке импортозамещающих и экспортно-ориентированных пищевых и непродовольственных товаров;
- поддержка восстановления и увеличения рыбных запасов и других водных биоресурсов;
- изготовление образцов старинного народного искусства, отражающих традиционные и национальные духовные ценности (ковроткачество, сувениры, гончарные изделия, шелководство, медное дело и др.);
- развитие микро и малого бизнеса, включая участие молодежи, женщин, инвалидов и внутренне перемещенных лиц (ВПЛ).

Информация о продуктах Фонда Развития Предпринимательства отражена в таблице 6.

В июне 2020-го года ФРП были внедрены новые механизмы льготного кредитования предпринимательства, одним из которых является льготное кредитование на приобретение оборудования в целях обеспечения доступа к льготным кредитам для бизнесменов, исключая залог недвижимости. Сущность данного механизма в том, что обретенное посредством кредитных средств оборудование само берется в качестве залога. Банковский процент по этой схеме составляет 7% годовых и предполагается, что данный подход заметно расширит возможности субъектов бизнеса к денежным ресурсам, посодействует инвестиционной активности, росту экономики и занятости в ней.

Наряду с этим, в сельскохозяйственных секторах, которые требуют долгосрочные инвестиции (к примеру, садоводство, чаеводство и в подобных сферах), сроки для небольших кредитов продлены с 3 до 5 лет, кредитов среднего размера - с 5 до 7 лет, притом, половина срока определяется как льготный период.

Данный механизм направлен на уменьшение кредитных рисков в долговременных проектах и упрощение доступа малого и среднего бизнеса к льготным ресурсам.

Еще одним новшеством в осуществлении кредитования является условие кредитования, связанное с форс-мажорными случаями (стихийными бедствиями, пандемией и пр.), при которых предусматривается реструктуризация долговых обязательств банков (кредитных организаций) перед ФРП и обеспечение отсрочки при погашении обязательств по кредитам.

Так, на основании новых правил Фонда сферам, пострадавшим в результате пандемии, государство предоставляет гарантию на определенную часть - до 60%

портфеля бизнес-кредита в общем объеме 500 млн. манатов. Помимо этого, 50% процентной ставки (годовой) данных кредитов финансируется государством. Данный механизм относится к кредитам сроком до трех лет, ставка годового процента которых не превышает 15%. По таким кредитам льготный срок составляет 12 месяцев.

***Таблица 6. Информация о продуктах Фонда Развития Предпринимательства***

| | **Механизм льготного кредитования** | **Механизм кредитования оборудования** | **Механинизм гарантии и субсидии** | **Механизм субсидии** |
|---|---|---|---|---|
| **Область охвата** | Приоритетные направления | Только на покупку оборудования | Отрасли пострадавшие от пандемии | Отрасли пострадавшие от пандемии |
| **Размер кредита** | 5 000 - 10 000 000 манат | 5 000 - 3 000 000 манат | 3 000 000 манат | до 5 000 000 манат (остаток сумм) |
| **Срок кредита** | до 10 лет | до 5 лет | до 3-х лет | Независимо от срока |
| **Процентная ставка** | до 5% | до 9% | до 15% | Независимо от процента |
| **Льготный период кредита** | До половины срока кредита | до 12 месяцев | до 12 месяцев | |
| **Срок действия субсидий** | - | - | до 3 лет | 12 месяцев (начиная с марта 2020-го года) |
| **Отношение залога к кредиту** | - | - | до 60% | |
| **Сумма субсидии** | - | - | В размере 50% от процентной ставки | 10% -ая ставка |

*Источник: [13]*

Предоставленная государством гарантия на 60% кредитов и субсидирование процентов дает объектам малого бизнеса возможность осуществлять еще больше проектов. В целях комфортного применения новых механизмов кредитования создана и активно функционирует Электронная кредитная платформа, которая позволяет предпринимателям получить льготные кредиты.

Однако, проведенный анализ выявил и ряд проблем льготного кредитования частного сектора в Азербайджане, связанных с экономическим и политическим положением в государстве, с положеним внутри самих институтов, занимающихся льготным кредитованием, и с заемщиками. Ожидается, что решение данных проблем на основании использования мировой практики определит более эффективный подход к льготному кредитованию частного сектора, не только оживит отрасли, пострадавшие от перечисленных выше негативных факторов, но и сыграет заметную роль в процессе реализации инвестиционных проектов бизнеса в перспективе.

Т.о., как демонстрирует опыт развитых стран, льготные кредиты всегда являлись одной из важнейших составляющих финансовой базы, гарантирующий формирование и развитие субъектов частного сектора, вне зависимости от их собственных ресурсов, как в неблагоприятных условиях экономики, так и в период экономического роста.

Исходя из этого, государственная политика льготного кредитования всегда выступала как фактор становления частного сектора и его привлечения к участию в развитии приоритетных отраслей экономики в конкретный период.

В частности, сегодня приоритетом для Азербайджана является расширение деятельности по привлечению финансовых ресурсов на возрождение освобожденных территорий бывшего Нагорного Карабаха.

Следовательно, требуется дальнейшее усовершенствование механизма государственной финансовой поддержки, ориентированной, как на прямые государственные инвестиции, так и на косвенные меры (льготное кредитование, субсидирование процентных ставок и пр.). Это необходимо для обеспечения оптимальных условий развития частного сектора, снижения кредитных рисков и формирования благоприятного предпринимательского климата в регионе, что, безусловно, будет способствовать привлечению в данный регион кредитных средств и частных инвестиций, в т.ч. иностранных.

Как сказал Президент нашей страны Ильхам Алиев, на освобожденных территориях бывшего Нагорного Карабаха «мы должны создать такую модель развития, чтобы впоследствии могли трансфертировать ее на другие земли, чтобы были устранены имеющиеся просчеты и обеспечено успешное развитие нашей страны» [5].

**Научный результат исследования**

Одним из основных направлений формирования устойчивого развития экономики является формирование равных условий для развития рыночных отношений, основанных на здоровой конкуренции. Решающее значение для развития субъектов рыночных отношений, а именно субъектов частного сектора, имеет доступ к финансовым ресурсам, поскольку они позволяет им выходить на новые рынки, осуществлять инновационную деятельность, повышать эффективность и создавать новые рабочие места. В этой связи выработка подходов по повышению эффективности механизма льготного кредитования частного сектора приобретает особую актуальность, а исследования проблем механизмов совершенствования льготного кредитования частного сектора в условиях господства рыночных отношений для обеспечения устойчивых темпов экономического роста являются актуальными для отечественной науки и практики.

Научная новизна данного исследования заключается в том, что в статье на основании изучения мировой практики механизма льготного кредитования частного сектора экономики зарубежных стран предложено применение его определенных инструментов в Азербайджане.

Так, исследование отдельных аспектов льготного кредитования субъектов МСБ различных государств, позволяет сделать нам следующие выводы:

- в различных странах льготное кредитование субъектов бизнеса выстроено по-разному и с вовлечением различных институтов, однако обязательным условием деятельности и развития частного сектора является его государственное содействие, организованное косвенным путем;

- имеются две основные модели процесса организации банковского кредитования: или все риски, которые могут возникнуть при кредитовании МСБ, берут на себя банки, или некоторая доля рисков переходит к специализированным госорганизациям;

- возможность организации льготного кредитования частного сектора по государственным программам как через БГУ, коммерческие банки, так и прочие финансово-кредитные организации;

- в различных государствах, критерии по которым относят субъектов хозяйствования к малому бизнесу, отличаются, и это не дает возможности достаточно объективно сравнивать результаты его функционирования в разных странах;

- исследование мирового опыта льготного кредитования частного сектора позволяет прийти к выводу, что в Азербайджане необходимо применять положительный опыт стран с развитой экономикой. Дальнейшее устойчивое развитие льготного кредитования частного сектора в Азербайджане не представляется возможным без применения опыта развитых государств.

Итак, обобщенный выше мировой опыт льготного кредитования частного сектора позволяет нам сделать некоторые заключения и определить следующие меры по совершенствованию механизма льготного кредитования в Азербайджанской Республике:

- в настоящий момент в республике льготные кредиты выделяются с учетом сектора экономики, прибыльности проекта, степени риска и прочих стратегических факторов, но на один и тот же срок и с единой процентной ставкой. Как показывают исследования, аналогичные кредитные организации в странах зарубежья оказывают финансовую поддержку на более гибких условиях, на основе программ, разработанных соответственно не только для отрасли, но и региона, что в свою очередь, делает возможным своевременно реагировать на изменения текущих рыночных условий и приоритетов страны.

С этой точки зрения предоставление льготных кредитов в нашей стране целесообразно в рамках различных программ дифференцировать с учетом направлений, регионов, доходности и риска проекта. При этом программы могут быть приняты с учетом исторических и географических традиций, экономического потенциала каждого региона и основных занятий населения. Кроме того, при разработке кредитных программ по направлениям срок кредита, льготный период и процентная ставка могут определяться с учетом срока окупаемости и уровня риска проекта в этой области;

- организации, участвующие в льготном кредитовании частного сектора, кредитуют субъектов предпринимательства по одному из наиболее низких ставок относительно других видов кредитования, однако для предпринимателей они, тем не менее, достаточно высокие. В целях обеспечения эффективности выделенных кредитов и их результативности необходимо дифференцировать процентные ставки в зависимости от вида деятельности заемщика в направления уменьшения ставок. Вместе с тем, считаем целесообразным определить условия возможности долгосрочного возвращения кредита и освобождения от оплаты кредита в первые годы;

- наличие залога по кредиту, как правило, является главным критерием в принятии положительного решения по заявке на кредит. Однако, для малого бизнеса предоставление гарантий по кредиту, обычно, затруднительно.

Разрешению проблемы предоставления залога может помочь, на наш

взгляд, более активное привлечение кредитными организациями юридических лиц, относящихся к инфраструктуре содействия МСП,которые смогли бы стать гарантом кредитной сделки по инновационным и инвестиционным проектам;

- сроки рассмотрения заявок на кредит очень часто превышены, а документы, которые предпринимателям необходимо предоставить в процессе рассмотрения заявки на льготное кредитование, зачастую, содержат недостоверную и непрозрачную отчетность, а отсутствие грамотно составленного бизнес-плана, технико-экономического обоснования, не редко, являются проблемой для подтверждения проекта. Совершенствование системы консультационных услуг, оказываемых субъектам малого бизнеса по вопросам условий и возможностей получения кредита в кредитных организациях способствует решению данных проблем;

- в зарубежных странах в качестве кредиторов одновременно с коммерческими банками также действуют общества взаимного кредитования и кредитные кооперативы. Особенность кредитования в кооперативах заключается в доступности, дешевизне и простоте оформления. Создание и дальнейшее развитие кредитных кооперативов как источников микрофинансирования субъектов бизнеса в перспективе должно быть одним из основных направлений государственной политики в области льготного кредитования частного сектора.

Таким образом, применение мирового опыта льготного кредитования способствует созданию эффективных условий развития частного сектора, снижения кредитных рисков и формирования благоприятного предпринимательского климата в стране, что, безусловно, обусловит процесс привлечения в данный регион кредитных средств и частных инвестиций, в т.ч. иностранных.

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Бабаев М. Варианты использования зарубежного опыта в сфере кредитования в Азербайджане // Международный техникоэкономический журнал, – 2010. №3, – с. 12-16.

2. Власов И.П. Кредитование малого бизнеса: перспективы развития // Московский городской университет управления. Финансы и кредит, – 2013. №3, – с.62-66.

3. Евдокимова Т.В. Реформа финансового регулирования в США: работа над ошибками, США – Канада // Экономика, политика, культура, Сентябрь 2012. № 9, – с. 55-70.

4. Заболоцкая, В.В. Зарубежные модели финансово-кредитной поддержки малого бизнеса/ В.В. Заболоцкая, Н.О. Старкова // Вестник Ростовского государственного экономического университета (РИНХ), - 2011. – № 4, – с. 72-80.

5.URL:https://az.sputniknews.ru/economy/20210207/426151419/jekonomika-razvitie-osvobozhdennye-territorii.html

6. URL: https://smebanking.news/ru/10986-kak-v-ssha-podderzhivayut-msb/

7. URL: https://kfpp.ru/analytics/material/foreignsupportexp.php

8. URL: http://www.kreditbusiness.ru/germany.html

9. URL: http://www.infofin.ru/p_23.php

10. URL: https://moluch.ru/archive/11/626/

11. URL: https://www.dandreapartners.com

12. URL: https://unecon.ru/sites/default/files/disskaluginaya.pdf.
13. URL: http://edf.gov.az/az/content/181

## *İQTİSADİYYATIN ÖZƏL SEKTORUNUN GÜZƏŞTLİ KREDİTLƏŞDİRİLMƏSİNİN DÜNYA TƏCRÜBƏSİ*

*Ləman KAŞIYEVA*

### *Xülasə*

*Məqalədə sənayecə inkişaf etmiş dövlətlərin nümunəsində bu ölkələrin sahibkarlarla güzəştli kreditləşdirilmə vasitəsilə qarşılıqlı əlaqə sahəsində dövlət siyasəti təhlil edilir.*

*Tədqiqatda özəl sektorun güzəştli kreditləşdirilməsinin inkişaf etmiş ölkələrin iqtisadiyyatının artımının əhəmiyyətli alətlərindən biri olduğu haqqında fikir əsaslandırılmışdır.*

*Tədqiqatın əsas mahiyyətini bəzi dövlətlərin iqtisadi sistemində maliyyə-kredit strukturlarının təhlili və onların biznes subyektlərinin kreditləşdirilməsi prosesində iştirakı təşkil edir.*

*Müəllif nəticəyə gəlir ki, xarici ölkələrin iqtisadiyyatın özəl sektorunun güzəştli kreditləşdirilməsi mexanizminin dünya təcrübəsinin öyrənilməsi və onun müəyyən alətlərinin Azərbaycanda tətbiqi ölkənin iqtisadiyyatının davamlı artımını şərtləndirəcəkdir.*

***Açar sözlər:*** *güzəştli kreditləşdirilmə, özəl sektor, maliyyə-kredit strukturları, KOB subyektləri, dövlət iştirakı*

## *THE WORLD PRACTICE OF CONCESSIONAL LENDING TO THE PRIVATE SECTOR OF THE ECONOMY*

*Lyaman KASHIEVA*

### *Abstract*

*In the article on the example of industrially developed countries is analyzed the state policy of these countries in the field of interaction with entrepreneurs through concessional lending.*

*The study substantiates the idea that concessional lending to the private sector is one of the significant tools for economic growth in developed countries.*

*The main content of the study is the analysis of financial and credit structures in the economic system of some of the states and their participation in the process of crediting business entities.*

*The author comes to the conclusion that the study of the world practice of the mechanism of preferential lending to the private sector of the economy of foreign countries and the use of its certain tools in Azerbaijan will determine the steady growth of the country's economy.*

***Key words:*** *concessional lending, private sector, financial and credit structures, subjects of SMB, state participation*

*UOT 330.322*

# *AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MALİYYƏ VƏ İNVESTİSİYA RESURSLARININ FORMALAŞMASI İMKANLARI*

*Pərvanə Vaqif qızı MƏMMƏDOVA,*
*Azərbaycan Texniki Universiteti, “İqtisadiyyat və statistika” kafedrası,*
*i.ü.f.d., dosent, quliyeva_@rambler.ru*

***Xülasə***

*Məqalədə maliyyə və investisiya resurslarının formalaşmasına dair mexanizm nəzərdən keçirilmiş və Azərbaycanda bu mexanizmin formalaşması mənbələri göstərilmişdir. Həmin mənbələr kimi mövcud mineral ehtiyatlarından formalaşan maliyyə və investisiya resursları, xarici investisiya axını nəticəsində formalaşan maliyyə və investisiya resursları, maliyyə və investisiya infrastrukturuna malik müəssisələrin (bankların, fondların, investisiya şirkətlərinin və s.) fəaliyyəti nəticəsində yaranan maliyyə və investisiya resursları, əhali və ev təsərrüfatı ilə bağlı maliyyə və investisiya resursları, istehsalat fəaliyyəti və sənaye müəssisələrinin mülkiyyətindən qaynaqlanaraq formalaşan maliyyə və investisiya resursları olduğu məlum olmuşdur. Göstərilən mənbələr üzrə təhlillər aparılmış meyillər müəyyən edilmişdir. Konkret olaraq belə təhlillərdən biri Azərbaycanda sənayedə əsas kapitala yönəldilən investisiya ilə sənaye məhsulunun həcmi arasında xətti əlaqənin təhlili olmuşdur. Qurulan model 2005-2019-cu illəri əhatə etmiş və məlum olmuşdur ki, sənayedə investisiya qoyuluşlarının 1% artması ilə sənaye məhsulunun son artıma meyilliliyinin həcmi 0.8%-ə bərabər olar.*

***Açar sözlər:*** *sənaye müəssisələri, maliyyə və investisiya resursları, istehsalat fəaliyyəti, xarici investisiya, əhali, ev təsərrüfatları*

## GİRİŞ

Maliyyə və investisiya resursları kifayət qədər müasir, yeni anlayış olub, maliyyə, kredit, investisiya, xaricdən investisiya mənbələri cəlb etmək, daxili ehtiyatları səfərbər etmək qabiliyyətinin məcmusu kimi başa düşülür. İqtisadi inkişafı əsasən xammal resurslarına dayanan ölkələrdə digər sahələrin inkişafı üçün maliyyə və investisiya potensialının səfərbərbərliyə alınması olduqca önəmlidir. Bu baxımdan mütərəqqi təcürbə göstərir ki, maliyyə və investisiya resurslarının formalaşdırılması və investisiya fəallığının artırılması məsələləri, milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi və modernləşmə potensialının artırılmasında əsas rol oynayır. Maliyyə və investisiya mexanizminin adekvat modelinin yaradılması, investisiya bazarında resursların yığılmasında və effektiv şəkildə yenidən bölüşdürülməsində yardımçı olur. Maliyyə və investisiya mexanizmi, özəl investorlardan başlayaraq sənaye müəssisələri, o cümlədən maliyyə və investisiya infrastrukturu üzrə dövlət idarələrinə qədər investisiya fəaliyyətində iştirak edən bütün iştirakçılara təsir göstərir.

Mahiyyət etibarilə, maliyyə-investisiya resursları daxili və xarici investisiya axınlarının hərəkətini tənzimləməklə, müəssisələrin istehsal fəaliyyəti üçün investisiya təminatını müəyyən edir. Müəssisələrin maliyyə və investisiya resurslarının artırılması dövlətin iqtisadi-siyasi fəaliyyətinin strateji prioritetləri arasında xüsusi yer tutur. Təcrübə göstərir ki, hökumətlər iqtisadi sahələrin investisiya təminatının həll edilməsinə ciddi şəkildə səy göstərir.

Maliyyə və investisiya resurslarının formalaşmasına dair mexanizmlərin təhlili,

həm dövlət maliyyə qurumları arasındakı qarşılıqlı əlaqənin makro səviyyədə, həm də ayrı-ayrı sənaye müəssisəsinin əlaqələrinin mikro səviyyədə həyata keçirilməli olduğunu göstərir. Qabaqcıl təcrübə təsdiqləyir ki, ölkədə maliyyə və investisiya resurslarının formalaşdırılması bir neçə hissəyə bölünür.

**Azərbaycanda maliyyə və investisiya resurslarının cari vəziyyəti**

Maliyyə və investisiya resusrları müəssisələrdən, əhalidən, büdcədən və maliyyə-kredit sistemlərindən vəsait cəlb etmək və istifadə etmək imkanlarını göstərir. Bununla da ölkənin maliyyə və investisiya potensialı şərtlərini müəyyənləşdirir. Nəzərə almaq lazımdır ki, maliyyə və investisiya resurslarının müəyyənləşdirilməsi ən vacib maliyyələşdirmə mənbələrini, onun ayrı-ayrı elementlərini həyata keçirmək problemlərini müəyyənləşdirməyə imkan verir və eyni zamanda investorlara vəsaitlərin ən təsirli investisiya istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Nəticə etibarilə ölkənin sosial-iqtisadi inkişafına həlledici təsir göstərir. Ölkənin maliyyə-investisiya resursları nəzərdə tutulmuş məqsədlər üçün resurslar yaratmaq, eyni zamanda onlardan səmərəli istifadə etmək qabiliyyətini xarakterizə edir.

Azərbaycan iqtisadiyyatı baxımından maliyyə və investisiya resurslarının bazası kimi fikrimcə, aşağıdakılar çıxış edir:

- mövcud mineral ehtiyatlarından formalaşan maliyyə və investisiya resursları;
- xarici investisiya axını nəticəsində formalaşan maliyyə və investisiya resursları;
- maliyyə və investisiya infrastrukturuna malik müəssisələrin (bankların, fondların, investisiya şirkətlərinin və s.) fəaliyyəti nəticəsində yaranan maliyyə və investisiya resursları;
- əhali və ev təsərrüfatı ilə bağlı maliyyə və investisiya resursları;
- istehsalat fəaliyyəti və sənaye müəssisələrinin mülkiyyətindən qaynaqlanaraq formalaşan maliyyə və investisiya resursları.

Maliyyə və investisiya resurslarının formalaşdırılması və investisiya fəallığının artırılması məsələləri nəinki sənaye müəssisələrinin fəaliyyəti üçün, həm də tam qətiyyətlə demək olar ki, milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi və modernləşmə potensialının artırılması üçün də önəmlidir. Maliyyə və investisiya mexanizmi, özəl investorlardan başlayaraq sənaye müəssisələri, o cümlədən maliyyə və investisiya infrastrukturu üzrə dövlət idarələrinə qədər investisiya fəaliyyətində iştirak edən bütün iştirakçılara təsir göstərir.

Qeyd etdiyimiz birinci amillə bağlı onu bildirmək vacibdir ki, Azərbaycanda təbii sərvətlər, xüsusilə də neft və qaz ehtiyatları respublikanın milli sərvətinin əsas hissəsini təşkil edir. Neft və qaz sənayesindən əldə olunan gəlirlər, Azərbaycan Respublikası Dövlət Neft Fondunda yığılır ki, burada da məqsəd, "neft və qaz sazişlərinin həyata keçirilməsi ilə qazanılan vəsaitlərin toplanması, gəlirlərin səmərəli şəkildə idarə olunması və gələcək nəsillər üçün bu vəsaitlərin qorunub saxlanması" xarakteri daşıyır [1]. Lakin bu sərvətdən hər il dövlət büdcəsinə transferlər olunur ki, bu da ölkə iqtisadiyyatının maliyyə və investisiya resurslarının bazası kimi çıxış edə bilir. Buna görə də Azərbaycan Respublikasının strateji valyuta ehtiyatlarının strukturuna nəzər salmaq maraqlı olar.

Şəkil 1-in məlumatları göstərir ki, 2011-ci ildə ölkənin strateji valyuta ehtiyatları 40,3 mlrd. ABŞ dolları səviyyəsində, müvafiq olaraq Neft Fondu 29,8 mlrd. ABŞ dolları və ya ümumi strateji valyuta ehtiyatlarının 73,9%-i, Mərkəzi Bank 10,5 mlrd. ABŞ dolları və ya strateji valyuta ehtiyatlarının 26,1%-i səviyyəsində olmuşdur. 2019-cu illə müqayisədə strateji valyuta ehtiyatları 23,7% artaraq 49,6 mlrd. ABŞ dolları

səviyyəsində, Neft Fondunun vəsaitləri 45,3% artaraq 43,3mlrd. ABŞ dolları səviyyəsində, müvafiq olaraq həmin ildə ümumi strateji valyuta ehtiyatlarının 87,3%-i səviyyəsində, Mərkəzi Bankın ehtiyatları isə 40% azalaraq 6,3 mlrd. ABŞ dolları səviyyəsində, ümumi strateji valyuta ehtiyatlarının 12,7%-i səviyyəsində olmuşdur.




***Şəkil №1. Azərbaycan Reespublikasının strateji valyuta ehtiyatları***

ARDNF gəlirinin əsas hissəsi, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil olunan neft satışından və "Şahdəniz" yatağından hasil olunan qaz və qaz kondensatından əldə olunan gəlir hesabına formalaşır. Bundan əlavə, ARDNF gəlirləri adambaşına düşən ödənişləri, Azərbaycan ərazisi daxilində tranzit yolu ilə əldə olunan gəlirləri, o cümlədən fondun yerləşdirmə və aktivlərin idarə olunmasından əldə etdiyi gəlirləri əhatə edir. Fondun xərclərinin strukturunda dövlət büdcəsinə köçürmələr, eləcə də sosial əhəmiyyətə malik infrastruktur layihələrinə qoyulan investisiyalar və dövlət proqramlarının tətbiqi üstünlük təşkil edir.

Fondun investisiya portfelinin baza valyutası ABŞ dolları müəyyən edilir. İnvestisiya portfelinin məcmu dəyərinin minimum 90%-nin beynəlxalq kredit agentlikləri tərəfindən verilmiş kredit reytinqi “A” (Standard & Poor’s, Fitch) və ya “A2” (Moody’s) dərəcəsindən aşağı olmayan ölkələrin valyutalarında ifadə edilən aktivlərdə olması şərtilə Fondun investisiya portfelinin məcmu dəyəri əsasən aşağıdakı kimi formalaşır.




***Şəkil №2. İnvestisiya portfelinin valyuta tərkibi***

Qeyd edək ki, ARDNF-in maliyyə hesabatları ictimaiyyət üçün əlçatan mövqedədir, belə ki, maraqlanan hər hansı fərdi və ya hüquqi şəxs, gəlir və xərc maddələrinin formalaşması ilə tanış ola bilir. Bildiyimiz kimi, ARDNF-in vəsaitlərinin

əsas məqsədi gələcək nəsillər üçün bu vəsaitlərin qorunub saxlanması çıxış etdiyindən burada fikrimcə, əsas məsələ ölkədə neft və qaz gəlirlərinin formalaşması, yığılması və idarə olunması üzrə şəffaf sistemin yaradılmasını vurğulamaq zəruri xarakter daşıyır.

Təbii ki, iqtisadiyyatda təbii sərvətlərdən istifadə olunmadan yəni neft gəlirlərinin azalması qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsini zəruri edir.

Azərbaycan Respublikasının “milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə Azərbaycan iqtisadiyyatının inteqrasiya metodu ilə hərtərəfli şəkildə - həm makro (milli iqtisadiyyat), həm də mikro (sektorlar) səviyyədə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Belə ki, milli iqtisadiyyat perspektivi çərçivəsində dörd strateji hədəf seçilmişdir. Bu hədəflərin və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real və maliyyə sektorları arasında tarazlığın təmin edilməsi yolu ilə davamlı iqtisadi inkişaf mümkün olacaqdır [2, s. 5].

Xarici investisiya axını nəticəsində formalaşan maliyyə və investisiya resurslarına gəldikdə isə onu bildirək ki, ölkə iqtisadiyyatına xarici investisiyalar qoyuluşları 1995-ci ildən yerləşdirilməyə başlamışdır. Bununla bağlı cədvəl № 1-in göstəricilərinə nəzər salaq.

***Cədvəl № 1. Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla, mlyn.manat)***

| Göstəricilər | 1995-2000 | 2000-2005 | 2006-2010 | 2011-2016 | 2017-2019 |
|---|---|---|---|---|---|
| Cəmi | 5421.6 | 14243 | 55691.4 | 100696 | 75326.1 |
| Xarici investisiyalar: | 3944.5 | 10996.9 | 26882 | 43396.3 | 41818.9 |
| Daxili investisiyalar: | 1477.1 | 3246.1 | 28809.4 | 57299.7 | 33507.2 |

*Mənbə:* https://www.stat.gov.az/

Cədvəl məlumatları göstərir ki, 1995-2000-ci illərdə ölkə iqtisadiyyatına yerləşdirilən məcmu investisiyaların 72,8%-i, 2000-2005-ci illərdə 77,2%-i, 2006-2010-cu illərdə 48,3%-i, 2011-2016-cı illərdə 43,1%-i və 2017-2019-cu illərdə isə 55,5%-i xarici investisiyaların payına düşmüşdür.

Təcürbə göstərir ki, maliyyə və investisiya qaynaqlarının formalaşdırılmasında xarici investisiyaların rolu böyükdür. Qeyd edək ki, ölkə iqtisadiyyatına yerləşdirilən xarici investisiyaların böyük hissəsi neft və qaz hasilatıa yönəlmişdir.




***Şəkil №3. Xarici və daxili investisiyalrın dinamikası (milyon manatla )***

Bu istiqamət üzrə təhlili yekunlaşdıraraq bu nəticəyə gələ bilərik ki, Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiya axını üzrə dinamika olduqca sabit xarakter daşıyır. Onu da qeyd etməliyik ki, birbaşa xarici investisiyaların mütləq mənada inkişafına baxmayaraq, daxili investisiya hissəsindəki artım səbəbilə ümumi investisiya hissəsində tədricən azalma olur ki, bu da şübhəsiz, milli iqtisadiyyat üçün əlverişli tendensiya rolunu oynayır. Təsürbə təsdiqləyir ki, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi bir sıra müsbət amillərə səbəb olur:

- ölkədə məşğulluğun səviyyəsinə müsbət təsir edir;
- tənzimlənən kapital iqtisadi inkişafa yönəldici təsir gostərir;
- ölkədə yeni iş yerlərinin açılmasına səbəb olur;
- ölkəyə yeni texnologiya, effektiv menecment gətirir, ETT-ni sürətləndirir.

İstehsal amillərinin nəticə göstəricisi olan məhsul istehsalı həcminə təsirinin qiymətləndirilməsi adətən istehsal funksiyalarından, o cümlədən Kobb-Duqlas funksiyasından istifadə edilir [3. səh.110].

**Azərbaycan sənayesində maliyyə və investisiya resurslarının qiymətləndirilməsi**

Təcrübədə investisiya resurslarının iqtisadiyyata necə təsir etdiyini qiymətləndirmək üçün bir sıra riyazi formullardan istifadə edilir. Bunlar içərisində Kobb-Duqlas istehsal funksiyası olduqca məşhurdur. Qeyd edək ki, Azərbaycan iqtisadçılarından Y.Həsənlinin 2017-ci ildə çap olunmuş əsərində Kobb-Duqlas istehsal funksiyasının modeli əsasında aşağıdakı kimi nəticələr alınmışdır [4. Səh.25].

$$Y = K^{0,63}L^{0,37}$$

Göründüyü kimi, Azərbaycanda kənd təsərrüfatında məhsul buraxılışının əmək sərfinə görə elastiklik əmsalı 0,37-yə, kapitala görə elastiklik əmsalı isə 0,63-ə bərabərdir. Aparılmış təhlillərdən belə nəticə çıxarmaq olar ki, kənd təsərrüfatında əsas fondların 1 % artımı kənd təsərrüfatının ümumi məhsul buraxılışı həcmini təxminən 0.63 %, kənd təsərrüfatında çalışan işçilərin sayının 1 % artımı kənd təsərrüfatının ümumi məhsul buraxılışı həcmini təxminən 0.37 % artırır.

Analoji tədqiqatı sənaye üçün E. Kərimov həyata keçirmiş və aşağıdakı nəticələr əldə etmişdir [5. Səh.14]:

$$Y = K^{0.69} * L^{0.31}$$

Alınan nəticələr onu göstərir ki, Azərbaycan sənayesinin illər üzrə (2005-2018-ci illər) tədqiqi onu deməyə əsas verir ki, Azərbaycanda sənaye məhsulu buraxılışının əmək sərfinə görə elastiklik əmsalı 0,31-ə, kapitala görə elastiklik əmsalı isə 0,69-ə bərabərdir.

Biz tədqiqatımızda sənayedə investisiya potensialının qiymətləndirilməsi üçün klassik investisiya funksiyası kimi bilinən funksiyaya nəzər salaq.

$$I = I_o + b * Y$$

Burada, $İ_o$ – sənayedə avtonom investisiyanı,

$y$ - sənaye məhsulunun həcmini, $b -$ isə son hədd meyillilikdir. Göstərilən funksiyanı qiymətləndirmək üçün aşağıdakı kimi göstəricilər bazasından istifadə edək.

Belə bir klassik funksiya seçməyimizin səbəbi Azərbaycan iqtisadiyyatı üçün investisiya ilə faiz dərəcəsi arasında qurulan əlaqələrdə faiz dərəcəsinin modelinin

adekvatlıq göstəricilərinə elə də ciddi təsir etməməsi ilə bağlıdır.Ona görə də hesab edirik ki, ölkəmizdə neft sənayesi istisna olmaqla sənayenin digər sahələrinə yönəldilən investisiyanı qiymətləndirmək üçün aşağıdakı cədvəldən istifadə edək.

***Cədvəl № 2. Sənayeye investisiya qoyuluşları və sənaye məhsulu (mln. manat)***

| İllər | Sənaye məhsulunun həcmi (Mədənçıxarma sənayesi istisna olmaqla) | Sənayedə əsas kapitala yönəldilən (Mədənçıxarma sənayesi istisna olmaqla) investisiyalar |
|---|---|---|
| 2005 | 3636.1 | 446 |
| 2006 | 4978.1 | 911 |
| 2007 | 6082.8 | 1093 |
| 2008 | 7142 | 1366 |
| 2009 | 6103.9 | 1137 |
| 2010 | 7115.7 | 1324 |
| 2011 | 8132.6 | 2126 |
| 2012 | 8957.8 | 2183 |
| 2013 | 9242.8 | 2404.4 |
| 2014 | 10129.4 | 1691.6 |
| 2015 | 10007.1 | 1354.8 |
| 2016 | 11108.3 | 1373.1 |
| 2017 | 11859 | 2181.2 |
| 2018 | 12745.5 | 2794.9 |
| 2019 | 14141.7 | 3587.5 |

*Mənbə: https://www.stat.gov.az*

Ölkəmizdə sənayeye investisiya qoyuluşları və sənaye məhsulu arasındakı əlaqənin qrafik forması aşağıdakı kimidir. Klassik investisiya modelinə əsaslanaraq funksiya Eviews proqramı əsasında qiymətləndirilmədə aşağıdakı kimi qiymət almışdır.

Dependent Variable: MEH
Method: Least Squares
Date: 10/26/20 Time: 16:57
Sample: 2005 2019
Included observations: 15
MEH=C(1)+C(2)*IN

| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| C(1) | 3362.706 | 1030.661 | 3.291776 | 0.0058 |
| C(2) | 0.78299 | 0.542071 | 5.716957 | 0.0001 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.8715434 | Mean dependent var | 8758.933 |
| Adjusted R-squared | 0.793544 | S.D. dependent var | 2978.087 |
| S.E. of regression | 1648.623 | Akaike info criterion | 17.77683 |
| Sum squared resid | 35333437 | Schwarz criterion | 17.87124 |
| Log likelihood | -131.3263 | Hannan-Quinn criter. | 17.77583 |
| F-statistic | 32.68359 | Durbin-Watson stat | 1.569360 |
| Prob(F-statistic) | 0.000071 | | |

$$İ = 3362.706 + 0.7899 * b$$

*R=0,87 DW=1,56* modelini alarıq.

Alınan model göstərir ki, Azərbaycanda sənayedə əsas kapitala yönəldilən investisiya ilə sənaye məhsulunun həcmi arasında düz əlaqə(xətti funksiya) vardır. Model onu göstərir ki, sənayedə investisiya qoyuluşlarının sənaye məhsulunun artımına son hədd meyilliliyi 0,79%-ə bərabər olar. Modelin determinasiya əmsalının 87%, Darvin-Vatson əmsalının isə 1,56-ya bərabər olduğu görünür. Modeldən alınan əsas nəticə budur ki, Azərbaycanda sənayedə əsas kapitala yönəldilən investisiya ilə sənaye məhsulunun həcmi arasında düz əlaqə (xətti funksiya) var və model onu göstərir ki, sənayedə investisiya qoyuluşlarının 1% artması sənaye məhsulunun artıma son meyilliliyinin həcmi isə 0,8%-ə həcmində artıra bilər.

Keynsin multiplikator konsepsiyasına əsaslanaraq deyə bilərik ki, multiplikator əmsalı investisiya həcminin artması ilə gəlirin artması arasında münasibəti ifadə edir və aşağıdakı kimi göstərilir.

$$\Delta Y = \frac{1}{1 - b} \Delta I$$

burada: $\Delta Y$ - gəlirin artımı, $\Delta I$ - investisiyanın artımı, b – stehlaka son hədd meyilliliyidir. Göstərilən modelə əsaslanaraq deyə bilərik ki, sənayedə bir vahid investisiyanın artması sənaye məhsulunun həcmini 3.33 vahid $\frac{1}{1-0,7} = 3.33$ artıra bilər.

Maliyyə və investisiya resursları içərisində qeyd etdiyimiz üçüncü amil - bankların, fondların, investisiya şirkətlərinin və s. fəaliyyəti nəticəsində iqtisadiyyata yönəldilən investisiyalardır.

Maliyyə və investisiya infrastrukturuna malik qurumların fəaliyyəti çərçivəsində maliyyə və investisiya resurslarının formalaşması, iqtisadiyyatın qeyri-neft sektorunda neft və qaz gəlirlərinin yenidən bölüşdürülməsi və Azərbaycan regionlarında davamlı sənaye inkişafı daxil olmaqla, ilk növbədə, dövlətin iqtisadi siyasətinin prioritetlərini həyata keçirmək məqsədi daşıyır.

Maliyyə alt sistemlərini makro səviyyədə vahid şəkildə birləşdirən maliyyə qurumları, milli iqtisadiyyatın əsas hissəsini təşkil edir. Qloballaşma şəraitində maliyyə və investisiya infrastrukturuna malik qurumların resursları iqtisadi inkişafın ən mühüm mənbəyi rolunu oynayır. Bundan əlavə, onların arasında Azərbaycanın bank sistemi və fond bazarı maliyyə və investisiya resurslarının formalaşmasında olduqca zəruri xarakter daşıyır.

Bank sisteminin inkişaf səviyyəsi, bütövlükdə iqtisadiyyatın funksionallığının səmərəliliyi üzərində zəruri təsirə malikdir. Mərkəzi bankların investisiya potensialı, sənaye müəssisələrini bank xidmətlərinin tam paketi ilə təmin etmək imkanı ilə xarakterizə olunur ki, bu da həm bankların kommersiya maraqlarını, həm də ölkənin maliyyə və pul-kredit sahəsində milli sosial-iqtisadi maraqlarını təmin edir. Son illərdə ölkə iqtisadiyyatına bank sisteminin kredit qoyuluşlarını aşağıdakı cədvəllə göstərmək olar.

***Cədvəl № 3. İqtisadiyyata kredit qoyuluşlarının kredit təşkilatları üzrə strukturu (mln. man və faizlə)***

| **İllər** | **Cəmi kredit qoyuluşları** | **Dövlət bankları** | | **Özəl banklar** | | **Qeyri-bank kredit təşkilatları** | |
|---|---|---|---|---|---|---|---|
| 2012 | 12243,7 | 4137,1 | 33,8 | 7785,5 | 63,6 | 321,1 | 2,6 |
| 2013 | 15422,9 | 5300,4 | 34,4 | 9689,4 | 62,8 | 433,1 | 2,8 |
| 2014 | 18542,6 | 6143,8 | 33,1 | 11873,6 | 64,0 | 525,2 | 2,8 |
| 2015 | 21730,4 | 7289,3 | 33,6 | 13875,2 | 63,8 | 566,0 | 2,6 |
| 2016 | 16444.6 | 5749.2 | 35.0 | 10222.0 | 62.2 | 473.4 | 2.9 |
| 2017 | 11757.8 | 1916.2 | 16.3 | 9421.4 | 80.1 | 420.2 | 3.6 |
| 2018 | 13020.3 | 2098.4 | 16.1 | 10529.8 | 80.9 | 392.0 | 3.0 |
| 2019 | 15298.2 | 2561.5 | 16.7 | 12339.4 | 80.7 | 397.2 | 2.6 |

*Mənbə: https://www.cbar.az*

Statistik məlumatlar təsdiqləyir ki, ümumiyyətlə bank sektorunun ölkə iqtisadiyyatının kreditləşməsində rolu böyükdür və burada bankların rolu ildən-ilə artır. Əgər 2012-ci ildə ölkə iqtisadiyyatına kredit qoyuluşları 12,2 mlrd. man olmuşdursa, bu göstərici 2019-cu ildə 15,3 mlrd. manat səviyyəsində və ya 25% artmışdır. Təbii ki, bu kreditləşmədə özəl bankların rolu böyükdür.

Ümumiyyətlə, Azərbaycanın investisiya şirkətlərinin və fondlarının fəaliyyəti, kollektiv investisiya qurumlarının formalaşdırılmasına yönəldilmişdir ki, bu da yalnız sənaye müəssisələrinin və digər hüquqi şəxslərin vəsaitlərini deyil, eləcə də əhali və ev təsərrüfatı ilə bağlı maliyyə və investisiya resurslarını toplamağa imkan yaradır. Azərbaycanda ən böyük kollektiv investisiya qurumları Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və Xəzər Beynəlxalq İnvestisiya Şirkəti (CIIC) kimi şirkətlər, o cümlədən "InvestAZ", "Synergy Group", "AzFinance İnvestisiya Şirkəti", "ALMA Konsaltinq və İnvestisiya", "Option", "Xəzər İdarəetmə Sistemləri", "PASHA Capital" İnvestisiya şirkəti və s. kimi investisiya fondları və şirkətlərdir.

Faktiki olaraq, maliyyə və investisiya qurumları pul vəsaitlərinin formalaşması ilə bərabər, onların yığılması və yenidən bölüşdürülməsində mühüm funksiyanı icra edir. Maliyyə və investisiya infrastrukturuna malik qurumların fəaliyyəti, əmanətlərin makroiqtisadi səviyyədə investisiyaya çevrilməsinə yardımçı olmaqdır ki, bu da nəticədə milli sənayenin iqtisadi inkişaf üçün maliyyə şərtlərini formalaşdırır. Bu baxımdan əhali və ev təsərrüfatı ilə bağlı maliyyə və investisiya resurslarını nəzərdə keçirmək maraqlı olar.

***Cədvəl № 4. Əhalinin gəlirləri və xərcləri (cari qiymətlərlə, milyon manatla)***

| **İllər** | **2005-2010** | **2011-2016** | **2017-2019** |
|---|---|---|---|
| Gəlirlər- cəmi | 101,763.8 | 184,073.1 | 204,455.7 |
| Xərclər-cəmi | 78,527.5 | 140,532.2 | 183,758.0 |
| Qənaətlər | 23,236.3 | 43,540.9 | 20,697.7 |

*Mənbə: https://www.stat.gov.az/*

Cədvəl məlumatları göstərir ki, əhalinin cəmi gəlirləri 2011-2016-cı illərdə 2005-2010-cu illərə nisbətən 81%, xərcləri 79%, sərəncamda qalan qənaət isə 87,4% olduğu halda, bu göstərici 2005-2010-cu ilə 2017-2019-cu illərə nisbətən 48,8%, xərcləri 30,8% sərəncamda qalan qənaət isə 47,5% artmışdır.

Makroiqtisadi nəzəriyyədən məlumdur ki, əhalinin sərəncamında qalan qənaət əsasən gələcək dövrlərdə investisiya kimi istifadə olunur. Buna görə də makroiqtisadiyyatda qənaət investisiyaya bərabər edilir ($S = I$).

Əhalinin qənaətinin investisiya kimi çıxış etməsinin əsas mənbəsi kimi əhalinin banklara yerləşdirilən əmaəntləri olur. Bu baxımdan əhalinin banklara yerləşdirilən əmanətlərinə nəzər salmaq maraqlıdır.

***Cədvəl № 5. Əhalinin banklardakı əmanətləri (ilin sonuna, mln. manat)***

| İllər | 1995-2000 | 2001-2006 | 2007-2011 | 2012-2016 | 2017-2020 |
|---|---|---|---|---|---|
| Əhalinin banklardakı əmanətləri | 234.2 | 2,239.4 | 6,025. | 35,620.2 | 32,752.4 |
| milli valyuta ilə | 101.0 | 380.6 | 5,694.0 | 14,212.0 | 16,330.3 |
| xarici valyuta ilə | 133.2 | 1,858.8 | 2,706.7 | 21,408.2 | 16,422.1 |

*Mənbə: https://www.stat.gov.az*

Cədvəl məlumatlarından göründüyü kimi əhalinin banklardakı əmanətləri təhlil üçün görülən bütün dövrlərdə (son dövr 2017-2020-ci illər istisna olmaqla) artmışdır. Son dövr kimi götürülən 2017-2020-ci illərdə banklarda əhalinin əmanətlərinin azalmasının səbəbi 2016-2020-ci illərdə bir sıra bankların ("AGBank" ASC, "NBCBank" ASC, "Amrahbank" ASC və "AtaBank"ASC və s.) ləğvi olmuşdur.

Əhalinin banklardakı əmanətlərinin təhlilində əsas məqamlardan biri də əhalinin hansı valyuta ilə əmanət yerləşdirməsidir. Belə ki, 1995-2000-ci illərdə əhalinin əmanətlərinin 56,9%-i xarici valyutada olmuşdursa, 2001-2006-cı illərdə bu göstərici 83%, 2007-2011-ci illərdə 45% 2007-2011-ci illərdə 60,1%, 2017-2020-cı illərdə 50,1% olmuşdur. Göründüyü kimi yalnız 2007-2011-ci illərdə əhalinin banklarda olan əmanətlərinin çox hissəsi manatla olmuşdur ki, bu da həmin dövrdə milli valyutanın məzənnəsinin möhkəmlənməsi ilə bağlı olmuşdur. Əmanətlərin daha çox hissəsinin xarici valyutada olması əsasən manata inamın az olmasından irəli gəlir.

Məlumdur ki. kənd təsərrüfatı müəssisələri əsasən dövlətdən aldıqları subsidiyalar hesabına fəaliyyət göstərə bilirlər. Bu baxımdan kənd təsərrüfatında xüsusi investisia axtarmağı məqsədəuyğun bilmirik. Bu baxımdan sənaye müəssisələrinin sahib olduğu maliyyə və investisiya resursları da investisiya prosesində böyük əhəmiyyətə malikdir. Ümumi və xalis mənfəət maliyyə və investisiya fondları kimi çıxış edir.

***Cədvəl № 6. Sənaye müəssisələrində mənfəət (milyon manatla)***

| İllər | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Ümumi mənfəət | 15803,0 | 19902,6 | 25466,4 | 32643,1 | 30271,5 |
| Xalis mənfəət | 14318,0 | 18338,1 | 23986,8 | 31104,8 | 28779,9 |

*Mənbə: https://www.stat.gov.az/*

Cədvəl məlumatlarından göründüyü kimi 2015-ci illə müqayisədə 2019-cu ildə müəssisələrin xalis mənfəəti demək olar ki, 100% artmışdır. Bu da gələcəkdə reinvestisiya kimi sənaye sahələrinə yenidən qoyuluşuna ümid yaradır.

## NƏTİCƏ

Beləliklə, investisiya bazarının bütün iştirakçıları (özəl investorlar, sənaye müəssisələri, xarici şirkətlər, bank sistemi, fond bazarı strukturları, investisiya fondları və şirkətləri, o cümlədən dövlət maliyyə qurumları), milli iqtisadi miqyasda maliyyə və investisiya resurslarının formalaşdırılması prosesinə cəlb olunur. Eyni zamanda, maliyyə və investisiya infrastrukturuna malik qurumlara investisiya resurslarının formalaşması ilə bərabər, yerli sənayenin prioritet sahələri və sektorları üzrə yenidən bölüşdürülməsində mühüm yer verilir.

Azərbaycanda sənaye müəssisələrinin investisiya aktivliyinin artması ilıə bağlı məsələ, iqtisadiyyatın real sektorunun davamlı inkişafında və ölkədə modernləşmə və iqtisadi artım strategiyasının həyata keçirilməsində açar rolu oynayır. Yaradıcı tərəfindən irəli sürülən çox kanallı maliyyələşdirmə sisteminin modeli, investisiya resurslarının idarəçiliyində inteqrasiya olunmuş yanaşmanı nəzərə alaraq yerli sənaye müəssisələrinin maliyyə və investisiya potensialının formalaşmasında və qurulmasında mühüm rol oynayır.

Bundan əlavə, Azərbaycan sənayesində modernləşmə dəyişikliklərinin tətbiqinə duyulan ehtiyac, yüksək texnoloji istehsal sahələrinin aktivləşməsi üçün xüsusi şərtlər yaradır ki, bu da "bilik iqtisadiyyatı"nın intellektual kapitalının inkişafına yönəldilmiş əlavə dəyərin önəmli dərəcədə artmasını təmin edə bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Kooperasiya Unveristeti Kooperasiya elmi-praktiki jurnal (№3 (58) səh. 12-16. 2020).

2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) yaradılması haqqında" 29 dekabr 1999-cu il tarixli və 240 nömrəli Fərmanı.

3. Əliyev A.R. Dövlətin investisiya siyasəti və onun təkmilləşdirilməsi yolları Əliyev // Audit və maliyyə təhlili. - 2012. - № 6. - s. 305-311.

4. Əliyev T.N. Azərbaycanın sənayesinin innovativ inkişafı: neft emalı, kimya və neft kimyası: monoqrafiya / T.N.Əliyev. - M .: Palmarium akademik nəşriyyat, 2016. - 232 p.

5. Əliyev V.N. Azərbaycanın qeyri-neft sektorunda ixrac potensialının istifadəsini tənzimləyən problemlər / V.N. Əliyev // Maliyyə analitikası: problemlər və həlləri. - 2011. - № 3 (45). - 75-79.

6. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu 28 dekabr 2018 il.

7. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

8. Statistika xəbərləri (2017-01) səh. 19-30.

9. Yadulla Həsənli, Rasim Həsənov. İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi. Nafta-Press, 2002, 334 s.

10. Ализаде Ф. В Азербайджане самые доступные кредиты – для горожан и бизнесменов Баку [Электронный ресурс] / Ф. Ализаде // // Новостное агентство Sputnik.–2019.–15июля.–URL: https://az.sputniknews.ru/economy/20190715/421115172/vydachi-kreditov-baku-regionah-procentnye-stavki.html.

11. Багиров О. InvestAZ об условиях проведения IPO [Электронный ресурс] / О.Багиров // Информационно-аналитическое агентство «Вестник Кавказа». – 2018. – 13 ноября. – URL: https://vestikavkaza.ru/analytics/%C2%A0InvestAZ-ob-usloviyakh-provedeniya-IPO.html.

12. Гуськова Н. Д., Краковская И. Н., Слушкина Ю. Ю. Инвестиционный менеджмент. КНОРУС, 2016. 438 с.

13. Лбова Е.С. Особенности анализа инвестиционного потенциала

финансово неустойчивых предприятий 2017, Том 8, № 2, С. 184 – 189.

14. ШВАКОВ Е.Е. Инвестиционный потенциал промышленного предприятия, его оценка,формирование и развитие* “Финансы и кредит” 3 (2016) 54–64.

## *ВОЗМОЖНОСТИ ФОРМИРОВАНИЯ ФИНАНСОВЫХ И ИНВЕСТИЦИОННЫХ РЕСУРСОВ НА ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ АЗЕРБАЙДЖАНА*

*Парвана МАМЕДОВА*

### *Резюме*

*В статье рассматривается механизм формирования финансовых и инвестиционных ресурсов и источники формирования этого механизма в Азербайджане. Эти источники включают финансовые и инвестиционные ресурсы из существующих минеральных ресурсов, финансовые и инвестиционные ресурсы за счет притока иностранных инвестиций, финансовые и инвестиционные ресурсы от предприятий с финансовой и инвестиционной инфраструктурой (банки, фонды, инвестиционные компании и т. Д.), Население и жилье. Финансовые и инвестиционные ресурсы, относящиеся к экономике, производственной деятельности, а также финансовые и инвестиционные ресурсы, формируемые за счет собственности промышленных предприятий. Были выявлены тенденции, проанализированные этими источниками. В частности, одним из таких анализов был анализ линейной зависимости между инвестициями в основной капитал в промышленности и объемом промышленного производства в Азербайджане. Установленная модель охватывает период 2005-2019 гг., И было установлено, что увеличение инвестиций в промышленность на 1% и окончательная склонность промышленного производства к росту будет равна 0,8%.*

***Ключевые слова:*** *промышленные предприятия, финансовые и инвестиционные ресурсы, производственная деятельность, иностранные инвестиции, население и домохозяйства и др.*

## *POSSIBILITY OF FORMATION OF FINANCIAL AND INVESTMENT RESOURCES IN INDUSTRIAL ENTERPRISES OF AZERBAIJAN*

*Parvana MAMMADOVA*

### *Abstract*

*The article considers the mechanism of formation of financial and investment resources and the sources of formation of this mechanism in Azerbaijan. These sources include financial and investment resources from existing mineral resources, financial and investment resources from foreign investment flows, financial and investment resources from enterprises with financial and investment infrastructure (banks, funds, investment companies, etc.), population and housing. financial and investment resources related to the economy, production activities and financial and investment*

*resources formed from the ownership of industrial enterprises. Trends analyzed by these sources have been identified. Specifically, one of such analyzes was the analysis of the linear relationship between investment in fixed assets in industry and the volume of industrial output in Azerbaijan. The established model covers the years 2005-2019, and it was found that a 1% increase in investment in industry and the final propensity of industrial output to grow will be equal to 0.8%.*

***Key words:*** *industrial enterprises, financial and investment resources, production activities, foreign investment, population and households, etc.*

*UOT 338.001.36*

# MDB ÖLKƏLƏRİNİN İNNOVASİYA SİSTEMİNİN SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ

*Mətanət Rəsul qızı RƏSULOVA, i.e.n., dos.,*
*Bakı Dövlət Universitetinin Maliyyə və menecment kafedrasının dosenti,*
*matanatrasulova@bsu.edu.az,*

*Nilufər Usman qızı MURADOVA,*
*Bakı Dövlət Universitetinin Maliyyə və menecment kafedrasının baş müəllimi, nilufermuradova@bsu.edu.az*

***“Azərbaycan yeni texnologiyalara, innovasiyalara hazırdır”***
Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

## *Xülasə*

*İqtisadiyyatın uğuru həm innovativ potensialın olması, həm də onun həyata keçirilməsi üçün şərtlərlə əlaqələndirilir. Məqalədə innovasiya aləmində Azərbaycanın mövqeyini müəyyənləşdirmək məqsədilə ABŞ-ın Nyu-York ştatının İtaka şəhərində yerləşən Kornell Universiteti, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (WIPO) və NSEAD Biznes məktəbi (Fransa) tərəfindən 132 ölkəni əhatə edən, 7 qrupda birləşən 80 (82) indikator əsasında hesablanan Qlobal İnnovasiya İndeksi (QİI) ilə bağlı nəticələr araşdırılır. QİI dünya ölkələrinin iqtisadi inkişafının müxtəlif səviyyələrində innovativ inkişafını ətraflı xarakterizə edir. QİI iki altindeksin orta göstəricisi kimi hesablanır: 1) İnnovasiya resursları altindeksi (The Innovation Input Sub-Index) milli iqtisadiyyatın innovativ fəaliyyəti təmin edən elementlərini əhatə edən beş sütundan ibarətdir; 2) İnnovasiya nəticələri altindeksi (The Innovation Output Sub-Index) ölkədə innovativ fəaliyyətin nəticələrinə dair məlumatları əhatə edir. İnnovasiyanın səmərəliliyi indeksi iki indeksin nisbəti kimi təyin olunmaqla bu və ya digər ölkədə innovasiyanı inkişaf etdirmək səylərinin səmərəliliyini obyektiv qiymətləndirməyə imkan verən nisbi anlayışdır.*

*Məqalədə QİI-nin hesablanmasında istifadə olunan indikatorlar üzrə Azərbaycan və digər MDB ölkələri üzrə son illərin nəticələri araşdırılmış, bəzi ölkələırin innovasiya sisteminin güclü və zəif tərəfləri müəyyənləşdirilmişdir.*

*Əsasən, QİI-nin indikatorlarından biri kimi elmi fəaliyyətin qiymətləndirmə göstərici olan Hirş indeksinin (h-indeks) metodologiyası öyrənilmiş, bu indikator üzrə Azərbaycanın mövqeyinin mövcud səviyyəsinin aşağı olması müəyyənləşdirilmişdir. Hirş indeksi 2005-ci ildə Kaliforniyanın San-Diyeqo Universitetinin amerikan fiziki Horx Hirş tərəfindən alimlərin əsərlərinə məcmu istinadların sayını özündə əks etdirən klassik “istinad indeksi”nə alternativ olaraq təklif edilmişdir. Bu indeks müəlliflərin nəşrlərinin sayı və bu nəşrlərə istinadların sayı əsasında hesablanır. Analoji şəkildə bu indeks elmi jurnal, müəssisə və ölkə üçün də hesablana bilir.*

*Tədqiqatın sonunda Azərbaycan üçün h-indeksin qiymətinin yaxşılaşdırılması istiqamətində Rusiya təcrübəsinə əsaslanaraq müəyyən təkliflər verilmişdir. Məlumdur ki, tədqiqatçıların hər biri üçün h-indeksin yaxşılaşdırılması, eyni zamanda, ölkə və ya*

*müəyyən müəssisə və jurnallar üzrə h-indeksin səviyyəsinin yaxşılaşmasına təsir edəcək:*

*• tədqiqatçıların yüksək elmi əhəmiyyətli orijinal məqalələrinin nəşrinə nail olunması;*

*• karyeraya yeni başlayan tədqiqatçıların elmi göstəriciləri yüksək olan nüfuzlu elm adamları ilə həmmüəllif kimi elmi məqalələrinin dərc edilməsi;*

*• yalnız AAK-nın jurnallarında deyil, ingilis dilli nəşrlərdə (Scopus, Web of Science) məqalələrin nəşrinə nail olunması;*

*• tədqiqatçıların öz həmkarları ilə istinad mübadiləsi;*

*• ədəbiyyat siyahısının tərtib olunmasında dövlətlərarası standartların tələblərinə ciddi riayət olunması;*

*• məqalənin nəşrə təqdim olunması zamanı şəxsi məlumatların düzgün yazılışına diqqətin artırılması;*

*• tədqiqatçılar tərəfindən müxtəlif bazalarda məqalələrinin indeksləşdirilməsinə ciddi nəzarətin artırılması.*

*Tədqiatçılar (müəllim, doktorant) qarşısında nüfuzlu jurnallarda məqalələrin dərc edilməsi tələbinin qoyulması h-indeksinin yaxşılaşdırılması probleminin həlli kimi qəbul edilə bilməz. Bu indeksin yaxşılaşdırılması üçün digər birbaşa və dolayı təsir edən indikatorların yaxşılaşdırıması istiqamətində də islahatlar aparılmalıdır:*

*➢ tədqiqatçılara nüfuzlu nəşrlərdə məqalələr çap etdirilməsi ilə bağlı imkanların yaradılması;*

*➢ maliyyə mənbələri və maliyyələşmə mexanizmi müəyyənləşdirilməlidir.*

*Ümumiyyətlə, Azərbaycanın QİI-də mövqeyinin yaxşılaşdırılması üçün geniş Tədbirlər Planı hazırlanmalı və həyata keçirilməlidir. Bu məqsədlə 82 indikator üzrə reytinq göstəricilər təhlil olunmalı, ən aşağı mövqedə qərarlaşan idikatorlar üzrə problemlər və onların həlli yolları müəyyənləşdirilməlidir. QİI-nin hesablanması üçün dəqiq məlumatların ötürülməsi təmin olunmalıdır.*

***Açar sözlər:** Qlobal İnnovasiya İndeksi, innovasiya, h-indeks, indikator, reytinq, istinad*

## Giriş

Müasir dövrdə ölkə iqtisadiyyatının modernləşməsi, qeyr-neft sektorunun inkişaf etdirilməsi, yerli məhsulların rəqabətqabiliyyətliliyinin artırılması və ixracın diversifikasiyasına nail olunması ən aktual mövzu olaraq qalır. Bu problemlərin həlli ölkə iqtisadiyyatına tətbiq olunan yeniliklərin keyfiyyətindən və həcmindən, innovasiya fəaliyyətinin strateji və təşkilati cəhətdən formalaşması prosesindən əhəmiyyətli dərəcədə asılıdır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, innovasiya fəaliyyətinin daha da səmərəli mexanizmlərinə sahib olan, yeniliklərin vacibliyini anlayan və inkişaf etdirilmiş infrastruktura malik olan ölkə iqtisadiyyatlarının subyektləri qlobal bazarların rəqabət mübarizəsində rəqiblərinə asanlıqla qalib gəlirlər. Bu gün innovasiyalar, tədqiqatlar və işləmələr (R&D) – inkişaf etmiş və inkişaf etməkdə olan əksər ölkələrin siyasi ambisiyalarının mühüm tərkib hissəsidir. Reytinq ekspertləri qeyd edirlər ki, tədqiqat və işləmələrə qlobal xərclər artmaqda davam edir, onların biznesdə payı isə artırılır. Ölkə iqtisadiyyatının uğuru həm innovativ potensialın olması, həm də onun həyata keçirilməsi üçün şərtlərlə əlaqələndirilir.

Tədqiqat işində innovasiya aləmində Azərbaycanın mövqeyini müəyyənləşdirmək məqsədilə ABŞ-ın Nyu-York ştatının İtaka şəhərində yerləşən

Kornell Universiteti (Cornell University), Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (World Intellectual Property Organization-WIPO) və NSEAD Biznes məktəbi (Fransa) tərəfindən 132 ölkəni əhatə edən, 7 qrupda birləşən 81 indikator əsasında hesablanan Qlobal İnnovasiya İndeksi (QİI) ilə bağlı bəzi nəticələr təhlil edilmişdir.

Məlumdur ki, QİI dünya ölkələrinin iqtisadi inkişafının müxtəlif səviyyələrində innovativ inkişafını ətraflı xarakterizə edir. QİI iki altindeksin orta göstəricisi kimi hesablanır:1) İnnovasiya resursları altindeksi (The Innovation Input Sub-Index) milli iqtisadiyyatın innovativ fəaliyyəti təmin edən elementlərini əhatə edən beş sütundan – institutlar (Institutions), insan kapitalı və tədqiqat (Human capital and research), infrastruktur (Infrastructure), bazar mühitinin inkişafı (Market sophistication), biznesin inkişafı (Business sophistication) ibarətdir; 2) innovasiya nəticələri altindeksi (The Innovation Output Sub-Index) ölkədə innovativ fəaliyyətin nəticələrinə dair məlumatları əhatə edir və iki sütundan – bilik və texnoloji inkişaf (Knowledge and technology outputs), kreativ nəticələrdən (Creative outputs) ibarətdir. İnnovasiyanın səmərəliliyi indeksi iki indeksin nisbəti kimi təyin olunmaqla bu və ya digər ölkədə innovasiyanı inkişaf etdirmək səylərinin səmərəliliyini obyektiv qiymətləndirməyə imkan verən nisbi anlayışdır. Beləliklə, QİI ölkələr üzrə mövcud innovasiya potensialı sayəsində məcmu innovasiya verimini əks etdirir.

QİI-nin hesablanmasında istifadə olunan göstəricilər qeyd etdiyimiz kimi kifayət qədər çox olduğundan hərtətəfli təhlillərin aparılması geniş tədqiqatların həyata keçirilməsini tələb edir. Bu məqalədə yalnız Azərbaycan və MDB ölkələrinin innovasiya aləmində mövqeyini öyrənməklə, bəzi ölkələrin zəif və güclü tərəflərini, xüsusilə, innovasiya nəticələri altindeksinin "Bilik və texnoloji tərəqqi" indikatorlar qrupunun "Biliyin yaradılması" altqrup göstəricilərindən olan "istinad olunan sənədlər h-indeksin (Citable documents H index)" hesablanma metodikasını araşdırmaqla, bu göstərici üzrə mövqeləri təhlil edib müəyyən nəticələr almaqla kifayətlənmişik.

**Metodologiya**

Elm dünyasının ən hörmətli meyarlarından biri Nobel mükafatı olsa da, hər kəs bu mükafatı ala bilmir. Bu səbəbdən elmi fəaliyyəti qiymətləndirmək üçün bəzi digər meyarlardan istifadə edilməsinə ehtiyac vardır. Dünya təcrübəsində elm adamlarının fəaliyyətini izləmək, elmi məhsuldarlıq, səmərəlilik baxımından ölçmək və qiymətləndirmək üçün bir çox meyarlar hazırlanmışdır. Bu mənada mükəmməl adlandıra biləcəyimiz bir meyar hələ olmasa da, bu gün istifadə olunan meyarlar və ümumi bir qiymətləndirmə h-index fərqli bir yerə sahibdir. Məlumdur ki, hər hansı bir qiymətləndirmə üçün əsas məsələ meyarların müəyyən olunmasıdır. Bu baxımdan belə bir indeksə ehtiyacımız var.

Elmi nəşr performansının qiymətləndirilməsində məlum olan ən çox istifadə edilən meyarlar:

*1) məcmu nəşrlərin sayı.* Məhsuldarlığı göstərmək baxımından mühüm meyardır, lakin nəşrin əhəmiyyəti və səmərəliliyi haqqında məlumat vermədiyi üçün yalnız bu kifayət deyil;

2) *məcmu istinadların sayı.* Tədqiqat nə dərəcədə səmərəlidir. Bu mühüm bir göstərici olsa da, elmi araşdırmaların dəyərini tam əks etdirmir. Üstəlik, bir nəşrə yüksək dərəcədə istinad olunması onun səmərəli olması demək deyil. Nəşr mənfi tərəfinə görə də diqqəti cəlb edə biər və ona çoxlu istinad oluna bilər;

3) *nəşr başına düşən istinad sayı;*

4) *ixtisaslaşmış nəşrlərin sayı.*

QİI-nin hesablanması göstəricilərindən biri olan Hirş indeksi (h-indeks) – elmi fəaliyyəti qiymətləndirmə göstərici olub, 2005-ci ildə Kaliforniyanın San-Diyeqo Universitetinin amerikan fiziki Xorxe Hirş tərəfindən alimlərin əsərlərinə məcmu istinadların sayını özündə əks etdirən klassik "istinad indeksi"nə alternativ olaraq təklif edilmişdir[6]. Bu indeks müəlliflərin nəşrlərinin sayı və bu nəşrlərə istinadların sayı əsasında hesablanır. Analoji şəkildə bu indeks elmi jurnal, müəssisə və ölkə üçün də hesablana bilir.

h-indeks = h o deməkdir ki, əgər N sayda məqalənin hər birinə minimum h dəfə istinad olunubsa, bu zaman qalan (N-h) sayda məqaləyə h < sayda istinad olunmuşdur. Nümunə 1: h-indeks =10. Bu o deməkdir ki, müəllifin 10 sayda nəşr olunmuş işinin hər birinə ən azı 10 dəfə istinad edilib. Müəlliflərin sayı çox olduqda hesablamada problem yarana bilər. Nümunə 2: müəllif yalnız bir məqalə yazıb, məqalə hansısa cəhətdən böyük əhəmiyyət kəsb etdiyinə görə ona 40 dəfə istinad olunub. Bu zaman h-indeks vahidə bərabər olacaq.

Bütün digər göstəricilər kimi h-indeksinin də üstün və çatışmayan cəhətləri vardır. Yuxarıda qeyd etdiklərimizdən belə qənaətə gəlinir ki, bir ədəd səviyyəli məqalə yazmış və istinad sayı kifayət qədər olan müəlliflə bir çox məqalənin müəllifi olub yalnız 1-dən çox istinad əldə etməyən müəllif üçün h-indeks eyni olacaqdır. 16 il ərzində Hirş indeksinə alternativ indekslər – Hirş indeksin modifikasiya olunmuş variantı $h_\alpha$-indeks, g-indeks, G1-indeks, α-indeks, hg- indeks və q2- indeks, Contemporary h-index, m-indeks, i10-indeks, i-indeks – təklif olunsa da, bu indeks hal-hazırda da daha geniş tətbiq olunur [5].

Hirş indeksi bütün elmi fəaliyyəti dövründə müəllifin məhsuldarlığının kəmiyyət xarakteristikasıdır. O *Scopus* və *Web of Science* məlumat bazalarında təqdim olunur. H-indeks internetdə hamı üçün əlyetərli ödənişsiz məlumat bazalarından istifadə etməklə hesablanıla bilər. Nümunə üçün *Google Scholar*–ı qeyd edə bilərik (burada; ödənişsiz *Publish or Perish* proqramından istifadə etmək əlverişlidir). Nəzərə almaq lazımdır ki, ödənişsiz xidmətlər tam olmaya da bilər. Bundan əlavə, təcrübələr göstərir ki, tədqiqatçıların soyadlarının və jurnalların adının transkripsiyasına (yazılışına) görə h-indeksi adətən reallığı əks etdirmir. *WoS* (*Web of Science*)-a nisbətən Scopus məlumatlarına görə h-indeksin qiyməti adətən aşağı olur, belə ki, Scopus istinadları 1995-dən başalyaraq nəzərə alır.

Beləliklə, istər fərd, istər müəssisə, istərsə də ölkə səviyyəsində Hirş indeksinin yüksək olması arzuolunandır. Bu indeksin yaxşılaşdırılması üçün əsas iki şərtin ödənilməsi vacibdir. Əvvəla, aktual elmi mövzulara həsr olunan yüksək səviyyəli yeni məqalələrin nəşrinə və ikincisi, həmin məqalələrin elmi mühitdə əhəmiyyətli dərəcədə maraq doğurmasına nail olunmalıdır. Eyni zamanda onu da nəzərə almalıyıq ki, h-indeks müəllifin məqalələrinin ümumi sayından çox ola bilməz. Hirş indeksin müsbət cəhəti ondan ibarətdir ki, stabil olaraq səviyyəli tədqiqatlar aparan və məqalələr nəşr etdirən müəllifləri aşkara çıxarır. Bu indeks o zaman yüksək olur ki, kifayət sayda, kifayət qədər əhəmiyyətli nəşrlər olsun.

**Müqayisəli təhlil**

2021-ci il QİI hesabatına əsasən Azərbaycan və digər MDB ölkələrinin QİI üzrə reytinq göstəricilərinə nəzər saldıqda bu ölkələr arasında ilk üç ölkə olaraq Rusiya 45-ci, Belarus 62-ci, Moldova Respublikası 64-cü və Azərbaycanın isə 80-ci yerdə qərarlaşdığını görürük (şəkil 1).

| Ölkələr | İndekslər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | h-indeks | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ranqlaşdırma | | | | | | | 2019 | 2021 |
| Rusiya | Qlobal İnnovasiya İndeksi | 48 | 43 | 45 | 46 | 46 | 47 | 45 | 35 | 23 |
| | İnnovasiya resursları | 52 | 44 | 43 | 53 | 41 | 42 | 43 | | |
| | İnnovasiya nəticələri | 49 | 47 | 51 | 56 | 59 | 58 | 52 | | |
| Belarus | Qlobal İnnovasiya İndeksi | 53 | 79 | 88 | 86 | 72 | 64 | 62 | 70 | 72 |
| | İnnovasiya resursları | 55 | 64 | 63 | 60 | 50 | 67 | 68 | | |
| | İnnovasiya nəticələri | 58 | 103 | 109 | 110 | 95 | 61 | 62 | | |
| Moldova | Qlobal İnnovasiya İndeksi | 44 | 46 | 54 | 48 | 58 | 59 | 64 | 96 | 96 |
| | İnnovasiya resursları | 74 | 74 | 73 | 79 | 81 | 75 | 80 | | |
| | İnnovasiya nəticələri | 31 | 36 | 42 | 37 | 45 | 48 | 54 | | |
| Ermənistan | Qlobal İnnovasiya İndeksi | 61 | 60 | 59 | 68 | 64 | 61 | 69 | 69 | 70 |
| | İnnovasiya resursları | 69 | 80 | 82 | 94 | 85 | 83 | 85 | | |
| | İnnovasiya nəticələri | 51 | 43 | 47 | 50 | 50 | 47 | 56 | | |
| Qazaxstan | Qlobal İnnovasiya İndeksi | 82 | 75 | 78 | 74 | 79 | 77 | 79 | 110 | 102 |
| | İnnovasiya resursları | 75 | 65 | 64 | 55 | 64 | 60 | 61 | | |
| | İnnovasiya nəticələri | 107 | 90 | 93 | 91 | 92 | 94 | 101 | | |
| Azərbaycan | Qlobal İnnovasiya İndeksi | 93 | 85 | 82 | 82 | 84 | 82 | 80 | 104 | 97 |
| | İnnovasiya resursları | 89 | 81 | 78 | 76 | 77 | 76 | 74 | | |
| | İnnovasiya nəticələri | 103 | 94 | 89 | 87 | 90 | 86 | 91 | | |
| Qırğızıstan | Qlobal İnnovasiya İndeksi | 109 | 103 | 95 | 94 | 90 | 94 | 98 | 125 | 120 |
| | İnnovasiya resursları | 94 | 92 | 86 | 85 | 78 | 88 | 81 | | |
| | İnnovasiya nəticələri | 118 | 109 | 104 | 101 | 111 | 107 | 119 | | |
| Tacikistan | Qlobal İnnovasiya İndeksi | 114 | 86 | 94 | 101 | 100 | 109 | 103 | 128 | 131 |
| | İnnovasiya resursları | 115 | 102 | 100 | 104 | 107 | 108 | 104 | | |
| | İnnovasiya nəticələri | 106 | 69 | 88 | 88 | 83 | 99 | 96 | | |

*Mənbə. Qlobal İnnovasiya İndeksi hesabatlarının məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.*

***Şəkil 1. MDB ölkələrinin QİI üzrə innovasiya göstəricilərinin dinamikası***

2021-ci il QİI hesabatına əsasən MDB ölkələri arasında ilk yerdə qərarlaşan Rusiyada innovasiya sisteminin güclü tərəfləri əsasən aşağıdakı göstəricilər üzrə olmuşdur:

✓ insan kapitalı və tədqiqat - 29: ali təhsil - 14, o cümlədən, ali təhsil üzrə qəbul, ümumi % - 15, elmi və mühəndislik ixtisaslarının məzunları, % - 13; QS universitet ranqı, ilk 3* - 21;

✓ bazarın inkişafı: ticarət, diversifikasiya və bazarın miqyası - 17, Daxili bazar ölçüsü, mlrd. AQP $ - 6;

✓ biznesin inkişafı: elmtutumlu sahədə məşğullar, % -18, qadın məşğulluğu/elmi dərəcəli, % - 10; əqli mülkiyyətə görə ödənişlər, ümumi ticarətdə %-lə -23;

✓ bilik və texnoloji inkişaf: Mənşəyinə görə patentlər/mlrd. $ ÜDM (AQP ilə) - 15; mənşəyinə görə faydalı modellər/ mlrd. $ ÜDM (AQP ilə) - 10; İstinadlar H-indeks – 23.

2021-ci il üçün QİI hesabatına görə Rusiyada innovasiya sisteminin zəif tərəfləri isə əsasən aşağıdakı indikatorlar üzrə olmuşdur:

• institutlar: tənzimləmə keyfiyyəti - 100, qanunun aliliyi - 109;

- infrastruktur: ekoloji dayanıqlılıq -101; ÜDM / enerji istifadəsi vahidi - 117 və ekoloji idarəetmə sistemlərinin İSO 14001 tələblərinə uyğunluğu / mlrd. $ ÜDM (AQP ilə) -107;
- bazarın inkişafı: ümumi mikromaliyyələşmə kreditləri, ÜDM % - 78; investisiyalar - 116, o cümlədən, vençur kapitalı alıcıları, sövdələşmələr / mlrd. $ ÜDM (AQP ilə) - 92;
- biznesin inkişafı: rəsmi treyninq təklif edən firmalar, % - 94, birbaşa xarici investisiyalar, xalis daxilolmalar, ÜDM % - 97;
- bilik və texnoloji inkişaf: ISO 9001 keyfiyyət sertifikatları/ mlrd. $ ÜDM (AQP ilə) - 105.

2021-ci il üçün QİI hesabatı əsasında təhlil edəcəyimiz digər ölkə Moldova Respublikasıdır. Hesabata əsasən Moldova Respublikasının güclü tərəfləri aşağdakı indikatorlar üzrə olmuşdur:

- institutlar: biznesə başlamağın asanlığı -12;
- insan kapitalı və tədqiqat: ÜDM-də təhsilə çəkilən xərclərin faizi ,% ÜDM - 13, orta təhsildə dövlət maliyyələşdirilməsi, % ÜDM/kap - 18, orta təhsildə şagird müəllim nisbəti – 31;
- bilik və texnoloji inkişaf: biliyin yaradılması, o cümlədən mənşəyinə görə patentlər/ mlrd. $ ÜDM (AQP ilə) - 31, Mənşəyinə görə faydalı modellər / mlrd. $ ÜDM (AQP ilə) - 1, İKT xidmətləri ixracı, % məcmu ticarətdə - 15;
- kreativ nəticələr: mənşəyinə görə ticarət markaları / mlrd. $ ÜDM (AQP ilə) - 14; mənşəyinə görə sənaye dizaynları/ mlrd. $ ÜDM (AQP ilə) - 9; Mobil tətbiqlərin yaradılması / mlrd. $ ÜDM (AQP ilə) - 20;

2021-ci il Qlobal İnnovasiya İndeksi hesabatına görə Moldova Respublikasında innovasiya sisteminin zəif tərəfləri isə əsasən aşağıdakı indikatorlar üzrə olmuşdur:

- ✓ insan kapitalı və tədqiqat: Qlobal korporativ R&D investorlar, ilk 3, mln. US$) - 41, QS universitet sıralaması, ilk 3* - 74;
- ✓ infrastruktur: loqistik performans - 108, ÜDM/ enerji istifadəsi vahidi - 107;
- ✓ bazarın inkişafı: daxili bazarın miqyası, mlrd. AQP $ - 116;
- ✓ biznesin inkişafı: biznes müəssisələri tərəfindən R&D ümumi daxili xərclər (GERD), % ÜDM - 76; innovasiya əlaqələri - 119, Universitet-sənaye R&D əməkdaşlığı - 116, Klaster inkişafının vəziyyəti və dərinliyi - 126;
- ✓ kreativ nəticələr: qlobal marka dəyəri, ilk 5.000, % ÜDM - 80, Kreativ mal və xidmətlər: milli bədii filmlər/ mln. 15-69 yaş əhali -101.

2021-ci il Qlobal İnnovasiya İndeksi hesabatına görə MDB ölkələri arasında 3-cü yerdə qərarlaşan Belarusun innovasiya sisteminin güclü tərəfləri əsasən aşağıdakı indikatorlar üzrə olmuşdur:

- ➢ insan kapitalı və tədqiqat - 38: təhsil - 16, o cümlədən, dövlət maliyyələşdirilməsi/şagird, orta, % ÜDM/kap - 5, orta təhsildə şagird-müəllim nisbəti - 17; ali təhsil - 7, o cümlədən, ali təhsil üzrə qəbul, % ümumi - 12, elmi və mühəndislik ixtisaslarının məzunları, % - 11;
- ➢ infrastuktur: informasiya və kommunikasiya texnologiyaları, İKT giriş - 16;
- ➢ biznesin inkişafı: qadın məşğulluğu/elmi dərəcəli, % - 1:
- ➢ bilik və texnoloji tərəqqi: mənşəyinə görə faydalı modellər/ mlrd. $ ÜDM (AQP ilə) - 16; biliyin təsiri - 16, o cümlədən, ISO 9001 keyfiyyət sertifikatları/mlrd AQP $ ÜDM - 3; biliyin yayılması: İKT xidmətlərinin ixracı, məcmu ticarətdə %-lə - 11;
- ➢ kreativ nəticələr: mobil tətbiqlərin yaradılması/ mlrd. $ ÜDM (AQP ilə) - 1.

2021-ci il Qlobal İnnovasiya İndeksi hesabatına görə Belarusda innovasiya sisteminin zəif tərəfləri isə əsasən aşağıdakı indikatorlar üzrə olmuşdur:

- institutlar: siyasi mühit, o cümlədən, siyasət və əməliyyatların dayanıqlılığı - 106, qanunun aliliyi - 112;
- insan kapitalı və tədqiqat: qlobal korporativ R&D investorları, ilk 3, mln ABŞ dolları - 41;
- infrastruktur: ekoloji davamlılıq, o cümlədən ÜDM/enerji istifadəsi vahidi - 103;
- bazarın inkişafı: kredit - 118, o cümlədən ümumi mikromaliyyələşmə kreditləri, ÜDM % - 83; investisiyalar - 112, o cümlədən, vençur kapital investorları, sövdələşmələr/mlrd AQP$ ÜDM - 88;
- biznesin inkişafı: innovasiya əlaqələri, birgə vençurlar / strateji ittifaq sövdələşmələri/mlrd. AQP dol. ÜDM - 111;
- kreativ nəticələr: qeyri -maddi aktivlər - 129, o cümlədən Qlobal marka dəyəri, ilk 5.000, % ÜDM - 80; kreativ mal və xidmətlər: milli bədii filmlər/ min 15-69 yaş əhali -106, Çap və digər media, % istehsal - 90.

2021-ci il üçün Qlobal İnnovasiya İndeksi hesabatında Azərbaycanın innovasiya sisteminin güclü tərəfləri kimi aşağıdakı göstəriciləri qeyd edilmişdir:

➢ institutlar: biznes mühiti - 33; biznesə başlamağın asanlığı - 9;

➢ insan kapitalı və tədqiqat: orta təhsildə şagird-müəllim nisbəti - 8; elmi və mühəndislik ixtisaslarının məzunları, % - 35;

➢ bazarın inkişafı: kredit - 33, o cümlədən, kredit almağın asanlığı - 1, ümumi mikromaliyyələşmə kreditləri, ÜDM % - 13;

➢ biznesin inkişafı: Universitet-sənaye R&D əməkdaşlığı – 23; klaster inkişafının dərinliyi və vəziyyəti - 27; birbaşa xarici investisiyalardan xalis gəlirlər, % ÜDM - 25;

➢ kreativ nəticələr: İKT və təşkilati modelin yaradılması - 35; milli bədii filmlər/ mn pop. 15–69) - 27.

2021-ci il üçün Qlobal İnnovasiya İndeksi hesabatına görə Azərbaycanın innovasiya sisteminin zəif tərəfləri isə əsasən aşağıdakı indikatorlar üzrə olmuşdur:

✓ insan kapitalı və tədqiqat: qlobal korporativ R&D investorlar, ilk 3, mln ABŞ dolları - 41; QS universitet sıralaması, ilk 3* - 74;

✓ infrastruktur: ümumi infrastruktur - 127; ümumi kapitalın yığımı, % ÜDM - 118;

✓ bazarın inkişafı: tətbiq olunan tarif dərəcəsi, orta çəkili, % - 125;

✓ bilik və texnoloji inkişaf: biliyin yayılması - 126, o cümlədən, əqli mülkiyyətdən daxilolmalar, ümumi ticarətdə %-lə - 113, ixrac və istehsalın mürəkkəbliyi - 117;

✓ kreativ nəticələr: kreativ ixrac malları, ümumi ticarətdə %-lə - 122.

Son illərdə ölkəmizdə iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət həyata keçirilir. Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni iqtisadi modelə keçid əsasında aparılan iqtisadi islahatlarda qlobal innovasiyalar trendinə uyğunlaşma prioritet təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş Strateji Yol Xəritələrində də innovasiya yönümlü inkişafa xüsusi yer verilmişdir. Ölkəmizdə aparılan islahatların müsbət təsiri nəticəsində Qlobal İnnovasiya İndeksi üzrə ölkəmiz 2 pillə irəliləyərək 80-ci yerdə qərarlaşmışdır. 2021-ci il Qlobal İnnovasiya İndeksi hesabatına əsasən Azərbaycan innovasiya sistemində

“infrastruktur” indikator qrupu istisna olmaqla bütün subindikatorlar üzrə mövqelərdə irəliləmə və ya sabitlik müşahidə olunur (şəkil 2). Hesabatdan görünür ki, bəzi göstəricilər üzrə ümumiyyətlə ölkə üzrə məlumatlar təqdim olunmamışdır.

| Ölkə | İllər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| **Rusiya** | **Qlobal Innovasiya Indeksi** | **48** | **43** | **45** | **46** | **46** | **47** | **45** |
| | İnstitutlar | 80 | 73 | 73 | 74 | 74 | 71 | 67 |
| | İnsan kapitalı və tədqiqat | 26 | 23 | 23 | 22 | 23 | 30 | 29 |
| | İnfrastruktur | 65 | 60 | 62 | 63 | 62 | 60 | 63 |
| | Bazarın inkişafi | 94 | 63 | 60 | 56 | 61 | 55 | 61 |
| | Biznesin inkişafi | 44 | 37 | 33 | 33 | 35 | 42 | 44 |
| | Bilik və texnoloji inkişaf | 33 | 40 | 45 | 47 | 47 | 50 | 48 |
| | Kreativ nəticələr | 79 | 66 | 62 | 72 | 72 | 60 | 56 |
| **Belarus** | **Qlobal Innovasiya Indeksi** | **53** | **79** | **88** | **86** | **72** | **64** | **62** |
| | İnstitutlar | 94 | 77 | 81 | 81 | 83 | 84 | 85 |
| | İnsan kapitalı və tədqiqat | 32 | 35 | 36 | 34 | 39 | 37 | 38 |
| | İnfrastruktur | 60 | 63 | 67 | 73 | 60 | 58 | 59 |
| | Bazarın inkişafi | 32 | 89 | 90 | 91 | 56 | 107 | 101 |
| | Biznesin inkişafi | 94 | 81 | 65 | 53 | 56 | 67 | 69 |
| | Bilik və texnoloji inkişaf | 32 | 49 | 61 | 65 | 51 | 46 | 37 |
| | Kreativ nəticələr | 94 | 124 | 123 | 122 | 126 | 97 | 93 |
| **Moldova** | **Qlobal Innovasiya Indeksi** | **44** | **46** | **54** | **48** | **58** | **59** | **64** |
| | İnstitutlar | 75 | 68 | 72 | 79 | 82 | 81 | 81 |
| | İnsan kapitalı və tədqiqat | 74 | 51 | 59 | 69 | 64 | 75 | 77 |
| | İnfrastruktur | 82 | 75 | 82 | 81 | 88 | 88 | 82 |
| | Bazarın inkişafi | 52 | 93 | 62 | 60 | 60 | 42 | 74 |
| | Biznesin inkişafi | 83 | 89 | 81 | 90 | 93 | 88 | 87 |
| | Bilik və texnoloji inkişaf | 26 | 31 | 52 | 39 | 44 | 51 | 54 |
| | Kreativ nəticələr | 38 | 34 | 39 | 37 | 49 | 51 | 53 |
| **Azərbaycan** | **Qlobal Innovasiya Indeksi** | **93** | **85** | **82** | **82** | **84** | **82** | **80** |
| | İnstitutlar | 81 | 76 | 74 | 71 | 59 | 59 | 58 |
| | İnsan kapitalı və tədqiqat | 100 | 93 | 108 | 100 | 106 | 89 | 89 |
| | İnfrastruktur | 78 | 73 | 50 | 66 | 70 | 85 | 88 |
| | Bazarın inkişafi | 47 | 27 | 23 | 26 | 31 | 36 | 36 |
| | Biznesin inkişafi | 136 | 123 | 110 | 96 | 103 | 96 | 92 |
| | Bilik və texnoloji inkişaf | 108 | 101 | 104 | 89 | 101 | 118 | 115 |
| | Kreativ nəticələr | 93 | 87 | 87 | 87 | 84 | 65 | 67 |

*Mənbə. Qlobal İnnovasiya İndeksi hesabatlarının məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.*

***Şəkil 2. 2015-2021-ci illər üzrə QİI-nin indikator qrupları üzrə Azərbaycan və MDB ölkələri üzrə ilk 3-lükdə olan ölkələrin mövqeyi***

2021-ci il üçün Qlobal İnnovasiya İndeksi hesabatına əsasən, innovasiya nəticələri altindeksinin “Bilik və texnoloji inkişaf” indikatorlar qrupunun “Biliyin yayılması” altqrup göstəricisi üzrə ölkəmizin ranqı 115-dən 126-ya düşmüşdür. Bu geriliyin səbəbi əsasən, sözügedən indikatorlar qrupunun “Biliyin yayılması” altqrup indikatorlarının tərkibində dəyişmə ilə əlaqədardır. Belə ki, altqrupun 2020-ci ildə dörd indikatorundan biri - birbaşa xarici investisiyalar xalis çıxışlar (FDI net outflows, % GDP) olmuşdur ki, bu indikator üzrə Azərbaycanın ranqı 8 olmuşdur. 2021-ci ildə isə bu indikator İstehsal və ixracın mürəkkəbliyi (Production and export complexity)

indikatoru ilə əvəz edilmişdir ki, bu indikator üzrə ölkəmizin ranqı 117 olmuşdur. Şəkil 3-dən göründüyü kimi Bilik və texnoloji inkişaf indikatorlar qrupu üzrə indikatorların əksəriyyətində irəliləmə müşahidə olunur. Qeyd edək ki, indikatorların qarşısında mötərizədə qeyd olunan rəqəmlərin qarşısındakı müsbət rəqəmlər 2021-ci ildə həmin indikatorlar üzrə neçə pillə irəliləməni, mənfi rəqəmlər isə geriləməni əks etdirir.

Yuxarıda qeyd etdiyimiz kimi indikatorların sayı çox olduğundan məqalədə h-indeks indikatorunun hesablanması metodikası öyrənilmişdir. Bu indikator üzrə ölkələrin mövqelərində son 2 ildə olan dəyişikliyi şəkil 1-dən görə bilərik.

2021-ci il Qlobal İnnovasiya İndeksi hesabatına əsasən, innovasiya nəticələri altindeksinin "Bilik və texnoloji inkişaf" indikatorlar qrupunun "Biliyin yaradılması" altqrup göstəricilərindən olan "istinad olunan sənədlər h-indeksinə görə reytinq göstəricilərində Azərbaycan 97-ci yerdə, Rusiya 23-cü, Belarus 72, Moldova 96-cı yerdə qərarlaşmışdır (şəkil 1). QİI reytinqində MDB ölkələri arasında ilk 3-lükdə olan ölkələrdən yalnız Rusiyanın h-indeks göstəricisi daha yaxşıdır. Bu baxımdan həmin ölkənin təcrübəsini araşdıraraq tədqiqatın sonunda bu indikatorla bağlı müəyyən təkliflər hazırladıq. Əlbəttə ki, bu indeksin yaxşılaşdırlması üçün ilk əvvəl ölkədə insan kapitalının inkişafına nail olunmasıdır.




*Mənbə: Qlobal İnnovasiya İndeksi hesabatlarının məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.*

***Şəkil 3. 2021-ci ildə QİI-nin innovasiya nəticələri altindeksinin "Bilik və texnoloji inkişaf" indikatorlar qrupu üzrə Azərbaycanın mövqeyi***

Təsadüfi deyildir ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə də müəyyən olunmuş strateji hədəflərdən biri insan kapitalının inkişaf etdirilməsidir. Strateji Yol Xəritəsində qeyd olunur ki, insan kapitalı əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında həlledici rol oynayır. Buna nail olmaq üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf

etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur [1]. Ölkəmizdə bu sahədə aparılan islahatların nəticəsidir ki, beynəlxalq reytinqlərdə, eləcə də QİI-də bir çox indikatorlar üzrə Azərbaycanın mövqeyində irəliləmə müşahidə olunur.

**Nəticə və təkliflər**

Azərbaycan və digər MDB ölkələrinin güclü və zəif tərəflərinin araşdırılmasından aydın olur ki, bu ölkələr arasında fərqli indikatorlar üzrə üstün reytinqə malik olanlar vardır. Bu baxımdan, Azərbaycanın mövqeyinin zəif olduğu h-indeks indikatoru üzrə üstünlüyə malik olan Rusiyanın təcrübəsini araşdırdıq.

Aparılan tədqiqat əsasında belə qənaətə gəldik ki, tədqiqatçıların hər biri üçün h-indeksin yaxşılaşdırılması, eyni zamanda, ölkə və ya müəyyən müəssisə və jurnallar üzrə h-indeksin səviyyəsinin yaxşılaşmasına təsir edəcək. Bu nəqsədlə aşağıdakı nüansların əldə olunması zəruridir:

- tədqiqatçıların yüksək elmi əhəmiyyətli orijinal məqalələrinin nəşrinə nail olunması;
- karyeraya yeni başlayan tədqiqatçıların elmi göstəriciləri yüksək olan nüfuzlu elm adamları ilə həmmüəllif kimi elmi məqalələrinin dərc edilməsi;
- yalnız Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının siyahısında olan jurnallarda deyil, ingilis dilli nüfuzlu nəşrlərdə də məqalələrin nəşrinin artırılmasına nail olunması;
- tədqiqatçıların öz həmkarları ilə istinad mübadiləsinin genişləndirilməsi;
- ədəbiyyat siyahısının tərtib olunmasında dövlətlərarası standartların tələblərinə ciddi riayət olunması;
- məqalənin nəşrə təqdim olunması zamanı şəxsi məlumatların düzgün yazılışına diqqətin artırılması;
- tədqiqatçılar tərəfindən müxtəlif bazalarda məqalələrinin indeksləşdirilməsinə ciddi nəzarətin artırılması.

Tədqiatçılar (müəllim, doktorant) qarşısında nüfuzlu jurnallarda məqalələrin dərc edilməsi tələbinin qoyulması h-indeksinin yaxşılaşdırılması probleminin yeganə həlli kimi qəbul edilə bilməz. Bu indeksin yaxşılaşdırılması üçün digər birbaşa və dolayı təsir edən indikatorların yaxşılaşdırıması istiqamətində, o cümlədən, elmi idarəetmə sisteminin, ali təhsildə keyfiyyətə nəzarət mexanizminin təkmilləşdirilməsi, tədqiqatçıların nüfuzlu nəşrlərdə məqalələrinin çap etdirilməsi ilə bağlı imkanların yaradılması, maliyyə mənbələrinin və maliyyələşmə mexanizminin müəyyənləşdirilməsi və s. istiqamətində islahatlar aparılmalıdır.

Rusiya təcrübəsi göstərir ki, elmi nəşrlərlə bağlı rus dilində müxtəlif məlumat portallarının fəaliyyət göstərməsi də sözügedən indikatorların yaxşılaşmasında öz təsirini göstərir. Hesab edirik ki, türkdilli xalqların, eləcə də milli tətqiqatçıların istifadəsi məqsədi ilə elmi işlərlə bağlı məlumatları yerləşdirilməsi üçün portalın yaradılması əsas hədəflərdən biri olmalıdır. Bu portalda tətqiqat işləri ilə yanaşı beynəlxalq indeksli jurnallarda məqalə nəşrinin yollarını, beynəlxalq məlumat bazalarında qeydiyyatdan keçərək fərdi məlumatların yerləşdirilməsinin vacibliyini və bu sahədə təcrübəni və s. aydın şəkildə izah edərək elmin inteqrasiyasına nail olmaq mümkündür.

Ümumiyyətlə, Azərbaycanın QİI-də mövqeyinin yaxşılaşdırılması üçün geniş Tədbirlər Planı hazırlanmalı və həyata keçirilməlidir. Bu məqsədlə 82 indikator üzrə reytinq göstəricilər təhlil olunmalı, ən aşağı mövqedə qərarlaşan idikatorlar üzrə problemlər və onların həlli yolları müəyyənləşdirilməlidir. QİI-nin hesablanması üçün dəqiq məlumatların ötürülməsi təmin olunmalıdır. Araşdırmalar göstərir ki, perspektivdə Azərbaycanın QİI-də mövqeyini yaxşılaşdırmaq üçün kifayət qədər potensial vardır. Son illərdə innovasiya sahəsində yaradılan infrastruktur və investisiya mühiti bunu deməyə əsas verir.

## Ə D Ə B İ Y Y A T

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı, 2016.

2. Qlobal İnnovasiya İndeksi 2021-ci il hesabatı, https://www.globalinnovationindex.org/gii-2021-report#.

3. Qlobal İnnovasiya İndeksi 2020-ci il Hesabatı, https://www.globalinnovationindex.org/userfiles/file/reportpdf/GII_2020_Full_body_R_58.pdf.

4. https://www.globalinnovationindex.org/analysis-economy.

5. https://science.bsu.by/index.php/info/indexes/h-index.

6. Hirsch J. E. (2005) An Index to Quantify an Individual's Scientific Research Output. Proceedings of the National Academy of Sciences of the United States of America, vol. 15, pp. 16569–16572. Available at: http://arxiv.org/abs/physics/0508025 (accessed 23 February 2014).

# *ПОКАЗАТЕЛИ ЭФФЕКТИВНОСТИ И СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ИННОВАЦИОННОЙ СИСТЕМЫ СТРАН СНГ*

*Матанат РАСУЛОВА,*
*Нилюфер МУРАДОВА*

### *Резюме*

*Наличие инновационного потенциала, как и с условия его реализации есть краеугольный камень развития любой современной экономики. данная статья посвящена анализу позиции Азербайджана в инновационном мире с точки зрения Глобальный Инновационный Индекс (ГИИ), рассчитываемого Корнеллским университетом (Cornell University) США, Всемирной организацией интеллектуальной собственности (World Intelligent Property Organization-WIPO) а тек же Школой Бизнеса NSEAD (Франция), на основе 80 (82) индикаторов, объединенных в 7 групп и охватывающих 132 стран.*

*Глобальный инновационный индекс подробно характеризует инновационное развитие стран мира на различных уровнях экономического развития. ГИИ рассчитывается как среднее значение двух подиндексов: 1) подиндекс инновационных ресурсов (The Innovation Input Sub-Index) состоит из пяти параметров, характеризующих элементы национальной экономики, обеспечивающие инновационную деятельность; 2) подиндекс результатов*

*инноваций (The Innovation Output Sub-Index) содержит информацию о результатах инновационной деятельности в стране.*

*Индекс эффективности инноваций-относителен и определяется соотношением двух индексов, позволяющих объективно оценить эффективность усилий по развитию инноваций в той или иной стране.*

*В статье были проанализированы показатели индикаторов используемых при расчете ГИИ в Азербайджане и других странах СНГ в период последних нескольких лет, выявлены сильные и слабые стороны инновационной системы некоторых стран.В основном, была рассмотрен показатель оценки научной деятельности -индекс Хирша (h-Index) и методология его оценки, а также были проанализированы причины низких позиции Азербайджана в данном контексте.*

*Методология расчёта Индекса Хирша была предложена в 2005 году американским физиком Хорхом Хиршем из Калифорнийского университета в Сан-Диего в качестве альтернативы классическому "индексу ссылок", который включает в себя количество агрегированных ссылок на работы ученых.*

*Он рассчитывается на основе количества публикаций авторов и количества ссылок на эти публикации. Аналогичным образом этот индекс может быть рассчитан для научных журналов, организаций и стран.В 2021 году этот показатель по Азербайджану составил 97.*

*В заключении данного труда в рамках проведанных исследования даны предложения по улучшению оценки х-индекса для Азербайджана, основываясь на опыте РФ, которая заняла в этом году ведущие позиции в СНГ.Бесспорен тот факт, что работа по улучшению позиций страны в Х-индексе должна основываться на следующих направлениях:*

*• стимулирование публикации оригинальных статей исследователей высокого научного значения;*

** Публикация научных статей начинающих исследователей в соавторстве с авторитетными учеными с высокими научными показателями;*

*•стимулирование публикации статей не только в журналах ААС, но и в англоязычных изданиях (Scopus, Web of Science);*

*• стимулирование обмена ссылками в рамках исследований различных ученых работающих в заданных областях;*

** Строгое соблюдение требований межгосударственных стандартов при составлении списка литературы;*

*•Повышение внимания к правильному написанию персональных данных при представлении статьи к публикации.*

*•Усиление строгого контроля за индексацией статей исследователями в различных базах данных;*

*Постановка требования к публикации статей в авторитетных журналах перед соискателями (преподавателем, докторантом) не может рассматриваться как решение проблемы улучшения х-индекса.*

*Для улучшения этого индекса необходимо прежде всего провести реформы в направлении улучшения других показателей прямого и косвенного воздействия.*

*Создание возможностей для исследователей, связанных с публикацией статей в авторитетных изданиях; определение и стимулирование источников их финансирования, а также механизма финансирования;*

*В целом, для улучшения позиций Азербайджана в ГИИ должен быть подготовлен и реализован обширный план мероприятий. С этой целью должны*

*быть проанализированы рейтинговые показатели по 82 индикаторам, определены конкретные проблемы и пути их решения по тем индикаторам, в которых мы занимаем самые низкие позиции.*

***Ключевые слова**: Глобальный Инновационный Индекс, инновации, Х-индекс, индикатор, рейтинг, ссылка.*

## *PERFORMANCE İNDİCATORS AND BENCHMARKİNG İNNOVATİON SYSTEM OF THE CIS COUNTRİES*

*Matanat RASULOVA,*
*Nilyufer MURADOVA*

### *Abstract*

*The success of the economy is related to both the availability of innovative potential and the conditions for its implementation. To determine the position of Azerbaijan in the world of innovation, Global Innovation Index results which have been calculated by The University of Cornell located in the USA, World Intellectual Property Organization (WIPO), INSEAD Business School located in France by covering 132 countries based on 82 different indicators categorized in 7 groups will be examined. The Global Innovation Index provides detailed information about the innovative performance of economic development at different levels. The GII is calculated as the average of two sub-indices: 1) The Innovation Input Sub-Index consisting 5 categories covering the elements that ensure innovative activity of the national economy; 2) The Innovation Output Sub-Index consisting of 2 categories covering the information regarding the results of the innovative activities of the country. The Innovation Efficiency Index is a concept that allows to objectively assess the effectiveness of innovation development efforts in a country by defining it as the ratio of two indices.*

*In the paper, based on the GII indicators the results of recent years in Azerbaijan and other Post-Soviet countries have been analyzed and weaknesses and strengths of the Azerbaijan innovation system have been determined.*

*In particular, the methodology of the Hirsch Index (h-index) which is an indicator of the evaluation of scientific activity as one of the indicators of the GII has been learned and the current level of Azerbaijan on this indicator has been determined to low. The Hirsch Index was proposed in 2005 by an American physicist at the University of California Jorge Hirsch, as an alternative to the classic "reference index" which includes the number of citations to scientists' work. This index is calculated based on the number of authors' publications and the number of references to these publications. Similarly, this index can be calculated for a scientific journal, enterprise, and country. In GII 2021, Azerbaijan was evaluated as 97 for this indicator.*

*At the end of the paper, some suggestions are made to improve the value of the h-index for Azerbaijan. It is known that improvement of the h-index for each researcher will also affect the improvement of the level of h-index for the country or certain enterprises and journals:*

- *Achieving the publications of original articles with high scientific importance by researchers;*
- *Publication of scientific articles of new researchers as co-authors with highly influential scientists;*

*• Achieving publications of articles not only in HAC journals but also in English-language publications such as Scopus, Web of Science, and so on.*

*• Exchange of references with researchers’ colleagues*

*• Strict adherence to the requirements of interstate standards in compiling the bibliography*

*• Increase attention to the correct spelling of personal information during the submission of an article for a publication*

*• Increased strict control over the indexing of articles by researchers in various databases*

*Requiring researchers (teachers, doctoral students) to publish articles in more prestigious journals cannot be considered as a solution to the problem of improving the h-index. To improve this index, reforms are needed to improve other indicators that have a direct and indirect impact.*

*• Creating opportunities for researchers to publish articles in prestigious publications; Identification of financial sources and financial mechanisms.*

*In general, to improve the position of Azerbaijan in GII, a comprehensive Action Plan should be developed and implemented. For this purpose, the ranking performances on those 82 indicators should be analyzed, problems related to the lowest values and their solutions should be identified. To calculate GII accurate data transmission must be provided.*

***Key words:*** *Global Innovation Index, innovation, h-index, indicator, ranking, citable*

*UOT 33.338*

# *AZƏRBAYCANDA ELMTUTUMLU MƏHSUL İSTEHSALI POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ*

*Samirə Hüseyn qızı ABASOVA,*
*BBEA i.e.d., i.ü.f.d., dos.*
*AMEA İqtisadiyyat İnstitutuun aparıcı elmi işçisi,*
*abasovasamira@rambler.ru*

**Xülasə**

*Bu məqalədə elmtutumlu məhsul istehsalına aid olan göstəricilər dinamikası 2010-2019 illlər ərzində nəzərdən keçirilmiş, Azərbaycanın emal sənayesi sahələri üçün elmtutumluluq əmsalı, elmi potensial və emal sahələrinin intensifikasiya səviyyəsi hesablanmışdır. Müəllif tərəfindən iqtisadi səmərəlilik göstəricilərinin SWOT ekspert qiymətləndirmə analizi aparılmışdır.*

***Açar sözlər**: elmtutumlu məhsul, elmtutumlu məhsulu xarakterizə edən göstəricilər, Azərbaycanda elmtutumlu məhsul istehsalının vəziyyətinin qiymətləndirilməsi.*

## Giriş

Müasir dövrdə elmtutumlu məhsul və xidmətlərin istehsal edilməsi ölkənin iqtisadi inkişafının davamlılığının təmin edilməsində mühüm rol oynayır. Müəyyən olunmuşdur ki, ölkədə elmtutumlu məhsul istehsalına çəkilən xərclərin artırılması intellektual potensialın formalaşması və gücləndirilməsinin əsasını təşkil edir. Daha dəqiq desək, hər hansı bir ölkədə elmin inkişafı nəticəsində onun ümumi daxili məhsulunun həcmi 50% arta bilər. Elmtutumlu məhsullar rəqabətqabiliyyətini əhəmiyyətli dərəcədə artıran fundamental və ya tətbiqi tədqiqatlardan bəhrələnərək texnoloji inkişaf nailiyyətlərinə əsaslanarq istehsal olunur.

Hər hansı milli iqtisadiyyatın XX əsrdə maddi bazası inkişaf etmiş maşınqayırma ilə xarakterizə olunurdusa,XXİ əsrdə əsas təkanverici qüvvə kimi istehsal prosesində informasiya və digər yüksək texnologiyalar bazasında yaradılan elektronika, robototexnika, kosmik aparatlar, süni peyklər, müasir kosmetologiya, klonlaşdırma və d. istehsal sahələri ilə təmsil olunur. İstehlakçı tərəfindən daha çox marağa səbəb olan elmtutumlu məhsullara nümunə olaraq kompüterlər, elektronika, kommunikasiya məhsulları (TV, hər növ mobill telefon, wi-fi cihazları, planşetlər və d.), kimyəvi məhsullar, dərman və kosmetika vasitələri və s.), elmi və tibbi avadanlıq, elektrik avadanlıqları və s. göstərilə bilər.

Elmtutumlu sahələrin ən yüksək inkişaf templəri müşahidə olunan ölkələr – ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Yaponiya, Koreya və d. - uzun müddətdir ki, dünyada intellektual liderlər kimi tanınırlar. Elmtutumlu məhsulların və texnologiyaların istehsalı və ixracı ilə tanınan ölkələr bütövlükdə dünya iqtisadiyyatının qloballaşmasında da xüsusi rol oynayırlar. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, dünya iqtisadiyyatının inkişafının hazırkı mərhələsində elmin inkişafı ilə məhsulların yüksək elmtutumluluğu arasında funksional bir əlaqə mövcuddur və iqtisadi artımın əsas faktoru kimi onun elmtutumluğu çıxış edir.

## 1. Elmtutumlu məhsulların milli iqtisadiyyatdakı rolu

Hal-hazırda iqtisadiyyatın inkişafı və rəqabətqabiliyyətliliyinin əsas faktorlarından biri onun elmtutumluluq göstəricisidir. Son dövrlərdə elm həm istehsal

ehtiyatlarının vacib bir elementinə çevrilir, həm də iqtisadiyyatın ayrı-ayrı sahələrinin sürətli inkişafına təkan verir.

O.Y.Martınov qeyd edir ki, tədqiqat və inkişaf xərclərinin ümumi xərclərdə və ya satış həcmində payı ən azı 3,5-4,5%-dirsə, belə istehsal sahələri elmtutumlu sayıla bilər [7].

Bir çox alimlərin fikirlərini nəzərə alaraq [6-7], [9] belə qənaətə gəlmək olar ki, elmtutumlu məhsullar ənənəvi sahələrə nisbətən elmi-tədqiqat və layihə-konstruktor işlərinin artan payını əhatə edən insan fəaliyyətinin xüsusi bir nəticəsi kimi çıxış edə bilər. Elmtutumlu məhsullar dövrün tələblərinə uyğun olaraq sosial ehtiyacların ödənilməsi üçün hazırlanmış intellektual fəaliyyət nəticəsi də ola bilər [9].

Elmtutumlu məhsulların istehsal səmərəliliyinin artırılması üçün elmi və texnoloji cəhətdən mürəkkəb məhsulların istehsalı zamanı əvvəllər istifadə olunmamış imkanlar müəyyən edilə bilər ki, bu da istehsal prosesinin elementlərinin (istehsal vasitələri, əmək və informasiya) təşkilini yaxşılaşdırmaq və onlar arasındakı əlaqələri optimallaşdırmaqla maya dəyərində elmi-tədqiqat və layihə-konstruktor xərclərinin yüksək - (3,5% -dən çox) - payına səbəb ola bilər [6].

Korçaqovlara görə, elmtutumlu məhsul anlayışı ilə yanaşı elmtutumlu istehsal anlayışı da mövcuddur. Tədqiqat və inkişafa yönəlmiş xərclər yüksək paya malikdirsə, belə istehsal elmtutumlu istehsal adlanır [9].

Bununla yanaşı, qeyd olunmalıdır ki, elmtutumlu istehsalın inkişafı və onun səmərəliliyinin artması ölkənin elmi potensialı ilə əlaqəlidir [2]. Deməli, ölkənin elmi potensialının qiymətləndirilməsi məsələsi ön plana çıxarılmalıdır.

## 2. Azərbaycanda elmtutumlu məhsul istehsalı potensialının qiymətləndirilməsi

Hal-hazırda elmtutumlu sahələrin fəaliyyəti və inkişafı həm elmi ictimaiyyət tərəfindən, həm də dövlət qurumları tərəfindən böyük maraq doğurur. Elmtutumlu sahələrin yaradılması və təbliği məsələsi iqtisadiyyatın inkişafına təkan verən başlıca hərəkətverici qüvvə olduğu üçün bu gün çox aktualdır. Belə ki, onlar bir sıra intensiv göstəricilərə təsir edərək həyat səviyyəsinin yüksəldilməsinə səbəb olurlar:

- əmək məhsuldarlığı;
- əvəzolunmaz təbii ehtiyatlardan səmərəli istifadə etmə;
- onlardan daha rasional istifadə.

1-ci cədvəlin göstəricilərə nəzər yetirsək 2019-cu ildə 2010-ci illə müqayisədə məhsul həcminin 67,9%, əsas kapitala yönələn vəsaitlərin 116,5%, investisiyaların ölkə iqtisadiyyatındakı payının 15,5%, ƏDV-nin 54,25% artıdığını, ƏDV-nin ümumi daxili məhsuldakı payının isə 19,93% azaldığını müşahidə edərik.

Sənayenin əmək məhsuldarlığı və 1 nəfər sənaye-istehsal işçisinin payına düşən məhsulun dəyəri göstəriciləri isə 2010-2015-ci illər ərzində 9 % azalaraq 140,93 təşkil etmiş, buna baxmayaraq, 2018-ci ildə 2010-cu illə müqayisədə 47% artım göstərmişdir.

***Cədvəl 1. Azərbaycan sənayesinin iqtisadi səmərəlilik göstəricilərinin dinamikası***

| | **2010** | **2015** | **2017** | **2018** | **2019** | **2019-da 2010 ilə nisbətən %-lə** |
|---|---|---|---|---|---|---|
| Məhsulun həcmi, mln manat | 27978,2 | 26369,4 | 39892,5 | 47677,0 | 46999,2 | 167,9% |
| Əsas kapitala vəsaitlər, mln man. | 4276,2 | 8499,9 | 10610,1 | 8497,2 | 9258,0 | 216,5% |
| İnvestisiyaların ölkə iqtisadiyyatında payı, % | 43,2 | 53,3 | 60,9 | 49,3 | 49,9 | 115,5% |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| ƏDV, mln manatla | 21942 | 17912 | 28209 | 35665 | 33845 | 154,25% |
| ƏDV-nin ÜDM-də payı, % | 51,7 | 32,9 | 40,1 | 44,5 | 41,4 | 80,07% |
| Sənaye istehsalında işləyən işçilərin sayı, nəfər | 181,8 | 187,1 | 197,1 | 210,7 | - | - |
| Sənayedə əmək məhsuldarlığı, | 153,89 | 140,94 | 202,39 | 226,28 | - | - |
| Sənayedə 1 nəfər sənaye-istehsal işçisinin payına düşən məhsulun dəyəri | 153,89 | 140,93 | 202,39 | 226,28 | - | - |

*Mənbə: [3, s.21], [5, s. 79], [8, s.23-26]*
*Qeyd: Yuxarıdakı mənbələrə əsasən müəllif tərəfindən hesablanmışdır.*

İllər üzrə adambaşına düşən mənfəət göstəricisinə nəzər yetirdikdə (cədvəl 2) görürük ki, bu göstərici 2010-cu illə müqayisədə 1,23 dəfə azalmışdır. Sonrakı illərdə isə artaraq nəhayət 2019-cu ildə 139,85 min manata çatmışdır.

***Cədvəl 2. Sənaye üzrə adambaşına düşən mənfəət göstəricisinin dinamikası***

| İllər | Mənfəət (mln manat) | Işçilərin sayı (min nəfər) | 1 adambaşına düşən mənfəət (min manat) |
|---|---|---|---|
| 2010 | 17655,2 | 181,8 | 97,11 |
| 2015 | 14508,9 | 187,1 | 77,54 |
| 2017 | 22494,4 | 186,1 | 120,87 |
| 2018 | 30608,1 | 197,1 | 155,29 |
| 2019 | 29465,6 | 210,7 | 139,84 |
| 2019-dan 2010-a nisbətən, % | 166,89% | 115,89% | 144,01% |

*Mənbə: [4, s.395]*
*Qeyd: Statistik mənbəyə əsasən müəllif tərəfindən hesablanmışdır.*

Son 10 il ərzində Azərbaycanda sənaye, emal sənayesi və kimiya sənayesi üzrə əsas kapitala yönələn investisiyalara nəzər salaq (Cədvəl 3).

***Cədvəl 3. Azərbaycan sənayesi üzrə əsas kapitala yönələn investisiyaların dinamikası (mln manatla) (2011-2019)***

| | 2011 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019-da 2011-ə nisbətən,% |
|---|---|---|---|---|---|---|---|
| **Sənaye üzrə** | 5370,0 | 8499,9 | 9949,8 | 10610,1 | 8497,2 | 9258,0 | 172,4 |
| Xarici investisiyalar | 2 125 | 5741,9 | 7350,9 | 6989,5 | 3993,1 | 4411,3 | 207,59 |
| Daxili investisiyalar | 3 245 | 2758,0 | 2598,9 | 3620,6 | 4504,1 | 4846,7 | 1491,29 |
| **Emal sənayesi üzrə** | 847,9 | 482,9 | 424,3 | 652,6 | 1431,9 | 2466,4 | 290,83 |
| Xarici investisiyalar | 0,2 | 16,1 | - | 32,0 | 25,6 | 798,0 | 399 |
| Daxili investisiyalar | 847,7 | 466,8 | 424,3 | 620,6 | 1406,3 | 1668,4 | 196,81 |
| **Kimya sənayesi** | 1,5 | 6,8 | 18,5 | 87,74 | 230,6 | 173,3 | 11553 |
| Xarici investisiyalar | - | - | - | - | - | - | - |
| Daxili investisiyalar | 1,5 | 6,8 | 18,5 | 87,74 | 230,6 | 173,3 | 11553 |
| **Maşınqayırma** | 294,3 | 98,5 | 95,6 | 99,3 | 83,1 | 44,6 | 15,15 |
| Xarici investisiyalar | - | - | - | - | - | - | - |
| Daxili investisiyalar | 294,3 | 98,5 | 95,6 | 99,3 | 83,1 | 44,6 | 15,15 |

*Mənbə: [3, s. 55]*
*Qeyd: Müəllif tərəfindən hesablanmışdır.*

Bu illər ərzində kimya sənayesi üzrə əsas kapitala yönələn investisayalar daxili investisiyalardan ibarət olmuşdur. Statistik göstəricilərə nəzər yetirdikdə aydın olur ki, kimya sənayesi üzrə əsas kapitala yönələn investisiyaların ən yüksək göstəricisi 2018-ci ildə müşahidə edilmişdir. Həmin ildə kimya sənayesi üzrə əsas kapitala yönəldilən investisiyaların miqdarı əvvəlki ilə nisbətən 2,6 dəfə artmışdır.

Hazırda "Azərkimya" markalı kimyəvi elmtutumlu məhsullar iri həcmdə və geniş çeşiddə dünyanın əksər inkişaf etmiş ölkələrinə, o cümlədən, Almaniya, ABŞ, Rusiya, İngiltərə, Polşa, İsveçrə, Türkiyə, Rumıniya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan və s. ölkələrə ixrac edilir. Bunların hər biri bugünkü kimya və neft-kimya kompleksinin qürur yaradan nailiyyətləridir və Azərbaycanın kompleks inkişafının tərkib hissələridir.

Son dövrlərdə elmtutumlu məhsul istehsal həcminin və keyfiyyətinin artırılması sahəsində "Azərkimya" Dövlət Şirkətinin tərkibində olan müəssisələr bir çox nailiyyətlər əldə etmişdir. Şirkətin müəssisələrində kifayət qədər yüksək keyfiyyətə malik kimyəvi məhsullar – propilen, izopropil spirti, piroliz qətranı, propilen oksidi, propilenqlikol, polietilen, müxtəlif markalı poliefirlər və s. istehsal olunur ki, bunların da müəyyən qismi daxili tələbat üçün, böyük əksəriyyəti isə uzaq və yaxın xarici ölkələrə ixrac olunması üçün nəzərdə tutulmuşdur. Etilen-polietilen zavodunda istehsal edilən yüksək təzyiqli polietilenə, "Sintezkauçuk" zavodunun qiymətli məhsulu olan mütləqləşdirilmiş izopropil spirtinə beynəlxalq bazarda olan tələbat ildən-ilə artır. Kimya müəssisələrinin digər məhsulları da xarici şirkət və firmalar tərəfindən böyük tələbatla və iri həcmdə alınır.

Azərbaycanda kimya sənayesi üzrə əmək məhsuldarlığını aşağıdakı cədvəl 4-də təhlil edək. İllər üzrə göstəricilərin təhlili nəticəsində aydın olur ki, əmək məhsuldarlığı göstəricisi 2010-2016-cı illərdə müsbət artıma malik olsa da, 2017-ci ildə təxminən 1,24 dəfə azalaraq 50,38 min manat olmuşdur. 2018-ci ildə isə əvvəlki ilə nisbətən 1,47 dəfə artmış və 74,4 min manat təşkil etmişdir.

***Cədvəl 4. Azərbaycanda 2010-2018-ci illərdə kimya sənayesi üzrə əmək məhsuldarlığının dinamikası***

| | **Məcmu məhsul, (min, manat)** | **İşçilərin sayı (min nəfər)** | **Əmək məhsuldarlığı, Manat** |
|---|---|---|---|
| 2010 | 120300,0 | 8,7 | 13827,58 |
| 2011 | 189000,0 | 7,7 | 24545,45 |
| 2015 | 353200,0 | 6,2 | 56967,74 |
| 2016 | 374200,0 | 6 | 62366,67 |
| 2017 | 513900,0 | 10,2 | 50382,35 |
| 2018 | 528000,0 | 7,1 | 74366,19 |

*Mənbə: [3, s.21]*
*Qeyd: müəllif tərəfindən hesablanmışdır.*

İnnovasiyaların tipinə görə bütün sənaye və kimya sənayesində 2011-2019-cu illər ərzində texnoloji innovasiyalara çəkilən xərclərə nəzər salaq (cədvəl 5).

Cədvəl 5-in təhlili nəticəsində aydın olur ki, 2011-ci il üzrə ümumi sənayedə texnoloji innovasiyalara çəkilən xərclər 31589,0 min manat olmasına baxmayaraq bu xərclərin heç bir qismi kimya sənayesində texnoloji innovasiyalara yönəlməmişdir.

***Cədvəl 5. İnnovasiyaların tipinə görə kimiya sənayesində 2011-2019-cu illər ərzində texnoloji innovasiyalara çəkilən xərclər (min man.)***

| | **2011** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2019-da 2011 ilə nisbətən, %** |
|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **31589,0** | **35179,1** | **27929,0** | **16135,7** | **34353,6** | **48037,1** | 152,06% |
| Məhsul innovasiyaları | 30904,0 | 13685,2 | 20313,8 | 10439,6 | 23298,7 | 38343,5 | 124,07% |
| Proses innovasiyaları | 684,6 | 21493,9 | 7615,2 | 5696,1 | 11054,9 | 9693,6 | 1415,9% |
| **Emal sənayesi** | 29319,0 | 32492,5 | 27744,4 | 16104,0 | 32967,6 | 47658,5 | 162,55% |
| Məhsul innovasiyaları | 28634,0 | 11157,2 | 20303,8 | 10438,6 | 22619,4 | 38053,5 | 132,89% |
| Proses innovasiyaları | 684,6 | 21335,3 | 7440,6 | 5665,4 | 10348,2 | 9605,0 | 1403% |
| **Kimya sənayesi** | - | 199,5 | 180,7 | 664,7 | 215,4 | - | 107,96% * |
| Məhsul innovasiyaları | - | 144,6 | 136,3 | 637,4 | 214,4 | - | 148,27% * |
| Proses innovasiyaları | - | 54,9 | 44,4 | 27,3 | 1,0 | - | 1,82% * |

*Mənbə: [3, s. 60]*

*Qeyd: * 2018-ci ilin göstəriciləri 2015-ci ilə nisbətən hesablanmışdır.*

2019-cu ildə isə ümumi sənayedə texnoloji innovasiyalara yönələn xərclər 1,5 dəfə artaraq 48037,1 min manat olmuş, ancaq burada da kimya sənayesi üzrə texnoloji innovasiyalara vəsait ayrılmamışdır. Emal sənayesinə nəzər yetirdikdə isə 2019-cu il innovasiyalara çəkilən xərclərin 2011-ci ilə nisbətən 62,55% artığını müşahidə edirik.

Tətbiq istiqamətlərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər (Cədvəl 6) emal sənayesi üzrə 2010-cu il ilə müqayisədə 2019-cu ildə 62% artmış və 47658,5 min manat təşkil etmişdir. Maşınqayırma sənayesində isə texnoloji innovasiyalara çəkilən xərclərin ən yüksək göstəricisi 2018-ci ildə müşahidə olunaraq 17215,6 min manat olmuşdur.

***Cədvəl 6. Tətbiq istiqamətlərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclərin dinamikası, min manat***

| | **2011** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2019-da 2011 ilə nisbətən,%** |
|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 31589,0 | 35179,1 | 27929,0 | 16135,7 | 34353,6 | 48037,1 | 152,06% |
| **Emal sənayesi** | 29319,0 | 32492,5 | 27744,4 | 16104,0 | 32967,6 | 47658,5 | 162,55% |
| Maşınqayırma | 196,8 | 15871,2 | 8227,7 | 12525,1 | 17215,6 | - | 87,83% |
| Kompüter istehsalı | 8910,0 | - | - | - | - | - | - |
| Kimya sənayesi | - | 199,5 | 180,7 | 664,7 | 215,4 | - | 107,96% * |
| *yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi* | - | 144,6 | 136,3 | 637,4 | 42,7 | - | 29,52% * |
| *texnolojiinnovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması* | - | 54,9 | 44,2 | 26,8 | 171,7 | - | 312% * |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *elmi-tədqiqatlar və işləmələr* | - | - | - | - | - | - | - |
| *kənar təşkilatların xidmətlərinə çəkilən xərclər* | - | - | 0,2 | 0,5 | 1,0 | - | 500% * |

*Mənbə: [4, s.61]*

*Qeyd: * 2018-ci ilin göstəriciləri 2011-ci ilə nisbətən hesablanmışdır.*

Müasir dövrümüzdə bir çox sahələrdə innovasiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi mürəkkəb hal almışdır. Ona görə müəllif innovasiya fəaliyyətini qitmətləndirmək üçün 1 nəfər işçinin payına düşən xərclərin dinamikası, xərclərin artım indeksi və buraxılışın artım indeksini, eləcə də onların nisbəti göstəəriciləri, rentabellik, elmtutumluluq əmsalı kimi göstəricilərə diqqət yetirək.

**Cədvəl 7. İstehsalda çalışan 1 nəfər işçinin payına düşən xərclərin dinamikası, min manat**

| | 2010 | 2015 | 2017 | 2018 | 2018-də 2010-a nisbətən, % |
|---|---|---|---|---|---|
| Sənaye | 44,76 | 188,02 | 81,86 | 163,04 | 364,19 |
| Emal sənayesi | 85,82 | 343,11 | 153,07 | 310,72 | 362,02 |
| Maşınqayırma | 205,97 | - | 288,77 | 357,91 | 173,76 |

*Mənbə: [3, s.60]*

*Qeyd: Müəllifin hesablamaları.*

İstehsalda çalışan 1 nəfər işçinin payına düşən xərclərdə ən yüksək artım emal sənayesində müşahidə olunmuşdur. 2010-cu ilə nisbətən emal sənayesində bu göstərici 162% artmış və 262-ə bərabər olmuşdur. Maşınqayırma sənayesində isə 2010-cu ilə nisbətən 73% artım müşahidə edilmişdir.

Cədvəl 8-ə görə əldə edilən nəticələrə əsasən, ümumi sənayenin rentabelliyi 2010-2015-ci illər ərzində 1,31 dəfə azalaraq 59, 92% olmuş, sonrakı illərdə isə bu göstərici artım tempinə malik olmuşdur. 2019-cu ildə 2015-ci illə müqayisədə 7 % artaraq 64,40%-ə çatmışdır.

**Cədvəl 8. Azərbaycanın sənaye sahələri üzrə rentabelliyin ölçülməsi, %**

| | 2010 | 2015 | 2017 | 2019 |
|---|---|---|---|---|
| Sənaye | 78,6 | 59,9 | 63,8 | 64,4 |
| Emal sənayesi | 29,3 | 26,4 | 25,6 | - |

*Mənbə: [3, s.11]; [1, s.126]*

*Qeyd: müəllifin hesablamaları.*

İndi isə iqtisadiyyatın elmtutumluluq kateqoriyasına aid olmasını müəyyən etmək üçün fəsil 1-də göstərilən istehsalın elmtutumluluq göstəricisinin hesablanması (N) düsturunu 2010, 2015, 2017 və 2019-cu illər üçün Azərbaycan sənayesinə tətbiq edək.

$$N = \frac{V_{et}}{V_m} \cdot 100\% \qquad (1)$$

Burada $V_m$ – sənayenin ümumi məhsulu,

$V_{et}$ - elmi-tədqiqat xərcləridir.

Əldə edilmiş nəticələri təhlil etsək görərik ki, 2010, 2015, 2017 və 2019-cu illərdə sənayenin elmtutumluluq əmsalı 0,2-0,5 aralığında yerləşir. Deməli, 9-cu cədvəldəki məlumatlara istinad edərək söyləyə bilərik ki, Azərbaycan iqtisadiyyatı aşağı elmtutumluluq səviyyəsinə malikdir.

Sənayenin müxtəlif sahələri üzrə təhlil apardıqda isə belə bir fikir söyləmək olar ki, maşınqayırma sənayesi üzrə göstəricilər 2010 və 2017-ci illərdə aşağı elmtutumluluq səviyyəsində olsa da, 2019-cu ildə orta səviyyədə olmuş, ən yüksək elmtutumluluq səviyyəsinə isə 2015-ci ildə çatmışdır. Kimya sənayesi üzrə isə 2010 və 2015-ci illərdə aşağı elmtutumluluq səviyyəsinə malik olduğu halda, sonrakı illərdə yüksək elmtutumluluq həddinə çatmışdır (cədvəl 9).

***Cədvəl 9. Azərbaycanda sənayenin elmtutumluluq əmsalının dinamikası***

| | **2010** | **2015** | **2017** | **2019** |
|---|---|---|---|---|
| Elmi-tədqiqat xərcləri (min manatla) | 104203,2 | 113178,8 | 118545,5 | 136290,5 |
| Sənayenin ümumi məhsulu (min manatla) | 27978200,0 | 26369400,0 | 39892500,0 | 46999200,0 |
| Elmtutumluluq əmsalı (ümumi sənaye üzrə) | 0,37 | 0,43 | 0,03 | 0,3 |
| Maşınqayırma üzrə | 0,1 | 9,8 | 0,1 | 3,6 |
| Kimya sənayesi üzrə | 1,08 | 1,9 | 17,0 | 28,7 |
| Metallurgiya üzrə | 39,4 | 6,9 | 1,1 | 18,7 |
| Kompüter istehsalı üzrə | 0,8 | 0,04 | 0,06 | 0,05 |
| Avtomobil istehsalı üzrə | 36,7 | - | - | 35,3 |

*Mənbə: [4, s.61]. ; [1, s.248]*
*Qeyd: müəllifin hesablamaları.*

Kompüter istehsalı üzrə isə cədvəldən də göründüyü kimi təhlil olunan illər üzrə ölkəmiz aşağı elmtutumluluq səviyyəsinə malik olmuşdur. Metallurgiya sənayesi üzrə ən yüksək elmtutumluluq səviyyəsi 2010-cu ildə, ən aşağı səviyyə isə 2015-ci ildə müşahidə olunmuşdur.

***Cədvəl 10. Azərbaycan sənayesində elmi potensialın qiymətləndirilməsi***

| | **2015** | **2017** | **2019** |
|---|---|---|---|
| **R** - elmtutumlu məhsulların istehsalının rentabelliyi (ümumi sənaye üzrə) | 5,99 | 6,38 | 6,44 |
| **M** – məhsulun istehsalından və ya satışından əldə edilən mənfəət (ümumi sənaye üzrə) | 1,58 | 2,54 | 3,02 |
| **Q** – elmi potensialın qiymətləndirilməsi (ümumi sənaye üzrə) | 1,3 | 2,15 | 2,61 |

*Mənbə: [3, s.11]*
*Qeyd: müəllifin hesablamaları.*

Hesablamalar nəticəsində məlum olur ki, elmi potensalın qiymətləndirilməsi göstəricisi də 2017-ci ildə 2015-ci ilə nisbətən 1,65 dəfə (65 %) artmış, 2019-cu ildə isə 2015-ci il illə müqayisədə 2 dəfə artmışdır.

Cədvəl 11-də qeyd olunan $I_x$, $I_k$ indeksləri müvafiq olaraq xərclərin artım indeksi və buraxılışın artım indeksini ifadə edir. Artım indekslərini hsablamaq üçün cari ilin göstəricilərinin əvvəlki ilin göstəricilərinə nisbəti tapılmalıdır.

### *Cədvəl 11. Sənayenin bəzi sahələri üzrə intensifikasiya səviyyəsi*

| **Göstəricilər** | | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| **1** | | **2** | **3** | **4** | **5** |
| *Maşınqayırma üzrə* | | | | | |
| Buraxlışın artım indeksi | $I_k$ | 1,1 | 1,23 | 1,03 | 1,08 |
| Xərclərin artım indeksi | $I_x$ | 0,5 | 1,52 | 1,37 | 0,9 |
| İntensifikasiya səviyyəsi | $I_x/I_k$ | 0,46 | 1,23 | 1,33 | 0,83 |
| *Metallurgiya üzrə* | | | | | |
| Buraxlışın artım indeksi | $I_k$ | - | 4,35 | 3,53 | 1,63 |
| Xərclərin artım indeksi | $I_x$ | - | - | 2 | 58,36 |
| İntensifikasiya səviyyəsi | $I_x/I_k$ | - | - | 0,56 | 35,74 |
| *Kimya sənayesi üzrə* | | | | | |
| Buraxlışın artım indeksi | $I_k$ | 38,98 | 3,26 | 0,03 | - |
| Xərclərin artım indeksi | $I_x$ | 0,9 | 3,67 | 0,32 | - |
| İntensifikasiya səviyyəsi | $I_x/I_k$ | 0,02 | 1,12 | 10,12 | - |
| *Kompüter istehsalı üzrə* | | | | | |
| Buraxlışın artım indeksi | | - | - | 1,99 | 0,3 |
| Xərclərin artım indeksi | | - | - | - | - |
| İntensifikasiya səviyyəsi | | - | - | - | - |
| *Emal sənayesi üzrə* | | | | | |
| Buraxlışın artım indeksi | $I_k$ | 38,31 | 0,41 | 1,95 | 0,67 |
| Xərclərin artım indeksi | $I_x$ | 0,85 | 0,58 | 2,04 | 1,45 |
| İntensifikasiya səviyyəsi | $I_x/I_k$ | 0,02 | 1,4 | 1,05 | 2,16 |

*Mənbə: [3, s.60]*
*Qeyd: müəllifin hesablamaları.*

Son 4 il ərzində Azərbaycanın emal sənayesi, maşınqayırma sənayesi, metallurgiya, kimya sənayesi, kompüter istehsalı sahələrində xərclərin və buraxılışın artım indeksinə nəzər yetirək. Aşağıdakı cədvəldə artım indeksləri hesablanaraq bunun əsasında intensifikasiya səviyyəsi müəyyən edilmişdir (Cədvəl 11).

Cədvəl 11 üzrə əldə edilmiş nəticələri təhlil edəndə görürük ki, maşınqayırma sənayesində ən yüksək intensifikiasiya səviyyəsi 2018-ci ildə müşahidə edilmişdir. Ən aşağı səviyyə isə 2016-cı ildə 0,47 olmuşdur.

Azərbaycan sənayesi üzrə əldə olunan iqtisadi səmərəlilik göstəricilərinin SWOT analizinə nəzər yetirsək (Cədvəl 12) görərik ki, Azərbaycanda elmtutumluluq əmsalı çox aşağıdır və bu istehsalda aşağı səviyyəli texnologiyaların çoxluğu ilə izah olunur. Eləcə də elmtutumlu məhsulların istehsal potensialı da yüksək deyildir. Digər tərəfdən Azərbaycanın emal sənayelərində intensifikasiya səviyyəsinin aşağı olması milli iqtisadiyyatımızda investisiyalardan birbaşa asılı olan istehsalın olması ilə xarakterizə olunur.

Son olaraq belə bir qənaətə gəlmək olar ki, ümumilikdə sənaye üzrə və sənayenin əsas sahələri üzrə innovasiya yönümlü xərclər artsa da belə, Azərbaycanın sənaye sahələrində elmtutumlu məhsul istehsalının iqtisadi göstəriciləri heç də yaxşı deyil və radikal innovasiyalara əsaslanan yeni hi-tech istehsal sahələri yaradılmalı və onlar dövlətin davamlı fəaliyyət göstərən iqtisadi fondlar büdcəsi hesabına inkişaf etməlidirlər.

***Cədvəl 12. Azərbaycan sənayesi üzrə əldə olunan iqtisadi səmərəlilik göstəricilərinin SWOT analizi***

| **Güclü cəhətlər** | **Zəif cəhətlər** |
|---|---|
| ➢ son 10 ildə məhsul istehsalının həcminin 67% artması;<br>➢ 2019-ci ildə 2010-cu illə müqayisədə investisiyaların ölkə iqtisadiyyatındakı payının 15%artması;<br>➢ sənaye üzrə adambaşına düşən mənfəət göstəricisinin son 10 ildə 44% artması;<br>➢ ağır sənaye səhəsi üzrə əmək haqqının orta rentabelliyi təmin edən səviyyədə olması. | ➢ ƏDV-nin ÜDM-dəki payının son 10 ildə 20% azalması;<br>➢ sənayenin bir çox sahələrində texnoloji innovasiyalara çəkilən xərclərin azlığı;<br>➢ maşınqayırma sənayesi üzrə əsas kapitala yönələn investisiyaların təxminən 85% azalması;<br>➢ məhsulların keyfiyyətinin beynəlxalq standartlardan aşağı səviyyəli olması. |
| **İmkanlar** | **Təhlükələr** |
| ➢ sənayenin modernləşdirilməsi (xüsusilə struktur təkmilləşdirilməsinin həyata keçirilməsi imkanları);<br>➢ qeyri-neft sənayesinin ixrac rəqabət qabiliyyətinin artırılması;<br>➢ yüksək texnoloji istehsal gücündən istifadə;<br>➢ xarici investorların cəlb edilməsi;<br>➢ böyük regional bazarlara yaxınlıq. | ➢ xarici maliyyə bazarına çıxış əldə edilməsi ilə bağlı çətinliklərin mövcudluğu;<br>➢ dünya sənayesində gedən innovativ proseslərdən ölkə sənayesinin geridə qalması və s. |

*Mənbə: müəllifin ekspert qiyməti.*

**Nəticə**

Azərbaycanda sənaye sahəsi üzrə elmtutumlu məhsul istehsalının yüksəldilməsi istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi lazımdır:

➢ istehsal avadanlıqları və texnikanın təmirə yararlı olma dərəcəsi, onların istifadə vaxtının uzadılması və fəaliyyətinin yaxşılaşdırılmasına imkan verən yeniliklər həyata keçməlidir;

➢ müasir texnoloji avadanlıqların gətirilib quraşdırılması, laboratoriyaların zənginləşdirilməsi, o cümlədən bu sahədə elmi tədqiqatlar miqyasının genişləndirilməsi dövlət tərəfindən idarəetmə mexanizmləri ilə tənzimlənməlidir;

➢ ikili təyinatlıq texnologiyaların istehsalata tətbiqi (Xüsusilə hərbi avadanlıq və silah istehsalında) atrmalıdır;

➢ müvafiq sahədə çalışan işçilərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün lazımi tədbirlər görülməlidir.

## Ə D Ə B İ Y Y A T

1. Abasova S.H. Texnologiyalar və yeniliklərin idarəedilməsi. Bakı: Azərnəşr, 2007, s. 288.
2. Abasova S.H. Texnoloji transferlər və onlarin təşkilati-hüquqi və təşkilati-idarəetmə formaları: metodoloji baxış, AMEA Elm tarixi institutunun "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda konfransı. Bakı, Elm, 2018, s. 17-21.
3. Azərbaycanın sənayesi (2019). Bakı, DSK, 2020, 226 s.
4. Azərbaycanın statistik göstəriciləri (2019). Bakı, DSK,2020, 814 s.

5. Абасова С. Госрегулирование инновационных процессов в промышленности Азербайджана'. Munich, LAP-LAMBERT Academic Publishing, 2013, 172р.

6. Корчагова Л.А., Корчагов С.А. Влияние наукоемкости и инноваций на развитие экономики в России. Вестник РГГУ. Серия Экономика. Управление. Право. № 3, 2018, с.64-76.

7. Мартынов О.Ю. Наукоемкое изделие и его особенности // Наукоемкие технологии. № 11, 2011, т. 12, с.107–109.

8. Петухов, Р.М. Оценка эффективности промышленного производства Методы и показатели, М.: Экономика, 1990, 95 с.

9. Стрижанов И.А. Понятие и особенности производства сложной наукоемкой продукции // Организатор производства. 2012, № 3, с.20–23.

## *ОЦЕНКА ПОТЕНЦИАЛА ПРОИЗВОДСТВА НАУКОЕМКОЙ ПРОДУКЦИИ АЗЕРБАЙДЖАНА*

*Самира АБАСОВА*

### *Резюме*

*В данной статье рассматривается динамика показателей, связанных с производством наукоемкой продукции в 2010-2019 годах, рассчитаны коэффициент наукоемкости, научного потенциала и уровня интенсификации в обрабатывающих производствах промышленности Азербайджана. Автором проведена экспертная оценка SWOT-анализа показателей экономической эффективности.*

***Ключевые слова**: наукоемкая продукция; показатели, характеризующие наукоемкую продукцию; оценка состояния производства наукоемкой продукции в Азербайджане.*

## *ASSESSMENT OF THE PRODUCTION POTENTIAL OF SCIENTIFIC PRODUCTS IN AZERBAIJAN*

*Samira ABASOVA*

### *Abstract*

*This article considers the dynamics of indicators related to the production of science-intensive products in 2010-2019, calculates the coefficient of science capacity, scientific potential and the level of intensification of manufactured fields of Azerbaijan. The author conducted a SWOT expert assessment analysis of economic efficiency indicators.*

***Key words:** scientific product, indicators characterizing scientific product, assessment of the state of production of scientific product in Azerbaijan.*

*UOT 334.021*

# *COVİD-19 PANDEMİYASINDA İXRACA DÖVLƏT DƏSTƏYİ VƏ İXRACIN ƏMTƏƏ DİVERSİFİKASİYASI*

*Nicat Kamran oğlu HACIZADƏ,*
*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri, n.hacizadeh@gmail.com*

**Xülasə**

*Covid-19 pandemiyasının Azərbaycanın ixrac siyasətinə təsirləri istiqamətində aparılan tədqiqatın başlıca məqsədi mövcud pandemiya şəraitində dövlətin ixracın daralmasının qarşısını alması, müvafiq dövrə qədər baş verən təhdidlərin ixracın şaxələnməsinə mənfi təsirlərinin minimallaşdırılması, habelə ixracın əmtəə strukturunda baş verən dəyişikliklərin təhlilinin öyrənilməsidir. Tədqiqat çərçivəsində xarici ticarətin, xüsusilə əmtəə strukturunda yaranan daralmalar, ixrac səbətində yer alan mal və məhsulların qeyri-neft ixracında payının öyrənilməsi, əmtəə nöqteyi-nəzərindən ixracın dayanıqlılığında yaranan təhdidlər analiz olunmuşdur. Pandemiya dövrünü nəzərə alaraq, ixracın diversifikasiyasının böhran dövrlərində dayanıqlılıq və zərərlərinin minimallaşdırılmasına təsirləri qeyd edilmişdir. Əmtəə qrupları üzrə ixracın diversifikasiyasının tədqiqatını apararkən, baş verən azalmaların əsas səbəbi kimi pandemiya dövründə sifarişlərin azalması əsas xarici ticarət tərəfdaşlarının iqtisadiyyatlarında baş verən daralma, habelə mövcud zamana qədər zəif liberal ticarət siyasəti ilə əlaqədar olması qənaətinə gəlirik. Nəticə etibarı ilə, pre-pandemiya dövründə ixrac səbətində mövcud olan məhsulların ümumi qeyri-neft ixracında dominantlığı Covid-19 pandemiyası dövründə də davam etmişdir. Post-pandemiya dövrü üçün əmtəə diversifikasiyasının yüksəldilməsi, qeyri-neft təyinatlı ixracın artırılması istiqamətində təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *ixrac, diversifikasiya, liberallaşdırma, qeyri-neft sektoru, pandemiya, iqtisadi artım*

## Giriş

Aşağı rentabelli məhsul istehsal edən ölkədən yüksək rentabelli ölkəyə keçid müasir inkişaf və artım mərhələsində iqtisadiyyatın struktur transformasiyandan asılıdır. [1] Bu keçidin ilkin şərti ixracatçıların əmtəələrinə elastik tələbin olması fonunda ölkələrin ticarət təsirlərinin mənfi şərtlərindən çəkinmədən beynəlxalq ticarət bazarlarını proqnozlaşdıra bilməsidir. Müasir iqtisadiyyat daha yüksək və rentabelli əmtəə istehsalının və xidmətin ixracı ilə sinonimdir. Resurs əsaslı ölkələrin ixracına nəzər yetirdikdə dar çərçivəli ixrac səbətinə rast gəlinir ki, bu da qlobal tələbin elastiksizliyi və qeyri-stabilliyi ilə əlaqədardır. Sözügedən qeyri-stabillik dünya ölkələrində makroiqtisadi volatilliyə, maliyyə sabitliyinin pozulmasına, habelə dayanıqsız iqtisadi artıma səbəb olur. Makroiqtisadi çərçivənin sabitliyi və dayanıqlı beynəlxalq ticarətin təmin edilməsi iqtisadiyyatın və ixracın diversifikasiyasından asılıdır. Digər tərəfdən ölkələrin ixracının rəqabətqabiliyyətliliyinin artırılmasının yolu da diversifikasiya siyasətindən birbaşa asılıdır. Həmçinin, ixracın şaxələndirilməsi siyasəti ölkələrin ixracının rəqabətqabiliyyətliliyini artırır ki, bu da dünya bazarlarında yaranan üstünlüklərdən tez bir zamanda istifadə etməyə kömək edir. Habelə, dünya ölkələrinin iqtisadi artımının əsas tətikləyici qüvvələrindən biri də ixracın

diversifikasiyasıdır. Maloney və Ledermanın (2007) empirik analizlərinə əsasən adambaşına düşən artımla şaxələnmə arasında müsbət əlaqə mövcuddur.

Dünya iqtisadiyyatında dərin ressesiya yaradan COVİD-19 pandemiyası Azərbaycana 2020-ci ildə təsir etmişdir. Pandemiyanın qeyri-müəyyən dövrü əhatə etməsi beyin mərkəzləri və hökumətlər tərəfindən proqnozlaşdırıla bilən deyil. Həyata keçirilən fiskal stimul paketləri adıçəkilən virusun mənfi təsirləri fonunda daralmanın qarşısının müvəqqəti alınması nəticəsində stimullaşdırıcı xarakter daşımışdır. Xüsusilə, pandemiya səbəbindən dünya bazarlarında neft qiymətlərinin sürətli enişi Azərbaycanın ümumi ixracını 30%-ə qədər azaltmışdır. Şübhəsiz, Azərbaycanın iqtisadi ressesiyasının aşağı olmasında da əsas səbəb kimi neft-qaz sektoru hesabına əldə edilən gəlirlərin azalması olmuşdur. Pandemiya səbəbindən bir sıra əmtəələrə sifarişlərin artması bazarlara yeni ixrac imkanları yaratmışdır. Buna baxmayaraq, neft-qaz sektorunun ixracda 90%-ə yaxın konsentrasiya olunması Azərbaycanı makroiqtisadi təhdidlərlə üzbəüz qoymuşdur.

Azərbaycan Cənubi Qafqazın yüksək ixrac dövriyyəsinə malik ölkəsi kimi iqtisadiyyatın və ixracın diversifikasiya siyasətini uzun illərdir həyata keçirir. Covid-19 pandemiyası dövründə əldə edilən statistik göstəricilərə müvafiq olaraq, Azərbaycan Cənubi Qafqaz regionunda dominantlığını saxlamışdır. Buna baxmayaraq, ixracın əmtəə strukturunda dominantlığı davam edən mal və məhsullar mövcuddur ki, bu da ixracın dayanıqlılığına mənfi təsir göstərmişdir. Habelə, makroiqtisadi sabitliyin əsas dayaqlarından biri hesab edilən cari əməliyyatlar balansının müsbət profisiti xarici ticarət balansının yüksək müsbət saldosu hesabına təmin edilir. Sözügedən hadisə müsbət olsa da, neft-qaz ixracından əldə edilən valyuta hesabına formalaşır ki, bu da dünya enerji bazarlarında baş vermiş və verəcək volatilliklər fonunda riskli hesab edilir.

**1. Ədəbiyyat xülasəsi**

İxrac diversifikasiyası uzunmüddətli dövrdə dayanıqlı ixrac gəlirlərinin formalaşmasına kömək edir. [2] Hausman və Klinqer analizlərinə görə ixrac diversifikasiyası iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən biri olmaqla, artımı tətikləmək qüvvəsinə malikdir. Hausman, Hvang və Rodrik (2006) yanaşmasına əsasən, iqtisadi böyümə müqayisəli üstünlüyə görə deyil, innovativ sahələrə investisiyalar nəticəsində əldə edilir. Hausman və Rodrikin (2003) modelinə əsasən, innovasiyalar sahibkarların istehsal xərclərini azaldır və yeni məhsulların rəqabətqabiliyyətliliyini artırır. Onların fikrincə insan kapitalı, təbii resurslar və düzgün institutsionallaşma ixracın diversifikasiyasına, son nəticə etibarı ilə isə iqtisadi artıma müsbət təsir edir. Habelə, Hausmanın Uqanda və Şri-Lanka ilə bağlı apardığı araşdırmada ixracın diversifikasiyasını qeyri-ənənəvi əmtəələrin istehsalı innovativ hallərdən (fiziki, insan kapitalı və texnologiya) asılı olmasını bildirmişdir.

Covid-19 pandemiyası dönəmində xarici ticarət siyasətində tətbiq edilən məhdudiyyətlər iqtisadi artımın zəifləməsinə səbəb olmuşdur. Dünya Bankının 2020-ci ilin yekunlarına dair hesabatında pandemiya nəticəsində adam başına düşən ÜDM-in azalması ev təsərrüfatları və biznes subyektlərinin aktiv fəaliyyətdə olmaması ilə əlaqələndirilir. İmbs və Vacziarg (2003) [3] qeyd edir ki, OECD ölkələrində ixrac diversifikasiyası ilə iqtisadi inkişaf (adambaşına düşən ÜDM-in hesablanmasına əsasən) arasındakı əlaqə müsbətdir. V.Chandra, J.Boccardo and I.Osorionun "Herfindahl Index" əsasında hesablarına müvafiq olaraq, inkişafda olan ölkələrdə 1980-2004-cü illər ərzində ixrac 10%-ə qədər şaxələnmişdir. Hesablamada adambaşına

düşən ÜDM, əhali, makroiqtisadi mühit, investisiya, insan kapitalının, idarəetməyə nəzarət edildikdən sonra da orta hesabla müsbət olduğu göstərilmişdir.

COVİD-19 pandemiyası əmtəələrin ticarətinə mənfi təsir göstərmişdir. Alvaro Espitia, Nadia Rocha və Michele Rutanın Covid-19 pandemiyasının təsirləri ilə bağlı yaranan ixrac məhdudiyyətlərinə nəzər salmışdır. Sözügedən şəxslərin “Pandemiyanın təsirləri və ixrac məhdudiyyətləri” ilə əlaqədar tədqiqatında dünya ərzaq bazarında baş verən şoklar, əmək qüvvəsinin sosial izolyasiya səbəbindən baş vermişdir. Spesifik məhsullar üzərindən aparılan tədqiqata əsasən, əmək qüvvəsinin və işə götürənlərin izolyasiyası nəticəsində məcmu təklifin və tələbin enməsi baş vermişdir. Dünya Ticarət Təşkilatının tədqiqatına əsasən, Covid-19 pandemiyası nəticəsində ənənəvi məhsulların (xüsusilə, qeyri-yeyinti) ticarətində enmələr olsa da, qeyri-ənənəvi məhsulların ticarət trayektoriyasında müsbət dinamika müşahidə olunub.

2019-cu ildə ABŞ-da nüfuzlu İRS fondu tərəfindən nəşr edilən “İqtisadi Azadlıq Təşkilatı” indeksi dünya iqtisadiyyatında mühafizəkar meyillərin geniş yayılaraq ixrac diversifikasiyasının zədələnməsi, habelə proteksionist siyasətin genişlənəyəcəyi ilə bağlı proqnoz irəli sürmüşdü. [4] Tori K. Smith and Riley Valters 2019-cu ildə nəşr edilən “Azad ticarətlə müharibə” məqaləsinə əsasən hesab edirdi ki, iqtisadiyyat və xarici ticarətdə hökumətlərin mühafizəkar siyasətlərə meyil etməsi ixrac şaxələndirilməsinə maneçilik törədəcəkdir. Müəlliflərin fikrincə dünya iqtisadiyyatında azad ticarətin məhdudlaşdırılması və qeyri-tarif baryerlərinin tətbiqi geniş çeşidə malik mal nomenklaturalarının azalmasına, coğrafi şaxələnməyə ziyan vuracaqdır.

2020-ci ilin mart ayından etibarən ÜST tərəfindən tövsiyə edilən sosial izolyasiya tədbirləri beynəlxalq iqtisadi və ticari institutların proqnozlarında dəyişiklik etməyə sövq etdirdi. Belə ki, sosial izolyasiya nəticəsində qida və əczaçılıq məhsulları istisna olmaqla digər sahələrdə təklifin dayandırılması beynəlxalq ticarət münasibətlərinə mənfi təsir etməyə başladı. 2020-ci ilin əvvəlindən başlayaraq Heriteyc Fondu yazılar nəşr edərək dünya iqtisadiyyatında proteksionist siyasətlərin tətbiqinin sürətləndiyini bildirmişdir. Sözügedən qurum tariflərin artırılması, nəzarət prosedurlarının genişləndirilməsi şəraitində xarici ticarətin şaxələnməsinin azalacağını bildirmişdir.

Vüqar Bayramovun “Xəzər hövzəsində neft şoku: Şaxələndirmə siyasəti və subsidiyalaşmış iqtisadiyyatlar” tədqiqatına əsasən, Azərbaycan, Qazaxıstan və Rusiya ilə müqayisədə daha az ixracı diversifikasiya etmişdir. Herfindahl-Hirschman indeksi (HHI)[1] əsasında aparılan hesablamaya əsasən, Rusiya və Qazaxıstan 0,4 olduğu halda, Azərbaycan Qlobal Maliyyə böhranı ərəfəsində 0,8 kimi qiymətləndirilmişdir.

## 2. Covid-19 pandemiyasının təsirlərinin minimallaşdırılması istiqamətində Azərbaycan hökumətinin orta və uzunmüddətli yol xəritəsi

COVİD-19 pandemiyasının əhatə dairəsinin 2020-ci ilin əvvəlindən geniş yayılması sürəti Azərbaycan hökuməti tərəfindən də çevik reaksiya ilə nəticələndi. Prezident İlham Əliyevin müvafiq Sərəncamı əsasında yaradılan Nazirlər Kabineti yanında “Operativ Qərargah” pandemiyanın nəticələrinin öyrənilməsi, sosial izolyasiya tədbirlərinin həyata keçirilməsi, iqtisadiyyata dəyə biləcək mənfi təsirlərin minimuma endirilməsi istiqamətində yaradılan istişarə institutu statusunu daşımışdır. Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın çevik reaksiyası ilə “Koronavirus (COVİD-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və

[1] Herfindahl-Hirschman indeksi (HHI) ixrac şaxələndirilməsini ölçmək üçün istifadə olunur və aşağı dəyərlər daha yüksək şaxələndirməyə işarə edərək 0 ilə 1 arasındadır

səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının icrası istiqamətində qısa və orta müddətli yol xəritəsi hazırlandı. [5] Hazırlanan yol xəritəsi üç istiqaməti əhatə etmişdir.

1. İqtisadi artıma və sahibkarlığa dəstək.
2. Məşğulluq və sosial rifaha dəstək.
3. Makroiqtisadi və maliyyə sabitliyi.

Pandemiya nəticəsində iqtisadiyyatın müxtəlif sektorlarında yaranan tənəzzül ixrac əməliyyatlarının sürətinin azalmasına səbəb olmuşdur. Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarının tətbiq etdiyi məhdudiyyətlər ixracın azalmasına təsir etməklə həcm və dəyərin azalmasına səbəb olmuşdur. Habelə, pandemiya zamanı biznesə və iqtisadiyyata artan qeyri-müəyyən gözləntilər əsas ticarət tərəfdaşlarının iqtisadiyyatlarının daralmasına, potensial sifarişlərin azalmasına səbəb olmuşdur. Azərbaycan hökuməti tərəfindən qəbul edilən orta və uzunmüddətli yol xəritəsində qeyri-neft ixracının azalmasının qarşısının alınması məqsədilə stimullaşdırıcı və dəstəkləyici qərarlar qəbul edilmişdir.

***Cədvəl 1. COVİD-19 pandemiyası ilə əlaqədar dövlət tərəfindən həyata keçirilən tədbirlər***

| PANDEMİYANIN MƏNFİ TƏSİR ETDİYİ FƏALİYYƏT SAHƏLƏRİNDƏ ƏLAVƏ DƏSTƏK TƏDBİRLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ İSTİQAMƏTİNDƏ | | |
|---|---|---|
| 1. | Qeyri-neft məhsullarının ixracının artırılmasına və stimullaşdırılmasına yönəlmiş aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsi: | Məqsəd |
| 1.1. | Qeyri-neft məhsullarının ixracına marağın artırılması məqsədilə beynəlxalq təcrübədə istifadə edilən malların ixrac qeydi ilə satışı (malların ixrac edilməməsi halında vergilərin ödənilməsinin bank qarantiyası və sair üsullarla təmin edilməsi şərtilə) mexanizminin Vergi Məcəlləsinə daxil edilməsi; | Qeyri-neft məhsullarının “ixrac qeydi ilə satışı” zamanı ƏDV-yə (0) dərəcə ilə cəlb olunması yerli istehsal məhsulunun qiymət üstünlüyünə malik olmasını şərtləndirəcəkdir. |
| 1.2. | İdxal olunan və yerli istehsalı olmayan xammal və ara mallardan asılı olan yerli istehsal sahələrinin rəqabət qabiliyyətinin artırılması məqsədilə müvafiq siyahı üzrə gömrük rüsumu güzəştlərinin tətbiqi; | İxrac edilən məhsulların rəqabətqabiliyyətliliyinin təmin edilməsi məqsədilə atılan addımdır. Sektorial təhlillərə əsasən, ixrac edilən əksər mal və məhsulların ölkə daxili istehsalı müqayisəli üstünlüyə malik deyil. Həmin xammal və ara malların idxal edilərək, istehsalın tərkib hissəsinə cəlb edilməsi ixrac ediləcək məhsulun xarici bazarda qiymət üstünlüyünü artıracaqdır. |
| 1.3. | Sahibkarlar tərəfindən daxildə xüsusi gömrük prosedurundan istifadənin stimullaşdırılması istiqamətində tədbirlərin görülməsi. | Sözügedən stimullaşdırıcı tədbirlər nəticəsində xarici sifarişlərin sayının artımı dəstəklənəcəkdir. Belə ki, fiziki və ənənəvi xidmət ixracına malik olan ticarətin pandemiya dönəmində mənfi təsirlərdən qorunması iqtisadi aktivliyin də daralmasının qarşısını alacaqdır. |

*Mənbə: Azərbaycan Respublikasının Nazirlər Kabineti*

## 3. Xarici ticarətin mövcud diversifikasiyası

Azərbaycanın ixracyönümlü istehsal strategiyasına keçidini təmin edən islahatları qanunvericilik və icraat proseslərində izləmək mümkündür. Pre-pandemiya dövründə istehsalın artımı və xarici bazarlara çıxış imkanlarının artırılması istiqamətində təşviqedici və stimullaşdırıcı mexanizmlər həyata keçirilib. Xarici ticarətin şaxələndirilməsi həm idxalatçı və ixracatçı subyektlərin rifahı, həm də makroiqtisadi sabitliyin dayanıqlılığı üçün mühüm şərtdir. İxracın diversifikasiyası kimi idxalın da şaxələndirilməsi əhəmiyyətli dərəcədə vacibdir. İdxal şaxələnmədiyi müddətdə müxtəlif sektorların dayanıqlı istehsal və xidmətlərinə mənfi təsir edir. İxracın diversifikasiyası kimi idxalın şaxələndirilməsi siyasəti də məhsul və coğrafi nöqteyi-nəzərdən vacibdir. İdxalın coğrafi və məhsul şaxələndirilməsi sözügedən ticarətin statistik artımına deyil, keyfiyyətinə hesablanmışdır. Habelə, idxalın şaxələndirilməsi ixracın da diversifikasiyasına təsir edir. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə" bir sıra qərarları və "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların qarşısının alınması ilə bağlı Tədbirlər Planında" [6] idxal olunan və yerli istehsalı olmayan xammal və ara mallardan asılı olan yerli istehsal sahələrinin rəqabət qabiliyyətinin artırılması məqsədilə müvafiq siyahı üzrə gömrük rüsumu güzəştlərinin tətbiqi ixracın stimullaşdırılması və rəqabətqabiliyyətliliyin artırılması ilə əsaslandırılır. Daha rəqabətcil ixracın təmin edilməsi məqsədilə ucuz və keyfiyyətli xammal komponentlərinə ehtiyac duyulur.

Statistika nöqteyi-nəzərindən 2020-ci ildə Azərbaycanın idxal mallarının çeşidliliyi 2015-ci ilə nəzərən 20,6% artıb. İxrac əməliyyatları üzrə neft sektorunun payı 2709-2715 mal mövqelərindən ibarətdir. [7] Xam neftin mütləq üstünlük təşkil etdiyi neft-qaz sektorunun da diversifikasiyasının aşağı olduğunu nəzərə alaraq, ixrac edilən malların çeşidliliyi 12,3% artıb. Diaqram 1-də göstərilən statistikanın dinamikası idxalın daha çox şaxələndiyini göstərir. Azərbaycan Dövlət Statistika Komitəsinin idxal əmtəələrinin strukturuna əsasən, aralıq məhsulların payı üstünlük təşkil edir.




*Mənbə: Dövlət Gömrük Komitəsi | Xarici ticarətin vəziyyəti haqqında arayış*

***Diaqram 1. İdxal və ixrac mallarının çeşidlərinin sayı***

İdxalın diversifikasiyası ilə bağlı mülahizələr bütün hallarda müsbət deyildir. Kölgə iqtisadiyyatının və qeyri-leqal iqtisadi fəaliyyət sahələrinin, qeyri-formal məşğulluğun mövcud olması, inhisarçılıq meyillərinin yüksək olması və rəqabət mühitinin zəif olduğu iqtisadiyyatlarda idxalın diversifikasiyası riskli xarakter daşıyır. Kölgə iqtisadiyyatının olması şəraitində xarici ticarət siyasəti ilə əlaqədar veriləcək siyasət və administrativ qərarların təsirləri əsas çağırışlardan hesab edilməlidir. Monopoliyanın yaratdığı diversifikasiya riski, əmtəələrdən daha çox müəssisələrin bazarda hökmranlığı ilə nəticələnir. Resurs əsaslı və aşağı texnoloji qrupa daxil olan ölkələrin xarici ticarətində yer alan fiziki və hüquqi şəxslərin azlığı, kiçik və orta sahibkarlıq payının kiçik olması, həmin əməliyyatların az müəssisələr ətrafında konsentrasiyası ilə nəticələnir. Bu daha çox iqtisadiyyatın şaxələndirilməsinə təhdiddir. İnhisarçılıq və inhisarçılıqdan doğan kölgə iqtisadiyyatının inkişafı ilə diversifikasiya tərs mütənasibdir. [8] Nəticə etibarı ilə iqtisadi diversifikasiyanın olmaması şəraitində (resursa dayalı ölkələrin təcrübəsinə daha çox münasibdir) xarici ticarətin diversifikasiyası mümkün deyildir.

Dünya ticarətində, habelə Azərbaycanın xarici ticarətində liberallaşdırma siyasətinin fəlsəfəsi yalnız istehlakçıların daha ucuz məhsullara çıxış imkanının artması ilə deyil, həmçinin makroiqtisadi dayanıqlılığın təmin olunması üçün ixracatın həcm və dəyərinin artmasıdır. Azərbaycanda xarici ticarət iştirakçıları, məhsul və coğrafi baxımdan idxal diversifikasiyası ixrac şaxələndirilməsi ilə müqayisədə daha genişdir. Coğrafi diversifikasiya idxalın coğrafi strukturunda da nəzərə çarpır. Cədvəl 2-də müvafiq olaraq idxal-ixracın şaxələnməsini müşahidə etmək mümkündür. Dövlət Statistika Komitəsinin coğrafi regionların quruluşuna əsaslanan göstəricilərinə görə, ixracın 98,5%-i Avropa və Asiya regionunun payına düşdüyü halda, idxalın 97,3%-i Amerika, Asiya və Avropanın payına düşür.

***Cədvəl 2. İdxalın coğrafi quruluşu, idxalda xüsusi çəkisi, faizlə***

| Coğrafi regionlar | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| reimport | | | | | | |
| o cümlədən: | | | | | | |
| Avropa | 55,0 | 54,5 | 53,3 | 49,2 | 48,0 | 49,3 |
| Asiya | 35,0 | 33,5 | 37,5 | 38,7 | 41,4 | 37,2 |
| Amerika | 9,6 | 11,6 | 8,4 | 11,3 | 8,6 | 10,8 |
| Afrika | 0,1 | 0,1 | 0,2 | 0,3 | 1,6 | 0,2 |
| Okeaniya | 0,3 | 0,3 | 0,6 | 0,5 | 0,4 | 2,5 |

*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi | Xarici ticarət əlaqələrinin coğrafi quruluşu*

***Cədvəl 3. İxracın coğrafi quruluşu, ixracın xüsusi çəkisi, faizlə***

| Coğrafi regionlar | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| o cümlədən: | | | | | | |
| Avropa | 57,2 | 58,0 | 61,0 | 64,7 | 61,2 | 60,2 |
| Asiya | 35,7 | 35,3 | 35,8 | 29,8 | 32,7 | 38,3 |
| Amerika | 4,6 | 4,4 | 1,4 | 4,3 | 5,1 | 0,9 |
| Afrika | 2,5 | 2,3 | 1,8 | 1,2 | 1,0 | 0,4 |
| Okeaniya | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,2 |

*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi | Xarici ticarət əlaqələrinin coğrafi quruluşu*

Cədvəl 3-ə nəzər salsaq görürük ki, xarici ticarətin coğrafi quruluşunun detallı təhlilinə əsasən, 2014-2019-cu illər ərzində Azərbaycan 232 ölkə ilə idxal əməliyyatları həyata keçirdiyi halda, ixracda bu rəqəm 176 olmuşdur. [9] 2014-2019-cu illər üzrə orta hesabla 100 min ABŞ dollarından yuxarı olan ölkələrin sayı idxal və ixracda ölkələr üzrə 18-22 intervalında olmuşdur. İxracın əmtəə mövqeyində neft-qaz sektorunun paya malik olması və idxal ilə müqayisədə orta hesabla daha az 60 ölkəyə ixrac etdiyini nəzərə alsaq, qeyri-neft sektoru üzrə ixracın coğrafi və əmtəə diversifikasiyası daha aşağıdır.

Beynəlxalq təcrübəni araşdırdıqda xarici ticarətin həcm və dəyərinin artırılması dolayı yolla makroiqtisadi sabitliyə təsir etsə də, əsas fəlsəfə istehlakçıların keyfiyyətli və ucuz seçim imkanlarına əlçatanlığıdır. Digər formada ifadə etdikdə, müasir xarici ticarət çağırışları bazarda olan həm yerli, həm xarici mal və məhsullara, o cümlədən xidmətə bərabər imkanların yaradılmasıdır.

Tədqiqat çərçivəsində Azərbaycanın potensial idxal diversifikasiyasının xarici ticarət iştirakçıları, coğrafi, tələb olunan aralıq, kapitalyönümlü və son məhsul nöqteyi-nəzərindən artım dinamikasını müşahidə edə bilərik. Diaqram 2-də müvafiq olaraq, idxalın tərkibinə daxil olan mütləq əksəriyyət əmtəələr ixrac əməliyyatlarını üstələyir. Uzun illər məzənnə siyasətində yerli valyutanın nominal olaraq xarici valyutalara nisbətən möhkəm qorunması, 2016-cı ildən etibarən isə əsas xarici tərəfdaşların məzənnə siyasətlərində volatillik fonunda sabit məzənnə siyasətinin seçilməsi ilə real effektiv məzənnənin bahalanmasını, ixracın stimullaşdırılması və rəqabətqabiliyyətliliyini zəiflədərək zəif artım templərinə malik olmasına səbəb yaradan fundamental amil kimi qiymətləndirmək mümkündür. Hausmanın fikrincə birbaşa investisiyanın istehsal sektoruna qoyulmaması fonunda ixracın diversifikasiyası ehtimalı aşağıdır. İqtisadi böyümə və struktur dəyişikliyi ticarət olunan məhsul növlərindən asılıdır. [10] Belə ki, diversifikasiyası ilə iqtisadiyyatın istehsal artımı və genişçeşidli ixraca yönələ bilər ki, bu da geniş mənada iqtisadi inkişafa töhfə verə bilər. İxracın diversifikasiyası hökumətlərə makroiqtisadi çərçivənin qorunması, digər formada ifadə edilərsə dayanıqlı iqtisadi artım, tarazlı və qənaətbəxş tədiyə balansı, məşğulluq və gəlirlərin ləyaqətli bölüşməsinə imkan yaradır. Bu baxımdan, real effektiv məzənnənin xarici ticarət tərəfdaşları ilə müqayisədə baha olmasının aralıq məhsul və insan resursları cəlbinə müsbət təsirləri olsa da, son nəticədə ixracın stimullaşması və şaxələnməsinə əngəl yaradır. [11]

Diaqram 2-də xatırlanan statistik göstəricilərin determinantları Azərbaycanın əmtəə strukturudur. Diaqram 3-də qeyd edilən statistik göstəricilərdən proqnozlaşdırmaq mümkündür ki, əmtəə strukturunun mineral resurs tərkibi istisna olmaqla, digər bütün strukturlar üzrə mənfi saldodur. Mineral resusursların tərkib hissəsinə daxil olan "Mineral yanacaq, neft və onun qovulma məhsulları, bitumlu maddələr" sözügedən strukturun üç bəndindən biridir. Mineral resurs strukturunda yer alan"duz, kükürd, torpaq və daş, əhəng və sement" və "filizlər, şlaklar və kül" bəndləri də daxil olmaqla, digər bütün əmtəə strukturlarının mənfi saldoya malik olmasını müşahidə etmək mümkündür. Əmtəə strukturunda ən yüksək mənfi saldoya "Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatlar" (2018-ci ildə -2,5 mlrd ABŞ dolları, 2019-cu ildə -2,6 mlrd ABŞ dolları), ən aşağı mənfi saldoya isə "incəsənət əsərləri, kolleksiya əşyaları və antikvariat" (2018-ci ildə -303,4 min ABŞ dolları, 2019-cu ildə -578,3 min ABŞ dolları) malikdir. Qeyri-neft sektoru ixracında əhəmiyyətli mövqeyə malik "bitki mənşəli məhsullar"ın ixracında 2018-ci ildə müsbət saldo qeydə alınsa da (24,4 mln ABŞ dolları), 2019-cu ildə mənfi saldo (-119,8 mln ABŞ dolları)

olmuşdur. Mineral resurslar üzrə əmtəə strukturunun neft sektorunun tərkib hissəsini nəzərə alsaq, mənfi saldoya malik digər bütün əmtəə qrupları qeyri-neft sektorunun payına düşür.




*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi | Xarici ticarət əlaqələrinin əmtəə strukturu*

***Diaqram 2. 2018-2019-ci illərdə əmtəə strukturunda dəyişən xarici ticarət saldosu***

## 4. COVİD-19 pandemiyası dövründə Azərbaycanın neft-qaz ixracı

COVİD-19 pandemiyası nəticəsində Azərbaycanın ixrac səviyyəsi həcm və dəyər nöqteyi-nəzərindən azalmışdır. Əmtəə strukturunu təhlil edən zaman diversifikasiyanın zəif olması, bir sıra qeyri-neft məhsullarında isə konsentrasiya səviyyəsinin yüksək olduğu nəzərə çarpır. Dünyada baş verən proteksionist siyasətlərə meyillilik, ticarət müharibələri, fövqəladə hadisələr, siyasi kontekstdə baş verən təlatümlər xarici ticarətin diversifikasiya edilmə çağırışlarını daha da aktuallaşdırır. Azərbaycan kontekstində isə qeyd edilən problem və çağırışlar daha aktualdır. İxracın diversifikasiyaya azlığının mühüm amili xam neft və təbii qazın Azərbaycanın ümumi ixracında 90% paya malik olmasından ibarətdir. Holland sindromu nəticəsində yarana biləcək makroiqtisadi risklərin tənzimlənməsi yalnız əmtəə və coğrafi şaxələndirmədən asılıdır. COVİD- 19 pandemiyası da bir daha diversifikasiya olunmamış xarici ticarətə malik ölkələrin ciddi iqtisadi təhlükə ilə qarşılaşacağını göstərdi. Azərbaycanın ixracında neft amilinin yüksək paya malik olması pandemiya dönəmində statistik cəhətdən özünü büruzə verdi. 2020-ci ildə Azərbaycanın neft-qaz sektoru üzrə ixracı 32,8% azalaraq 11,9 mlrd ABŞ dolları təşkil etdi. [12] Hətta neft-qaz sektorunda nəzərə çarpan zəif diversifikasiya ayrılıqda ciddi problemdir. Pandemiya səbəbi ilə enerjiyə olan tələbatın azalması diversifikasiya olunan neft-qaz sektorları üçün ayrıca üstünlük qazandırmasa da, post-pandemiya dövrü üçün yenidən aktuallaşacaqdır. Pre-pandemiya dövründə neft-qaz sektorunun diversifikasiya olunmaması riskli böhranlar zamanı kompensasiya və sığortalama effekti yarada bilmir. Azərbaycan Dövlət Statistika Komitəsinin statistikasına əsasən, 2020-ci ildə xam neft ixracından əldə edilən gəlirlər 36,8% azalaraq 9,4 mlrd ABŞ dolları, neft məhsullarından əldə edilən gəlirlər isə 36,2% azalaraq 295,1 mln ABŞ dolları təşkil etmişdir. Təbii qaz ixracına nəzər saldıqda da eyni mənzərə müşahidə edilir. 2019-cu ildə təbii qaz ixracından əldə

edilən gəlirlər 2,4 mlrd ABŞ dolları təşkil etdiyi halda, pandemiya ilində bu rəqəm 7,4% azalaraq 2,2 mlrd ABŞ dolları təşkil etmişdir. [13] Statistik indikatorların təhlili zamanı neft-qaz sektoru üzrə ixracda emal sənayesinin payının az olmasını müşahidə edirik. Halbuki, neft-qaz sərvətlərinə malik olmayan ölkələrin sözügedən sənaye məhsulları üzrə ixracı Azərbaycandan daha çoxdur. Emal sənayesinin inkişafı istiqamətində atılan addımların, həyata keçirilən islahatların əsas prinsipi institutsional reformalardır. Qlobal iqtisadiyyatda, o cümlədən xarici neft bazarında baş verən prosesləri və qeyri-müəyyənlikləri nəzərə alaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin korporativ idarəetmə sisteminin və biznes modelinin təkmilləşdirilməsi yolu ilə onun beynəlxalq mühitdə rəqabətədavamlılığı, orta və uzunmüddətli perspektivdə maliyyə dayanıqlılığı, idarəetmənin, habelə sərmayələrin effektivliyinin və aktivlərinin dəyərinin əhəmiyyətli dərəcədə artırılması istiqamətində müvafiq Fərman imzalanmışdır.

## 5. COVİD-19 pandemiyası dövründə Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac və diversifikasiya vəziyyəti

Neft-qaz sektoru üzrə ixraca nəzər yetirdikdən sonra, qeyri-neft əmtəə strukturunda məhsul çeşidlərinin də xammal xarakterli olduğu sabit olmuşdur. Aparılan tədqiqat çərçivəsində qeyri-neft ixracının əmtəə strukturunda texnoloji tutuma malik və dəyər zəncirində davamlı paya sahib mal və məhsullar mövcud deyildir. Habelə, qeyri-neft ixracını tətikləyən əmtəələrin emal deyil, xammal tutumluluğu, bundan əvvəl qeyd edilən nüanslar daxil olmaqla ixracın rentabellililiyi nöqteyi-nəzərindən riskli və dayanıqsızdır. Bundan əlavə, dar ixrac səbətinə malik əmtəələrin mütləq əksəriyyətinin bir ölkəyə satışı coğrafi diversifikasiya baxımından çağırış hesab edilə bilər. Təhlil edəcəyimiz hərəkətverici əmtəələrin böyük əksəriyyəti xammal komponenti kimi xarici məhsulların tərkib hissəsini formalaşdırır. İstehlaka yararlılıq son məhsul ixracı isə hərəkətverici qeyri-neft ixracında paya sahib deyil.

***Cədvəl 4. 2020-ci ilin rübləri üzrə hərəkətverici ilk doqquz məhsulun ixrac statistikası***

| | *Birinci rüb* | *İkinci rübün sonuna* | *Üçüncü rübün sonuna* | *İlin yekunu üzrə* |
|---|---|---|---|---|
| Qeyri-neft ixracı | *429 mln ABŞ dolları* | *911 mln ABŞ dolları* | *1,3 mlrd ABŞ dolları* | *1,9 mlrd ABŞ dolları* |
| Əsas hərəkətverici əmtəələr | *Mln ABŞ dolları ilə,* | | | |
| Pomidor | 43,9 | 162,3 | 167,8 | 201,4 |
| Qızıl | 36,3 | 85,7 | 150 | 205,6 |
| Pambıq mahlıcı | 42,8 | 58,6 | 82,7 | 131,9 |
| Fındıq ləpəsi | 36,3 | 54,5 | 67,4 | 113,6 |
| Xurma | 14,1 | - | - | 91,6 |
| Elektrik enerjisi | 17,8 | 41,6 | 51,9 | 59,8 |
| İlkin formalı poripropilen | 21,1 | 39,9 | 53,1 | 64,5 |
| Hesablayıcı maşınlar və onların blok hissələri üçün hissələr | 11,5 | - | - | - |
| Polietilen | 12,7 | 24,4 | - | - |
| Kartof | - | 33,8 | - | - |
| Albalı-gilas | - | 32,3 | 48,7 | |

| | | | | |
|---|---|---|---|---|
| Emal olunmamış aşqarlanmamış alüminium | - | - | 36,1 | 48,8 |
| Metanol | - | - | 35,4 | 51,2 |

*Mənbə: İxrac icmalı 2020 – Dövlət Statistika və Dövlət Gömrük Komitəsinin məlumatları əsasında*

Aparılan tədqiqatın pandemiya dönəmi ilə əlaqədar olduğunu nəzərə alaraq, 2020-ci il üzrə hərəkətverici əmtəələr cədvəl 5-də qeyd olunmuşdur. Pandemiya səbəbi ilə sözügedən 9 əmtəənin böyük hissəsinin ixracında azalma müşahidə edilmişdir. Covid-19 pandemiyası beynəlxalq ixrac dövriyyəsində ciddi ressesiyaya səbəb olsa da, mal və məhsulların strukturunda radikal dəyişikliklər müşahidə edilməmişdir. Ticarət dövriyyəsində qeyri-ənənəvi əmtəələrin önə çıxması pandemiyanın yaratdığı şərtlər daxilində mümkün olmuşdur ki, buraya tibbi avadanlıqlar, əczaçılıq məhsullarının dövriyyəsində görmək mümkündür. Qeyri-ənənəvi deyərkən, bu zamana qədər nəzərəçarpan ticarətdən daha yüksək dövriyyəyə malik olması nəzərdə tutulur. Azərbaycanın qeyri-neft ixracında isə pandemiya səbəbi ilə qeyri-ənənəvi əmtəələrin ixracı deyil, idxalında artım müşahidə edilmişdir.




*Mənbə: Dövlət Gömrük Komitəsi*

***Diaqram 3. Seçilmiş əmtəələrin qeyri-neft ixracında payı***

Cədvəl 4-də qeyd olunan əmtəələrin rüblük qeyri-neft ixracında payına baxdıqda, qeyri-neft ixracının zərif diversifikasiyaya və sərt konsentrasiyaya [14] malik olduğunu müşahidə etmək mümkündür. Kumulyativ üsulla tərtib edilən cədvəlin rüblük statistikasına müvafiq olaraq, qeyri-neft sektorunda sözügedən 9 əmtəə birinci rüb üzrə 56%, ikinci rüb üzrə 58,2%, üçüncü rüb üzrə 53,8%, dördüncü rüb və ilin yekunu üzrə 52,6% paya sahib olmuşdur. Dövlət Gömrük Komitəsinin ixrac ilə əlaqədar statistik bülleteninə əsasən (bax diaqram 3-ə), 2020-ci il üzrə mal və məhsullar üzrə ixrac çeşidlərinin 0,3%-ni təşkil edən əmtəələr qeyri-neft ixracında ortalama 55,15% paya malikdir.

Tarixi statistikanı tədqiq edən zaman ötən illər üzrə əmtəələrin strukturunda nəzərə çarpan dəyişiklik baş verməmişdir. Habelə, 2020-ci illə müqayisədə texnologiya tutumlu məhsulların deyil, xammal tutumlu məhsulların payının yüksək olduğunu müşahidə edə bilirik. 2017-2019-cu illər ərzində ixrac səbətində yer alan 9

hərəkətverici əmtəə 2020-ci ilin strukturu ilə müqayisədə nəzərəçarpacaq dəyişikliklərə malik deyil. Buna baxmayaraq, əmtəə diversifikasiyası deyərkən, ixracın statistikasında yüksək konsentrasiyaya malik olmaması nəzərdə tutulur. Sözügedən mal və məhsulların illər üzrə ilk doqquz hərəkətverici əmtəə tərkibində yer almaması diversifikasiyanın yüksək olması anlamına və ya əmtəə çeşidlərinin genişliyi ilə əlaqəli deyildir. Təhlil zamanı qeyri-neft ixracının 50% civarında dəyişən məhsullarının 9-10 çeşid intervalında dəyişməsi gələcək perspektivlər və ixrac nailiyyətləri baxımından ciddi risk təhlükəsi yaradır. Cədvəl 4-də qeyd edilən əmtəələrin tərkib hissələrindəki artımlar ümumi qeyri-neft ixracının artımında həlledici rola malikdir. İxracın statistik baxımdan yüksəlməsinin keyfiyyət nöqteyi-nəzərindən, konsentrasiya əmsalı yüksək olan mal və məhsullar hesabında deyil, diversifikasiya olunan və geniş əmtəə çeşidliliyinə malik artım hesabına təmin edilməsi gözlənilləndir.

***Cədvəl 5. Qeyri-neft sektorunun hərəkətverici əmtəələri***

| | **2017** | **2018** | **2019** |
|---|---|---|---|
| Qeyri-neft ixracı | *1,5 mlrd ABŞ dolları* | *1,7 mlrd ABŞ dolları* | *1,95 mlrd ABŞ dolları* |
| **Əsas hərəkətverici əmtəələr** | *Mln ABŞ dolları ilə* | | |
| Pomidor | 151,6 | 177,4 | 189,3 |
| Qızıl | 125,4 | 118 | 172,4 |
| Fındıq ləpəsi | 114,5 | 93,5 | 124,2 |
| Pambıq mahlıcı | - | 79,5 | 122,4 |
| Xurma | 90,9 | 114,5 | 104,7 |
| Elektrik enerjisi | 51 | 65,6 | 76,8 |
| İlkin formalı poripropilen | - | - | 65,7 |
| Metanol | 42,8 | - | 64,6 |
| Polietilen | 75,4 | 74,4 | 64 |
| Emal olunmamış aşqarlanmamış alüminium | - | 48,6 | - |
| Alüminium ərintilərdən plitələr | 42,9 | - | - |
| Digər yağlar və məhsullar | - | 39,5 | - |
| Şəkər | 39,4 | - | - |

*Mənbə: İxrac icmalı 2020 – Dövlət Statistika və Dövlət Gömrük Komitəsinin məlumatları əsasında*

2017-2019-cu illər ərzində diaqram 4-də qeyd edilən 9 əmtəənin qeyri-neft ixracındakı payı ortalama 50% civarında dəyişir.




*Mənbə: Dövlət Gömrük Komitəsi*

***Diaqram 4. 2017-2019-ci illər üzrə 9 əmtəənin qeyri-neft ixracında payı***

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTADstat) tərəfindən 2019-cu ildə aparılan ixracda diversifikasiya və konsentrasiya tədqiqatına [15] müvafiq olaraq, neft-qaz məhsullarının ixrac səbətində əmtəə kimi payının az olması, analoji olaraq qeyri-neft sektorunun ixrac səbəti üçün də aktualdır.

**Nəticə**

Covid-19 pandemiyası nəticəsində yaranan ixrac daralmalarının qarşısının alınması istiqamətində dövlətin ilkin addımları ixracın stimullaşdırılması və dəstəklənməsinə yönəlmişdir. Sözügedən dəstəyin ixracın diversifikasiya olunması istiqamətində müsbət təsirləri olacaqdır. Belə ki, xarici bazarlara inteqrasiya istiqamətində sahibkarların xərc yükünün yüksək olması qiymət rəqabətində uduzmasına səbəb olur. Dövlət tərəfindən göstəriləcək dəstək mövcud ixracın səngiməsinin qarşısını almaqla bərabər, qeyri-ənənəvi əmətəələrin xarici bazara çıxışını asanlaşdıracaqdır.

Aparılan tədqiqatın nəticəsi kimi qeyri-neft sektoru üzrə ixracda az sayda məhsulun yüksək paya sahib olduğu sabit olmuşdur. Covid-19 pandemiyası dönəmində ixrac portfelində yer alan mal və məhsul çeşidlərinin 2,5% azalması xarici sifarişlərin azalması ilə əlaqədardır. 2017-2019-cu illər və 2020-ci ilin rüblük yekunlarına dair statistik göstəricilərə uyğun olaraq, qeyri-neft ixracı səbətinə daxil olan hərəkətverici 9 məhsulun qeyri-neft ixrac dəyərində dominantlığı mövcuddur. 2017-ci ildən etibarən ixrac səbətinin 0,2-0,3% intervalında dəyişən qüvvətverici 9 mal və məhsulun tərkibində minimal dəyişikliklərin olması və sözügedən əmtəələrin ixracda payının 50% civarında dəyişimi ixracda konsentrasiya faizinin yüksək olmasını sübut edir. Tarixi statistikaya əsasən, ixracda yüksək paya sahib az sayda əmtəələrin pandemiyanın təsirlərinə baxmayaraq, minimal dəyişikliyə məruz qalması müşahidə olundu.

Tədqiqat çərçivəsində ixrac səbətinin minimum əmtəə payının ixracın tətikləyici qüvvəsi olması riskini daha da minimallaşdırmaq istiqamətində mikro və makro səviyyədə dəstəklərin göstərilməsi əsas çağırışdır. İnnovativ həllərin tətbiqindən başlayaraq, azad ticarət müqavilələrinin bağlanmasına qədər tədbirlərin həyata keçirilməsi beynəlxalq təcrübədə tətbiq edilən nəticəverici tədbirlərdir. Habelə, biznes mühitinin liberallığı, ixracatçılar arasında rəqabətin təmin edilməsi post-pandemiya dövründə ixracın diversifikasiyasına səbəb olacaqdır. Post-pandemiya dönəmində kiçik və orta sahibkarlığın ixracda payının artırılması istiqamətində ucuz maliyyə resurslarına əlçatanlığı, ixracyönümlü kreditlərin verilməsi və müxtəlif dəstəkləyici (beynəlxalq keyfiyyətin tətbiqi, tədqiqat və inkişaf xərcləri) tədbirlərin göstərilməsi ixracın diversifikasiyasında məhsul çeşidliliyini artıracaqdır.

Pandemiya dönəmində ixrac məhdudiyyətlərinin ixracda yaratdığı ciddi problemlər, post-pandemiya dönəmində azad ticarəti daha da təşviq edəcəkdir. Beynəlxalq ticarətə açıqlıq istiqamətində Azərbaycanın güzəştverici və dəstəkləyici xarakterə malik ticarət və gömrük birliklərinə üzvlüyü əsas çağırışlardan biridir.

Nəticə etibarı ilə, ixracın diversifikasiyası iqtisadiyyatın şaxələnməsindən birbaşa asılıdır. İqtisadi inkişaf və artıma nail olmaq istiqamətində ixracın diversifikasiya siyasətinə yönəlməsi xarici ticarətin liberallaşdırılması ilə əlaqəlidir. Çağdaş dönəmdə müqayisəli üstünlüyə malik əmtəələrin qiymət üstünlüyünə və keyfiyyət standartlarına malik olması mühüm şərt hesab edilir. Azərbaycanın müqayisəli üstünlüyə malik əmtəələrin kəşf edilməsi istiqamətində biznes mühitinin

innovativ həllərə meyil etməsi, bilik və ixtiraya dayanan modellərin kommersiya strukturları tərəfindən tətbiqi ixracın diversifikasiyasını daha da sürətləndirəcək.

## ƏDƏBİYYAT


1. Acemoglu and Zilibotti, 1997.
2. Azərbaycan Dövlət Neft Şirkəti - https://socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/oil-production.
3. Azərbaycan Dövlət Neft Şirkəti - https://socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/gas-production.
4. Azərbaycan Dövlət Statistika Komitəsi - https://www.stat.gov.az/source/trade/
5. DIVERSIFICATION: IMPACT OF MONOPOLY POLICY UPON MULTI-PRODUCT FIRMS G. E. HALE - https://scholarship.law.upenn.edu/cgi/viewcontent.cgi?referer=https://www.google.az/&httpsredir=1&article=8241&context=penn_law_review.
6. Dövlət Gömrük Komitəsi - https://customs.gov.az/modules/pdf/pdffolder/93/FILE_E7B3B9-B46FB9-AA0331-12CB1C-A0451C-E46BD4.pdf.
7. Export concentration reflects the degree to which a country’s exports are concentrated on a small number of products or a small number of trading partners.- https://unctadstat.unctad.org/en/IndicatorsExplained/statie2019d1_en.pdf.
8. Ghosh and Ostry, 1994; Bleaney and Greenaway, 2001.
9. Hausmann and Klinger, 2006; Hwang, 2006.
10. https://unctadstat.unctad.org/en/IndicatorsExplained/statie2019d1_en.pdf.
11. İqtisadi Azadlıq İndeksi (Economic Freedom İndex)- https://www.heritage.org/index/pdf/2020/book/2020_IndexofEconomicFreedom_Highlights.pdf.
12. Imbs, Jean and Romain Wacziarg. 2003. "Stages of Diversification ." American Economic Review, 93(1):63-86.
13. Nazirlər Kabineti - https://nk.gov.az/az/document/4341/.
14. Nazirlər Kabineti - https://nk.gov.az/az/document/4367/.
15. Trade Structure and Growth http://documents1.worldbank.org/curated/en/409091468741371016/pdf/multi0page.pdf.


## *ГОСУДАРСТВЕННАЯ ПОДДЕРЖКА ЭКСПОРТА И ДИВЕРСИФИКАЦИЯ ЭКСПОРТА ТОВАРОВ ВО ВРЕМЯ ПАНДЕМИИ COVID-19*

*Ниджат ГАДЖИЗАДЕ*

### *Резюме*

*Основной целью исследования, осуществляемого в области воздействия пандемии Covid-19 на экспортную политику Азербайджан, является предотвращение со стороны государства сокращения экспорта в текущих условиях пандемии, минимизация негативного воздействия угроз, появившихся*

*до определенного периода, на диверсификацию экспорта, а также изучение анализа изменений, происходящих в товарной структуре экспорта. В рамках исследования проводится анализ изучения внешней торговли, в особенности сокращений в товарной структуре, доли продуктов и товаров, включенных в экспортную корзину, в ненефтяном экспорте. Помимо этого, анализируются угрозы устойчивости экспорта с точки зрения товаров. Учитывая период пандемии, в исследовании отмечается воздействие диверсификации экспорта на устойчивость и минимизацию потерь во время кризисов. Анализируя диверсификацию экспорта по товарным группам, можно заключить, что основная причина сокращения заключается в уменьшении количества заказов во время пандемии из-за сокращения экономики основных внешнеторговых партнеров, а также во все еще слабой либеральной торговой политике. Вследствие, продукты, включенные в экспортную корзину в период до пандемии, сохранили доминирующие позиции в общем ненефтяном экспорте и во время пандемии Covid-19. В исследовании предоставляются рекомендации касательно повышения товарной диверсификации в пост-пандемический период, а также расширения ненефтяного экспорта.*

***Ключевые слова:*** *экспорт, диверсификация, либерализация, ненефтяной сектор, пандемия, экономический рост.*

## *STATE EXPORT SUPPORT AND EXPORT DIVERSIFICATION IN COMMODITY DURING COVID-19 PANDEMIC*

*Nijat HAJIZADA*

### *Abstract*

*The main purpose of the study on the impact of COVID-19 on the export policy of Azerbaijan is to prevent the country's export contraction against the backdrop of current pandemic, to minimize the negative impact of threats on export diversification, as well as to analyze changes in the commodity structure of the export. The study analyzes the contractions in foreign trade, especially in the commodity structure, the share of goods and products included in the export basket of non-oil export, and commodity threats to export sustainability. Given the pandemic period, the work also mentions the effects of export diversification on sustainability and loss minimization during the crisis. Moreover, while studying the export diversification by commodity groups, it was concluded that the main reason for the decline was the reduction in orders during the pandemic resulting from the contraction in the economies of major foreign trading partners, as well as a weak liberal policy that has existed so far. Thus, the products that had dominated in the export basket before the pandemic maintained their positions during the COVID-19 pandemic as well. The study provides proposals for increasing commodity diversification and non-oil export in the post-pandemic period.*

***Key words:*** *export, diversification, liberalization, non-oil sector, pandemic*

*UOT 338, 311.216*

# *AZƏRBAYCANDA ƏHALİNİN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İDARƏ EDİLMƏSİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ*

*Novruz Həsən oğlu HÜSEYNOV,*
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin İmişli rayon Statistika İdarəsinin rəisi,*
*Azərbaycan Respublikası Dövlət İqtisad Universitetinin Mühasibat uçotu kafedrasının doktorantı,*
*novruz_huseynov_92@mail.ru*

**Xülasə**

*Hər bir dövlətin əsas məqsədi vətəndaşlarının yüksək sosial rifahını təmin etməkdir. Sosial rifahın yaxşı olmasını səciyyələndirən əsas amillər sırasında orta aylıq əmək haqqını, bir nəfərə düşən ümumi daxili məhsulun həcmini, minimum pensiya məbləğini və s. misal göstərmək olar. Ölkəmizin sadalanan göstəricilər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə rəqabət apardığının şahidi oluruq. Ancaq yenə də bu sahənin təkmilləşdirilməsinə və bu sahədə dünya təcrübəsinin öyrənilməsinə ehtiyac var. Beləliklə, məqalədə sosial müdafiə sahəsində dünya praktikasında geniş tətbiq olunan və mütərəqqi hesab olunan formanın geniş izahı verilir.*

***Açar sözlər:*** *sosial müdafiə, sosial müqavilə, yoxsulluq, idarəetmə uçotu, starteji idarəetmə.*

## Giriş

Ölkəmizdə əhalinin sosial müdafiəsinin tədbirləri sistemi mürəkkəb və çətin idarəolunandır. Tədbirlərin kifayət qədər çoxluğu, onların öz aralarında zəif koordinasiya olunan müxtəlif təsisatları tərəfindən inzibatçılığı ayrı-ayrı tədbirlər forması üzrə xərclərin həcminin təfərrüatı ilə qiymətləndirməsini xeyli çətinləşdirir. Ayrı-ayrı səviyyələrdə sosial müdafiə tədbirlərinin arxitekturası böyük, tərkibinə və maliyyələşdirmə mənbələrinə görə müxtəlifdir. Sosial müdafiə sisteminin miqyası inzibati idarəetmə vəzifəsini çətinləşdirir. Hətta əgər belə sayda tədbirlər və onlardan yararlanan kateqoriyalar üzrə vahid uçotu və statistikanı təşkil etməyə nail olsaq belə əldə edilmiş sistemlə səmərəli idarə etmək qeyri - mümkündür.

Əhalinin sosial müdafiəsi üzrə təqdim edilən xərclər büdcə sisteminin müxtəlif səviyyələrindən maliyyələşdirilir və ona görə də maliyyələşdirmənin həcmi haqqında tam mənzərəni formalaşdırmaq olduqca çətindir. Mövcud büdcə sistemi sosial risklər əsasında sosial müdafiə tədbirlərinin standart qruplarından istifadə etmir. Xərclərin səmərəliliyi və nəticəliliyi haqqında daha təfərrüatlı və dinamik informasiyanı əldə etmək üçün beynəlxalq təcrübə əsasında Azərbaycanda əhalinin sosial müdafiə sisteminin idarəedilməsi səmərəliliyinin qiymətləndirilməsi metodikasının işlənib-hazırlanması və fiskal məsuliyyətin yüksəldilməsi zəruridir. Başqa sözlə desək, inventarizasiyanın aparılması, tədbirlərin konsolidasiyası, xərclərin uçotunun təkmilləşdirilməsi, koordinasiyanın gücləndirilməsi, xüsusilə əhalinin sosial müdafiə tədbirləri sisteminin tam inventarizasiyasının aparılması və konsolidasiyası vacibdir. Eyni zamanda sosial təminat sahələrinin statistikasının aparılmasına düzəlişlər etmək lazımdır ki, o, dövlətin sosial siyasətinin məqsədlərinə və vəzifələrinə, beynəlxalq standartlara və ölkədə tətbiq edilən statistik uçotun metodiki yanaşmasına cavab versin.

Yoxsulluğun azaldılmasının ən mühüm şərtlərindən biri dayanıqlı və dinamik

iqtisadi artımdır. Lakin yoxsulluqla mübarizənin səmərəliliyi, o cümlədən onun səmərəliliyi "diaqnoz" və "müalicə metodları" ilə müəyyən olunur. Ölkədə əhalinin sosial müdafiəsinin mövcud sistemi olduqca çoxşaxəli, dağınıq, nəticə etibari ilə iri miqyaslıdır ki, bu da onu səmərəli idarəetməyə imkan vermir. Onu sadələşdirmək, konsolidə etmək lazımdır. Bu mürəkkəbdir, lakin mümkünsüz deyil [8].

Sosial müdafiə sistemində yalnız məqsədi vətəndaşların gəlir səviyyəsinin azalmasına səbəb olan əsas sosial risklərin nəticələrinin yumşaldılması və aradan qaldırılması olan tədbirlərə yönəldilən xərclər qalmalıdır. Bununla əlaqədar olaraq sosial müdafiə tədbirləri sistemindən peşə əlaməti üzrə vətəndaşlara təqdim edilən, necə deyərlər dövlət işçiləri və qulluqçularının "sosial paketi" çıxarılmalıdır. Belə xərcləri "sosial siyasət" bölməsi üzrə büdcə xərclərindən çıxarmaq lazımdır. Oxşar sosial paketləri sosial müdafiə xərclərindən və dövlət qarşısında xidmətlərinə görə güzəştlərdən ayırmaq zəruridir.

Vətəndaşların sosial müdafiəsi gəlirləri azaldan bu və ya digər risklərin nəticələrinin yumşaldılmasına istiqamətlənməlidir. Ehtiyac kriteriyasına və ünvanlılığa aid mühüm anlayışların qanunvericiliklə müəyyənləşdirilməsi, ailələrin və onların gəlirlərinin genişləndirilmiş tərkibini nəzərə alan, yalnız gəlirlər deyil, əmlak təminatı üzrə də ehtiyacı qiymətləndirən ehtiyaclılığın qiymətləndirilməsinin vahid metodikasının tətbiq edilməsi zəruridir. Bu gəlirləri nəzərə alaraq təqdim edilən sosial müdafiə tədbirlərinin təyinatı və ölkənin bütün vətəndaşları üçün ədalətli şərait baxımından uzlaşdırılmış yanaşmanı təmin edir. Gəlirlərin vahid qiymətləndirilməsi şərti ilə sosial müdafiə tədbirlərinin təyinatı ünvanlı və vətəndaşların fərdi tələbatları nəzərə alınmaqla həyata keçirilməlidir.

Sosial müdafiə sisteminin ünvanlılıq, tərəfə istiqamətinin dəyişdirilməsi əhalinin sosial müdafiə, o cümlədən vergi, kadastr xidməti və s. orqanlarının sıx koordinasiyasının olmasını tələb edir. Bu gün onlar arasındakı qarşılıqlı əlaqənin və məlumatların mübadiləsinin səmərəli olduğunu etiraf etmək çətindir. Bu problemi Sosial Müdafiə Sisteminin Vahid Dövlət İnformasiya Sistemi, həmçinin onun Əhali Haqqında Vahid İnformasiya Reyestri ilə qarşılıqlı əlaqəsi çərçivəsində həll etmək mümkündür. Belə yanaşma tam və fasiləsiz informasiya mübadiləsi məkanını formalaşdıracaqdır.

Orta müddətli perspektivdə ölkədə ehtiyac nəzərə alınmaqla az təminatlılara və yoxsul ev təsərrüfatının özünü təmin etməsi, həmçinin başqasının hesabına yaşamağın sosial profilaktikasına istiqamətlənən universal köməklərin tətbiqi zəruridir. Xarici ölkələrin təcrübəsi göstərir ki, tədbirlər sisteminin konsolidasiya edilməsinin optimal üsulu "bloklu" sosial ödəmələrin yaxud bir neçəsinin əvəzinə vahid yardımın tətbiqidir.

Azərbaycanda əhalinin sosial müdafiəsi tədbirlərinin mövcud uçot sistemi dünya təcrübəsində qəbul edilən sosial təminatların bütün əsas istiqamətlərini əhatə edir, lakin onun qurulması prinsipləri və metodları tətbiq edilən tədbirlərin səmərəliliyini, həmçinin onun nəticələrini və səmərəliliyini oxşar beynəlxlaq sistemlərlə müqayisə etməyə imkan vermir. Əhalinin sosial müdafiəsi tədbirlərinə ildə nə qədər dövlət vəsaitinin xərclənməsi, bu vəsaitlərin səmərəliliyinin, yaxud xərclərin əhalinin sosial müdafiəsi sferasında dövlət siyasətinin əsas istiqamətlərinə uyğunluğunun qiymətləndirilməsi və s. kimi suallara aydınlıq gətirilməsi olduqca zəruridir. Bununla əlaqədar olaraq sosial təminat statistikasına düzəlişlər etmək lazımdır ki, o dövlətin sosial siyasətinin məqsəd və vəzifələrinə, beynəlxalq standartlara və ölkədə tətbiq edilən statistik uçotun metodiki yanaşmasına cavab versin .

Uçot və statistika sisteminin əsas tələblərini aşağıdakı kimi formalaşdırmaq olar:

✓ uçot və statistika sosial yardım və güzəştlərin bütün əsas növləri, onların həcmi və maliyyələşdirmə mənbələri, əldə edənlərin sayı və sosial-demoqrafik xarakteristikaları haqqında ətraflı informasiya mənbəyi olmalıdır;

✓ uçot və statistika bu sferadakı beynəlxalq standartların tələblərinə uyğun qurulmalıdır ki, beynəlxalq müqayisələrin həyata keçirilməsi imkanları təmin edilsin;

✓ uçot və statistikada istifadə edilən anlayışlar və yanaşmalar statistikanın digər bölmələri ilə uzlaşdırılmalıdır, xüsusilə onlar milli hesablar sistemində olduğu kimi izah edilməli və əks etdirilməlidir.

Fikrimizcə bu istiqamətdə ilk addım sosial müdafiə tədbirləri hissəsində büdcə uçotu və hesabatının təkmilləşdirilməsi olmalıdır. Büdcə uçotu sferasında istifadə edilən əhalinin sosial müdafiəsi sferasında dövlətin funksiyalarının təsnifatını dəyişmək və onu beynəlxalq standartlara uyğunlaşdırmaq zəruridir. Büdcə xərclərinin iqtisadi təsnifatında (xərclərin növləri) beynəlxalq standartlara uyğun sosial müdafiə sferasında tədbirlərin, xüsusilə sosial müdafiə üzrə sığorta tədbirləri, sosial təminat üzrə qeyri-sığorta tədbirləri, işə götürənlərin sığorta tədbirləri - təsnifatı nəzərdə tutulmalıdır.

Eyni zamanda büdcə uçotu təcrübəsində xərclərin funksional təsnifatı prinsipinə, xüsusilə hamiləliyə görə ödənilən xərclər, valideyinlərinin hər ikisini yaxud birini itirən uşaqların sosial müdafiəsi üzrə tədbirlərin uçotu, tədbirlərin təsnifatlaşdırılması əlaməti kimi ünvanlılığın (ehtiyaclılığın yoxlanması) tətbiq edilməsi, tədbirlərin əsas növləri, demoqrafik qruplar, əldə edilən gəlirlərin səviyyəsi hissəsində sosial müdafiə tədbirlərini əldə edən kontingentin yekun uçotunu təşkil etməyə - riayət edilməsini təmin etmək lazımdır.

İkinci addım sosial müdafiə üzrə tədbirlər sisteminin dəyişiklikliyinin monitorinqinin vasitəsi kimi sosial müdafiə indeksinin işlənib-hazırlanması və tətbiqi, həmçinin fiskal məsuliyyətin yüksəldilməsindən ibarətdir. Büdcə xərclərinin səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərindən biri monitorinqin nəticələrinin uçotu və müasir vasitələr əsasında sosial müdafiənin təşkilinin təkmilləşdirilməsi üzrə əlaqədar təsisatların işlərinin monitorinqinin aparılmasıdır. Belə vasitələrdən biri sosial müdafiənin inteqral indeksindən istifadə edilməsidir (sosial müdafiə göstəricilərinin atlası - The Atlas of Social Protection Indicators of Resilience and Equity, ASPIRE).

Sosial müdafiənin inteqral indeksinin yaradılmasında məqsəd əhalinin sosial müdafiəsi sistemində dəyişikliklərin monitorinqini aparmaqdan, həmçinin bu dəyişikliklərin o cümlədən regional büdcələrin xərclərinin optimallaşdırılması üzrə tədbirləri planlaşdırarkən və onların icrası səmərəliliyini qiymətləndirərkən regionlararası bencmakinqinin (bir sahədə lider olan kompaniya və ya kompaniyaların təsərrüfat fəaliyyətinin səmərəliliyinin qarşılaşdırılması) aparılmasını təmin etməkdən ibarətdir. Bu indeksin üstünlüyü onun nisbətən sadəliyi və eyni zamanda obyektivliyidir. İndeks sosial müdafiə tədbirləri ilə əhatə olunan vətəndaşların hər birinə düşən xərcləri və bu xərclərin əhalinin hər nəfərinə düşən ÜDM-də xüsusi çəkisini qiymətləndirir. Bu indeksi hər bir region üzrə də hesablamaq mümkündür [7].

Üçüncü addım sosial müdafiə tədbirlərinin kataloqa salınmasıdır. Sosial müdafiə tədbirlərinin çoxsaylılığı səmərəsiz idarəetməyə gətirib çıxarır. Tədbirlərin regional sistemində vahid şəklə salınmanın olmaması nəticədə ölkə üzrə bütövlükdə məlumatların müqayisəli olmamasına və ədalətlilik prinsipinə riayət edilməməsinə (“varlı” regionlarda vətəndaşlara tədbirlərin böyük dəsti və ödəmələrin daha yüksək həcmi xasdır) gətirib çıxarır. Kataloqa salınma müxtəlif ölkələrdə oxşar sosial müdafiə tədbirlərinə sərf edilən xərclərin müqayisəliliyini təmin edir. Son nəticədə belə

inventarizasiya əhalinin sosial müdafiəsi sferasında dövlət idarəetməsinin səmərəliliyinin yüksəldilməsinə gətirib çıxarır, sosial müdafiənin keyfiyyətinə nəzarət prosesini, vətəndaş üçün onun əlverişliliyini (əlçatanlığını) və sosial müdafiə tədbirlərinin maliyyələşdirilməsi baxımından fiskal məsuliyyətin yüksəldilməsini təmin edir.

Bu istiqamətdə əsas məsələlərdən biri də sosial müdafiə tədbirləri sistemində idarəetmə uçotunun aparılmasının genişləndirilməsidir.

İdarəetmə uçotu prosesinə yalnız uçot deyil, həm də təhlil, planlaşdırma və nəzrət prosesləri daxildir. Bu zaman təşkilatın fəaliyyətinə təsir edən xarici amillərə diqqətin yönəldilməsi strateji idarəetmə uçotunun əsas ünsürləri kimi çıxış edir. Bunu ümumi şəkildə aşağıdakı kimi təsvir etmək olar (şəkil 1).

Müasir strateji idarəetmə uçotu yalnız daxili maliyyə-təsərrüfat fəaliyyətini deyil, təşkilatın idarəedilməsinin xarici mühit amilləri baxımından vəziyyətini xarakterizə edən göstəricilərin sistemləşdirilmiş şəkildə toplanması və işlənməsi əsasında operativ və strateji qərarların qəbul edilməsinin, həyata keçirilməsinin və qiymətləndirilməsinin informasiya vasitəsidir.

Strateji idarəetmə uçotu həm maliyyə, həm də bütövlükdə təşkilatın müvəqqəti, keyfiyyət və dəyər göstəricilərini, onun ayrı -ayrı ünsürlərinin (struktur bölmələr, işçilər, layihələr və s.) məlumatlarını formalaşdırır və ümumiləşdirir.




***Şəkil 1. Strateji idarəetmə uçotunun ümumi sxemi***

Müasir strateji idarəetmə uçotuna təşkilatın taktiki və strateji məqəsdlərinə nail olmağını təmin edən menecerlərin informasiyaya artan təlabatlarına operativ cavab verməyə qadir fəal-uyğunlaşan idarəetmə sistemi kimi baxmaq lazımdır. İdarəetmə uçotunun mahiyyətinə belə yanaşma mükəmməl olmasa da, onun mahiyyətinin müəyyənləşdirilməsinə konseptual yanaşmanı əks etdirir. Deməli, o nəticəyə gəlmək olar ki, müasir idarəetmə uçotunun əsas məqsədi informasiyanın operativ və təfərrüatlı toplanması, sistemləşdirilməsi və təhlili vasitəsilə əsaslandırılmış idarəetmə qərarları qəbul etmək üçün idarəetmənin bütün səviyyələrini plan, faktiki və proqnoz məlumatlarla vaxtında və tam təmin etməkdir.

Dövlət idarəetmənin metodlarının və prosedurlarının təkmilləşdirilməsi əhalinin sosial müdafiəsi sferasında informasiya axınlarının təşkilinin yeni mexanizmlərinə və vasitələrinə tələblər müəyyən edir. Bu tələblərə uyğunluğu informasiya texnologiyalarının inkişafı, informasiyanın toplanması və işlənməsinin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi yolu ilə təmin etmək mümkündür.

Belə yanaşma əhaliyə sosial təminatın həcmi və keyfiyyəti haqqında etibarlı məlumatları operativ əldə etməyə, sosial müdafiə tədbirlərinin təyinatı və büdcə

vəsaitlərinin xərclənməsi üzərində nəzarəti həyata keçirməyə, tədbir və xidmətlərlə əhatə olunan şəxslərin şəxsi elektron arxivlərini, analitik və hesabat məlumatlarını, idarədaxili və idarələrarası elektron əlaqələri formalaşdırmağa imkan verir.

Sosial müdafiə tədbirlərinə yönəldilən büdcə xərclərinin qiymətləndirilməsi səmərəliliyinin və regionların fiskal məsuliyyətinin yüksəldilməsinə həmçinin sosial müdafiə indikatorları atlasının (ASPIRE) məlumatlar bazası da kömək edə bilər.

Sosial müdafiə indikatorları atlası özündə inzibati və sosial müdafiə, sosial sığorta və əmək bazarı proqramlarının səmərəlilik göstəricilərini qurmaq üçün ev təsərrüfatlarının tədqiqinə əsaslanan məlumatları birləşdirən, 120 ölkə üzrə Dünya Bankının nadir, daimi yenilənən açıq məlumatlar bazasıdır. Sosial müdafiə indikatorları atlası vahid metodologiyadan istifadə etməklə formalaşdırılan məlumatlar əsasında səmərəlilik, büdcə xərclərinin səviyyəsi, tədbirlərin tərkibi üzrə sosial müdafiə sisteminin regionlararası müqayisəsinin, həmçinin əhalinin sosial müdafiəsi sferasında dəyişikliklərin monitorinqinin aparılması imkanlarını təmin edir. Bundan başqa ASPIRE ayrı-ayrı regionlarda sosial müdafiə tədbirlərinin səmərəliliyinin təhlili, belə təhlilin standartlaşdırılması və avtomatlaşdırılması üçün vahid metodoloji platformanı təmin edir [4]. Sosial müdafiə indikatorları atlasının qurulması bəzi işlərin həyata keçirilməsini tələb edir. Ölkədə sosial müdafiə tədbirlərinin səmərəliliyini xarici ölkələrlə müqayisəli şəkildə qiymətləndirmək ilk növbədə bu sfera üzrə ölkə məlumatlarının ASPIRE - nin beynəlxalq bazasına inteqrasiya edilməsi, beynəlxalq sosial müdafiə indikatorları atlasının ölkə istifadəçilərinə uyğunlaşdırılması, regional sosial müdafiə tədbirləri üzrə məlumatların sosial müdafiə indikatorları atlasına daxil edilməsi və s. zəruridir.

Müasir dövrdə yoxsulluq problemi cəmiyyətin əsas və ciddi problemlərindən biri olaraq qalır. Sosial ehtiyaclara yönəldilən vəsaitlərin durmadan artmasına baxmayaraq yoxsulluq problemi olduqca aşağı templə həll edilir. Fikrimizcə bunun əsas səbəbi büdcə xərclərinin qeyri - səmərəliliyidir. Deməli, büdcə vəsaitlərinin həcminin artması sosial qeyri-bərabərliyi yüksəldir, onlardan istifadənin səmərəliliyini azaldır.

Belə vəziyyətin əsas səbəbləri aşağıdakılardır:

- sosial müdafiəyə kateqoriyalı yanaşmadır, yəni sosial müdafiənin dövlətin maddi dəstəyinə heç də həmişə ehtiyacı olmayan qanunla müəyyən edilmiş əhali qrupuna sirayət etməsi;
- ünvanlı yanaşmanın həyata keçirilməsində nəzərdə tutulan tələblərin icrasının mürəkkəbliyi, ehtiyacı olanların və onların ehtiyaclılıq dərəcəsi haqqında tam informasiyanın olmaması səbəbindən sosial müdafiə sistemində ünvanlılıq prinsipinin zəif həyata keçirilməsi;
- sosial müdafiə orqanları arasında zəruri qarşılıqlı əlaqənin olmaması.

Azərbaycanda sosial müdafiə sisteminin mühüm xüsusiyyəti onun əsasən kateqoriya-ünvanlı xarakterdə olmasıdır. Belə yanaşmada sosial ödəmələri əldə edənlər bu və ya digər sosial kateqoriyaya (çoxuşaqlı ailə, əlil ailə və s.) aid olan istənilən şəxs ola bilər. Belə kateqoriyaların siyahısı bir qayda olaraq qanunvericiliklə müəyyən edilir, regionun sosial-demoqrafik xüsusiyyətlərindən və büdcənin imkanlarından asılı olur.

Sosial müdafiənin göstərilməsindəki belə yanaşmanın bəzi çatışmazlıqları vardır:

- köməklik göstərilənlərin maddi vəziyyəti nəzərə alınmır (maddi yardımın yalnız az təminatlı vətəndaşlara göstərilməsinə təminat verilmir);

- yalnız dövlət tərəfindən birtərəfli öhdəliyi nəzərdə tutur ki, bu da əhali arasında paternalist əhval-ruhiyyəni tərbiyə edir;

- ehtiyac üzrə mükəmməl kriteriyaların olmaması nəticəsində kateqoriya-ünvanlılıq yanaşması üçün maddi köməyin göstərilməsinin olduqca kütləviliyi büdcəyə xeyli yük yaradır, ehtiyacı olanların hər nəfəri üzrə ödəmələrin həcmi azalır və onların səmərəliliyi əhəmiyyətli şəkildə məhdudlaşır.

Müasir dövrdə dövlət sosial köməyin ünvanlılıq proqramınının gücləndirilməsinə və sosial müdafiəsi olmayan əhali kateqoriyasının sosial müdafiəsinin səmərəliliyinin yüksəldilməsinə diqqət yetirir. Lakin sosial müdafiəyə yönəldilən büdcə vəsaitlərinin səmərəliliyini yüksəltmək məqsədilə ünvanlı yanaşmanın imkanlarından tam şəkildə yararlana bilmir.

Dövlət sosial xərclərinin optimallaşdırılması və əhaliyə göstərilən dövlət sosial müdafiənin səmərəliliyinin yüksəldilməsi mexanizmlərindən biri müxtəlif sosial ödəmələr üçün ehtiyacın konkret kriteriyalarının müəyyən edilməsidir. Bu vasitəni sosial müqavilə sistemi çərçivəsində lazımi səviyyədə həyata keçirmək olar. Belə fəaliyyət sosial köməyin göstərilməsinin ünvanlılığını gücləndirmək yolu ilə ehtiyacı olan vətəndaşların həyat səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılmasına, təqdim edilən sosial xidmətlərin vahid standartlarının təmin edilməsinə istiqamətlənir. Belə yanaşma sosial ədalətli və səmərəlidir. Belə ki, müraciət edən şəxslərin hər nəfərinə düşən ödəmələrin həcmini əhəmiyyətli şəkildə artırmağa imkan verir [5, səh. 830].

Sosial müqavilə çətin həyat şəraitində olan ailə yaxud vətəndaşla dövlət arasındakı müqavilədir və hər bir tərəfin öz öhdəliyi vardır. Dövlət maddi kömək göstərir, ixtisas əldə etmək yaxud kiçik şəxsi biznes təşkil etməyə imkan verir. Vətəndaşın vəzifəsi özündə işə başlamaq, özünün və uşaqlarının gələcəyini təmin etmək gücünü tapmaqdır. Burada mühüm cəhət çətin həyat şəraitindən çıxmaq üçün insanın məhz öz arzusu və istəyinin olmasıdır. Həmin müqaviləyə uyğun olaraq sosial müdafiə orqanı vətəndaşa müəyyən sosial kömək göstərməyə, eyni zamanda proqrama uyğun olaraq mövcud çətin həyat şəraitinin aradan qaldırılmasına istiqamətlənən kompleks tədbirlərin icrasına məcburdur. Sosial müdafiə orqanları vətəndaşla birlikdə göstərilən tədbirlərin növünü, həcmini, həmçinin həyata keçirilmə reqlamentini özündə əks etdirən yuxarıda qeyd edilən proqramı ortaya qoyur. Sosial müqavilənin mahiyyətinin çətin həyat şəraitini aradan qaldırmaq üçün vətəndaşları aktiv fəaliyyətə stimullaşdırmaqdan ibarət olduğunu demək olar.

Qeyd etmək lazımdır ki, sosial müqavilələr sisteminin tətbiqinin çoxuşaqlı ailələr üçün xüsusi əhəmiyyəti vardır. Ona görə ki, bu kateqoriyadan olan ailələrin yoxsulların siyahısına düşməsi yüksək risk zonasındadır. Deməli, o nəticəyə gəlmək olar ki, həmin aztəminatlı kateqoriya ilk növbədə yoxsulluğun səbəblərinin təhlilinin və onun azaldılması üzrə tədbirlərin işlənib-hazırlnmasının başlıca obyektidir. Bununla əlaqədar olaraq göstərmək olar ki, yoxsulluğun azaldılmasının əsas vasitələrindən biri sosial müqavilələr əsasında kasıb vətəndaşlara dövlət sosial kömək sisteminin inkişafı olmalıdır. Müqavilə əsasında sosial xidmətin təqdim edilməsi zəruriliyi sosial məqsədlərə yönəldilən xərclərin çox sürətlə artması və dövlətin sosial proqramlarını reallaşdırılması üzrə bütün öhdəlikləri yerinə yetirməyə maraqlı olması ilə şərtlənir.

Əhalinin sosial müdafiəsinin səmərəliliyinin yüksəldilməsinin perspektivli mexanizmlərindən olan sosial müqavilələrin tətbiqinin xarici təcrübəsi zəngindir. Araşdırma xarici ölkələrdə sosial xidmətlərin göstərilməsinin müqavilə sisteminin tətbiqinin son zamanlarda aşağıdakı meyillərin formalaşmasına yol açdığını göstərir:

- vətəndaşların konkret tələb və ehtiyaclarına cavab verən, kəskin ehtiyacı olan əhali üçün məqsədli sosial proqramların yaradılması zəruriliyi;

- sosial köməyin mərkəzləşdirilməsi. Bu maliyyələşdirmənin əsas prinsipi əsasında regional səviyyədə sosial proqramların həyata keçirilməsi deməkdir;
- şəxsi bazarları genişləndirmək yolu ilə bazar mexanizmləri, xüsusilə səhiyyə sferasında müqavilələr bağlayarkən əsas istiqamətlərdən biri kimi çıxış edir.

Xarici təcrübə sosial baxımdan müdafiəsiz əhali kateqoriyalarına dövlət köməyinin göstərilməsinin vacib və əhəmiyyətli olduğunu sübut edir [6].

Artıq qeyd edildiyi kimi sosial müqavilənin vacibliyi müasir iqtisadi, sosial, siyasi şəraitdə öz əksini tapan müxtəlif obyektiv səbəblərlə müəyyən edilir. Onlara əhalinin iqtisadi vəziyyətini və həyat səviyyəsini, əmək bazarındakı və məşğulluqdakı vəziyyətini, dövlətin sosial siyasətini, müsbət xarici təcrübəni, regionların inkişafının sosial-ərazi xüsusiyyətlərini, demoqrafik vəziyyəti və s. aid etmək olar. Qeyd edilənlərə əsaslanaraq o nəticəyə gəlmək olar ki, sosial müqavilə - əsasən dövlətin sosial köməyə ehtiyacı olan ailələrə sosial dəstəyinin səmərəli formasıdır. Sosial müqavilə digər tədbirlər olmadan bütün problemləri tamamilə həll edə bilməz, eyni zamanda şübhəsiz bu texnologiyanın özünün öz vəziyyətini yaxşılaşdırmaq şansı əldə edə bilən məqsədli auditoriyası vardır. Deməli, sosial müqavilə texnologiyası müxtəlif səbəblər nəticəsində yoxsulluq həddinə düşən, dövlətin sosial köməyi ilə ehtiyaclılıq kateqoriyasından çıxmaq istəyən ailələrin yaxud kimsəsiz vətəndaşların maddi rifahının yüksəldilməsinə istiqamətlənir. Bununla əlaqədar olaraq fikrimizcə, real ehtiyacı olan vətəndaşlara sosial köməyin göstərilməsinin konkret vasitələrinə keçilməsi zəruridir və gözlənilən nəticə ilk növbədə cəmiyyətin sosial baxımdan zəif təbəqələrinin həyat keyfiyyətinin və səviyyəsinin yüksəldilməsi olmalıdır.

Beləliklə, sosial müqaviləyə sosial-iqtisadi tərəfdaş kimi çətin həyat şəraitinə düşən vətəndaşa dövlət tərəfindən həmin vəziyyətin aradan qaldırması üçün imkanların verilməsinin, yoxsulluq səviyyəsinin azaldılması üzrə vəzifələrin həll edilməsinin perspektiv vasitəsi, həmçinin dövlətin sosial xərclərinin optimallaşdırılmasının, investisiya və işgüzar fəallığın stimullaşdırılmasının səmərəli mexanizmi kimi baxmaq lazımdır.

Təəssüf ki, çoxcəhətli problem kimi yoxsulluq hətta istənilən inkişaf etmiş cəmiyyət üçün xarakterikdir. Yoxsulluğun səviyyəsinin azaldılması yalnız cəmiyyətin sosial-iqtisadi inkişafının sabitliyinin qorunub saxlanması deyil, perspektivdə əhalinin intellektual və istehsal potensialının yüksəldilməsi baxımından vacibdir. Yoxsulluq demoqrafiya, əhalinin məşğulluğu, işsizlik problemləri ilə birbaşa bağlıdır. Yoxsulluq əhalinin sağlamlığına, vətəndaşların təhsil və mədəni səviyyəsinə, onların tərbiyəsinə, sosiallaşmasına və s. birbaşa təsir göstərir.

Yoxsulluğun səviyyəsinə çoxsaylı amillər təsir göstərir. Onun səviyyəsinə təsir edən ən mühüm amilləri müəyyən etmək məqsədilə ölkənin sosial-iqtisadi vəziyyətini xarakterizə edən statistik göstəricilərin reqressiya-korrelyasiya təhlili aparılmışdır. Asılı dəyişən kimi yoxsulluq səviyyəsi, asılı olmayan dəyişənlər kimi aşağıdakı amillər seçilmişdir;

$X_1$- orta aylıq nominal əmək haqqının yaşayış minimumuna nisbəti;

$X_2$- mülkiyyətdən gəlirlərin ümumi gəlirlərdə xüsusi çəkisi;

$X_3$- əmək haqqının ümumi gəlirlərdə xüsusi çəkisi;

$X_4$- fond əmsalı;

$X_5$- iqtisadi fəal əhalinin xüsusi çəkisi;

$X_6$-Beynəlxalq Əmək Təşkilatının metodologiyası ilə hesablanan işsizlik səviyyəsi;

$X_7$- inflyasiya səviyyəsi.

2010-2020-ci illər üzrə həmin məlumatlar 1 saylı cədvəldə verilmişdir.

SPSS proqramı əsasında həyata keçirilən reqressiya-korrelyasiya təhlilinin nəticələrinə görə 7-ci dəyişənə (inflyasiya səviyyəsi) xətanın yüksək səviyyəsi xasdır və bu da təhlilin ümumi nəticəsini təhrif edir. Bu səbəbdən həmin dəyişən kənarlaşdırılmış və sonrakı hesablamalar 6 əsas asılı dəyişənlər üzrə aparılmışdır. Aparılan reqressiya-korrelyasiya təhlili öyrənilən amillər arasındakı qanunauyğunluğu xarakterizə edən aşağıdakı çox amilli xətti reqressiya modelini əldə etməyə imkan vermişdir.

***Cədvəl 1. Azərbaycan Respublikasının sosial-iqtisadi vəziyyətini xarakterizə edən bəzi göstəricilərin dinamikası***

| İllər | Yoxsulluq səviyyəsi, % | Orta aylıq əmək haqqının yaşayış minimumuna nisbəti, əmsal | Mülkiyyətdən əldə edilən gəlirlərin ümumi gəlirlərdə xüsusi çəkisi, % | Əmək haqqının ümumi gəlirlərdə xüsusi çəkisi, % | Fond əmsalı | İqtisadi fəal əhalinin ümumi əhalinin sayında xüsusi çəkisi, % | İşsizlik səviyyəsi, % | İnflyasiya səviyyəsi, % |
|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 9,1 | 3,8 | 1,5 | 27,4 | 1,85 | 50,3 | 5,6 | 105,7 |
| 2011 | 7,6 | 3,8 | 1,5 | 31,3 | 2,03 | 50,5 | 5,4 | 107,9 |
| 2012 | 6,0 | 3,7 | 2,3 | 26,5 | 2,11 | 50,1 | 5,2 | 101,1 |
| 2013 | 5,3 | 3,7 | 2,5 | 27,5 | 1,56 | 50,2 | 5,0 | 102,4 |
| 2014 | 5,0 | 3,6 | 3,1 | 27,3 | 1,48 | 50,5 | 4,9 | 101,4 |
| 2015 | 4,9 | 3,6 | 2,7 | 26,4 | 1,96 | 50,6 | 5,0 | 104,0 |
| 2016 | 5,9 | 3,7 | 5,2 | 26,0 | 1,49 | 51,1 | 5,0 | 112,4 |
| 2017 | 5,4 | 3,4 | 4,3 | 25,2 | 1,68 | 51,3 | 5,0 | 112,9 |
| 2018 | 5,1 | 3,1 | 5,9 | 28,1 | 1,44 | 51,4 | 4,9 | 102,3 |
| 2019 | 4,8 | 3,5 | 5,7 | 30,5 | 1,58 | 51,6 | 4,8 | 102,6 |
| 2020 | 6,2 | 3,7 | 5,2 | 33,3 | 1,35 | 52,0 | 7,2 | 102,8 |

$$\hat{Y} = -39{,}97 + 0{,}984X_1 - 0{,}604X_2 - 0{,}033X_3 + 0{,}317X_4 + 0{,}829X_5 + 0{,}529X_6$$

Cəm determinasiya əmsalının qiyməti $R^2 = 0{,}514$ olmuşdur. Bu o deməkdir ki, variasiyanın 51,4%-i modelə daxil edilən amillərlə müəyyən olunur.

Əldə edilən asılılıq modeli göstərir ki, mülkiyyətdən əldə edilən gəlirlərin və əmək haqqının ümumi gəlirlərdə xüsusi çəkisinin 1% artması müvafiq olaraq yoxsulluq səviyyəsini 0,6% və 0,03% azaldır. Beləliklə, aşkar edilən asılılıq əsasında ölkədə yoxsulluq səviyyəsinin azaldılması məqsədilə sosial-iqtisadi inkişafın prioritet istiqamətlərini müəyyənləşdirmək mümkündür.

Əhalinin sosial müdafiə sisteminin, o cümlədə sosial sığortanın vəziyyətinin təhlili sosial ödəmələrin səviyyəsinin bir sıra amillərlə qarşılıqlı əlaqədə olduğunu göstərir. Sosial ödəmələrin səviyyəsinə təsir edən amilləri şərti olaraq birbaşa (orta əməkhaqqı, işsizlərin sayı, doğum və ölümün səviyyəsi və s.) və dolayı amillərə (Ümumi Daxili Məhsulun həcmi, sosial müdafiə və sosial təminata büdcədən yönəldilən xərclərin həcmi, investisiyanın həcmi və s.) aid etmək olar. Sosial ödəmələrin müxtəlif amillərdən asılılığının qiymətləndirilməsi sosial sığorta sisteminin idarəedilməsinin mühüm vasitələrindən biridir.

Sosial ödəmələrin səviyyəsinə təsir edən amillər dəsti kimi aşağıdakılar seçilmişdir.

Birbaşa amillər:
$X_1$ – əhalinin sayı, min nəfər;
$X_2$- işsizlərin sayı, min nəfər;
$X_3$- əhalinin hər nəfərə düşən gəliri, manat;
$X_4$- orta aylıq nominal əməkhaqqı, manat;
$X_5$- doğumun ümumi əmsalı,‰;
$X_6$ - ölümün ümumi əmsalı,‰;
$X_7$- yaşayış minimumunun kəmiyyəti, manat;
$X_8$- 1 nəfərə orta aylıq ünvanlı dövlət sosial yardımın məbləği, manat.
Dolayı amillər:
$X_9$- Ümumi Daxili Məhsulun həcmi, mln. manat;
$X_{10}$- büdcədən sosial müdafiə və sosial təminata yönəldilən xərclər, mln. manat;
$X_{11}$- investisiyanın həcmi, mln. manat.
2010-2020-ci illər üzrə bu göstəricilər 2 saylı cədvəldə verilmişdir.

***Cədvəl 2. 2010-2020-ci illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bəzi göstəricilərinin dinamikası***

| İllər/göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin sayı, mln. nəfər | 9,1 | 9,2 | 9,4 | 9,5 | 9,6 | 9,7 | 9,8 | 9,9 | 10,0 | 10,1 | 10,1 |
| İşsizlərin sayı, min nəfər | 258,3 | 250,9 | 243,1 | 236,6 | 237,8 | 243,7 | 252,8 | 251,7 | 253,8 | 251,6 | 375,9 |
| Əhalinin hər nəfərə düşən gəliri, manat | 2,9 | 3,3 | 3,8 | 4,1 | 4,2 | 4,4 | 4,7 | 5,1 | 5,4 | 5,7 | 5,6 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 331,5 | 364,2 | 398,4 | 425,1 | 444,5 | 466,9 | 499,8 | 528,5 | 544,6 | 635,1 | 707,3 |
| Ümumi Daxili Məhsulun həcmi, mlrd. manat | 42,5 | 52,1 | 54,7 | 58,2 | 59,0 | 54,4 | 60,4 | 70,1 | 80,1 | 81,9 | 72,4 |
| İnvestisiyanın həcmi, mlrd. manat | 14,1 | 17,0 | 20,3 | 21,4 | 21,9 | 20,0 | 22,7 | 23,8 | 25,9 | 25,0 | 22,3 |
| Büdcədən sosial müdafiə və sosial təminata yönəldilən xərclər, mlrd. manat | 1,1 | 1,5 | 1,8 | 1,8 | 2,0 | 1,9 | 2,6 | 2,4 | 2,1 | 2,2 | 3,1 |
| Döğumun ümumi əmsalı, ‰ | 18,5 | 19,4 | 19,0 | 18,6 | 18,1 | 17,4 | 16,5 | 14,8 | 14,2 | 14,3 | 12,7 |
| Ölümün ümumi əmsalı, ‰ | 6,0 | 5,9 | 6,0 | 5,8 | 5,9 | 5,7 | 5,9 | 5,9 | 5,8 | 5,6 | 7,6 |
| Yaşayış minimumunun məbləği, manat | 87 | 95 | 108 | 116 | 125 | 131 | 136 | 155 | 173 | 180 | 190 |
| 1 nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımın məbləği, manat | 24,1 | 23,7 | 25,8 | 28,8 | 33,3 | 35,5 | 35,7 | 36,4 | 43,0 | 50,0 | 57,1 |

SPSS proqramı əsasında korrelyasiya təhlili asılılığı öyrənilən amillər arasında işsizlərin sayının və ölümün səviyyəsinin sosial ödəmələrin səviyyəsi arasında əlaqənin zəif olduğunu göstərir. Ona görə də onların asılılığı təhlil edilməmişdir.
Sosial ödəmələrin səviyyəsi ilə qeyd edilən amillərin qarşılıqlı əlaqəsi sıxdır. Bunu determinasiya əmsalının qiyməti aydın göstərir. Reqressiya-korrelyasiya təhlili

prosesində bütün zəruri addımlar - nəticə və amil əlamətləri arasındakı əlaqənin sıxlığının yoxlanması (korrelyasiya təhlilindən istifadə edilmiş), modellərin əhəmiyyətliliyinin yoxlanması (Fişer kriteriyasından istifadə edilmiş), reqressiya modelinin parametrlərinin statistik əhəmiyyətliliyinin yoxlanması (Styudent kriteriyasından istifadə edilmiş), amillərin multikollonerallığının yoxlanması (Farrar-Qoluber testindən istifadə edilmiş) - atılmışdır.

Sosial ödəmələrin səviyyəsi ilə qeyd edilən amillərin reqressiya- korrelyasiya təhlilinin nəticələri 3 saylı cədvəldə verilmişdir.

***Cədvəl 3. Reqressiya- korrelyasiya təhlilinin nəticələri***

| Dəyişənlər | Determinasiya əmsalı | Sadə xətti reqressiya modeli |
|---|---|---|
| 1. Sosial ödəmələrin səviyyəsi və əhalinin sayı. | $R^2 = 0{,}908$ | $\bar{Y}_{X_1} = 2476{,}8X - 20892{,}3$ |
| 2. Sosial ödəmələrin səviyyəsi və əhalinin hər nəfərinə düşən gəlir. | $R^2 = 0{,}982$ | $\bar{Y}_{X_2} = 801{,}4X - 605{,}4$ |
| 3. Sosial ödəmələrin səviyyəsi və orta aylıq nominal əmək haqqı. | $R^2 = 0{,}994$ | $\bar{Y}_{X_3} = 7{,}917X - 782{,}6$ |
| 4. Sosial ödəmələrin səviyyəsi və Ümumi Daxili Məhsulun həcmi. | $R^2 = 0{,}738$ | $\bar{Y}_{X_4} = 63{,}996X - 862{,}7$ |
| 5. Sosial ödəmələrin səviyyəsi və investisiyanın həcmi. | $R^2 = 0{,}581$ | $\bar{Y}_{X_5} = 200{,}4X - 1204{,}9$ |
| 6. Sosial ödəmələrin səviyyəsi və büdcədən sosial müdafiə və sosial təminata yönəldilən xərclər. | $R^2 = 0{,}795$ | $\bar{Y}_{X_6} = 1490{,}3X + 16{,}5$ |
| 7. Sosial ödəmələrin səviyyəsi və doğumun ümumi əmsalı. | $R^2 = 0{,}874$ | $\bar{Y}_{X_7} = -364{,}121X + 9139{,}1$ |
| 8. Sosial ödəmələrin səviyyəsi və yaşayış minimumu. | $R^2 = 0{,}952$ | $\bar{Y}_{X_8} = 25{,}386X - 387{,}6$ |
| 9. Sosial ödəmələrin səviyyəsi və 1 nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımın məbləği. | $R^2 = 0{,}967$ | $\bar{Y}_{X_9} = 82{,}768X + 104{,}8$ |

Sosial ödəmələrin səviyyəsinə təsir edən bütün amillərin çoxamilli reqressiya modeli:

$$\hat{Y} = 4658{,}027 - 729{,}2 \cdot X_1 + 101{,}0 \cdot X_2 + 4{,}7 \cdot X_3 - 12{,}7 \cdot X_4 + 37{,}3 \cdot X_5 + \\ +154{,}9 \cdot X_6 + 23{,}1 \cdot X_7 + 9{,}9 \cdot X_8 + 18{,}8 \cdot X_9$$

Deməli, o nəticəyə gəlmək olar ki, əhalinin sayı və Ümumi Daxili Məhsulun həcmi sosial ödəmələrin səviyyəsi ilə tərs əlaqədə, qalan amillər, yəni əhalinin hər nəfərinə düşən gəlir, orta aylıq nominal əmək haqqı, investisiyanın həcmi, büdcədən sosial müdafiə və sosial təminata yönəldilən xərclərin həcmi, doğumun ümumi əmsalı, yaşayış minimumu və 1 nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımının məbləği isə sosial ödəmələrin səviyyəsi ilə düz əlaqədədir.

**Nəticə**

Beləliklə, əhalinin sosial müdafiəsi sferasında mühüm yenilik kimi təklif etdiyimiz sosial müqavilə ilə bağlı sosial siyasətin perspektiv istiqamətləri kimi aşağıdakıları təklif etmək olar:

- sosial müqavilənin bağlanmasının konkret şərtlərini, həmçinin onun tətbiqinin minimum həcmini qanunvericiliklə təsbit etmək;
- ehtiyaclılıq üzrə kriteriyaların genişləndirilməsi yolu ilə sosial müqavilə əsasında dövlət tərəfindən göstərilən sosial köməyin ünvanlılığını yüksəltmək;

➢ müraciət edənlərin gəlirlərinin səviyyəsi yalnız yaşayış minimumu ilə müqayisə edilərək qiymətləndirilməməlidir, obyektiv və daha ölçülüb-biçilmiş qərarların qəbul edilməsinə imkan verən əlavə kriteriyaların tətbiqi zəruridir. Belə mexanizmin həyata keçirilməsi həmçinin göstərilən köməyin orta məbləğini, nəticə etibarilə onun səmərəliliyini artırmağa imkan verir;

➢ bütün səviyyəli büdcələrin vəsaitləri hesabına ölkə vətəndaşlarına göstərilən sosial müdafiə tədbirləri haqqında informasiyanın elektron sənəd dövriyyəsi sistemi vasitəsilə mübadiləsini aparmaq;

➢ vətəndaşların ehtiyaclarını qiymətləndirmək və proqnozlaşdırmaq üçün analitik və statistik informasiyanı təqdim etmək. Həm pul, həm də natural formada dövlətdən sosial dəstək alan əhalinin pul gəlirləri və xərcləri haqqında bütün informasiya mənbələrindən istifadə etmək: əsas vasitələrdən mühüm üstünlüyü sosial müdafiə xərclərini və uzunmüddətli perspektivdə maliyyə sabitliyini planlaşdırarkən böyük iqtisadi səmərəsi olan vahid dövlət sosial müdafiə informasiya sistemi olmalıdır;

➢ sosial müqavilələrdən fərdi sahibkarlığın dəstəyi və inkişafı mexanizmi kimi istifadə etmək. Fikrimizcə, xüsusi təlim keçmiş və biznes-planı tərtib edən, dəstək üçün müraciət edən işsiz vətəndaşlara şəxsi müəssisəsini açmaq üçün qrant şəklində birdəfəlik ödəmələrin verilməsi məqsədəuyğundur. Bu birbaşa öz funksiyalarını yerinə yetirməklə yanaşı sahibkarlıq fəallığının artmasına və yeni iş yerlərinin yaradılmasına imkan verə bilər.

## **Ə D Ə B İ Y Y A T**

1. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci il.
2. Azərbaycan Respublikasının “Büdcə sistemi haqqında” Qanunu, 2 iyul, 2002-ci il.
3. Abbasov İ.M. Audit, Dərslik, Bakı 2013, 530 s.
4. Бычков Д.Г., Феоктистова О.А., Андреева Е.И. Социальная защита и статистика: сопоставительный анализ российской и международной практики учета в попытке оценить эффективность бюджетных мер // Международный бухгалтерский учет. 2016. № 4 (394). стр. 35–52.
5. Кравченко Е.В. социальный контракт как перспективный механизм повышения эффективности социальной защиты населения, экономика труда, Том 6 №2,Апрель-июнь 2019, стр.827-840.
6. Лебедева Л.Ф., Петровская Н.Е. Трансформация государственной политики в социально-трудовой сфере США: учебное пособие. – М.: Кнорус, 2017. – 144 с.
7. Литвинова, В.В. Нагерняк М.А., Кириллова М.Н. Атлас индикаторов социальной защиты: возможности для межрегиональных сравнений, Финансовый журнал / Financial Journal №5 2017, стр.33-46.
8. Развитие эффективной социальной поддержки населения в России: адресность, нуждаемость, универсальность / Под ред. к. э. н. В.Назарова и А.Пошарац. Научный доклад. М.: Научно-исследовательский финансовый институт; Всемирный банк, 2017, 144 с.

# *УПРАВЛЕНИЕ СИСТЕМОЙ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ УВЕЛИЧИТЬ ЭФФЕКТИВНОСТЬ*

*Новруз ГУСЕЙНОВ*

## *Резюме*

*Основная цель любого государства - обеспечить высокое социальное благополучие своих граждан. Среди основных факторов, характеризующих хорошее социальное обеспечение, - среднемесячная заработная плата, ВВП на душу населения, минимальная пенсия и т. д. можно привести пример. Мы видим, что по этим показателям наша страна конкурирует с развитыми странами мира. Однако есть еще необходимость в совершенствовании этой области и изучении мирового опыта в этой области. Таким образом, в статье дается подробное объяснение формы, которая широко используется в мировой практике и считается прогрессивной в области социальной защиты.*

***Ключевые слова:*** *социальный менеджмент, социальный договор, бедность, управленческий учет, стратегическое управление*

# *MANAGEMENT OF THE SOCIAL PROTECTION SYSTEM OF THE POPULATION IN AZERBAIJAN INCREASE EFFICIENCY*

*Novruz HUSEYNOV*

## *Abstract*

*The main goal of any state is to ensure high social welfare of its citizens. The main factors that characterize good social welfare include the average monthly salary, GDP per capita, the minimum pension, etc. an example can be taken. According to these indicators, we see that our country competes with developed countries. However, there is still a need to improve this area and study world experience in this area. Thus, the article provides a detailed explanation of the form, which is widely used in world practice and is considered progressive in the field of social protection.*

***Key words:*** *social management, social contract, poverty, management accounting, strategic management*

*UOT 658:006.83:339.137.24*
*JEL: D2, E42, F2, L15, L23*

# *TEXNİKİ TƏNZİMLƏNMƏNİN AKSİOLOJİ ƏSASLARI VƏ İQTİSADİ EFFEKTLƏRİ*

*Nurlan Elşən oğlu HACIZADƏ,*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, dissertant,*
*Azərbaycan Standartlaşdırma İnstitutu, şöbə müdiri,*
*ORCID ID: 0000-0003-2158-5362,*
*hajizadeeh@mail.ru*

**Xülasə**

*Məqalə texniki tənzimlənmənin aksioloji əsaslarının və iqtisadi effektlərinin tədqiqinə həsr olunmuşdur. Burada yeni yanaşmalar çevrəsində texniki tənzimlənmənin mahiyyəti və prinsipləri açıqlanır, analitik şərhdə onun nəzəri-metodoloji əsaslarını səciyyələndirən cəhətləri təqdim olunur. Həmçinin texniki tənzimlənmənin hüquqi münasibətlər sistemində yeri və rolu göstərilir, onun sosial-iqtisadi inkişafa təsirinin əhəmiyyəti əsaslandırılır. Nəticə olaraq texniki tənzimlənmənin illüstrativ obrazda yeni sistem kompozisiyası təqdim olunur.*

***Açar sözlər:*** *texniki tənzimlənmə, iqtisadi inkişaf, texniki reqlament, standartlaşma, uyğunluğun qiymətləndirilməsi.*

## 1.Giriş

Müasir dünyada iqtisadi inkişafın mühüm vektorlarından biri kimi insanın təsərrüfat və digər fəaliyyətlərinin neqativ nəticələrinin minimuma endirilməsi çıxış edir. Bu və bundan irəli gələrək, ETT-nin sürətlənməsi, maddi nemətlərin, təbii sərvətlərin istehlakında intensiv artım, ətraf mühitdəki mənfi dəyişikliklər dövlətləri istehsalın aparılması və xidmətlər göstərilməsi proseslərinə fərqli baxmağa və yanaşmağa məcbur edir. Onlar, xüsusən də dünyanın yüksək inkişaf etmiş ölkələri məhsulların hazırlanmasına məcburi və könüllü tələblər qoyurlar. İnsanların həyatı və sağlamlığı üçün təhlükəli olan məhsulların istehsalının və bazarda yerləşdirilməsinin qarşısının alınması və həmçinin ətraf mühitin qorunması məqsədilə onun qoyulmuş tələblərə uyğunluğunun qiymətləndirilməsi üzrə silsilə tədbirlər həyata keçirirlər. Bu istiqamətdə dövlətin zəruri olan tənzimləyici fəaliyyəti məcburi tələblərin müəyyənləşdirilməsini, onların düzgün yerinə yetirilməsinin təmin olunmasını və pozuntular halında sanksiyaların tətbiqi kimi vəzifələri əhatə edir. Bütün bunlar böyük sferada texniki tənzimləmə institutu vasitəsi ilə həyata keçirilir. Texniki tənzimləmə yeni bir obrazda sürətlə həyatımızın bütün sahələrinə nüfuz edir. O, təkcə iqtisadiyyatda, ticarətdə, xarici əlaqələrdə deyil, həm də elmi sferada da əhatə dairəsini genişləndirir. Bundan irəli gələrək, təqdim olunan məqalədə də texniki tənzimlənmə məsələlərinin tədqiqi hədəf seçilir və burada onun dəyər parametrlərini səciyyələndirən aksioloji əsasları və iqtisadi effektləri təhlil predetmetinə çevrilir.

## 2.Texniki tənzimlənmə sferasında xarakterik cəhətlər və nəzəri-metodoloji yanaşmalar

Statistika göstərir ki, təhlükəli məhsulların istifadəsi zamanı sağlamlığa ciddi ziyan vurulması hallarının sayı hələ də kifayət qədər böyük olaraq qalır. Avropa İttifaqında fəaliyyət göstərən "Təhlükəli qeyri-ərzaq malları haqqında sürətli bildiriş sistemi"nin (*The rapid alert system for dangerous non-food products*) məlumatına

görə, Avropa Komissiyası hər gün özünün milli orqanlarından (*Aİ/AvİZ*) onların bazarlarında aşkar edilmiş nisbi təhlükəli məhsullara dair xəbərdarlıqlar alır [25]. Texniki tənzimləmə məsələləri dünya ictimaiyyəti üçün bir prinsip olaraq DTT-nin də ən mühüm sənədləri sırasında yer alır. Onun bu məqsədləri tənzimləyən “Ticarətdə Texniki Maneələrə dair Saziş”ində (“*TBT Sazişi*”) beynəlxalq ticarətdə artıq maneələrin yaradılmasının yolverilməzliyi şərti qoyulmuş (*maddə 2, bənd 2.2*) və orijinalda ingilis dilində olan “technical regulation” (*texniki tənzimləmə*) termini tətbiq edilmişdir. “TBT Sazişi”nin əhatə dairəsi bütün sənaye və kənd təsərrüfatı mallarını əhatə edir. Bu saziş hökumət orqanları tərəfindən dövlət və bələdiyyə satınalmalarının məqsədləri üçün müəyyən edilən tələblərə şamil olunmur. O, həmçinin sanitariya və fitosanitar tədbirlərini də əhatə etmir. Belə ki, bu tələblər DTT-nin “Sanitariya və Fitosanitar tədbirlərin tətbiqinə dair razılaşma” - SPS sənədi ilə tənzimlənir [26]. Həmin razılaşma sənədi həyat və sağlamlığı yaranan risklərdən qorumaq üçün alınan qida məhsullarının təhlükəsizliyi ilə bağlı tədbirləri əhatə edir.

Texniki tənzimləmə məsələləri bir sıra ölkələrin normativ-huquqi aktlarında, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyində də geniş əksini tapır. Bu istiqamətdə bütün məsələlər 2019-cu ildə qəbul olunmuş “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanunundan öz başlanğıcını alır [28].

İqtisadiyyat çevrəsində texniki tənzimləməyə informasiya asimmetriyası kimi və həmçinin xarici təsirlərlə bağlı klassik bazar uğursuzluqlarına bir reaksiya olaraq baxılır. Məsələyə yanaşmada elmi məntiq və metodologiyada prosesin yoxlanması nəticəsində onun həqiqiliyini müəyyənləşdirən verifikasiyalı yanaşma da gerçəkliyi bu və ya digər dərəcədə əsaslı edir. Məntiq odur ki, artan iqtisadi inkişaf xarici təsirlərin məhdudlaşdırılmasını, onların idarəedilməsi imkanlarının əldə edilməsini qaçılmaz və şərtli edir. Ona görə də bu yeni yaranışa klassik bazar uğursuzluqlarından bir çıxışyolu olaraq da baxılmalıdır.

İqtisadi ədəbiyyatlarda məhsulun təhlükəsizliyinin qanunvericilik təminatının (*safety regulation*) zərərvermə hallarının qarşısını almaq üçün effektiv vasitə olub-olmaması barədə fəal diskussiyaların aparıldığı müşahidə edilir [15, 19]. Buna alternativ olaraq isə qeyri-adi zərər (*tort law*) üçün məsuliyyət mexanizmi nəzərdən keçirilir. Gerçəklik belədir ki, həm texniki tənzimləmə, həm də qəsdən ziyan vurmamağa görə məsuliyyət eyni məqsədə - zərərin azaldılmasına xidmət edir. Bu mexanizmlərin hər birinin səmərəliliyinin qiymətləndirilməsinə həsr olunmuş müvafiq tədqiqat işləmələri mövcuddur. Bir sıra tədqiqatçılar qərəzsiz zərər vurmağa görə məsuliyyətdən istifadənin effektivliyini təsdiqləyir (*yəni zərər vurma qərəzsiz olsa belə məsuliyyət qaçılmazdır*). Eyni dərəcədə nüfuzlu olan digərləri isə göstərir ki, bu cür məsuliyyətin tətbiqi zərərin qarşısının alınması problemini həll etmir [17, s. 17-18]. Bununla belə, qeyd olunur ki, oxşar şəkildə, həm texniki tənzimləmə vasitələrindən istifadənin effektivliyinə, həm də təsirsizliyinə dair empirik və nəzəri dəlillər mövcuddur. Bəzi tədqiqatçıların fikrincə, istənilən effekti əldə etmək üçün hər iki vasitədən istifadə etmək lazımdır [11, 14]. Bundan əlavə, informasiya tələbləri bəzən məcburi təhlükəsizlik tələblərindən istifadəyə alternativ kimi qəbul olunur. İlk baxışdan, informasiya tənzimlənməsi istehlakçı seçimini məhdudlaşdırmadan məlumat asimmetriyasını azalda bilər. Lakin, bu metod da çatışmazlıqlardan kənarda deyildir. Fərdlərin məlumatı qəbul etmə və işləmə qabiliyyətinin məhdud olması, informasiya tənzimləməsinin səmərəliliyinin azalmasına səbəb olur və bu da texniki tənzimlənmənin müqayisəli üstünlüklərini artırır.

Texniki tənzimləmə məsələləri gənclik çağlarını yaşadığından bu istiqamətdə

nəzəri biliklərin fundamentallaşması və konsepsiyalaşması prosesi hələ ki, ilkin mərhələdə dövr edir. Buna baxmayaraq, texniki tənzimləmə məsələləri ilə başlanğıclıq və müəyyən paralellik təşkil edən keyfiyyətin idarəedilməsi sahəsində iqtisadi fikir klassikləri tərəfindən bir sıra tədqiqat işləmələri yerinə yetirilmişdir. Amerikalı alimlər Edvards Deminq və Cozef Juran, yapon alimi Kaoru İsikava və digərləri [15, 16, 23], müasir mərhələdə isə bir sıra Rusiya alimləri V.Y.Belobraqin, V.V.Okrepilova, A.B.Qliçev, E.P.Qubin, T.A.Quseva, İ.Y.Matuşkuna, B.A.Minin, Y.E.Parsiy, V.N.Nazarov, S.A.Vilkova, İ.M.Lifis və başqaları [9-11, 12-14, 18-22] texniki tənzimləmə məsələləri ilə əlaqəli fundamental tədqiqatlar yerinə yetirmişlər. Hazırkı dövrdə azərbaycanlı alimlər - A.M.Qafarov, N.H.Fərzanə, N.R.Məmmədov, P.A.Cəfərov və başqaları tərəfindən standartlaşma, metrologiya, sertifikatlaşdırma və digər bu kimi istiqamətlərdə geniş tədqiqatlar aparılmış, müvafiq dərsliklər, dərs vəsaitləri hazırlamışlar. [2-8] Burada bir cəhət xüsusi ilə vurğulanmalıdır ki, Azərbaycanda texniki tənzimləmə məsələləri ilə bağlı ümumi fonda dövlət təsisatı və ölkənin aparıcı universitetlərində fakültə və kafedralar olsa da bu sferada sırf fundamental elmi-tədqiqatların aparıldığına hələ ki, rast gəlinmir. Həmçinin materialların təhlilinə istinadən o da qeyd edilməlidir ki, texniki tənzimləmə ilə bağlı vahid metodoloji yanaşma prosesləri hələ də tam məntiqi həddə yetişməmişdir.

**3.Texniki tənzimlənmə prinsipləri və hüquqi münasibətlər sistemi**

Texniki tənzimlənməyə pinsiplər və iqtisadi effektlər zəminində yanaşdıqda görərik ki, burada üç başlıca element aksioloji əsaslıdır. Bunlardan birincisi iqtisadiyyatın özünütənzimləməsi, ikincisi rəqabət və üçüncüsü sahibkarlıq fəaliyyəti subyektlərinə bu sahədə daha çox hüquqi azadlığın verilməsini tələb edən dövlətin iqtisadiyyata müdaxiləsinin minimallaşdırılmasıdır. Bundan başqa, texniki tənzimləmə özünəməxsus digər ciddi prinsipləri də əhatə edir. Bunlara aşağıdakılar aid olunur [10, s. 57-58]:

• texniki tənzimləmə obyektlərinə tələblərin müəyyənləşdirilməsi qaydalarının vəhdəti və iqtisadi inkişaf səviyyəsinə, maddi-texniki bazaya, elmi və texnoloji inkişaf səviyyəsinə uyğunluq;

• akkreditasiya sistemi və qaydalarının birliyi, vəhdəti və akkreditasiya və sertifikatlaşdırma orqanlarının istehsalçılardan, satıcılardan, icraçılardan və alıcılardan müstəqilliyi;

• akkreditasiya və sertifikatlaşdırma səlahiyyətlərinin bir qurum tərəfindən birləşdirilməsinin və bu proseslərin həyata keçirilməsində rəqabətin məhdudlaşdırılmasının yolverilməzliyi;

• məcburi uyğunluğu qiymətləndirmə prosedurları zamanı tədqiqat, ölçmə qaydaları və metodlarının, habelə əməliyyat növlərindən və xüsusiyyətlərindən asılı olmayaraq texniki reqlamentlərin tələblərinin vahid tətbiqi, onların tələblərinə riayət olunmasında dövlət nəzarətinin büdcədənkənar maliyyələşdirilməsinə yolverilməzliyi.

Texniki tənzimləmə məhsul təhlükəsizliyi tələblərinə və ona aid olan proseslərə, həmçinin məhsulun təhlükəsizliyinin təmin edilməsi və təsdiq olunmasının üsul və vasitələrinin seçilməsinə icazə verilməsinə və habelə istehsalçıların qadağaların müəyyən edilməsində iştirakına dair hüquqi qadağaları birləşdirir. Birlikdə təqdim olunan texniki tənzimləmə üsulları, zəruri nəzəri əsaslandırma olmayan xüsusi hüquqi tənzimləmə metodunu təşkil edir.

Texniki tənzimləmə aşağıdakı üç sahədə hüquqi münasibətləri ehtiva edir [11]:

1) məhsula olan məcburi tələblərin müəyyən edilməsi, tətbiqi və icrası sahəsində,

habelə məhsulun tələblərinə bağlı layihələndirmə (*o cümlədən axtarış*), istehsal, tikinti, quraşdırma, sazlama, istismar, saxlanma, daşınma, satış və utilizasiya proseslərini;

2) məhsula olan tələblərin könüllülük əsasında tətbiqi, habelə məhsulun tələblərinə bağlı layihələndirmə (*o cümlədən axtarış*), istehsal, tikinti, quraşdırma, sazlama, istismar, saxlanma, daşınma, satış və utilizasiya, işlərin yerinə yetirilməsi və ya xidmətlərin göstərilməsi (*Avrasiya İqtisadi İttifaqı çərçivəsində bu sahə yoxdur*);

3) uyğunluğun qiymətləndirilməsi sahəsində.

Texniki tənzimləmənin göstərilən bu üç elementinin birincisi məhsullar üçün texniki reqlamentlərin qəbulu və tətbiqi yolu, ikincisi standartlaşdırma və üçüncüsü sertifikatlaşdırma və uyğunluq bəyannaməsi verilməklə uyğunluğun qiymətləndirilməsi yolu ilə həyata keçirilir.

Texniki reqlament (*technical regulations*) hər hansı bir məhsulun (*əmtəənin*) xüsusiyyətlərini və ya onunla əlaqədar inzibati müddəalar da daxil olmaqla istehsal prosesləri və metodlarını əhatə edərək icrası məcburi olan bir sənəddir. O, həmçinin terminologiya, simvollar, qablaşdırma, markalama və ya etiketləmə tələblərini də əhatə edə və ya tamamilə bu məsələlərə həsr oluna bilər. Onu mütləq "satandartlaşdırma" (*standardization*) və "standart" (*standard*) anlayışlarından fərqləndirmək lazımdır. Belə ki, standartlaşdırma ayrı-ayrı məmulatların, xammalın, cihazların, müəyyən proseslərin və s. keyfiyyətinin artırılması, istehsalı prosesinin sadələşdirilməsi və detallarının qarşılıqlı dəyişdirilməsinin yüngülləşdirilməsinin tələb və normalarının müəyyən edilməsindən, habelə obyektlərin təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsinə yönəlmiş, kütləvi və təkrar istifadə üçün nəzərdə tutulan normativ sənədlərin hazırlanması, qəbulu və tətbiqindən ibarət fəaliyyətdir. Əsas vəzifəsi eyni məhsullar üçün vahid normanı müəyyən etmək, nəticəsi konkret obyektlər üzrə normativ-texniki sənəd - standartlar yaratmaqdır [1, 24]. Standart mallara, məhsulun həyat tsiklinə[2] və ya onlarla əlaqəli proseslərə və istehsal metodlarına münasibətdə ümumi və təkrar istifadə üçün nəzərdə tutulmuş qaydaları, təlimatları və xüsusiyyətləri ehtiva edən hər hansı bir tanınmış orqan tərəfindən qəbul edilən və riayət edilməsi məcburi olmayan sənəddir. Standart standartlaşmanın məhsulu kimi digər oxşar obyektləri müqayisə etmək üçün orijinal kimi qəbul edilən nümunə, etalon, modeldir. Onun tələbləri yalnız təhlükəsizlik deyil, məhsulun bütün digər xüsusiyyətlərinə aiddir. Həmçinin dəyərləndirilməlidir ki, texniki reqlamentə riayət etmək məcburidir və bu onu könüllülüklə şərtlənən standartdan fərqləndirən əsas cəhətidir. Digər bir məsələ onların beynəlxalq ticarət üçün fərqli məqsədləri ilə bağlıdır. İdxal olunan mallar texniki reqlamentdə göstərilən tələblərə cavab vermədikdə, satıla bilməz. Standartlar halında isə idxal üçün uyğun olmayan malların bazara çıxarılmasına icazə veriləcəkdir. Lakin, istehlakçılar yerli standartlara cavab verən məhsullara üstünlük verdikləri təqdirdə, belə vəziyyət bazar daxilində onların bir hissəsinə təsir göstərə bilər. Bu halda, satıcıdan standartların tələblərinə riayət edilməsini sübut edən könüllü sertifikat almaq tələb olunur. Ölkələr arasındakı razılaşmalar texniki reqlamentlərin beynəlxalq ticarət üçün lazımsız maneələr yaratmamasını şərtləndirir. Elə bu səbəbdən də onlar qanuni bir hədəfə çatmaq üçün riskləri nəzərə almaqla ticarəti məhdudlaşdırmamalıdırlar. Bu mövcud elmi və texniki məlumatlar, emal texnologiyası

---

[2] Məhsulun həyat dövrü: Məhsulun yarandığı andan utilizasiyaya qədər onun vəziyyətinin dəyişməsi ilə bağlı hadisələrin və proseslərin məcmusu. Əsas mərhələləri layıhələndirmə, istehsal, texniki istismar və utilizasiyadır.

və ya məhsulun nəzərdə tutulan son istifadəsi ilə dəstəklənir. Digər fərqli cəhət isə sosial təyinatına görə texniki reqlament məhsulun təhlükəsizliyini, standart isə bununla yanaşı, həm də keyfiyyətini təmin edir. Bu kontekstdə həmçinin uyğunluğun qiymətləndirilməsi proseduruna da baxılması gərəklidir. Belə ki, uyğunluğun qiymətləndirilməsi (*conformity assessment*) normativ sənədlərlə müəyyən edilmiş tələblərin (*standartların, texniki reqlamentlərin və şərtlərin*) və ya sifarişçinin qiymətləndirmə obyektinə bildirdiyi tələblərin yerinə yetirilməsinin sübutudur. Uyğunluğun qiymətləndirilməsinin nəticəsinə obyektin uyğun olduğunu və həmişə müəyyən edilmiş tələblərə cavab verəcəyinə dair ciddi sübut kimi baxılmamalıdır. Uyğunluğun nümayişi tələb və imkanlardan asılı olaraq müxtəlif dərəcədə düzgün və inandırıcı şəkildə həyata keçirilə bilər. Uyğunluğun qiymətləndirilməsi üç funksiyanın ardıcıllığı kimi nəzərdən keçirilməlidir: “seçim” (*selection*), “təyinetmə” (*determination*) və “uyğunluğun yoxlanılması və təsdiq edilməsi” (*review and attestation*). Bu məsələ həllini akkreditasiya sistemi ilə tapır. Akkreditasiya (*accreditation*) obyektin müəyyən edilmiş meyarlara və göstəricilərə (*standarta*) uyğunluğunu rəsmi təsdiqləmə prosedurudur. Daha geniş peşəkar xidmətlərin göstərilməsi sahəsində yayılmışdır. Akkreditasiya xidmətlərinə təhsil, sınaqların keçirilməsi, klinik diaqnostika, kalibrləmə, sertifikatlaşdırma və digər xidmətlər daxildir. Akkreditasiya xidmətləri müəyyən qayda və prosedurlar üzrə fəaliyyət göstərən müvafiq ixtisaslaşmış orqanlar tərəfindən həyata keçirilir.

Texniki reqlamentlə əlaqəli, idxal mallarına milli mənşəli oxşar mallardan az olmayan əlverişli rejim tətbiq edilməlidir. Beynəlxalq standartlar texniki reqlamentin hazırlanmasında əsas götürülməlidir. Texniki reqlamentlər vətəndaşların həyatını və sağlamlığını, fiziki və hüquqi şəxslərin əmlakını, dövlət və bələdiyyə mülkiyyətini qorumaq, ətraf mühitin, heyvanların və bitkilərin həyatı və sağlamlığını təmin etmək, alıcıları çaşdıran hərəkətlərin qarşısını almaq və enerji səmərəliliyini qorumaq kimi məqsədlərdən irəli gələrək tətbiq olunur. Digər məqsədlər üçün texniki reqlamentlərin qəbul edilməsinə icazə verilmir.

Hüquqi müstəvidə texniki reqlamentlər ümumi və xüsusi növlərə bölünürlər. Ümumi reqlamentlərə tələblərin tətbiqi hər hansı bir məhsul növü, istehsal prosesləri, istismar, saxlama, daşınma, satış və utilizasiyaya münasibətdə məcburidir. Xüsusi reqlamentlər isə təhlükəsizliyi ümumi texniki qaydaların tələbləri ilə təmin olunmayan məhsul növləri üçün tələblər müəyyənləşdirir [10]. Xüsusi reqlamentlər birbaşa hərəkətin normativ aktları olaraq ümumi reqlamentlərə zidd olmamalıdırlar. Bundan başqa, texniki reqlamentlər, həmçinin bioloji təhlükəsizliyi təmin etmək üçün ayrı-ayrı ölkələrdən və yerlərdən gələn məhsullara münasibətdə minimal zəruri baytarlıq-sanitariya və fitosanitar tədbirləri də müəyyən edirlər.

## 4.Texniki tənzimlənmənin aksioloji vektorları və iqtisadi sistemi

Texniki tənzimlənmə dövlətin sosial-iqtisadi siyasətinin məqsədlərinin həyata keçirilməsi üçün hüquqi alətlərdən istifadə edilməsini nəzərdə tutan dövlət tənzimlənməsinin bir növü kimi çıxış edir. Dövlət tənzimləməsi çərçivəsində, şəxslər və ya təşkilatlar ixtisaslaşmış dövlət strukturları və qurumlarının rəsmi sanksiyalar təhdidi altında müəyyən məcburi tələblərə riayət etmək məcburiyyətində qalırlar. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı - İƏİT çərçivəsində dövlət tənzimlənməsi adı altında dövlətin müəssisələrə və vətəndaşlara qarşı tələblər irəli sürdüyü müxtəlif alətlər dəsti başa düşülür. Bu cür tənzimləmə dövlət və həmçinin qeyri-hökumət təşkilatları tərəfindən də tətbiq olunan qanunları, rəsmi və qeyri-rəsmi təlimatları və

köməkçi qaydaları əhatə edir [27].

Texniki tənzimləmə proseduruna vurğulandığı kimi, həmçinin məhsulun, proseslərin, işlərin və xidmətlərin müəyyən olunmuş normalara uyğunluğunun qiymətləndirilməsi, habelə onlara nəzarət edilməsi sistemi də daxildir. Bundan başqa, texniki tənzimləmənin məcburi postulatlarından irəli gələrək, bu prosedurlar sahibkarlıq fəaliyyət sferasında könüllülük əsasda qaydalara riayət etmək funksiyalarını da özündə birləşdirir.

Texniki tənzimləmə iqtisadi sferada iki kompleks məsələnin həlli üçün əsas yaratmalıdır [17]:

1) daxili bazarın tənzimlənməsi;

2) xarici ticarətin inkişafı üçün əlverişli şəraitin yaradılması.

Birinci vəzifə, məhsullara tələblərin formalaşdırılması və iqtisadiyyatda islahatların aparılması, ona sosial oriyentasiya verilməsi, məhsulun və bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması tələblərinə cavab verən məhsulun yaradılması və hərəkəti prosesində onun uyğunluğunun qiymətləndirilməsi mexanizminin işlənib-hazırlanması zərurətindən irəli gəlir.

İkinci vəzifə qloballaşma problemlərindən qaynaqlanır. Bunun üçün isə bir tərəfdən xarici ticarətdə dövlət üçün iqtisadi cəhətdən səmərəli siyasət aparmağa imkan verən və digər tərəfdən beynəlxalq birliyin müəyyən etdiyi qaydalarla uyğunlaşdırılan texniki tənzimləmə mexanizmi yaradılması şərtləndirilir.

Ayrı-ayrı ölkələrdə texniki tənzimləmələr, standartlar və uyğunluğun qiymətləndirilməsi prosedurlarının qəbul edilməsi həm də texniki baryerlər (*manelər*) yaradır. Bununla yanaşı, həmçinin qeyd olunmalıdır ki, sosial-iqtisadi inkişaf, iqlim, milli ənənələr, zövq və s. vəziyyətlərə görə müxtəlif ölkələrdə bu reqlamentlər, standartlar və prosedurlar bir-birindən fərqlənə bilər. Dövlətlər bu amilləri qanunvericilikdə lazımlı hesab etdikləri səviyyədə nəzərə almaq imkanlarına sahibdirlər. Eyni zamanda, ticarət üçün minimal məhdudlaşdırıcı ola biləcək çevik texniki reqlamentlərin hazırlanmasına da çalışmaq lazımdır. Buna görə də texniki reqlamentlər konstruksiya tələbləri deyil, istismar qaydalarını qurmalıdırlar. Bu sferada bir cəhət də nəzərə alınmalıdır ki, texniki baryerlər bu və ya digər səbəblərdən əsaslı olduğu qədər də süni xarakter daşıya bilər. Maneələrin mövcudluğu və əhəmiyyətliliyi dövlətlərin siyasətləri, xüsusən də onların yaratdıqları texniki tənzimləmə sistemi ilə müəyyən olunur.

**5. Nəticə**

Texniki tənzimlənmənin aksioloji əsasları və iqtisadi effektləri sferasında apardığımız təhlil və araşdırmalar göstərir ki, bu yeni institusional təsisat iqtisadi inkişafda və sosial həyatda çox mühüm əhəmiyyət daşıyır. O, özünün xarakterik cəhətləri, prinsipləri və hüquqi münasibətlər çevrəsi ilə fərqlənir. Bu fərqliliklər və prinsipial xüsusiyyətlər elmi müstəvidə də xarakterik nəzəri-metodoloji yanaşmaları və konseptual təyinatları davamlı edir. Bununla belə, texniki tənzimlənmənin sistemi daim təkmilləşmə və inkişaf yeniləşmələri tələb edir. Onun iqtisadiyyatın müxtəlif sferalarında geniş tətbiqi isə məhsulun keyfiyyətini və səmərəsini artırır, təhlükəsizliyini təmin edir və ona olan tələbi yüksəldir.

Texniki tənzimlənmənin iqtisadi həyatda xüsusi bir rolu da, onun rəqabətqabiliyyətlilik yaratmasındadır. Bu prinsipial xətt istehsal prosesini daim inkişafda saxlayır və aşağı dəyərli, çıxdaş xarakterli məhsulların bazara çıxışına sədd çəkir.

Apardığımız tədqiqatların yekunu kimi, texniki tənzimlənmənin aksioloji əsasları və iqtisadi effektlərini xarakterizə edən yeni sistem kompozisiyası işlənərək, aşağıdakı illüstrativ obrazda təqdim olunur:




*Mənbə: Aparılan təhlil və qiymətləndirmələr əsasında müəllif tərəfindən hazırlanmışdır.*

***Şəkil. Texniki tənzimləmənin sistem kompozisiyası***

Texniki tənzimləmə təqdim olunun bu yeni sistem kompozisiyası həm də tətbiqi xarakterlidir. Belə ki, texniki tənzimləmənin müasir məzmunu, mahiyyəti və strukturu haqqında mülahizələr apararkən, bu mürəkkəb sistemin təqdim edilən sxematik quruluşu onun haqqında təsəvvürlərə və biklərə yeni aydın bir ümumiləşdirmə verir. Belə ki, bu yeni sistem kompozisiya texniki tənzimləmənin alternativ paradiqmalarından biri kimi çıxış edir.

Aparalın təhlil və araşdırmalar bir daha əsaslandırır ki, texniki tənzimləmənin aksioloji əsasları milli bazarın dünya iqtisadi sisteminə maksimum inteqrasiyasına və məhsullar üçün məcburi tələblərin beynəlxalq norma və qaydalara uyğunlaşdırılmasının təmin edilməsinə yönəldilmişdir. Fərqli adlar altında olsa da, o bütün ölkələrdə güclü effektlər yaradaraq, yeniləşən sosial-iqtisadi bir alət kimi çıxış edir. Bu baxımdan da, texniki tənzimləmənin həyat keyfiyyəti göstəricilərinə təsirinin daim aktual səciyyə daşıyacağı qaçılmazdır.

## ƏDƏBİYYAT

1.“Böyük İqtisadi Ensiklopediya”. VII cilddə. / akademik Ziyad Səmədzadənin baş redaktorluğu ilə. Bakı: “Letterpres” nəşriyyat evi, 2012-2015.

2.Cəfərov P.A., Həsənov Ş.İ. Standartlaşdırma, keyfiyyətin idarə olunması və məhsulların qiymətləndirilməsi. Dərs vəsaiti. Gəncə: 2003, 219 s.

3.Fərzanə N.H. və b. Standartlaşdırmanın əsasları. Bakı: Təhsil, 2007, 218 s.

4.Qafarov A.M. Metrologiya, standartlaşdırma, sertifikatlaşdırma. Ali Texniki Məktəblər üçün dərslik. Bakı: 2012, 525 s.

5.Məmmədov M.A. və b. Tikintinin iqtisadiyyat və idarəedilməsi. Dərslik. Bakı: “Nurlar”. 2001, 681 s.

6.Məmmədov N.R. Standartlaşdırmanın əsasları. Bakı: Çaşıoğlu, 2003, 386 s.

7.Mahmudov C.M. İstehsal sahələrinin texnologiyası və sənaye ekologiyası, Bakı: “Elm və Həyat”, 1997, 173 s.

8.Rəhmanov F.P. Sosial infrastrukturun tənzimlənməsi problemləri. Bakı: “Gənclik”, 2004, 304 s.

9.Okrepilov V.V. Economics of quality for sustainable development. St.Petersburg, Publishing House of Peter the Great St. Petersburg Polytechnical University, 2015, 302 p.

10.Белобрагин В.Я. Основы технического регулирования РИА “Стандарты и качество”. М.: 2008, 422 с.

11.Вилкова С.А. Основы технического регулирования. М.: ИЦ Академия, 2006, 200 с.

12.Гличев А.В. Основы управления качеством продукции. М.: РИА “Стандарты и качество”, 2001, 424 с.

13.Губин Е.П. Государственное регулирование рыночной экономики и предпринимательства: правовые проблемы. М.: Норма: ИНФРА-М, 2017, 320 с.

14.Гусева Т.А., Чапкевич Л.Е. Постатейный комментарий к Федеральному закону “О техническом регулировании” М.: Юстицинформ, 2008, 143 с.

15.Джуран Дж. Качество в истории цивилизации. Эволюция, тенденции и перспективы управления качеством. В 3-х томах. М.: Стандарты и качество, 2015.

16.Исикава К. Японские методы управления качеством. М.: Экономика, 1988, 215 с.

17.Крючкова П.В., Авдашева С.Б. Система технического регулирования в Российской Федерации: формирование, возможное и ожидаемое воздействие на конкуренцию и конкурентоспособность: М.: Издательский дом Государственного университета Высшей школы экономики, 2009, 72 с.

18.Лифиц И.М. Стандартизация, метрология и подтверждение соответствия. М.: Юрайт. Высшее образование. 2010, 315 с.

19.Матушкина И.Ю., Онищенко Л.А. Техническое регулирование: технические регламенты и стандартизация. Екатеринбург: Изд-во Урал. ун-та, 2018, 208 с.

20.Минин Б.А. Управление качеством. Социально-экономические вопросы оценки качества и защиты потребителя. М.: Изд-во стандартов, 1989, 182 с.

21.Назаров В.Н., Карабегов М.А., Мамедов Р.К. Основы метрологии и технического регулирования. СПб: СПбГУ ИТМО,2008, 110 с.

22.Новицкий Н.И., Олексюк В.Н. Управление качеством продукции: Учеб. пособие. Минск.: Новое знание, 2001, 238 с.

23.Эдвардс Деминг. Менеджмент нового времени. Простые механизмы, ведущие к росту, инновациям и доминированию на рынке. М.: “Альпина Паблишер”, 2021, 182 с.

24.www.elshanhajizadeh.com - prof. Elşən Hacızadənin saytı.

25.www.europa.eu.int - EU - Avropa İttifaqı.

26.www.wto.org - Dünya Ticarət Təşkilatı.

27.www.oecd.org - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı.

28.www.e-qanun.az. - Azərbaycan Respublikasının qanunvericilik aktları.

## *АКСИОЛОГИЧЕСКИЕ ОСНОВЫ И ЭКОНОМИЧЕСКИЕ ЭФФЕКТЫ ТЕХНИЧЕСКОГО РЕГУЛИРОВАНИЯ*

*Нурлан ГАДЖИЗАДЕ*

***Резюме***

*Статья посвящена изучению аксиологических основ и экономических эффектов технического регулирования. Здесь в контексте новых подходов раскрывается сущность и принципы технического регулирования, а в аналитическом интерпретации представлены его аспекты, характеризующие теоретико-методологические основы. Также указывается место и роль технического регулирования в системе правоотношений, обосновывается значение его влияния на социально-экономическое развитие. В заключение представлена новая системная композиция технического регламента в иллюстративном образе.*

***Ключевые слова:*** *техническое регулирование, экономическое развитие, технические регламенты, стандартизация, оценка соответствия.*

## *AXIOLOGICAL BASES AND ECONOMIC EFFECTS OF TECHNICAL REGULATION*

*Nurlan HAJİZADEH*

***Abstract***

*The article is devoted to the study of the axiological basis and economic effects of technical regulation. Here, the essence and principles of technical regulation in the context of new approaches are explained, and the features characterizing its theoretical and methodological bases are presented in the analytical commentary. It also shows the place and role of technical regulation in the system of legal relations, the importance of its impact on socio-economic development. As a result, a new system composition is presented in the illustrative image of technical regulation.*

***Key words:*** *technical regulation, economic development, technical regulations, standardization, conformity assessment.*

*UOT 336.77.067*

# *AZƏRBAYCAN BANK SEKTORUNDA QEYRİ-İŞLƏK KREDİTLƏR PROBLEMATİKASININ TƏHLİLİ*

*Əfqan Telman oğlu İMANZADƏ,*
*Azərbaycan Beynəlxalq Bankı,*
*Korporativ idarəetmə və metodologiya şöbəsinin müdiri,*
*afqan.imanzade@ibar.az,*

*Ayaz Rafiq oğlu MUSEYİBOV,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) doktorantı,*
*Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi,*
*Ayaz.museyibov@unec.edu.az, Ayaz.museyibov@atmu.edu.az*

**Xülasə**

*2015-ci ildə baş vermiş ardıcıl iki devalvasiya ölkənin bank sektorunda ciddi çağırışlar formalaşdırdı. Qeyri-işlək kreditlərin 3 dəfəyə yaxın artması fonunda bank sektorunda strateji inkişaf proqramları icra edildi. Bunun nəticəsi olaraq, 2020-ci ildə sektorda qeyri-işlək kreditlərin 6,1 %-ə qədər azalması müşahidə edildi. Bu araşdırmanın əsas məqsədi inkişaf trendləri ilə yanaşı, qeyri-işlək kreditlərin timsalında bank sektorunun qarşılaşdığı risklərin və mövcud vəziyyətin təhlili və potensial inkişaf imkanlarının öyrənilməsidir. Bu məqalədə Azərbaycanın bank sektorunda qeyri-işlək kreditlərlə bağlı cari vəziyyətin təhlili aparılır, gələcək inkişaf perspektivləri tədqiq edilməklə, bank sektorunda sabitliyin gücləndirilməsi istiqamətində müvafiq təkliflər verilir.*

***Açar sözlər:*** *Bank sektoru, qeyri-işlək kreditlər, QİK əmsalı, iqtisadi inkişaf, qlobal trendlər, sistematik risklər.*

## Giriş

2015-ci ildə baş vermiş makroiqtisadi hadisələr nəticəsində xarici valyutada kreditlərə xidmət yükünün artması əhalinin və biznes subyektlərinin ödəmə qabiliyyətinə mənfi təsir etməklə bərabər, kredit risklərini artırmış və kredit portfellərinin keyfiyyəti pisləşmişdir. Kredit sektorunda problemlərin aradan qaldırılması istiqamətində Maliyyə Bazarlarına Nəzarət Palatası (*ləğv olunmuşdur*) tərəfindən 05 may 2016-cı il tarixində “Sağlam kreditləşmə və məsuliyyətli borclanma Prinsipləri” təsdiq edilməklə gəliri yalnız milli valyutada olan vətəndaşlara xarici valyutada kreditlərinin verilməsi məhdudlaşdırılmışdır ki, bu da sabit maliyyə vəsaiti ilə təmin olunmayan borclanmanın qarşısını almağa xidmət etmişdir. 2016-cı il 06 dekabr tarixli Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində isə qeyri-işlək aktivlərin restrukturizasiyası planının hazırlanması üzrə tədbirlərin əsas istiqamətləri müəyyən edilmişdir. 23 dekabr 2016-cı il tarixli Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilmiş düzəlişlərə əsasən ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi ƏDV-dən azad edilmişdir. Digər tərəfdən, 2019-cu il 28 fevral tarixli “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərman” da bank sektorunda aktivliyin artmasına şərait yaratmaqla bərabər, qeyri-işlək kredit portfelinin həcminin də əsaslı şəkildə azalması üçün çox möhkəm əsaslar yaratmışdır. [1] Görülmüş tədbirlərin və aparılmış islahat tədbirlərinin nəticəsində qeyri-işlək kreditlərin həcmində post-krizis

dövründə ümumilikdə 2 dəfədən çox rekord həcmdə azalmaya nail olunmuşdur. Belə ki, kredit portfellərinin əsas keyfiyyət göstəricilərindən hesab olunan qeyri-işlək kreditlərin xüsusi çəkisi 2021-ci ilin ilk 4 ayının göstəricilərinə əsasən 6,1%-ə enmişdir. [2]

**Qeyri-işlək kredit probleminə elmi yanaşmaların tədqiqi**

Bir sıra araşdırmaların nəticələri onu göstərir ki, ÜDM-in artımı və akitvlər üzrə gəlir (ROA əmsalı) qeyri-işlək kreditlərə mənfi, işsizlik və real faiz dərəcəsi isə müsbət təsir göstərən amillərdir. Habelə problemli kreditlərin xüsusi çəkisində artımla bərabər bank ehtiyatlarına ayırmaların da artması müşahidə olunur. Bununla yanaşı, banklar qeyri -işlək kreditlərin səviyyəsini aşağı salmaq üçün kredit təklif edərkən bir çox məsələlərə diqqət etməli, xüsusilə də milli iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətini nəzərə almalıdırlar, çünki rəqabətlilik aşağı səviyyədədirsə, borc götürənlərin borcu geri ödəmək qabiliyyəti nəzərəçarpan dərəcədə aşağı düşə bilər. [6]

Yeni məlumat və mənbələrdən istifadə edərək son on il ərzində 75 ölkədə qeyri-işlək kreditlərin makroiqtisadi determinantları öyrənilib və real ÜDM artımı, səhm qiymətləri, məzənnə və kreditlərin faiz dərəcəsi kimi makroiqtisadi dəyişənlərin problemli kreditlərin çəkisinə əhəmiyyətli dərəcədə təsir etdiyi aşkar edilmişdir. Valyuta məzənnəsinin təsir istiqamətinə nəzər saldıqda, məzənnənin qeyri-işlək kreditlərə təsir sahəsinin bır sıra önəmli faktorlardan asılı olduğunu görə bilərik. Xarici valyuta ilə kredit alanların xüsusi çəkisi sabit məzənnəyə malik olan ölkələrdə digərlərinə nisbətən xüsusilə yüksəkdir. Valyutanın dəyərdən düşməsi halında, qeyri-işlək kredit portfelinin həcmində artımların olması gözləniləndir. Nəticədə isə, iqtisadiyyatda dalğalanma qorxusu (fear of floating) müşahidə olunur. Xarici valyuta ilə verilən kreditlərin üstünlük təşkil etdiyi bəzi ölkələr daha yüksək problemli kredit və kredit restrukturizasiyasına malikdirlər. [10] Səhm qiymətlərinin problemli kreditlərə daha yüksək təsirinin isə böyük birja bazarına malik ölkələrdə baş verməsi təsbit edilmişdir. [9]

Louzic, Vouldis və Metaxasa görə, "too big to fail" hipotezinə əsasən böyük bankların həddindən artıq risk götürmələri, yəni riskli aktivlərə sərmayə qoymaları və borcalanlara daha çox kredit vermələri müşahidə olunur. Bununla da böyük banklar yüksək QİK-lərin yaranmasına səbəb olaraq nəticədə Lehman Brothers kimi iflas edirlər. Onu da qeyd edək ki, Keeton və Morris ilk dəfə "Mənəvi təhlükə" hipotezini irəli sürmüşdülər və bankların kapital qoyuluşu ilə müqayisədə kredit portfelinin həcmini artırmaları ilə problemli kreditlərin də həcmində artımın müşahidə olunacağını qeyd etmişdirlər. Bütün bunların nəticəsində isə böyük maliyyə qurumlarının iflasa uğraması qaçılmazdır. [15]

Qeyri-işlək kreditlərin bütün biznes proseslərinə təsir edə biləcəyi araşdırılıb, lakin ən böyük təsir böyük kredit portfelinə malik olan maliyyə qurumlarına məxsusdur. Daha çox problemli kreditlərin olması əmanətçilərin və xarici investorların itkisinə, bu isə öz növbəsində likvidlik problemlərinə və nəticədə iflasa səbəb ola bilir. Nəticə etibarı ilə qeyri-işlək kreditlər bankların likvidliyinə ciddi təsir göstərir. Alimlər William R.Keeton və Charles Morris 1978-1985-ci illərdə ABŞ-da 2470 sığortalı kommersiya bankının nümunəsində apardıqları araşdırmalar nəticəsində müxtəlif iqtisadi sektorların aşağı performansı ilə birgə, yerli iqtisadi şərtlərin müxtəlif banklar tərəfindən qeydə alınan kredit itkilərində təsiri olduğu qənaətinə gəlmişdirlər. [11]

1993-1996-cı illərdə Argentinanın bank sisteminin qeyri-sabitliyini araşdıran Jose Bercoff, Julian Giovanni və Franque Grimard qeyri-işlək kreditlər portfelinin

bank-əsaslı faktorlardan (aktiv artımı, əməliyyat xərclərinin aktivlərə nisbəti, özəl və xarici bankçılıqla əlaqəli institusional xüsusiyyətlər) və makroiqtisadi faktorlardan (kredit artımı, xarici faiz dərəcəsi, monetar ekspansiya siyasəti və s.) eyni dərəcədə təsirləndiyini aşkar etmişdirlər. [8]

Beləliklə, banklar tərəfindən kredit siyasəti qurularkən iqtisadiyyatın real gəlirliliyi və mövcud vəziyyəti nəzərə alınmalıdır. Bu baxımdan da, kommersiya bankları bank sisteminin sağlamlığını və sabitliyini doğru qiymətləndirmək üçün ÜDM və əlaqəli göstəriciləri də prudensial nəzarət və müşahidə obyektinə daxil etməlidirlər. İqtisadiyyatın böhrana uğraması kreditlərin qaytarılmasında problemlərin yaranacağına və nəticədə bankın qeyri-işlək kreditlərlə üzləşəcəyinə işarə edir. Problemli kreditlərin artması ilə isə banklar bir tərəfdən aktivlərinin (kreditlərinin) likvidliyi, digər tərəfdən isə öhdəliklərinin (depozitlərinin) likvidliyi problemi ilə üzləşərək iflasa uğrayırlar. [5]

**Mövcud vəziyyətin diaqnostik təhlili**

Ölkədə qeyri-işlək kreditlərin nisbətən yüksək olmasının bir çox səbəbləri mövcuddur ki, bunlardan ən əsasları ümumi iqtisadi inkişafda müşahidə olunan çağırışlar, makroiqtisadi şoklar, məlumat assimmetriyası, bank sektorunda aşağı şəffaflıq səviyyəsidir. Belə ki, ölkənin bank sektorunda toksiki aktivlərin həcminin kəskin artımına əsas səbəbi devalvasiya olsa da, bu problem daha öncə də mövcud olmuşdur və Mərkəzi Bankın rəsmi statistikasına əsasən 2005-2014-cü illərdə vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 5-6% ətrafında olmuşdur. 2015-ci ilin devalvasiyalarından sonra isə problemli kreditlərin xüsusi çəkisi rəsmi statistikaya əsasən 15%-dək yüksəlmişdir. [2]

2021-ci ilin əvvəlində qeyri-işlək kreditlərin ümumi həcmi 2018-ci ilə nəzərən 8%-ə yaxın azalsa da, mövcud göstərici hələ də bank sektoru üçün yük olaraq qalmaqdadır. Bu göstərici Azərbaycanda bu sahədə 2015-ci ilin neft böhranından sonra qeydə alınmış ən pozitiv göstəricidir.




***Qrafik 1. Azərbaycanın kredit ekosistemində trendlər (milyard AZN), 2005-2021***

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı*
*https://www.cbar.az/page-40/statistical-bulletin*

Onu da qeyd edək ki, qeyri-işlək kredit portfelinin son illər davamlı olaraq azalması Azərbaycanı bu sahədə Şərqi Avropa və MDB məkanında müvafiq istiqamətdə ən uğurlu nəticələrə nail olan ölkələrdən birinə çevirmişdir. Əslində bu göstəricinin özü sektorun sağlamlaşdırılmasının əsas siqnallarından olmaqla yanaşı, bank sisteminin kredit portfellərinin risk yükü və ümumi kredit faizlərinin azalmasına da müsbət təsir edən amillərdəndir. Bu göstərici, həmçinin, 2017-ci ilin “neqativ bumu” ilə müqayisədə (QİK əmsalı, 15,5%) 2,5 dəfə azalma deməkdir ki, bunun da azalması öz növbəsində bank sisteminin kredit xərclərinin azaldılması və nəticədə aşağı kredit faizlərinin formalaşması və daha sağlam kredit hesabatlılığı mədəniyyətinin formalaşmasına müsbət təsir edə bilər. [2]

Əlavə olaraq qeyd edək ki, ölkə tarixində qeyri-işlək kredit əmsalı üzrə ən yüksək göstərici 2018-ci ilin 1-ci rübünün yekunlarına əsasən qeydə alınmışdır ki, müvafiq dövr ərzində də bu göstərici 14.7% təşkil etmişdir.

Ötən müddət ərzində devalvasiyanın təsiri ilə xarici valyutada kreditlərin artmasının qarşısının alınması, həmçinin, aparılmış stabilləşdirmə tədbirləri nəticəsində kredit portfellərində xarici valyutaların xüsusi çəkisi azalmışdır. Bununla bərabər, ilk dəfə olaraq 2020-ci ildə kredit qoyuluşlarının ümumi tərkibində xarici valyutaların xüsusi çəkisi devalvasiyadan öncəki göstəricilərə qədər azalmışdır (~28%).[2]

***Cədvəl 1. Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)***

| **Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **İl, ay** | **Cəmi** | **Milli valyutada kreditlər** | | | **Xarici valyutada kreditlər** | | |
| | | **Cəmi kreditlər** | **Xüsusi çəkisi** | **o cümlədən:** | **Cəmi kreditlər** | **Xüsusi çəkisi** | **o cümlədən:** |
| | | | | **vaxtı keçmiş** | | | **vaxtı keçmiş** |
| 2013-cü il | 15422,9 | 11076,7 | 71,82% | 627,4 | 4346,3 | 28,18% | 165,4 |
| 2014-cü il | 18542,6 | 13505,7 | 72,84% | 767,6 | 5037 | 27,16% | 208,8 |
| 2015-ci il | 21730,4 | 10994,5 | 50,60% | 840,2 | 10735,9 | 49,40% | 668,3 |
| 2016-cı il | 16444,6 | 8663,1 | 52,68% | 682,4 | 7781,4 | 47,32% | 790,2 |
| 2017-ci il | 11757,8 | 6953,6 | 59,14% | 789,3 | 4804,2 | 40,86% | 837,5 |
| 2018-ci il | 13020,3 | 8073,6 | 62,01% | 774,1 | 4946,7 | 37,99% | 810,9 |
| 2019-cu il | 15298,1 | 10000,8 | 65,40% | 702,4 | 5297,3 | 34,60% | 570,6 |
| 2020-ci il | 14530,4 | 10203,9 | 70,20% | 653,9 | 4326,4 | 29,80% | 239,2 |
| İyun, 2021-ci il | 15258,1 | 11148,4 | 71,10% | 694,1 | 4109,6 | 28,90% | 220,4 |

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı*
*https://www.cbar.az/page-42/monetary-indicators#page-2*

Statistikaların təhlilindən aydın olur ki, ölkədə xarici valyutada verilmiş kreditlər üzrə qeyri-işlək kredit əmsalı millli valyutaya nəzərən daha yüksək olmuşdur. Lakin son iki ildə bu göstərici üzrə dinamika xeyli yaxşılaşmışdır. Örnək olaraq, 2019-cu ildə QİK əmsalı milli valyutada olan kreditlər üzrə 7%, xarici valyutada olan kreditlər üzrə 10,8% təşkil edirdisə, 2021-ci ilin birinci yarımilində müvafiq əmsal birinci kateqoriya üzrə 6,2%, ikinci kateqoriya üzrə isə 5,4% təşkil etmişdir.

QİK əmsalı üzrə ən yüksək xüsusi göstərici isə 2017-ci ildə xarici valyutada verilmiş uzunmüddətli kreditlər üzrə qeydə alınmışdır (18,18%). Hazırda isə müvafiq göstəricilər arasında standartdan kəskin kənarlaşma müşahidə olunmur. Bu isə, son illərdə xarici valyutada olan kreditlər üzrə realizasiya edilmiş dəstək tədbirlərinin pozitiv nəticələrini göstərir.

***Cədvəl 2. Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)***

| Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna) | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Milli valyutada kreditlər** | | | **Xarici valyutada kreditlər** | | |
| **İl, ay** | **Cəmi kreditlər** | **Qısamüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı** | **Uzunmüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı** | **Cəmi kreditlər** | **Qısamüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı** | **Uzunmüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı** |
| **2013-cü il** | 11076,7 | 5,66% | 12,53% | 4346,3 | 7,15% | 2,75% |
| **2014-cü il** | 13505,7 | 5,68% | 12,07% | 5037 | 6,31% | 3,28% |
| **2015-ci il** | 10994,5 | 7,64% | 15,12% | 10735,9 | 8,65% | 5,04% |
| **2016-cı il** | 8663,1 | 7,88% | 10,82% | 7781,4 | 9,12% | 10,54% |
| **2017-ci il** | 6953,6 | 11,35% | 15,96% | 4804,2 | 14,82% | 18,18% |
| **2018-ci il** | 8073,6 | 9,59% | 10,45% | 4946,7 | 14,47% | 17,00% |
| **2019-cu il** | 10000,8 | 6,40% | 7,10% | 5297,3 | 9,50% | 11,20% |
| **2020-ci il** | 10203,9 | 5,40% | 6,60% | 4326,4 | 5,70% | 5,50% |
| **İyun, 2021-ci il** | 11148,4 | 4,80% | 6,50% | 4109,6 | 6,90% | 5,10% |

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı*
*https://www.cbar.az/page-42/monetary-indicators#page-2*

Bütün bu irəliləyişlərə baxmayaraq, qeyri-işlək aktivlərin effektiv şəkildə həlli istiqamətində bir sıra institusional inkişaf imkanları hələ də mövcuddur. Bu potensial imkanlara qeyri-işlək aktivlərin idarəedilməsi üzrə bankların potensialının artırılması, qeyri-işlək aktivlərin restrukturizasiyası üzrə hüquqi sistem, qeyri-işlək aktivlərin satışı və təkrar bazarı kimi amilləri qeyd etmək mümkündür. Uzunmüddətli perspektivdə ölkə banklarında qeyri-işlək kreditlərin həcminin kəskin artımının qarşısının alınması məqsədilə kredit təşkilatlarında problemli kreditlərin idarə edilməsi sisteminin qurulması, bu məqsədlə metodologiyaların hazırlanması və mexanizmlərin yaradılması zəruridir. Sözügedən metodologiyaların olması bankların qeyri-işlək aktivləri ilkin mərhələdə müəyyən etməsini və onların daha effektiv idarə edilməsini şərtləndirəcəkdir. Ötən 4 il ərzində banklar qeyri-işlək portfelin həlli istiqamətində müəyyən tədbirlər həyata keçirsələr də, bu əsasən kreditin xarici valyutadan milli valyutaya konvertasiyası və müddətin uzadılması ilə məhdudlaşmışdır. Çox az sayda istisnaları çıxmaqla, banklar əsas borcun azaldılmasını həyata keçirməmiş, yalnız faiz dərəcələrinin azaldılması və ya cərimə və xidmət haqlarının silinməsi ilə kifayətlənmişdirlər. Əlavə olaraq, ötən müddət ərzində görülmüş tədbirlərə baxmayaraq, girovun hərraca çıxarılması üzrə nisbətən mürəkkəb prosedurlar, müflisliklə bağlı bürokratik prosedurlar, məhkəmə-hüquq prosedurlarının effektivliyinin bir sıra hallarda az olması və s. amillər qeyd olunan çağırışların həllinə maneçilik törədən faktorlardan olmuşdur.

Kredit ekosisteminin sağlamlaşdırılması baxımından bir məsələni xüsusi ilə qeyd etmək gərəkdir ki, 3 bankın kredit portfelinin həcmi bank sisteminin ümumi kredit portfelinin 48%-ni təşkil edir. Bu da ümumi sistem risklərinin mitiqasiyası baxımından xüsusi müşahidədə saxlanılması və izlənilməsini tələb edəcək qədər əhəmiyyətə malikdir. [3]

***Cədvəl 3. Azərbaycan bank sistemində bankların kredit portfeli üzrə disaqreqasiyası***

| Sıra | Bankın adı | Cəmi kredit portfeli (Milyon manat, 2021-ci il 2-ci rübün yekunlarına əsasən) | Ümumi kredit portfelində payı |
|---|---|---|---|
| 1 | Azərbaycan Beynəlxalq Bankı ASC | 2700,7 | 18% |
| 2 | Kapital Bank ASC | 2298,8 | 15% |
| 3 | PAŞA Bank ASC | 2196,2 | 15% |
| 4 | Xalq Bank ASC | 1405,3 | 9% |
| 5 | Unibank KB ASC | 661,3 | 4% |
| 6 | Bank Respublika ASC | 555,2 | 4% |
| 7 | AccessBank QSC | 545,6 | 4% |
| 8 | Premium Bank ASC | 524,5 | 4% |
| 9 | Rabitəbank ASC | 440,6 | 3% |
| 10 | Bank of Baku ASC | 389,9 | 3% |
| 11 | TuranBank ASC | 373,3 | 3% |
| 12 | Muğanbank ASC | 371 | 2% |
| 13 | Yelo Bank ASC | 364,8 | 2% |
| 14 | Azərbaycan Sənaye Bankı ASC | 256,1 | 2% |
| 15 | Bank BTB ASC | 248,1 | 2% |
| 16 | Expressbank ASC | 228,8 | 2% |
| 17 | Günay Bank ASC | 197,1 | 1% |
| 18 | Azər Türk Bank ASC | 181,6 | 1% |
| 19 | Ziraat Bank Azərbaycan ASC | 173,1 | 1% |
| 20 | Yapı Kredi Bank Azərbaycan QSC | 163,6 | 1% |
| 21 | AFB Bank ASC | 162,4 | 1% |
| 22 | Bank VTB (Azərbaycan) ASC | 159,3 | 1% |
| 23 | Naxçıvanbank ASC | 125,1 | 1% |
| 24 | Bank Avrasiya ASC | 122,9 | 1% |
| 25 | Bank Melli İran Bakı filialı | 8,2 | 0% |
| 26 | Pakistan Milli Bankı NBP Bakı filialı | 0,8 | 0% |
| Cəmi göstəricilər | | 14854,2 | |

*Mənbə: Azərbaycan Banklar Assosiasiyası https://aba.az/banklar/renkinql%c9%99r/*

**Beynəlxalq təcrübənin fakt-əsaslı təhlili**

Dünya Bankının məlumat bazalarının təhlili onu göstərir ki, qlobal miqyasda ən yüksək QİK əmsalına malik olan ölkələr San-Marino (61,7%), Ekvatoriyal Qvineya (48,8%), Ukrayna (48,4%), Yunanıstan (36,4%), Sent Kitts və Nevis (24%), Anqola (23,2), Kongo (23,1%) və Çaddır (22,9%) ki, bu ölkələrdə də QİK əmsalı 20%-dən yüksək olmaqla kritik həddə təhlükəli səviyyədədir. [12]

***Cədvəl 4. Ən yüksək qeyri-işlək kredit əmsalına malik olan ölkələr***

| Ən yüksək qeyri-işlək kredit əmsalına malik olan ölkələr | | | | | |
|---|---|---|---|---|---|
| **№** | **Ölkənin adı** | **QİK əmsalı** | **№** | **Ölkənin adı** | **QİK əmsalı** |
| 1 | San Marino | 61,7 | 26 | Zambiya | 8,9 |
| 2 | Ekvatorial Qvineya | 48,8 | 27 | Banqladeş | 8,9 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3 | Ukrayna | 48,4 | 28 | Pakistan | 8,6 |
| 4 | Yunanıstan | 36,4 | 29 | Moldova | 8,5 |
| 5 | Müqəddəs Kitts və Nevis | 24 | 30 | Butan | 8,4 |
| 6 | Anqola | 23,2* | 31 | Albaniya | 8,4 |
| 7 | Konqo Respublikası | 23,1 | 32 | Müqəddəs Lusiya | 8,2 |
| 8 | Çad | 22,9 | 33 | Qazaxıstan | 8,1 |
| 9 | Kipr | 17,1 | 34 | Qırğızıstan Respublikası | 7,7 |
| 10 | Cibuti | 16 | 35 | Bosniya və Herseqovina | 7,4 |
| 11 | Livan | 15,2 | 36 | Xorvatiya | 7 |
| 12 | Qana | 13,9 | 37 | Madaqaskar | 6,8 |
| 13 | Kamerun | 12,8 | 38 | İtaliya | 6,7 |
| 14 | Qabon | 12,8 | 39 | Bolqarıstan | 6,6 |
| 15 | Əlcəzair | 12,7* | 40 | Birləşmiş Ərəb Əmirlikləri | 6,5 |
| 16 | Mərkəzi Afrika Respublikası | 12,6 | 41 | Müqəddəs Vinsent və Qrenadis | 6,4 |
| 17 | Dominika | 12,2 | 42 | Portuqaliya | 6,2 |
| 18 | Keniya | 11,7* | 43 | Nigeriya | 6 |
| 19 | Qvineya | 10,4 | 44 | Argentina | 5,7 |
| 20 | Tanzaniya | 9,6 | 45 | Ermənistan | 5,5 |
| 21 | Esvatini | 9,4 | 46 | İordaniya | 5,4* |
| 22 | Maldiv Adaları | 9,4 | 47 | Antiqua və Barbuda | 5,3 |
| 23 | Rusiya Federasiyası | 9,3 | 48 | Monteneqro | 5,1 |
| 24 | Hindistan | 9,2 | 49 | Türkiyə | 5 |
| 25 | Əfqanıstan | 8,9* | 50 | Latviya | 5 |
| *2018-ci ilin statistikası, əks halda 2019 | | | | | |

*Mənbə: Dünya Bankı*
*https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart*

Göründüyü kimi, Ukrayna istisna olmaqla, 20%-dən yüksək QİK əmsalına malik olan ölkələrin hamısı zəif inkişaf göstəricilərinə malik olan ölkələrdir. Ukraynada QİK əmsalının yüksək olmasını isə bu ölkənin müxtəlif illərdə yaşadığı siyasi böhranlarla da izah etmək mümkündür.




***Qrafik 2. Ukraynada QİK əmsalı üzrə dinamika***

*Mənbə: Mənbə: Dünya Bankı*
*https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart*

### *Cədvəl 5. Ən aşağı qeyri-işlək kredit əmsalına malik olan ölkələr*

| Ən aşağı qeyri-işlək kredit əmsalına malik olan ölkələr | | | | | |
|---|---|---|---|---|---|
| **№** | **Ölkənin adı** | **QİK əmsalı** | **№** | **Ölkənin adı** | **QİK əmsalı** |
| 1 | Mavritaniya | 4,9 | 43 | Qvatemala | 2,2 |
| 2 | Botsvana | 4,8 | 44 | Meksika | 2,1 |
| 3 | Uqanda | 4,7 | 45 | Belçika | 2,1 |
| 4 | Şri Lanka | 4,7 | 46 | Çili | 2,1 |
| 5 | Belarusiya | 4,6 | 47 | Filippin | 2 |
| 6 | Şimali Makedoniya | 4,6 | 48 | Panama | 2 |
| 7 | Namibiya | 4,6 | 49 | Gürcüstan | 1,9 |
| 8 | Qambiya | 4,5 | 50 | Kosovo | 1,9 |
| 9 | Ruanda | 4,4 | 51 | Boliviya | 1,9 |
| 10 | Kolumbiya | 4,2 | 52 | Çin | 1,9 |
| 11 | Qərb Sahili və Qəzza | 4,1 | 53 | Səudiyyə Ərəbistanı | 1,9 |
| 12 | Rumınya | 4,1 | 54 | Hollandiya | 1,9 |
| 13 | Samoa | 4 | 55 | El Salvador | 1,7 |
| 14 | Bruney Darussalam | 3,9 | 56 | Danimarka | 1,7 |
| 15 | Cənubi Afrika | 3,9 | 57 | Avstriya | 1,6 |
| 16 | Fici | 3,8 | 58 | Küveyt* | 1,6 |
| 17 | Polşa | 3,8 | 59 | Dominik Respublikası* | 1,6 |
| 18 | Papua Yeni Qvineya | 3,8 | 60 | Nepal* | 1,6 |
| 19 | Seyşel Adaları | 3,5 | 61 | Kamboca | 1,6 |
| 20 | Peru | 3,4 | 62 | Malayziya | 1,5 |
| 21 | Sloveniya | 3,4 | 63 | Macarıstan | 1,5 |
| 22 | Irlandiya | 3,4 | 64 | Vyetnam | 1,5 |
| 23 | Lesoto | 3,3 | 65 | Özbəkistan | 1,5 |
| 24 | Tonqa | 3,2 | 66 | Finlandiya | 1,4 |
| 25 | Malta | 3,2 | 67 | İsrail | 1,4 |
| 26 | İspaniya | 3,2 | 68 | Sinqapur | 1,3 |
| 27 | Ekvador | 3,2 | 69 | Birləşmiş Krallıq* | 1,1 |
| 28 | Tayland | 3,1 | 70 | Almaniya | 1,1 |
| 29 | Braziliya | 3,1 | 71 | Litva | 1 |
| 30 | Nikaraqua | 3,1 | 72 | Avstraliya | 1 |
| 31 | İslandiya | 2,9 | 73 | Amerika Birləşmiş Ştatları | 0,9 |
| 32 | Trinidad və Tobaqo | 2,9 | 74 | Norveç | 0,8 |
| 33 | Slovakiya Respublikası | 2,9 | 75 | Lüksemburq | 0,7 |
| 34 | Malavi* | 2,8 | 76 | İsveçrə | 0,6 |
| 35 | Çexiya Respublikası | 2,7 | 77 | İsveç | 0,6 |
| 36 | Paraqvay | 2,6 | 78 | Honkkonq XİƏ, Çin | 0,6 |
| 37 | Fransa | 2,5 | 79 | Kanada | 0,5 |
| 38 | İndoneziya | 2,4 | 80 | Estoniya | 0,4 |
| 39 | Kosta Rika | 2,4 | 81 | Koreya Respublikası* | 0,3 |
| 40 | Honduras | 2,3 | 82 | Makao XİƏ, Çin | 0,2 |
| 41 | Urugvay* | 2,3 | 83 | Monako | 0,2 |
| 42 | Qrenada | 2,2 | | | |
| *2018-ci ilin statistikası, əks halda 2019 | | | | | |

*Mənbə: Dünya Bankı*
*https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart*

Qlobal miqyasda ən aşağı QİK əmsalına malik olan ölkələr isə Gürcüstan (1,9 %), Kosovo (1,9 %), Boliviya (1,9 %), Çin (1,9 %), Səudiyyə Ərəbistanı (1,9 %), Hollandiya (1,9 %), El-Salvador (1,7 %), Danimarka (1,7 %), Avstriya (1,6 %), Küveyt (1,6 %), Dominikan Respublikası (1,6 %), Nepal (1,6 %), Kamboca (1,6 %), Malayziya

(1,5 %), Macarıstan (1,5 %), Vyetnam (1,5 %), Özbəkistan (1,5 %), Finlandiya (1,4 %) və İsraildir (1,4 %) ki, bu ölkələrdə də QİK əmsalı 2 faizdən də aşağı səviyyədədir. [12]

Burada təhlildən çıxan mühüm məqam ondan ibarətdir ki, QİK əmsalı yüksək olan ölkələrin siyahısında əsasən zəif inkişaf etmiş ölkələr mövcuddur. Lakin QİK əmsalı aşağı olan ölkələrin siyahısında isə həm inkişaf etmiş, həm də zəif inkişafa malik olan ölkələr yerləşmişdir. Bunu isə onunla izah etmək mümkündür ki, iqtisadi inkişafın yüksək göstəriciləri ilə aşağı QİK əmsalı arasında əlaqə mövcuddur. Lakin bank sistemində kreditləşmənin aşağı səviyyəsi, kredit risklərinin azaldılması üzrə infrastrukturun mövcudluğu zəif inkişaf etmiş bir sıra ölkələrdə də QİK əmsalının aşağı olmasına səbəb olmuşdur. Belə ki, kredit risk mitiqasiya vasitələrindən hesab olunan kredit büro və reyestrləri zəif inkişaf etmiş bir çox ölkədə beynəlxalq təşkilatların dəstəyi ilə artıq bir neçə illərdir ki, fəaliyyət göstərməkdədir.

Dünya Bankının statistikalarının təhlili bəzi ölkələrin qeyri-işlək kredit portfellərinin sağlamlaşdırılması istiqamətində çox uğurlu təcrübəyə malik olduğunu göstərir. Son dekada ərzində QİK əmsalının azaldılmasında ən yaxşı performans göstərən ölkələr kimi isə Əfqanıstan (41%), Qambiya (10%), Qazaxıstan (12,8%), Litva (22,3%), Latviya (10,9%), Maldiv adaları (11,5%), Çernoqoriya (15,9%), Nigeriya (14,1%) xüsusi ilə seçilən ölkələrdəndir. Lakin bununla yanaşı, zəif inkişaf etmiş ölkələrdə son illərdə QİK əmsalının azalmasında statistik uyğunsuzluqlar (bu ölkələrdə statistik hesabatlılığın aşağı səviyyədə olması), aktivlərin təsnifat qaydalarının dəyişdirilməsi kimi potensial faktorların təsiri də nəzərə alınmalıdır.

***Cədvəl 6. QİK əmsalının azaldılmasında ən yaxşı performans göstərən ölkələr***

| **QİK əmsalının azaldılmasında ən yaxşı performans göstərən ölkələr** | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **3 faizdən yüksək irəliləyiş** | | | | | | | | | | | |
| **5 faizdən yüksək irəliləyiş** | | | | | | | | | | | |
| **Ölkənin adı** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **Fərq (2010-2019)** |
| Əfqanıstan | 49,9 | 4,7 | 5,0 | 4,9 | 7,8 | 12,1 | 11,1 | 12,2 | 8,9 | * | 41,0 |
| Albaniya | 14,0 | 18,8 | 22,5 | 23,5 | 22,8 | 18,2 | 18,3 | 13,2 | 11,1 | 8,4 | 5,6 |
| Bolqarıstan | 11,9 | 15,0 | 16,6 | 16,9 | 16,7 | 14,6 | 13,2 | 10,4 | 7,8 | 6,6 | 5,3 |
| Bosniya və Hersoqoviniya | 11,4 | 11,8 | 13,5 | 15,1 | 14,2 | 13,7 | 11,8 | 10,0 | 8,8 | 7,4 | 4,0 |
| Əlcəzair | 18,3 | 14,4 | 11,7 | 10,6 | 9,9 | 9,8 | 12,1 | 13,0 | 12,7 | * | 5,6 |
| Estoniya | 5,4 | 4,0 | 2,6 | 1,5 | 1,4 | 1,0 | 0,9 | 0,7 | 0,5 | 0,4 | 5,0 |
| Gürcüstan | 5,9 | 4,5 | 3,7 | 3,0 | 3,0 | 2,7 | 3,4 | 2,8 | 2,7 | 1,9 | 4,0 |
| Qana | 18,1 | 14,1 | 13,2 | 12,0 | 11,3 | 14,7 | 17,3 | 21,6 | 18,2 | 13,9 | 4,1 |
| Qambiya | 14,5 | 12,1 | 12,0 | 19,1 | 7,2 | 6,5 | 9,3 | 7,3 | 3,2 | 4,5 | 10,0 |
| Xorvatiya | 11,1 | 12,3 | 13,8 | 15,4 | 16,7 | 16,3 | 13,6 | 11,2 | 9,7 | 7,0 | 4,1 |
| Macarıstan | 10,0 | 13,7 | 16,0 | 16,8 | 15,6 | 11,7 | 7,4 | 4,2 | 2,5 | 1,5 | 8,5 |
| İrlandiya | 13,0 | 16,1 | 25,0 | 25,7 | 20,6 | 14,9 | 13,6 | 11,5 | 5,7 | 3,4 | 9,7 |
| İtaliya | 10,0 | 11,7 | 13,7 | 16,5 | 18,0 | 18,1 | 17,1 | 14,4 | 8,4 | 6,7 | 3,3 |
| Qazaxıstan | 20,9 | 20,7 | 19,4 | 19,5 | 12,4 | 8,0 | 6,7 | 9,3 | 7,4 | 8,1 | 12,8 |
| Qırğızıstan | 14,8 | 9,4 | 6,6 | 5,1 | 4,2 | 6,7 | 8,5 | 7,4 | 7,3 | 7,7 | 7,0 |
| Küveyt | 9,0 | 7,0 | 5,2 | 3,6 | 2,9 | 2,4 | 2,2 | 1,9 | 1,6 | * | 7,3 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sent Lusia | * | * | * | * | * | 18,2 | 13,1 | 12,5 | 10,0 | 8,2 | 10,0 |
| Litva | 23,3 | 18,8 | 14,8 | 11,6 | 8,2 | 4,9 | 3,7 | 3,2 | 2,3 | 1,0 | 22,3 |
| Latviya | 15,9 | 14,1 | 8,7 | 6,4 | 4,6 | 4,6 | 6,3 | 5,5 | 5,3 | 5,0 | 10,9 |
| Moldova | 13,3 | 10,7 | 14,5 | 11,6 | 11,7 | 9,9 | 16,4 | 18,4 | 12,5 | 8,5 | 4,8 |
| Maldiv adaları | * | * | 20,9 | 17,6 | 17,5 | 14,1 | 10,6 | 10,5 | 8,9 | 9,4 | 11,5 |
| Şimali Makedoniya | 9,0 | 9,5 | 10,1 | 10,9 | 10,8 | 10,3 | 6,3 | 6,1 | 5,0 | 4,6 | 4,4 |
| Malta | 7,0 | 7,1 | 7,8 | 8,9 | 8,8 | 7,1 | 5,3 | 4,1 | 3,4 | 3,2 | 3,8 |
| Çernoqoriya | 21,0 | 15,3 | 17,3 | 20,6 | 18,8 | 14,8 | 11,5 | 8,4 | 7,4 | 5,1 | 15,9 |
| Nigeriya | 20,1 | 5,8 | 3,7 | 3,4 | 3,0 | 4,9 | 12,8 | 14,8 | 11,7 | 6,0 | 14,1 |
| Pakistan | 14,7 | 16,2 | 14,5 | 13,0 | 12,3 | 11,4 | 10,1 | 8,4 | 8,0 | 8,6 | 6,2 |
| Rumıniya | 11,9 | 14,3 | 18,2 | 21,9 | 13,9 | 13,5 | 9,6 | 6,4 | 5,0 | 4,1 | 7,8 |
| Sloveniya | 8,2 | 11,8 | 15,2 | 13,3 | 11,7 | 10,0 | 5,1 | 3,2 | 6,0 | 3,4 | 4,8 |
| ABŞ | 4,4 | 3,8 | 3,3 | 2,5 | 1,9 | 1,5 | 1,3 | 1,1 | 0,9 | 0,9 | 3,5 |
| Kosova | 5,8 | 5,7 | 7,4 | 8,5 | 8,3 | 6,2 | 4,9 | 3,1 | 2,5 | 1,9 | 3,9 |
| Zambiya | 14,8 | 10,4 | 8,1 | 7,0 | 6,1 | 7,3 | 9,7 | 12,0 | 11,0 | 8,9 | 5,9 |
| ** 2010 və 2019-cu illər üzrə əlçatan məlumat olmadığı üçün ən son açıqlanmış məlumatlardan istifadə edilmişdir.* | | | | | | | | | | | |

*Mənbə: Dünya Bankı*
*https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart*

Qeyd edək ki, Dünya Bankının rəsmi məlumatlarına əsasən MDB ölkələri arasında qeyri-işlək kredit əmsalı üzrə ən yüksək göstərici Azərbaycan və Moldovadadır. Qeyri-işlək kredit portfellərinin sağlamlaşdırılması istiqamətində regional konteksdə Sloveniya, Gürcüstan, Estoniya, Danimarka və Qazaxıstan son illərdə çox böyük nailiyyətlər əldə etmişdir ki, Azərbaycan da müvafiq istiqamətlər üzrə qeyd olunan ölkələri bençmark kimi nəzərə almaqla onların təcrübəsindən yararlana bilər. Aşağıdakı qrafikdən də göründüyü kimi, regional bençmark ölkələrindən Gürcüstan QİK əmsalının aşağı səviyyədə saxlanılması, Qazaxıstan isə azaldılması baxımından mühüm uğurlara nail olmuşdur.




***Qrafik 3. Region ölkələrində qeyri-işlək kredit əmsalı üzrə dinamika, 2012-2019-cu illər, faizlə***

*Mənbə: Dünya Bankı*
*https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart*

Adambaşına düşən ÜDM üzrə region ölkələrindən ən yüksək göstəricilər Rusiya (11,4 min ABŞ dolları), Qazaxıstan (9,8 min ABŞ dolları), Türkiyə (9,1 min ABŞ dolları) və Belorusiyaya (6,8 min ABŞ dolları) məxsusdur. ÜDM artımı üzrə ən yüksək göstəricilər isə Gürcüstan (5%), Qazaxıstan (4,5%), Ermənistan (7,6%), Özbəkistan (5,8%) və Qırğızıstana (4,6%) məxsusdur. Ən yüksək QİK göstəriciləri isə Ukrayna (48%,), Rusiya (9,3%), Qazaxıstan (8,1%), Azərbaycan (8,3%) və Moldovaya (8,5%) məxsusdur. [13] Beləliklə, statistik göstəricilər əsasında aparılan təhlillər iqtisadi inkişaf parametrləri və kredit ekosisteminin sağlamlığı arasında əlaqənin heç də birtərəfli olmadığını, burada çoxsaylı amillərin nəzərə alınmasının zəruriliyini göstərir. Belə ki, yüksək adambaşına düşən ÜDM göstəricilərinə malik olan ölkələrdə iqtisadi fəaliyyətin aktivliyi kredit ekspansiyası və nəticədə QİK əmsalının yüksək olmasına səbəb ola bilir. Çünki yeni müstəqillik əldə etmiş bu ölkələrin bəzilərində qanunvericilik və institusional baxımdan kredit risklərini mitiqasiya edən ekosistem qurulmamışdır. Digər tərəfdən isə spesifik amillər (resurs iqtisadiyyatına malik olması, siyası baxımdan gərginliyin uzun müddət davam etməsi və s.) nisbətən yüksək inkişaf göstəricilərinə malik olan bu ölkələrdə QİK əmsalının yüksək olmasına səbəb ola bilir. Zəif inkişaf etmiş ölkələrlə bağlı isə aydındır ki, kredit fəallığının aşağı olması və iqtisadi artım parametrləri arasında mütənasib əlaqə mövcuddur və qeyri-fəal kredit siyasəti kredit portfellərinin həcminin də kiçik olması və QİK əmsalının da aşağı olması ilə nəticələnə bilir.




***Qrafik 4. Region ölkələrində adambaşına düşən ÜDM, QİK əmsalı və ÜDM artımı göstəriciləri (2019-cu il)***

*Mənbə: Dünya Bankı*
*https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart*
*https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.CD*
*https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.KD.ZG*

**QİK-lərin azaldılmasına qlobal yanaşmaların təhlili**

Beynəlxalq qabaqcıl təcrübədə qeyri-işlək kreditlərin sağlamlaşdırılması istiqamətində həll yollarından biri borcların restruktrizasiyası hesab olunur ki, bu mexanizmlər vasitəsilə problemli kreditlərin sağlamlaşdırılması kredit təşkilatı və borcalan arasında məhkəmədənkənar qaydada həyata keçirilir. Bu baxımdan, London, Kiyev və İstanbul yanaşmaları tanınmış təcrübələrdən sayılır. Məlumat üçün qeyd edək ki, beynəlxalq təcrübədə borcların restruktrizasiyası üçün 2 əsas yanaşma mövcuddur:

➢ borcalanəsaslı alət. Bu mexanizmlərdə restrukturizasiyanın şərtləri birbaşa kredit təşkilatı və borcalan arasında məhkəmədənkənar qaydada razılaşdırılır. London yanaşması, Kiyev yanaşması və İstanbul yanaşması bu növ restrukturizasiya alətlərinə aiddir.

➢ bankəsaslı alət. Sekyuritizasiya və Aktivlərin idarəedilməsi şirkətinin (AİŞ) yaradılması bank fokuslu alətlər kimi çıxış edir:

➢ sekyuritizasiya - Banklar tərəfindən problemli kreditlərin sekyuritizasiya şirkətinə satılması, sekyuritizasiya şirkəti tərəfindən problemli aktivlərlə təmin edilmiş qiymətli kağızların emissiya edilməsi prosesidir və effektiv tətbiqi üçün inkişaf etmiş kapital bazarlarının olması zəruridir.

➢ aktivlərin idarəedilməsi şirkəti. Bu şirkətlər dövlət və ya dövlət-özəl hüquqi təşkilati forması kimi yaradılır. [14]

Qeyd edək ki, beynəlxalq təcrübədə tətbiq olunmuş restrukturizasiya modelləri əsasında "Bakı yanaşması" müəyyən edilmişdir və bu yanaşmada dövlət üçün əlavə xərc yaratmadan problemlərin bankların özləri tərəfindən idarəolunması nəzərdə tutulmuşdur. Bununla belə, "Bakı yanaşması"nın effektivliyinin artırılması məqsədilə onun əhatə dairəsinin genişləndirilməsi, problemli borcalanlara kompleks yanaşılması zəruridir. Mövcud yanaşmaya əsasən banklar balansında olan qeyri-işlək aktivlərin həlli ilə bağlı fərdi deyil, kollektiv maraqlar üzrə əməkdaşlıq edirlər. Borcların restrukturizasiyası ilə bağlı qərarlar isə yekdilliklə qəbul edilir. Lakin onu da qeyd edək ki, mövcud Bakı yanaşmasının tətbiqinə hələ başlanılmamışdır. [4]

**Yekun nəticə və təkliflər**

Ötən illərin statistik göstəriciləri Azərbaycan bank sektorunun qeyri-işlək kreditlərin azaldılması istiqamətində önəmli inkişaf yolu keçdiyini göstərir. Eyni zamanda bank sistemində əldə olunmuş mühüm nailiyyətlərə baxmayaraq, pandemiyanın yaratdığı yeni şəraiti, həmçinin, depozitlərin tərkibində tələbolunanadək depozitlərin yüksək xüsusi çəkisi, kredit resurslarının uzunmüddətli verilməsi ilə müqayisədə depozitlərin qısamüddətli əsaslarla cəlb olunmasına müvafiq olaraq, dərin və uzunmüddətli hədəflərə istiqamətlənmiş kompleks strateji tədbirlərin davam etdirilməsi məqsədəuyğun hesab olunur.

Qeyri-işlək kreditlərin yüksək həcmi bank sektorunda qeyri-məyyənliyin qalması və etimad mühitinin formalaşmasına da ən böyük maneələrdən hesab olunur. Qeyd olunan problemin həlli üçün ölkə banklarında yüksək kredit mədəniyyətinin formalaşdırılması, borcalanların borcalma intizamının artırılması, kreditorların hüquqlarının müdafiəsi üçün tədbirlərin gücləndirilməsi, biznes mühiti üzrə real dəstəkləyici mexanizmlərin işə salınması kimi islahatların dərinləşdirilməsinə, kredit resurslarının qiymətinin endirilməsi və digər tənzimləmə xarakterli tədbirlərin görülməsinə ehtiyac vardır. Digər tərəfdən, girovların qiymətləndirilməsi prosedurlarının bəzi hallarda şəffaf olmaması və düzgün qaydada aparılmamasını (məs., girovun dəyərinin məqsədyönlü şəkildə bir neçə dəfə şişirdilməsi), nəticədə isə

iri biznes kreditlərinin qaytarılmasının problemə çevrilməsinin qarşısının alınması məqsədilə qiymətləndirmə prosesləri üzrə tənzimlənmə prosedurlarına sərt tələblərin müəyyənləşdirilməsi təklif olunur. Bununla yanaşı, maliyyə bazarlarına nəzarət orqanının bank sektorunda riskəsaslı prudensial tənzimləmə metodlarından istifadə etməklə institusional gücü və əməliyyat müstəqilliyinin yüksəldilməsi, bank sektorunda şəffaflığın və korporativ idarəetmə səviyyəsinin artırılması üçün müvafiq strateji tədbirlərin realizasiyası da mühüm əhəmiyyətə malikdir.

Ölkə banklarının innovativ həllər, yeni texnologiyalar və yeni əməliyyat sistemlərindən istifadəyə dair maraqlarının stimullaşdırılması ilə bağlı tənzimləyici tədbirlərin müəyyənləşdirilməsi də təklif olunan məsələlərdəndir. Eyni zamanda real sektorun maliyyələşdirilməsi məqsədilə təşviqedici fəaliyyətlər vasitəsilə islahat tədbirlərinin davam etdirilməsi, yəni vergi güzəştləri, real sektora dövlət zəmanətləri ilə aşağı faizli kreditlərin verilməsi, real sektora kreditlərin verilməsi məqsədilə ayrıca fondun formalaşdırılması və s. kimi tədbirlər də realizasiya edilə bilər.

Beləliklə, mövcud vəziyyətin təsviri təhlili göstərir ki, makroiqtisadi şokların ölkəyə transmissiyası zamanı QİK kanalları üzrə gələcəkdə baş verə biləcək potensial risklərin azaldılması üçün müvafiq istiqamətlərdə fundamental inkişaf proqramlarının realizasiyasına ehtiyac vardır. Azərbaycanda bank sisteminin formalaşmış potensialı və ötən illərin təcrübəsi onu deməyə əsas verir ki, qarşıdakı illərdə bu sahədə daha da müsbət irəliləyişlərə nail olmaq imkanları çağırışlarla müşayiət olunsa belə, kifayət qədər genişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2019-cu il. Bakı. https://president.az/articles/32092.
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı, Pul-kredit statistikası, 2021-ci il. Bakı. https://www.cbar.az/page-42/monetary-indicators#page-2.
3. Azərbaycan Banklar Assosiasiyası. 2021. Bakı. https://aba.az/banklar/renkinql%c9%99r/
4. Azərbaycan Banklar Assosiasiyası. 2015-2019-cu illər ərzində görülmüş işlərə dair hesabat. 2020. https://aba.az/wp-content/uploads/2020/07/5-illik-hesabat_doc.pdf.
5. Borodo. Determinants of Bank Liquidity: Empirical Evidence from Listed Commercial Banks with SBP, page 48. 2001. https://core.ac.uk/download/pdf/234647758.pdf.
6. Dash və Kabra, 2010. International Journal of Economics and Financial Issues Vol. 3, No. 4, 2013, pp.852-860 Micro and Macro Determinants of Non-performing Loans. https://www.researchgate.net/publication/286345094_Micro_and_Macro_Determinants_of_Non-performing_Loans.
7. European Central Bank. Empirical Determinants of Non-Performing Loans. Financial Stability Review. 2011. https://www.ecb.europa.eu/pub/pdf/fsr/art/ecb.fsrart201112_02.en.pdf?3d6aa38c440c52c52488cf0581fd3842.
8. Farooq Ahmad, Nasir Rasool. Determinants of Bank Liquidity: Empirical Evidence from Listed Commercial Banks with SBP. Journal of Economics and

Sustainable Development. ISSN 2222-1700 (Paper) ISSN 2222-2855 (Online). Vol.8, No.1, 2017. https://core.ac.uk/download/pdf/234647758.pdf.

9. Keeton and Morris et al. Does Banking Management Affect Credit Risk? 1987. https://pdfs.semanticscholar.org/6f22/6690fcf36c0a5acfe3b252c433978b49b8cb.pdf

10. Klein, 2003. Focus on European Economic Integration, Focus on European Economic Integration page 57. https://www.oenb.at/en/Publications/Economics/Focus-on-European-Economic-Integration.html.

11. William R.Keeton və Charles Morris 1987 . Determinants of Non-Performing Loans: The Case of Eurozone page 194-195. http://panoeconomicus.org/index.php/jorunal/article/view/72/67.

12. World Bank statistics, Development Indicators. 2021. https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart

13. World Bank statistics 2, Development Indicators. 2021.
https://data.worldbank.org/indicator/FB.AST.NPER.ZS?view=chart
https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.CD
https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.KD.ZG.

14. World Bank. Importance of Legal aspects of NPL Resolution. 2018. https://pubdocs.worldbank.org/en/538621527523049630/NPL-Conference-Day2-1-Andres-Martinez.pdf.

15. Hausmann et al, 2001. Determinants of non–performing loans. https://www.inderscienceonline.com/doi/abs/10.1504/IJCEE.2015.066207 https://poseidon01.ssrn.com/delivery.php?ID=673064096005020118026017111102024100001024071012061053073118024088121001070114096091011099101107042108110072125030064104086098031034078007004001096002019107109120059039091021127004103106006115101065110003018096075008021103094115097126077099115004067&EXT=pdf&INDEX=TRUE.

## *АНАЛИЗ ПРОБЛЕМАТИКИ НЕРАБОТАЮЩИХ КРЕДИТОВ В БАНКОВСКОМ СЕКТОРЕ АЗЕРБАЙДЖАНА*

*Афган ИМАНЗАДЕ,*
*Аяз МУСЕЙИБОВ*

### *Резюме*

*Две последовательные девальвации в 2015 году создали серьезные проблемы в банковском секторе страны. На фоне почти трехкратного увеличения неработающих кредитов в банковском секторе были реализованы программы стратегического развития. В результате этого в 2020 году в секторе произошло снижение неработающих кредитов до 6,1%. Основная цель данного исследования, наряду с тенденциями развития, анализ текущей ситуации и рисков, с которыми сталкивается банковский сектор на примере неработающих кредитов, изучение потенциальных возможностей развития. В данной статье проводится анализ текущей ситуации с неработающими кредитами в банковском секторе Азербайджана, исследуются перспективы*

*дальнейшего развития, вносятся соответствующие предложения по усилению стабильности в банковском секторе.*

***Ключевые слова**: банковский сектор, неработающие кредиты, коэффициент НК, экономическое развитие, глобальные тенденции, систематические риски.*

## *ANALYSIS OF NON-PERFORMING LOAN PROBLEMS IN THE BANKING SECTOR OF AZERBAIJAN*

*Afghan IMANZADEH,*
*Ayaz MUSEYIBOV*

***Abstract***

*Two consecutive devaluations in 2015 created serious challenges for the banking sector of Azerbaijan. Against the background of nearly threefold increase in non-performing loans strategic development programs were implemented in the banking sector. As a result, non-performing loans in the sector decreased to 6.1% in 2020. The main purpose of this study is to analyze the risks in terms of non performing loans faced by the banking sector, along with development trends, and to study potential development opportunities. This article analyzes the current situation in the banking sector of Azerbaijan regards to non-performing loans, examines the prospects for future development and makes relevant proposals to strengthen stability in the banking sector.*

***Key words:** Banking sector, non-performing loans, NPV ratio, economic development, global trends, systemic risks.*

UOT 334.012

# *KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MÜFLİSLƏŞMƏ PROBLEMLƏRİ*

*Ülkər Şahvələd qızı SALIFOVA,*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, şöbə müdiri v.i.e,*
*salifovaulker@gmail.com*

**Xülasə**

*Məqalədə ölkəmizdə və dünyada kiçik və orta sahibkarlığın müflisləşmə probleminə ümumi yanaşma nəzərdən keçirilmiş, Azərbaycanda mövcud vəziyyət öyrənilmişdir. Beynəlxalq təcrübə (Rusiya) əsasında kiçik və orta sahibkarlığın üstünlükləri və çatışmazlıqları, müflisləşmə problemləri və müflisləşmənin səbəbləri müəyyən edilmiş, KOS-ların müflisləşmə riskini azaltmağın həlli yolları araşdırılmışdır. Bundan başqa KOS subyektlərinin müflisləşmə məsələlərinə maliyyə və hüquqi cəhətdən yanaşmalar müəyyən edilmişdir.*

***Açar sözlər:*** *kiçik və orta sahibkarlıq, iflas, müflisləşmə, COVİD-19*

## Giriş

Kiçik və orta sahibkarlar müasir iqtisadi sistemlərin əsas hərəkətverici subyektləridir. Belə ki, KOS-lar yeni iş yerlərinin yaradılmasında, işsizliyin azaldılmasında əhəmiyyətli rola malikdir. Eyni zamanda, bu subyektlərin sayının artması istehsal həcmini də artırmaqla ÜDM-in artımına müsbət təsir edir.

Azərbaycanda KOS-lar dedikdə, işçilərinin sayı 25-ə qədər olan müəssisələr kiçik, işçilərinin sayı 25 və 125 aralığında olan müəssisələr isə orta sahibkarlıq subyektləri hesab edilir. Kiçik və orta sahibkarlığın (KOS) standart bir beynəlxalq tərifi mövcud deyil. Hər bir ölkə, müəssisənin "kiçik" və "orta" ölçüsünün daxili iqtisadiyyatın ölçüsünə nisbi olduğunu nəzərə alaraq, öz qanunvericiliyinə əsasən KOS-lara tərif verir. Ölkəmizdə də AR Nazirlər Kabinetinin 29 iyun 2016-cı il tarixli qərarı ilə KOS-ların təsnifatı aşağıdakı kimi müəyyən edilmişdir:

- kiçik müəssisə: işçilərin orta sayı iyirmi beşə qədər;
- orta müəssisə: işçilərin orta sayı iyirmi beş ilə yüz iyirmi beş arasında;
- böyük müəssisə: işçilərin orta sayı yüz iyirmi beşdən yuxarı.

Ölkə üzrə qiymətləndirmələr məqsədilə kiçik sahibkarlıq subyektlərinin statistikasına müraciət edərək KOS-lar üzrə regional fərqlənməni müəyyən edək.




***Şəkil. KOS subyektlərinin regionlar üzrə paylanması***

2018-ci ildə ölkə üzrə 244883 vahid KOS subyektinin 111204 vahidi Bakı şəhərində, 35735 vahidi Aran, 25981 vahidi Gəncə-Qazax, 19338 vahidi Abşeron, 12405 vahidi Lənkəran, 12600 vahidi Şəki-Zaqatala, 10080 vahidi Quba-Xaçmaz, 5927 vahidi Dağlıq Şirvan, 3609 vahidi Yuxarı-Qarabağ iqtisadi rayonlarında və 7893 vahidi isə Naxçıvan MR-də yerləşmişdir.

Regional paylanmanı nəzərdən keçirdikdə məlum olur ki, Bakı şəhəri, Aran, Gəncə-Qazax və Abşeron iqtisadi rayonları fərqlənir. Bu isə həmin regionlar üzrə kiçik və orta sahibkarlığın inkişafında yaranan problemlərin üstün olması ehtimalını göstərir.

Müflisləşmə KOS-lar üçün iflasdan əvvəlki mərhələdir. Bu mərhələ artıq sahibkarın yetərli maliyyə vəsaitinin olmamasını ifadə edir. Məsələyə aydınlıq gətirmək üçün “iflas” və “müflisləşmə” anlayışlarının fərqinə diqqət yetirək. Aydındır ki, bazar iqtisadiyyatı şəraitində iqtisadi böhran kimi obyektiv səbəblərdən, həmçinin sahibkarlıq fəaliyyəti riskindən irəli gələrək sahibkarın və ya onun kontragentlərinin müflis olması təbii, daxili bazar sisteminə xas olan bir xüsusiyyətdir. "Müflisləşmə" sözünün mənasını öhdəliklərin ödənilməsi üçün pulun olmaması kimi müəyyən etsək, bunu ödəmə qabiliyyətsizliyi, yəni ödəməyin mümkün olmaması anlayışı ilə əlaqələndirmək olar. İngilis dilli ölkələrdə “ödəmə qabiliyyətsizliyi” və “müflisləşmə” anlayışları bir sözlə - “insolvency” ilə ifadə olunur. İflas borclunun vəsaitin olmaması səbəbindən borcunu ödəməkdən imtina etməsi kimi də şərh edilir. Beləliklə, müflislik və ya ödəmə qabiliyyətsizliyi iflasın zəruri şərtidir. Lakin, ödəmə qabiliyyətsizliyi borclunun avtomatik olaraq heç bir hüquqi nəticəyə səbəb ola bilmədiyi iqtisadi hadisədir. Daha çox, o, biznesin səmərəliliyinin kifayət qədər inkişaf etmədiyini göstərən bir siqnaldır [10, 13].

İflas problemini iqtisadi baxımdan nəzərdən keçirən zaman, hər hansı müəssisənin borc öhdəliklərini ödəyə bilməməsinə səbəb olan problemlərin təhlilinə əsaslanmalıyıq. Bu zaman müvəqqəti və davamlı, nisbi və mütləq ödəmə qabiliyyətsizliyini ayırmaq məqsədəuyğun görünür.

Müvəqqəti ödəmə qabiliyyətsizliyi, yəni borclunun müəyyən müddətdə öhdəlikləri yerinə yetirə bilməməsi, müəssisənin fəaliyyəti və onun aktivlərinin iflas etməsinə əsas ola bilməz.

Uzun müddət davam edən davamlı ödəmə qabiliyyətsizliyi biznesin aparılmasında xroniki problemləri, borcların adi yollarla həll edilməsinin mümkün olmadığını göstərir. Bu halda müəssisənin iflas imkanları real olur.

Nisbi müflisləşmədə isə borclunun əmlakının dəyəri onun öhdəliklərinin məbləğindən çox olur, mütləq halda isə vəziyyət əksinə olur. Mütləq ödəmə qabiliyyətsizliyi həddindən artıq borc kimi də bilinir.

Müasir şəraitdə, borclunun mühasibat balansında əks olunan əmlakın bazar dəyərinə uyğun gəlməyən (xeyli yüksək və ya xeyli aşağı ola bilər) süni qiymətə malik olduğu halda, belə görünür ki, ödəmə qabiliyyətsizliyi müəssisənin müflisliyinin yeganə meyarı ola bilməz. Bunu son illərdəki Enron Corp. (aktiv dəyəri 65,5 milyard dollar), WorldCom, Inc. (103.9 milyard dollar) kimi şirkətlərin mülkləri və maliyyə nəticələri ilə bağlı və s. həddən artıq şişirdilmiş iflaslar, Arthur Andersen auditor firmasının haqsız davranışı da bunu bir daha təsdiqləyir. Belə bir vəziyyət xüsusilə, əksər ölkələrdə və bir neçə iri şəhərlərdə yerləşən, əmlakın balans dəyəri icbari yenidən qiymətləndirmədən sonra, bir qayda olaraq, indeks üsulu ilə həyata keçirilən müəssisələrə münasibətdə müşahidə olunur. Borclunun əmlakının dəyərinin adekvat ilkin qiymətləndirilməsinin mümkünsüzlüyü iflasın tanınması üçün əsas meyar kimi

mütləq müflisliyinin və ya ödəmə əlamətinin tətbiq oluna bilməməsini şərtləndirir [12, 13].

Qeyd olunanlara əsaslanaraq, deyə bilərik ki, iflas - məhkəmə tərəfindən tanınan, borclunun xüsusi hüquqi və iqtisadi statusunun müəyyənləşdirilməsinə, borcların restrukturizasiyası, maliyyə sağlamlaşdırılması və ya onun müəssisəsinin ləğvinə dair tədbirlərin keçirilməsinə səbəb olan iqtisadi müflisləşmədir.

Bu zaman, borclunun - sahibkarlıq fəaliyyəti subyektinin hüquqi və iqtisadi statusunun xüsusiyyətləri aşağıdakılardan ibarət ola bilir:

- biznesin idarə edilməsi və müəssisənin əmlakının idarə edilməsi üçün mülkiyyətçilərin və ya borclunun idarəetmə orqanlarının hüquqlarının məhdudlaşdırılması (lakin mütləq kənarlaşdırılmaması);
- borclunun müəssisəsini idarəetmə funksiyalarının xüsusi şəxsə – məhkəmənin, kreditorların, işçilərin və müəssisənin mülkiyyətçilərinin nəzarəti altında işləyən xarici idarəediciyə verilməsi imkanları;
- iflas prosedurlarından başqa borcluya qarşı əmlak tələblərinin irəli sürülməsinin mümkünsüzlüyü;
- icrasının təxirə salınması və borclunun öhdəliklərinin məbləğinin azaldılması.

Hər hansı bir ölkədə iqtisadi inkişafın və böyümənin KOS-lardan fərqli dərəcələrdə asılı olduğu məlumdur. Bütün dünyada olduğu kimi, 2014–2015-ci illərdə baş verən valyuta böhranı Azərbaycanda da bir çox KOS-ların fəaliyyətinə öz təsirini göstərdi. Son bir neçə ildə bir çox kiçik və orta sahibkarlıq müəssisələri iflas etdi və fəaliyyətlərini dayandırmaq məcburiyyətində qaldı.

2015-ci ildə ölkəmizdə manatın devalvasiyasından sonra Azərbaycanda KOS-ların inkişafında yeni addımlar atılmağa başladı. Bu ilk əvvəl özünü dövlətin qəbul etdiyi siyasət sənədlərində və sahəvi proqramlarda göstərmiş oldu. "Kiçik və orta sahibkarlıqda idarəetmənin təkmilləşdirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli 1771 nömrəli Fərmanı qəbul edildi və ölkədə mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən, mikro, kiçik və orta sahibkarlığın tənzimlənməsində, bu sahibkarlıq subyektlərinin maraqlarının qorunmasında və problemlərinin həllində iştirak edən, onlara bir sıra xidmətlər göstərən, dövlət qurumlarının və özəl qurumların bu sahədə xidmətlərini əlaqələndirən və səlahiyyətli qurum Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradıldı [2]. Ümumilikdə, ölkəmizdə müəssisələrin iflas prosesləri "Müflisləşmə və iflas" haqqında AR Qanunu və AR Mülki Məcəlləsi ilə tənzimlənir [4, 5].

Müflisləşən müəssisələrin sayının rəsmi statistikası olmadığı üçün KOS-ların rastlaşdığı problemlərin nəzəri təhlilinə üstünlük vermişik. Kiçik biznes - dövlət iqtisadiyyatının əsasıdır, lakin bu sahədə bir çox problemlər mövcuddur ki, bu problemlər üzündən vətəndaşlar fərdi sahibkarlıqla daha az məşğul olmaq istəyirlər. Kiçik biznesin problemləri müxtəlif hadisə və faktorlarla yarana bilər.

Kiçik biznesin problemləri bu amillərlə bağlı ola bilər: 1) vətəndaşların mentaliteti; 2) sahibkarlıq mədəniyyətinin olmaması; 3) iqtisadiyyatda qeyri-sabitlik; 4) kreditlə təminatın olmaması və s.

Sahibkarın öz işini açmaq yolunda qarşılaşa biləcəyi problemlərin bütün spektrini bir neçə qrupa bölmək olar: 1) kredit problemləri; 2) maliyyələşdirmə; 3) biznesin təşkili; 4) maddi-texniki təminat problemləri və s.

Ölkəmizdə KOS subyektlərinin əsas maliyyələşmə mənbələri Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri və kommersiya banklarının

kreditlərindən istifadə etməklə biznesə verilən kreditlər hesabınadır. Hazırda ölkədə iqtisadiyyatın inkişafının qarşısını alan ən təsirli amilin kredit faiz dərəcəsinin yüksək olduğu bildirilir. Problemli kreditlərin yüksək olması və ümumi olaraq kreditlərin qaytarılma riskinin yüksək olmasıdır. Ölkəmizdə hazırda kredit portfelinin 8-10%-i problemli kreditlərdir ki, bu da kredit portfelinə cəlb edilən resursların dəyərini qaldırır.

İqtisadiyyatın real sektorunu inkişaf etdirmək üçün bu sektora investisiya – ucuz pul vəsaiti yatırmaq lazımdır. Məhz buna görə də dövlət tərəfindən həm SİF, həm də Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən aşağı faizlə biznes kreditləri verilir. "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"na əsasən SİF-in kreditlərinin illik faiz dərəcəsi 1 faiz, müvəkkil kredit təşkilatlarının tətbiq etdikləri illik faiz dərəcəsi isə 4 faizdən artıq olmamaq şərti ilə, ümumilikdə güzəştli kreditlərin illik faiz dərəcəsi 5 faizədək müəyyən edilir. Yuxarıda qeyd edildiyi kimi, banklar depozitlər cəlb etdiyi halda kreditlərin maya dəyəri artır, lakin SİF tərəfindən verilən vəsaitlər zamanı banklar vasitəçilik funksiyasını yerinə yetirdiyi və bu vəsaitlər bankın öz vəsaiti olmadığı üçün banklar üçün bu vəsaitlərin maya dəyəri ucuz olur. Düzdür, bu kreditlərin verilməsi zamanı bank qiymətləndirmə aparır, kreditin geri qaytarılma riskini müəyyən edir, nəticədə bank resurs sərf edir, həmçinin verilmiş kreditin qaytarılmaması riski mövcuddur. Mərkəzi Bank tərəfindən verilən məlumata görə 01.05.2020-ci il tarixinə problemli biznes kreditlərinin həcmi 1232 mln. manat təşkil edir. Bu göstərici ümumi bankların kredit portfelinin 8.4%-ni təşkil edir. İnstitusional mühit inkişaf etmədiyi üçün kreditin geri qaytarılma ehtimalı da aşağı düşür. SİF tərəfindən verilən məlumatlara görə 01.06.2020-ci il tarixinə fondun kredit portfeli 1 mlrd. manat, problemli kreditlərin həcmi isə 236 mln manatdır ki, bu da kredit portfelinin 24%-ni təşkil edir. Göründüyü kimi, biznes kreditləri üzrə problemlər daha ciddidir və nəzərə alsaq ki, bu kreditlərin geri qaytarılması üçün kredit təşkilatları məsuliyyət daşıyır, bu hal kredit təşkilatlarının biznes krediti üzrə maya dəyərini artırır. Əslində nəzəri olaraq, kreditin faiz dərəcəsi nə qədər aşağı olarsa, problemli kreditlərin çəkisi də o qədər aşağı olmalı idi. Lakin bu halda görünür iqtisadiyyatda risk yüksək olduğundan kreditlərin qaytarılma riski də yüksək olur [7].

Bundan başqa bildiyimiz kimi, koronavirus pandemiyasının yayılması dünya iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir etməkdədir. Bu ilk növbədə KOS-ların fəaliyyətinə ciddi mənfi təsirini göstərməkdədir.

Pandemiyanın iqtisadi təsirlərini azaltmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı təsdiq edilmişdir. Sərəncamla pandemiyanın neqativ təsirlərini azaltmaq istiqamətində 10 proqram qəbul olunmuşdur. Ümumilikdə, sözügedən dəstək alətlərinə 2,5 milyard manat və ya ÜDM-in 3,1%-i məbləğində vəsait ayrılmışdır. Qəbul olunmuş 10 proqramdan 6-sı pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək tədbirlərini nəzərdə tutmuşdur [6].

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 80 milyon manat vəsait nəzərdə tutulmuş, son məlumatlara görə müraciət edən 108.2 min vergi ödəyicisindən 100.7 min nəfərin müraciəti araşdırılaraq təsdiqlənmiş, artıq 55,95 milyon manat vəsaitin 95.271 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin edilmişdir [6].

Qeyd edilənlərlə yanaşı, iqtisadi fəallığın qorunması, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması məqsədilə pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlara vergi güzəştləri və tətilləri də nəzərdə tutulmuş va artıq bu istiqamətdə nəzərdə tutulan vergi güzəştlərinin bütün detalları ictimaiyyətə açıqlanmışdır. Belə ki, COVİD-19 pandemiyasının təsirinə məruz qalan fəaliyyət sahələrinin əmlak və torpaq vergisindən azad olunması ilə yanaşı, həmin sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə seçdikləri vergitutuma metodundan asılı olaraq, 2020-ci il 1 yanvar tarixindən etibarən bir il müddətinə bir sıra vergi güzəştlərinin verilməsi nəzərdə tutulur. Mənfəət (gəlir) vergisi rejimində fəaliyyət göstərən ödəyicilər üzrə əldə edilən mənfəətin 75% miqdarında vergi güzəştlərinin verilməsi, sadələşdirilmiş vergi ödəyicisi olan sahələrdə fəaliyyət göstərən vergi ödəyiciləri isə həmin vergi məbləği üzrə 50% güzəşt əldə edirlər. Həmçinin, idxal sahəsində vergi güzəştləri, sahibkarlıq subyektlərinin sosial sığorta yükünün azaldılması istiqamətində məcburi dövlət sosial sığorta haqqı dərəcələrinin endirilməsi və s. nəzərdə tutulur ki, bütövlükdə görülən bütün tədbirlər işgüzar fəallığın qorunmasına və artırılmasına xidmət edir.

Dünya praktikasında göstərildiyi kimi, iflas istənilən müasir bazarın qaçılmaz bir fenomenidir. Üstəlik iflas kapitalın yenidən bölüşdürülməsi üçün bazar aləti kimi qəbul edilir və iqtisadiyyatın strukturunun yenidən qurulmasının obyektiv yanaşmasını əks etdirir. Təkrar istehsalın bütün mərhələləri bu risklərin mənbəyidir - xammal, material və komponentlərin alqı-satqısından başlayaraq hazır məhsulların istehsalına və satışına qədər. Mənfəət və risk arasındakı bu əlaqə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin mahiyyətini başa düşmək, həyatlarının effektiv metodlarını inkişaf etdirmək üçün çox vacibdir.

İflas müddətinin qarşısının alınması və iflasın qarşısını almaq üçün təcili tədbirlərin qəbulu və şirkətin missiyası seçildiyi andan bəri nəzərdə tutulan fəaliyyətin konsepsiyası və məqsədləri hazırlanır və şirkətin xarici bazarlarda strateji potensialının formalaşdırılması və saxlanılması, şirkətin rəqabət üstünlüyünü uzun müddət təmin etmək qabiliyyəti təmin olunur.

Müflisləşməni tez-tez "iqtisadi sistemin dayanıqsızlığı" anlayışı ilə əlaqələndirirlər. Əksər hallarda müəssisənin müflisləşməsinə səbəb ola biləcək ödəniş qabiliyyətinin olmamasına makro səviyyədə böhran hallarının olması səbəb olur ki, bu da qiymətlərin aşağı düşməsi, istehsalın ümumi azalması, maliyyə resurslarının bahalaşması ilə müşayiət olunur.

Lakin ayrı-ayrı müəssisələrin müflisləşməsi iqtisadiyyatda böhran və ya ümumi tənəzzül olmadığı halda da yarana bilər. İqtisadi artım dövründə əlverişli xarici şərait, adətən, istehsal olunan məhsulların həcminin artmasına, istehsalın ekstensiv genişlənməsinə gətirib çıxarır ki, bu da mal və xidmət bazarlarında rəqabətin artmasına səbəb olur. Belə bir vəziyyətdə bir çox müəssisələr səmərəsiz idarəetmə strategiyası səbəbindən rəqabətqabiliyyətli olmur.

Müflisləşmə bazarın səmərəsiz müəssisələrdən təmizlənməsinə kömək edir və ümumilikdə iqtisadiyyatın inkişafını təmin edən potensial daha effektiv müəssisələr üçün boşluqları azad edtiyi üçün vacibdir. Bazar münasibətləri sistemi tam və düzgün informasiyanın olmaması ilə səciyyələnir ki, bu da idarəetmə qərarlarının qəbul edilməsində çətinliklər yaradır.

Müəssisələrin iflasının səbəbləri arasında müqavilələrin tərkibini qeyd etmək lazımdır. Qiymətlərin təyin edilməsi hesabına müqavilələrin bağlanması qeyri-müəyyənlik və məsrəflərin səviyyəsini azaldır, lakin müqavilə münasibətləri təsərrüfat

subyektlərinin qarşılıqlı asılılığını artırır, müqavilə münasibətlərinin iştirakçılarından birinin ödəmə qabiliyyəti və zərərləri onların öhdəliklərinin yerinə yetirilməməsinə gətirib çıxarır və onun kontragentlərinin maliyyə vəziyyətinin pisləşməsinə səbəb olur.

Beynəlxalq təcrübəyə əsaslanmaqla deyə bilərik ki, müəssisələrin bir neçə iflas etmə növləri vardır. Maliyyə və qanunvericilik təcrübəsində aşağıdakı növlərə ayırmaq olar:

1. qarşıdakı dövrdə istifadə olunan kapitalın real itkiləri nəticəsində müəssisənin maliyyə dayanıqlılığını və ödəmə qabiliyyətini bərpa edə bilməməsi ilə səciyyələnən real müflisləşmə;
2. ödəniş qabiliyyətinin olmaması debitor borcunun əhəmiyyətli dərəcədə gecikdirilməsinə səbəb olan texniki müflisləşmə;
3. əmlakı ədalətsiz ələ keçirmə vasitəsi olan cinayət iflası;
4. müflisləşmənin bu növünə qəsdən müflisləşmə, müflisləşmə və müflisləşmə zamanı qanunsuz hərəkətlər daxildir.

İflas səbəblərinin təsnifatı zamanı müəyyən edilə bilən kateqoriyalara nəzər salaq.

1. Müəssisənin idarə olunmasının səmərəsizliyi, resurslardan istifadə, marketinq strategiyası ilə bağlı biznesin müflisləşməsi.
2. Normal əmək ehtiyatları, əsas fondlar, marketinq siyasəti və buraxılan məhsula tələbat olduqda, geniş və ya sadə təkrar istehsal üçün zəruri olan investisiya resurslarının mülkiyyətçisində çatışmazlıqdan irəli gələn mülkiyyətçinin müflisləşməsi.
3. İstehsalın iflas edilməsi, ilk iki faktorun təsiri altında və ya köhnəlmiş avadanlıqdan asılı olaraq, yüksək rəqabət ucbatından müəssisə rəqabətqabiliyyətli məhsullar istehsal edir və istehsalı qismən və ya tamamilə yenidən qurmadan vəziyyəti düzəltmək mümkün deyil.
4. "Ədalətsiz menecment" ilə şərtlənən müflisləşmə. Rəhbərliyin öz öhdəliklərini yerinə yetirməkdən boyun qaçırması ilə bağlı hərəkətləri bu qəbildəndir.

Müəssisənin müflisləşməsinin səbəbləri iflas riskinin yaranması ilə nəticələnən hadisə və ya hadisələrdir. Onlar müəssisənin müflisləşməsinə gətirib çıxara biləcək böhranın başlanğıcına və gələcək inkişafına birbaşa təsir göstərir və vaxt çərçivəsinə malikdirlər [12].

***Cədvəl. Kiçik müəssisələrin iflasında risk faktorları***

| *Faktor qrupu* | *Seriya nömrəsi* | *Adlandırma* | *Şərh* |
|---|---|---|---|
| *Biznes faktorları* | 1 | İş dövrü | İş həyatı - şirkətin qeydiyyatdan keçməsindən 2017-ci ilə qədər olan dövrlərdir |
| | 2 | Leqallaşdırma | Bazar mövqeyi, kredit tarixi, iş keyfiyyəti, işin leqallaşma dərəcəsi |
| | 3 | İdarəetmə keyfiyyəti | Səriştə, təhsil səviyyəsi, liderlik birliyi və effektivlik |
| | 4 | Bazar bölgüsü | Bazar payı - şirkətin bazardakı payı |
| | 5 | Təchizatçıdan asılılıq | Təchizatçılardan asılılıq - ən böyük tədarükçünün mövcudluğu (> 30%) |
| | 6 | Müştəridən asılıq | Müştəri asılılığı - ən böyük alıcının olması (> 30%) |

| | | | |
|---|---|---|---|
| *Maliyyə riski göstəriciləri* | 7 | Cəmi aktivlər | DB - uzun və qısamüddətli borc vəsaitləri + təxirə salınmış gəlir |
| | 8 | Mövcud sıxlıq | Cari aktivlər / Qısamüddətli borclar |
| | 9 | Maliyyə avtonomiyası | Kapital / Cəmi Öhdəliklər (DB) |
| | 10 | Borcla əlaqəli kapital | Kapital / Cəmi Borclar |
| | 11 | Satış mənfəəti | Satışdan qazanc / Satışdan gələn gəlirlər |
| | 12 | Fəaliyyət gəlirliliyi | Son hesabat rübü üçün xalis mənfəət / son hesabat rübü üçün mal, məhsul, iş, xidmət satışından əldə olunan gəlir |
| | 13 | Nağd pul kütləsi | Cari tarixə olan kredit öhdəliklərinin məbləği / orta aylıq gəlir |
| | 14 | Faiz pul kütləsi | Son hesabat rübü üzrə satışlardan rüblük mənfəət / son hesabat rübü üçün ödənilmiş kreditlər və borclar üzrə faiz məbləği |
| *Müəssisənin aktivləri* | 15 | Əsas vəsaitlər | Uzunmüddətli aktivlər - satılması çətin olan aktivlər (A4) |
| | 16 | Səhmlər | Səhmlər - yavaş hərəkət edən aktivlər |
| | 17 | Debitor borcları | Debitor borcları - sürətli həyata keçirilə bilən aktivlər (A2) |
| | 18 | Qısamüddətli investisiyalar | Qısamüddətli maliyyə investisiyaları - ən likvid aktivlər (A1) |
| | 19 | Nağd pul | Nağd pul - ən likvid aktivlər (A1) |
| *Müəssisənin passivləri* | 20 | Kapital | Kapital - daimi öhdəliklər (P4) |
| | 21 | Uzun müddətli borclar | Uzunmüddətli kreditlər və borclar - uzunmüddətli borclar (P3) |
| | 22 | Qısa müddətli borclar | Qısamüddətli kreditlər və borclar - qısamüddətli borclar (P2) |
| | 23 | Borclar | Ödənilməli hesablar - ən təcili öhdəliklər (P1) |

Aparılan təhlillərə əsaslanaraq deyə bilərik ki, cəmiyyətin bütün təbəqələrini əhatə edən KOS-lar bir sıra problemlərlə üzləşə bilər. Bu problemlər təşkilatın öz təşkilati quruluşundan irəli gələn problemlər, həmçinin təşkilat xaricində yaranan xarici problemlər də ola bilər. Hazırda KOS-ların böyük problemlərindən biri maliyyə imkanlarının yetərli olmamasıdır. Ölkə iqtisadiyyatındakı durğunluq, yüksək inflyasiya və böhran, sürprizləri proqnozlaşdıra bilməyən və hökumət tərəfindən lazımi məsləhətlər ala bilməyən kiçik və orta müəssisələrdə çox vaxt uğursuzluğa və aşağı fəaliyyətə səbəb ola bilir. Bəziləri bu problemlərin öhdəsindən gələ bilmir və iqtisadi mühitdən geri çəkilir, bəziləri isə mübarizə aparmağa davam edir. İqtisadi mühit, bilik çatışmazlığını və borcların əlçatmazlığı kiçik biznesin müflisləşməsinə səbəb olan amillər kimi göstərilir.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, Azərbaycanda kiçik və orta müəssisələrin müflisləşməsinə səbəb olan əsas problemləri aşağıdakı kimi qruplaşdıra bilərik.

***Təklif tərəfi*** – yüksək faiz dərəcələri, Kredit təşkilatları bölgənin maliyyələşdirilməsində maraqlı deyillər, Kredit şərtləri, İqtisadiyyatda yüksək risk, Xarici valyutada olan kreditlərə üstünlük verilir, İcarəyə marağın olmaması, İqtisadi qeyri-sabitlik (yəni valyuta devalvasiyası).

***Tələb tərəfi*** – sahibkarlıqda maliyyə savadlılığının aşağı olması, aşağı maliyyə şəffaflığı.

***İnstitusional aspektlər*** - bəzi institusional mexanizmlər düzgün işləmir.

***Tənzimləyici amillər*** - Azərbaycanda müflisləşmə problemləri 13 iyun 1997-ci ildə qəbul edilmiş " Müflisləşmə və iflas haqqında " qanunla tənzimlənir. Hazırda fiziki şəxsləri müflis elan etmək üçün heç bir hüquqi əsas yoxdur. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanunu sahibkarların maliyyə əldə etməsinə mane olmur, lakin mövcud problemləri həll etməkdə acizdir.

Bunlarla yanaşı həm də mədəni aspektlər və gender problemlərini bu sıraya daxil etmək olar. Dövlət dəstəyi almaq, kreditdən yararlanmaq, müvafiq məsləhət qurumlarından dəstək almaq və müqavilələr bağlamaq üçün müəssisələrin ölçüsü müəyyənləşdirilməlidir.

KOS-ların çatışmazlıqları aşağıdakılardır:

- mənfi rəqabət;
- ümumi idarəetmə çatışmazlığı;
- xüsusilə strateji qərarlar müəssisə sahibi və ya tərəfdaşlar tərəfindən qəbul edilir və orta və / və ya aşağı səviyyəli rəsmilərin tam iştirakı mümkün deyil;
- müəssisə daxilində maliyyə məsləhətçiləri və ya mütəxəssislərini işə götürə bilməmək;
- maliyyə mütəxəssisi qrupu və ya şöbəsinin olmaması;
- kapital çatışmazlığı;
- maliyyə planlama çatışmazlığı;
- bank və digər maliyyə qurumlarından kifayət qədər dəstək almamaq;
- kapital bazarından yetərincə yararlana bilməmək;
- məhsul inkişafı əskikliyi;
- istehsal və satış arasında koordinasiyanın olmaması;
- müasir marketinq fəaliyyətlərini nümayiş etdirə bilməmək;
- kiçik və ya orta sahibkarlığın nəticəsi olaraq tender və s. izləyə bilməmək;
- iş yerinin və ya yaşayış sahəsinin kiçikliyi;
- müstəqilliyi itirmək və batmaq riski;
- ixtisaslı kadrlarla təmin etmək mümkün olmur;
- qanunvericilik və bürokratiya.

## NƏTİCƏ

Kiçik və orta sahibkarlıq bütün dünyada olduğu kimi Azərbaycan iqtisadiyyatının da da dinamik və vacib ünsürlərindən olub, ölkəmizin sosial-iqtisadi inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, KOS-lar daha çox əl əməyi ilə işləyən, sürətli qərar qəbul etmək, aşağı inzibati xərclərlə işləmək və ucuz istehsal həyata keçirmək bacarığı olan iqtisadi müəssisələr kimi ifadə edilə bilərlər.

Biznesin iflasa uğraması nə qədər tez aşkarlanarsa, onun xilas olma şansı bir o qədər çox olar - bu profilaktik tədbirin əsasıdır. Müflisləşmənin qarşısının alınması təkcə müəssisələr və onların sahibləri nöqteyi-nəzərindən deyil, həm də iqtisadiyyatın iş yerlərini qoruyub saxlamaq və iqtisadi dəyərini qoruyub saxlamaq üçün həlledici əhəmiyyətə malikdir. Bundan əlavə, bu, ümumiyyətlə məhkəmə sisteminə və iqtisadiyyata inzibati yükü azaltmağa kömək edir.

Dövlət müdaxiləsi uğursuzluqdan qorxan və ya maliyyə çətinlikləri yaşayan sahibkarlara fəal yardım göstərilməsi üçün vacibdir. Beləliklə, diaqnostika alətləri və informasiya xidmətləri kimi təşəbbüslər iflasın qarşısının alınması üçün uğurlu dövlət

strategiyasının əsasını təşkil edir. Bu məqsədlə sahibkarlara çətinliklərin öhdəsindən gəlməyə kömək edən mexanizmlərin təkmilləşdirilməsinə ehtiyac duyulur. Bundan başqa kiçik biznesin bütün problemlərini həll etmək üçün *dövlət, istehlakçı və sahibkar* qruplarının maraqlarını birləşdirmək lazımdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi.
2. “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 28.12.17. tarixli 1771 nömrəli Fərmanı.
3. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu.
4. “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanunu.
5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi.
6. “Sahibkarlığa dəstək mexanimləri” barədə İnstitutun araşdırması.
7. “Bankların ucuz kreditləşməyə getmə məsələləri barədə” İnstitutun araşdırması.
8. http://nisse.ru/articles/details.php?ELEMENT_ID=129271#_Toc24380581.
9. Akgemci T. Kobilerin temel sorunları ve sağlanan destekler, http://www.kobider.org.tr/pdf/kobi_sorunlar_destekler.pdf.
10. Большакова О.Е., Максимов А.Г., Максимова Н.В. К вопросу о прогнозировании состоятельности и вероятности банкротства предприятий малого и среднего бизнеса, https://cyberleninka.ru/article/n/k-voprosu-o-prognozirovanii-sostoyatelnosti-i-veroyatnosti-bankrotstva-predpriyatiy-malogo-i-srednego-biznesa.
11. Понамарёва Е.С. Предупреждение банкротства предприятий в современных условиях, http://repo.ssau.ru/bitstream/Teoretikometodologicheskie-i-prakticheskie-problemy-integracii/PREDUPREZhDENIE-BANKROTSTVA-PREDPRIYaTII-V-SOVREMENNYH-USLOVIYaH-68803/1/44_211-216_%D0%9F%D0%BE%D0%BD%D0%B0%D0%BC%D0%B0%D1%80%D0%B5%CC%88%D0%B2%D0%B0.pdf.
12. https://kfpp.ru/analytics/material/foreignsupportexp.php.
13. Шпилькина Т.А. Оценка банкротства и новые возможности развития предприятий малого и среднего бизнеса в России.
14. Ариничев И.В, Богдашев И.В. Оценка риска банкротства субъектов малого предпринимательства на основе методов машинного обучения.
15. Dövlət Statistika Komitəsi, www.stat.gov.az.

## *ПРОБЛЕМЫ БАНКРОТСТВА МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА*

*Улькер САЛИФОВА*

**Резюме**

*В статье был рассмотрен общий подход к проблеме банкротства малого и среднего бизнеса в нашей стране и мире, изучена текущая ситуация в Азербайджане. На основе международного опыта были определены преимущества и недостатки малого и среднего бизнеса, проблемы несостоятельности и причины банкротства, а также изучены пути снижения риска банкротства МСП. Кроме того, определены финансово-правовые подходы к вопросам банкротства субъектов МСП.*

***Ключевые слова:*** *малый и средний бизнес, банкротство, несостоятельность, ВВП, COVİD-19*

## *PROBLEMS OF BANKRUPTCY OF SMALL AND MEDIUM ENTREPRENEURSHIP*

*Ulker SALİFOVA*

**Abstract**

*The article reviews the general approach to the problem of bankruptcy of small and medium-sized businesses in our country and in the world, and examines the current situation in Azerbaijan. On the basis of international experience the advantages and disadvantages of small and medium-sized enterprises, the problems of bankruptcy and the causes of insolvency were identified, solutions to reduce the risk of insolvency of SMES were investigated. In addition, financial and legal approaches to bankruptcy issues of SMES have been identified.*

***Key words:*** *small and medium business, bankruptcy, insolvency, GDP, COVİD-19*

*UOT 332.122*

# *KLASTERLƏRİN FORMALAŞMASINA DAİR BEYNƏLXALQ TƏCRÜBƏ*

*Nərminə Allahverdi qızı QULİYEVA,*
*İN İİETİ, Sənayenin inkişaf problemləri şöbəsinin müdiri v.i.e., dissertant,*
*narminacabbarova@gmail.com*

**_Xülasə_**

*Təqdim olunan məqalədə beynəlxalq təcrübədə mövcud olan klaster modelləri təhlil edilmişdir. Tədqiqatın vəzifəsinə uyğun olaraq klasterlərin baza, klassik, innovativ və konus modelləri araşdırılmışdır. Araşdırılan klaster modellərinin müvafiq olaraq əsas struktur elementləri fərqləndirilmişdir. Azərbaycanda klasterlərin yaradılması imkanlarının hüquqi aspektləri və gələcək perspektivləri araşdırılmışdır. Təhlil edilən klaster modelləri və əsas struktur elementləri klasterlərin yaradılmasında mövcud olan çətinlikləri aşkarlamağa imkan vermişdir.*

***Açar sözlər:*** *klaster modelləri, innovasiya siyasəti, iqtisadiyyat, perspektivlik*

## GİRİŞ

Klasterləşmə beynəlxalq rəqabətin, o cümlədən investisiya mənbələri və şəbəkələr arasında, qeyri-rəsmi əlaqələrin böyüməsini stimullaşdıran qloballaşma prosesindən qaynaqlanan obyektiv bir prosesdir. Klasterləşmə bütün dünyada yayılır, milli iqtisadiyyatlarda innovativ texnoloji proseslərin sürətlənməsinə töhfə verir.

Müasir dövrdə əksər ölkələr dünya iqtisadi sisteminə inteqrasiya edir və belə bir şəraitdə istehsalçı müəssisələr nəinki daxili bazarda, eləcə də beynəlxalq bazarlarda rəqabətqabiliyyətliliyi təmin etmək məcburiyyətindədirlər. İqtisadiyyatın qloballaşması prosesinin güclənməsi, elmi-texniki tərəqqinin sürətli inkişafı, bazarlar uğrunda mübarizənin kəskinləşməsi bütün səviyyələrdə rəqabətqabiliyyətliliyin əhəmiyyətini və rolunu xeyli artırır, onu bazar iqtisadiyyatının inkişafını təmin edən əsas amillərdən birinə çevirir.

Klasterin əsas xarakteristikası onun innovasiyasıdır. Buraya elmi biliklərin yaranmasından tutmuş biznes ideyalarının formalaşmasına qədər ənənəvi və bazarlarda satılan yeni məhsulların satışına qədər bütün innovasiya zənciri daxildir [6].

Azərbaycan üçün klaster yanaşması kifayət qədər yeni vasitədir. Lakin onun istifadəsi ölkənin innovativ inkişaf strategiyalarında əsas yerlərdən birini tutmağa başlayır. Dövlət səviyyəsində klasterin inkişafının stimullaşdırılmasını və dəstəklənməsini təmin etməyə imkan verən mexanizmlər formalaşır.

Azərbaycanda klaster təşəbbüsünün əsas məqsədi özəl biznes strukturlarının cəlb edilməsi və yerli müəssisələrin rəqabət qabiliyyətinin artırılması əsasında iqtisadiyyatın qeyri-xammal (resurs) sektorunun inkişafı məqsədilə ölkənin rəqabət üstünlüklərindən maksimum istifadə üçün zəruri şəraitin yaradılmasıdır.

Müasir dövrdə Azərbaycanın beynəlxalq rəqabətdən kənarda qalmaması üçün iqtisadi innovasiyanın inkişafına əsas yanaşmaları müəyyənləşdirmək xüsusilə vacibdir. Klaster regional inkişafının xarici təcrübəsi, klasterlərin inkişafına yanaşmalar Azərbaycan üçün məhz indi xüsusilə aktualdır.

## 1. DÜNYA TƏCRÜBƏSİNDƏ KLASTER MODELLƏRİNİN TƏHLİLİ

Ərazi inkişaf səviyyəsində öz effektivliyini göstərən klaster yanaşması alimlərin və siyasətçilərin diqqətini cəlb etmişdir.

Xarici tədqiqatçıların çoxu (D.Doloreux, R.Shearmur, R.Claudio, V.Riccardo,

K.Ketels, G.Lindqvist, Ö.Sölvell və s.) klasteri innovasiya məhsullarının istehsalı və yayılması zamanı müxtəlif iştirakçıların qarşılıqlı əlaqəsi kimi müəyyən edirlər. Onlar bu qarşılıqlı fəaliyyətin nəticələrinin rəqabətədavamlılığını xüsusi qeyd edirlər ki, bu da klasterdaxili proseslərin səmərəliliyini nəzərdə tutur. Onlar klasterin inkişafını klaster təşəbbüslərinin inkişafı ilə əlaqələndirirlər [1,2,5].

Rusiyalı tədqiqatçılar (T.V.Mirolyubova, T.Y.Kovaleva, İ.N.Korabeynikov, S.M.Speşilov, O.V.Dmitriyenko, L.M.Sçastyeva, E.S.Kutsenko) hesab edirlər ki, regional klasterlərin fəaliyyətinin səmərəliliyinin artırılması üç aspektin kompleks və balanslı inkişafı ilə ifadə olunur:

1) ərazisi;
2) növləri;
3) elmi-innovasiyası [11].

Onlar regional innovasiya klasterini region ərazisində yerləşən və yeni biliklər, məhsul və texnologiyaların yaradılması və yayılmasını həyata keçirən müxtəlif mülkiyyət formalarının, müəssisə və təşkilatlarının, habelə dövlət, elm və innovasiya siyasətinin, federal səviyyədə həyata keçirilən regional siyasətin və regionun sosial-iqtisadi siyasətinin ümumi təsiri ilə təsərrüfat fəaliyyətinin təşkilati-hüquqi şərtləri kimi müəyyən edirlər [8,11].

**Ö.Sölvell modeli.** Klasterin baza modeli Ö.Sölvell tərəfindən təqdim olunmuşdur.

Ö. Sölvellə görə klasterin iştirakçıları aşağıdakılardır:

– iri, orta və kiçik biznes. Rəqib şirkətlər, məhsul və xidmətlərin təchizatçıları, istehlakçılar və texnologiyalarla bağlı şirkətlər, istifadə edilən işçi qüvvəsi və texnologiya kimi ümumi amillər;

- ənənəvi banklar, vençur kapitalı, özəl kapital, biznes mələkləri (özəl vençur investorları) daxil olmaqla, maliyyə təşkilatları;

- dövlət iştirakçıları. Nazirliklər və agentliklər, regional hakimiyyət orqanları, yerli icmalar;

- kolleclər, universitetlər, tədqiqat institutları, texnologiyaların transfer ofisləri, elmi parklar da daxil olmaqla təhsil müəssisələri;

- özəl və dövlət - özəl təşkilatlar (QHT, ticarət palataları);

- klasterin brendini və "tarixini" yaratmaq üçün lazım olan media.

Bütün iştirakçılar bir-biri ilə qarşılıqlı fəaliyyət göstərir, lakin bu modeldə əlaqələrin əsas istiqamətləri müəyyən edilmir. Model, klasterin bütün iştirakçıları arasında qarşılıqlı əlaqələrin ümumi intensivliyini təsvir edir. Ö.Sölvell xüsusi ilə qeyd edir ki, yuxarıda qeyd olunan iştirakçıların və institutların sadəcə mövcudluğu klaster deyil, klaster iştirakçılar arasında əlaqələrin olması, onların arasında qarşılıqlı əlaqənin ifadə olunması, xarici mühitlə qarşılıqlı əlaqə vasitəsilə aşkar olunur.

**E.Feserin modeli.** Klasterin klassik modellərinə E.Feserin modeli (şəkil 1) aiddir. O, klasteri təklif və tələb tərəfdən nəzərdən keçirir, məhsul və xidmətlərin istehsalçısı və istehlakçısı kimi klasterə lazımi təsir proqramlarını göstərir.

Y.Feserə görə, klaster malların, xidmətlərin, resursların (insan, istehsal, maliyyə və s.) təchizatçısıdır. Klasterin "təklif"in formalaşmasının ən vacib elementi elm və sənayenin qarşılıqlı əlaqəsi, tədqiqatların və işləmələrin transferi və kommersiyalaşdırılması prosesidir.




***Şəkil 1. E.Feserin klaster modeli***

**K.Ketels və C.Lindkvist modeli. K.Ketels və C.Lindkvist** öz klaster modelini təklif edirlər (şəkil 2). Onların fikrincə, klasterin mərkəzində istehsal müəssisələri yerləşir və onların ətrafındakı dörd əsas sahə (sektor) ilə müxtəlif qarşılıqlı əlaqələri yaranır:

- tədqiqat təşkilatları;
- təhsil müəssisələri;
- kapital mənbələri;
- dövlət təşkilatları.




***Şəkil 2. K.Ketels və C.Lindkvistə görə klaster iştirakçıları***

K.Ketels, Ö.Sölvell də klasterin beynəlxalq bazara inteqrasiya etdiyini və digər qruplar ilə əlaqəsini vurğulayır.

Azərbaycanda əsasən yuxarıda göstərilən modelləri nəzərə alaraq, inkişaf, qiymətləndirmə, klasterlərin aşkarlanması metodikası məsələlərinə fikir verilsə daha məqsədəuyğun olardı.

**D.L.Napolski modeli.** Özünə məxsus xüsusiyyətlərə malik olan D.L.Napolski innovativ klaster modelini qeyd edək. Bu modeldə innovasiya multiklasterinin formalaşmasına təsir edən determinantlar və xarici amillər göstərilir.

D.L.Napolski innovativ klasterləri iki əsas növə ayırır:

1) bir fəaliyyət növü ətrafında formalaşan və əlaqəli sənaye müəssisələrini birləşdirən aqlomerasiya;

2) texnoloji "əsas" (“nüvə”) ətrafında oxşar, lakin əlaqəsi olmayan sahələri birləşdirən bir konqlomerat.

Model innovativ multiklasterlərin formalaşmasının əsas determinantlarını və xüsusiyyətlərını nəzərdə tutur. Bunlara bazar amilləri və klaster inkişafı siyasəti daxildir. Bu modeldə istehsal müəssisələrindən başqa, klasterin iştirakçısının kim olduğu, klasterin daxili strukturunun nə olduğu tam aydın deyil. Əsas odur ki, D.L.Napolski klaster inkişafı siyasətini klaster inkişafının mühüm amili kimi vurğulayır. Klaster yalnız xarici mühitlə qarşılıqlı əlaqədə deyil, xarici amillərin təsiri ilə də inkişaf edir.

**Ö.Sölvell, K.Ketels – Konus modeli**. Ö.Sölvell, K.Ketels şirkətin fəaliyyət göstərdiyi və inkişaf etdiyi ümummilli mühiti təsvir edən *konus modelini* təklif edir [5].




***Şəkil 3. Konus modeli***

Bu model klasteri biznes mühitinin yaxın ətrafından makroiqtisadi ümumi amillərə qədər müxtəlif səviyyəli bir sıra xarici amillərin təsir göstərdiyi ayrı bir şirkət tərəfindən xarakterizə edir. Xüsusilə qeyd edilir ki, klasterin dinamikliyi uğurlu mikro-iqtisadi biznes mühitinin formalaşmasının əsas səbəbidir. Klasterin daha çox və ya daha az dinamikliyinə əsaslanaraq onun qlobal rəqabət qabiliyyəti müəyyən edilir.

Klasterlərin xarici modellərinin təhlili ümumi vəziyyəti müəyyən etməyə imkan verir.

1. Klaster - bir sıra iştirakçıların cəmidir.
2. Klasterin əsas iştirakçıları istehsal şirkətləri, elmi institutlar, hakimiyyət orqanlarıdır. Sözsüz ki, klasterə digər iştirakçılar da daxildir. Bura maliyyə institutları, ictimai təşkilatlar, kütləvi informasiya vasitələri (KİV), innovasiya infrastrukturu təşkilatları və s. daxildir. İştirakçıların tərkibi müxtəlif klasterlərdə çox vaxt ixtisaslaşmalara, bölgənin sosial-iqtisadi vəziyyətinə görə fərqlənir.

3. Klasterin əsası - qarşılıqlı əlaqələr, daxili qarşılıqlı əlaqələr, xarici mühitlə əlaqə sistemidir. Əsas başlanğıc mexanizmi klasterin üç əsas iştirakçısının qarşılıqlı əlaqəsidir: müəssisə - elm – hakimiyyət orqanları. Bu, intensiv istehsalı və innovasiya məhsullarının yayılmasını təmin edir. Bu qarşılıqlı fəaliyyət bilik və texnologiyaların transferi, innovasiyaların kommersiyalaşması, diffuziyalaşdırılması vasitəsilə, innovativ iqtisadiyyatın inkişafına dəstək üzrə regional proqramların alətləri vasitəsilə həyata keçirilir.

Qeyd etdiyimiz kimi, effektiv klasterlərin xarici modellərinin təhlili klasterin inkişafı üçün əsas uğur amillərini müəyyən etməyə imkan verir. Daha ətraflı desək, bunlar:

1) *Qarşılıqlı tərəfdaşlıq*. Klaster daxilində rəsmi və qeyri-rəsmi bilik, məlumat axınlarını yaradan qarşılıqlı əlaqə. Fərdi şirkətin kollektiv təliminə və rəqabətə davamlı fəaliyyətinə kömək edən gizli biliklərə giriş. Müvəffəqiyyətli qruplar inkişaf etmiş, sıx kommunikasiya sistemi, qarşılıqlı fəaliyyət və əlaqələr ilə xarakterizə olunur. Kiçik şirkətlərin klasterdə böyüməsinin açarı formal və qeyri-formal qarşılıqlı fəaliyyət ilə kooperasiya və əməkdaşlıq vasitəsilə mövqelərini gücləndirməkdir [12];

2) *İnnovativ texnologiya*. Dinamik inkişaf edən klaster üçün məhsulun inkişafı və tədqiqatların struktur inkişafı lazımdır. İnnovasiyalar klasteri bazarın ön planında yerlə təmin edir, ciddi tədqiqat bazası isə gələcək üçün ideya və məhsullarla təmin edir;

*3) İnsan kapitalı*. Ümumiyyətlə, uğurlu klasterlər həm menecment, həm idarəetmə, həm də işçi qüvvəsi səviyyəsində rəqabət qabiliyyətlilik bacarıqlarını formalaşdıra bilirlər. Bu, şirkətləri klasterə cəlb edən və orada onu saxlayan əsas amildir. Mövcud işçi qüvvəsinin miqdarı və keyfiyyəti effektiv klasterin inkişafı üçün ən vacib komponentdir.

## 2. KLASTER MODELLƏRİNİN ƏSAS STRUKTUR ELEMENTLƏRİ

Hal-hazırda dünyada yeni iqtisadiyyatın formalaşması prosesi baş verir və onun əsas xüsusiyyətlərindən biri bazarların iri kompaniyaların əlində cəmləşməsindən, rəqabətqabiliyyətli istehsalın formalaşmasında maliyyə resurslarının təsirinin artmasından, müəssisələrin dayanıqlı və stabil inkişafında bankların və maliyyə təşkilatlarının rolunun yüksəldilməsindən ibarətdir. Belə bir şəraitdə müəssisələrin fəaliyyətində baş verən köklü dəyişikliklər, idarəetmə proseslərinin təkmilləşdirilməsi, innovasiya, elmi-texniki tərəqqinin son nailiyyətlərindən isifadə edilməsi, rəqabətqabiliyyətliliyin yüksəldilməsini təmin edən əsas şərtlərdən birinə çevrilir. Beləliklə, müəssisənin rəqabətqabiliyyətliliyinin artırılmasında innovasiya yönümlü inkişaf strategiyalarından istifadə etməyə zərurət yaranır. Son nəticədə, bazarda o müəssisələr daha çox müvəffəqiyyət qazanırlar ki, onlar innovasiyadan, elmi-texniki tərəqqinin son nailiyyətlərindən daha geniş istifadə edirlər.

Klasterin dinamikliyi uğurlu mikroiqtisadi biznes mühitinin formalaşmasının əsas səbəbidir. Klasterin daha çox və ya daha az dinamikliyinə əsaslanaraq onun qlobal rəqabətqabiliyyətliliyi müəyyən edilir.

Qeyd etdiyimiz kimi, ölkədən asılı olaraq mikroiqtisadi komponentlər güc və dinamizmə görə dəyişir. Güclü şirkətlər qrupu – klasterlər beynəlxalq rəqabətqabiliyyətlilik səviyyəsinə çıxır, zəiflər isə yalnız lokal səviyyədə fəaliyyət göstərirlər.

Biznes mühitinin və təsir qüvvəsinin dəyişkənliyinin göstərilən modeli makroiqtisadi siyasətin əvvəlcədən müəyyən edilmiş tarixi, coğrafi və mədəni şəraitə təsirini göstərir. İqtisadi baxımdan makroiqtisadi siyasət ümumi biznes mühitinə,

mikroiqtisadi siyasət isə (o cümlədən, birləşdirici və təşkilatçı bənd kimi klaster təşəbbüsləri) birbaşa rəqabət üstünlüyünə və klasterlərə təsir göstərir. Şirkətlərin strategiyaları və sahibkarlıq aktivliyi klasterlər və cəmiyyəti formalaşdıran əlavə fəal qüvvələrdir. Klaster təşəbbüsləri və ya klasterin inkişaf siyasəti qrupdaxili qarşılıqlı fəaliyyəti gücləndirməyə, xarici mühitlə klasterin qarşılıqlı fəaliyyətini intensivləşdirməyə, onu beynəlxalq rəqabətqabiliyyətlilik səviyyəsinə çıxarmasına imkan verən alətdir. Dar ixtisaslaşma prosesləri vasitəsilə klaster öz fərdi istehsalını, texnoloji profilini formalaşdırır və effektiv, innovativ inkişafa stimul olan rəqabət üstünlüyünü yaradır.

İnnovasiya klasterinin struktur elementləri aşağıdakılardır [8]:

- elmi-texnoloji inkişafın milli prioritetlərinə uyğun olaraq tədqiqat fəaliyyətini həyata keçirən federal tabeçiliyin elmi təşkilatları;
- fəaliyyəti əsasən bölgənin elmi-texniki inkişaf problemlərinin həllinə yönəlmiş regional tabeçilikdəki elmi təşkilatlar;
- bölgə iqtisadiyyatı üçün yüksək ixtisaslı kadrlar hazırlayan ali təhsil müəssisələri;
- innovasiyalar həyata keçirən müəssisələr (innovasiya ilə işləyən müəssisələr);
- kiçik innovativ müəssisələr;
- innovasiya infrastrukturunun təşkili;
- regional elmi-texniki kompleksin idarəetmə orqanları.

Müvəffəqiyyətli klasterlər regional və ya milli səviyyədə deyil, qlobal bazarlarda digər klasterlərlər ilə rəqabət aparırlar. Qlobal bazarlar müəyyən kvalifikasiyanın işçi qüvvəsinə, kodlaşdırılmış texnologiyalara, maliyyə kapitalına və digər resurslara çıxışını təmin edir. Klasterlərdəki şirkətlər, öz növbəsində, ixtisaslaşmış və qabaqcıl istehsal amillərinə çıxış əldə edirlər. Eyni zamanda, klaster üçün, yeni şirkətlərin cəlb edilməsi, vençur kapitalı, yüksək ixtisaslı işçi qüvvəsi vasitəsilə, xarici mühit ilə (yerli, qlobal) daimi qarşılıqlı əlaqə əsasdır.

## 3. AZƏRBAYCANDA KLASTERLƏRİN YARADILMASI İMKANLARININ HÜQUQİ ASPEKTLƏRİ

Azərbaycanda müəssisələrin innovasiya fəaliyyəti əsasən istehsal sahəsində fəaliyyət göstərən müəssisələrlə xarakterizə olunur. Bu istiqamətdə müəssisələr tərəfindən səmərəli innovasiya fəaliyyətinin həyata keçirilməsi, onların yüksək mənfəət əldə etmələri ölkə iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bununla belə, istehsal müəssisələrinin, xüsusən də, sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin innovasiya fəaliyyəti daha mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında inkişaf etməkdə olan sahibkarlıq strukturları - yeni yaradılan və modernizə edilən müəssisələr yeni məhsul, yeni texnologiya yaratmaq istiqamətində deyil, bazarda mövcud olan rəqabətqabiliyyətli məhsul istehsalını həyata keçirməyə üstünlük verirlər və bu məqsədlə artıq xarici bazarlarda tətbiq olunan texnologiyaları alıb tətbiq etməyə, ya da xarici şirkətlərlə birgə fəaliyyəti həyata keçirməyə üstünlük verirlər.

Respublikada innovasiya fəaliyyətini həyata keçirən müəssisələr əsasən emal və yeyinti sənayesində, mebel məhsulları, tikinti materialları, elektrik məhsulları istehsalı, kimya sənayesi və s. istiqamətlərdə fəaliyyət göstərən və daha çox müvəffəqiyyət qazanan müəssisələrdir. Həmin müəssisələrin məhsulları əsasən yerli bazarlar üçün nəzərdə tutulsa da müəyyən hallarda xarici bazarlara da çıxarılırlar. Lakin müəyyən sənaye müəssisələri, xüsusən də kimya sənayesi müəssisələri məhsullarını xarici

bazarlara çıxarmaq üçün geniş imkanlara malikdirlər.

Azərbaycan müstəqilliyə qədəm qoyduqdan sonra, müəssisələr, xüsusən də kiçik və orta sahibkarlıq bazar prinsipləri əsasında formalaşmağa və inkişaf etməyə başlamışdır və bu proses bu gün də davam edir. Belə bir şəraitdə kiçik və orta müəssisələrin rəqabətqabiliyyətli olması və səmərəli biznes fəaliyyətini həyata keçirməsi ölkə iqtisadiyyatı üçün olduqca mühüm əhəmiyyət kəsb edir.

İnnovativ tipli iqtisadiyyatın təşəkkülü şəraitində Azərbaycan Respublikasının subyektləri üçün klaster inkişafı məsələlərinə diqqət yetirmək, müvafiq vasitələrdən istifadə etmək, ona kömək edən amilləri müəyyənləşdirmək vacibdir. Klasterin əsas iştirakçıları – müəssisə – elm – dövlət orqanları arasında klasterdaxili əlaqələrin formalaşmasına və intensivləşdirilməsinə, habelə klasterlərin institusionallaşdırılması proseslərinə böyük əhəmiyyət vermək lazımdır. Bütün bunlar regionların qabaqlayıcı iqtisadi inkişafını təmin etməyə kömək edəcək.

Ölkəmizdə klasterlərin formalaşmasına dair normativ hüquqi aktlar qəbul edilmişdir. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 8 may 2019-cu il tarixli qəqarı ilə "KOB klaster şirkəti"nin meyarları" təsdiq edilmişdir [13]. Bu meyarlara əsasən, "KOB klaster şirkəti"nin dövlət qeydiyyatına alınması qaydaları, "KOB klaster şirkəti" kimi vergi ödəyicilərinin fəaliyyət sahələri, investisiyanın munimum həcmi, "KOB klaster şirkətinə" dair tələblər, qanunla müəyyən edilmiş qaydada sənədləşdirilmənin aparılması, hesablaşmaların həyata keçirilməsi qaydası müəyyən edilmişdir.

Azərbaycan Respublikasının vergi məcəlləsinin müvafiq bəndlərində "KOB klaster şirkəti"nin gəlir vergisindən azadolmaları və güzəştlər müəyyən edilmişdir [14]. Bu güzəştlərə əsasən KOB klasterin iştirakçısı olan fərdi sahibkarın KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi, KOB klaster şirkətinin mənfəəti – KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən, KOB klasterin iştirakçısı olan hüquqi şəxsin KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi mənfəətin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi, KOB klaster şirkəti tərəfindən mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə vergidən azaddır.

Həmçinin, Azərbaycan Respublikasında "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına", "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına", "İxtisaslaşmış turizm sənayesinin inkişafına" dair Strateji Yol Xəritəsində müvafiq olaraq aqrar sənaye klasterləri, KOS subyektləri üçün sənaye klasterləri və turizm klasterlərinin yaradılması və dəstəklənməsi ilə bağlı bir sıra tədbirlərin icrası nəzərdə tutulmuşdur [15]. Hüquqi bazalar yaradılmış, lakin praktiki olaraq klasterlər formalaşdırıla bilməmişdir.

## NƏTİCƏ

Dünyanın inkişaf etmiş ölkələrinin müasir təcrübəsi göstərir ki, regionların səmərəli iqtisadi inkişafı bir-biri ilə bağlı olan amillərin istiqamətlənmiş sistemindən tam dərəcədə asılıdır. Bununla yanaşı, ənənəvi sahə yanaşmasının alternativi kimi innovativ klasterlərin formalaşdığı regionlar effektiv və dinamik artım əldə edirlər və

ən aktiv və həyat qabiliyyətli klasterlər sahələrarası əlaqələrin diversifikasiyası əsasında formalaşırlar.

Effektiv klaster modellərinin təhlilinin nəticələri göstərir ki, iştirakçılar bir çox şirkətlərdir: istehsalçılar və təchizatçılar, elmi-tədqiqat təşkilatları və ali təhsil müəssisələri, maliyyə təşkilatları və banklar, dövlət hakimiyyəti orqanları və konsaltinq şirkətləri, peşəkar və ictimai təşkilatlar. Bu, klasterin region iqtisadiyyatına dərin inteqrasiyasından danışmağa imkan verir. Öz növbəsində, çoxlu sayda şirkət və müəssisənin qarşılıqlı fəaliyyəti klaster strukturunda iqtisadiyyatın regional strukturunun kifayət qədər dolğun əks olunduğunu təsdiq etməyə imkan verir.

Azərbaycan regionlarının iqtisadi inkişaf məqsədləri üçün klaster inkişafının uğurlu təcrübələrinin tətbiqi mümkündür, eyni zamanda klasterlərin inkişaf alətləri haqqında aydın fikir yaratmaq lazımdır. Bunun üçün klaster strukturunun, klaster quruluşunun əsas qanunauyğunluqlarının inkişafı, onun effektivliyinə təsir edən amillərin anlaşılması vacibdir. Klaster modellərinin təhlili klasterin formalaşmasına və inkişafına təsir göstərə biləcək əsas struktur elementlərini və onların qarşılıqlı əlaqələrini müəyyən etməyə imkan verir.

Ənənəvi olaraq sənaye inkişafına yönəlmiş və yaxşı istehsal resursuna malik olan Azərbaycan regionlarında klasterin K.Ketels və C.Lindkvist modeli istifadə üçün ən orqanik ola bilər. Sənaye müəssisəsinin klaster iştirakçılarının digər əsas qrupları ilə qarşılıqlı əlaqəsinin dəstəklənməsi və inkişafı vasitəsilə müəssisənin rəqabət qabiliyyətinin artırılması və innovasiya fəaliyyətinin stimullaşdırılması mümkündür.

Azərbaycanda əsasən yuxarıda göstərilən modelləri nəzərə alaraq, inkişaf, qiymətləndirmə, klasterlərin aşkarlanması metodikası məsələlərinə fikir verilsə daha məqsədəuyğun olardı.

## Ə D Ə B İ Y Y A T


1. Clusters and Clustering Policy: a Guide for Regional and Local Policy Makers [Электронный ресурс]. URL: http://cor.europa.eu/en/documentation/studies/Documents/Clusters-and-Clustering-policy.pdf.
2. Feser E.J. Old and New Theories of Industry Clusters//Clusters and Regional Specialisation / ed. by M. Steiner. London, Pion Press, 1998. P. 18–40.
3. http://www.e-qanun.az/framework/46948.
4. https://static.president.az/pdf/38542.pdf.
5. https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi.
6. Ketels Ch., Lindqvist G., Sölvell Ö. Strengthening Clusters and Competitiveness in Europe. The Role of Cluster Organizations [Электронный ресурс]. URL: http://gosbook.ru/node/84334.
7. Networks of Enterprises and Local Development: Competing and Cooperating in Local Productive Systems. Paris: Organization for Economic Cooperation and Development, 1996. 254 p.
8. Sölvell Ö. Clusters. Balancing Evolutionary and Constructive Forces. Stockholm: Ivory Tower Publishers, 2008. 141 p.
9. Sölvell Ö., Lindqvist G., Ketels C. The Cluster Initiative Greenbook. Stockholm: Ivory Tower Publishers, 2003. 93 p.
10. Бирюков, А.В. Преимущества современных инновационных кластеров/А.В. Бирюков // Сайт «Морские вести». — 2009. http: www.morvesti.ru

11. Инновационно-технологические кластеры странчленов МЦНТИ (информ. материал) [Электронный ресурс]. URL: http://www.icsti.su/ uploaded/201304/cluster.pdf.

12. Казанцев А.К., Никитина И.А. Инновационные кластеры в региональных стратегиях [Электронный ресурс]. URL: http://rudocs.exdat.com/docs/ index-351511.html.

13. Корабейников И.Н., Спешилов С.М., Дмитриенко О.В., Счастьева Л.М. Обоснование приоритетных направлений эффективного развития региональных кластеров различной типологии // Вестник Оренбург. гос. ун-та. 2009. № 5С. 55–61.

14. Напольских Д.Л. Инновационный кластер как фактор модернизации экономики старопромышленного региона//Новый университет. Сер. «Экономика и право». 2014. № 7–8. С. 35–39.

15. Ялов, Д.А. Кластерный подход как технология управления региональным экономическим развитием / Д.А.Ялов // Сайт журнала «Компас промышленной реструктуризации». - 2007. - Режим доступа: http: www.compass-r.ru/st.html.

## *МЕЖДУНАРОДНЫЙ ОПЫТ ФОРМИРОВАНИЯ КЛАСТЕРОВ*

*Нармина ГУЛИЕВА*

### *Резюме*

*В представленной статье анализируются существующие в мировой практике кластерные модели. Согласно исследовательской задаче были изучены базовая, классическая, инновационная и конусная модели кластеров. Соответственно были выделены основные структурные элементы исследуемых кластерных моделей. Изучены правовые аспекты и перспективы создания кластеров в Азербайджане. Проанализированные кластерные модели и ключевые структурные элементы позволили выявить существующие трудности создания кластеров.*

***Ключевые слова:*** *кластерные модели, инновационная политика, экономика, перспектива*

## *INTERNATIONAL EXPERIENCE IN CLUSTER FORMATION*

*Narmina GULIYEVA*

### *Abstract*

*In international practice, the existing cluster models have been analyzed in the presented article. According to the research task, basic, classical, innovative and cone models of clusters have been researched. The main structural elements of the studied cluster models have been distinguished accordingly. Legal aspects and future prospects of cluster creation opportunities in Azerbaijan have been researched. The analyzed cluster models and key structural elements allow to identify the existing difficulties in creating clusters.*

***Key words:*** *cluster models, innovation policy, economy, perspective*

*УДК 338.658*

# *ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ПРОМЫШЛЕННЫХ ПАРКОВ В РОССИЙСКОЙ ФЕДЕРАЦИИ: АНАЛОГИЯ С АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ*

*Нармина Фаик гызы ИСМАЙЛОВА,*
*Старший советник Сектора мобилизационной подготовки*
*Министерства Экономики Азербайджанской Республики,*
*inarmina@rambler.ru*

***Резюме***

*В связи с тем, что Российская Федерация является соседней страной с похожей экономикой и с существующим опытом в области функционирования промышленных парков, то для Азербайджанской Республики как страны, в которой сформирована сфера промышленных парков, было бы полезно учиться на проблемах, возникающих при эксплуатации промышленных парков, с целью дальнейшего учета.*

*Создание промышленных парков, которое является эффективным путем привлечения инвесторов, является актуальной тенденцией развития российской экономики. Для того, чтобы создать и развить в последующем производство в регионах страны, а также привлечь инвесторов в конкурентных условиях, необходимо выявить существующие проблемы в функционировании промышленных парков.*

*Статья посвящена концептуальному отражению состояния отрасли промышленных парков, а также исследованию проблем, возникающих при создании и развитии промышленных парков, основываясь на опыте Российской Федерации. Кроме того была проведена аналогия существующих проблем с Азербайджанской Республикой.*

*В результате было выявлено, что для решения комплекса выявленных проблем поддержка государства является целесообразной и рациональной.*

***Ключевые слова:*** *промышленные парки, концептуальный процесс, проблемы формирования, аналогия, трудности, поддержка государства*

## Введение

В большинстве регионов Российской Федерации довольно актуальной является проблема создания промышленных парков, промышленного развития экономики в целом, т.к. при построении промышленных парков девелоперы сталкиваются со множеством трудностей, тормозящих их развитие.

## 1. Состояние сферы промышленных парков

Процесс формирования промышленных парков в Российской Федерации (в том числе в региональном контексте) имеет свою специфику. Итак, концептуально его можно представить следующим образом:

- сформирована нормативно-правовая база;
- разработаны программы их появления;
- применено государственно-частное партнёрство (в том числе разработан вариант малого промышленного университетского парка);
- разрабатываются механизмы передачи парков, находящихся в государственной или муниципальной собственности, в управление частным компаниям;

- запланировано открытие специальных промышленных парков при крупных заводах для поддержки малого и среднего производственного бизнеса;
- стимулированы и созданы частные промышленные парки (к примеру, есть проекты, обращенные к сосредоточению на российском рынке предприятий западных компаний, в т.ч. малого и среднего бизнеса) [1, 8, 3].

**2. Проблемы формирования промышленных парков и аналогия**

Приведенные выше индикаторы показывают сформированную, даже отчасти независимую работу промышленных парков в Российской Федерации. Но все же есть некоторые проблемы, которые препятствуют развитию промышленных парков.

Одной из основных проблем промышленных парков является проблема финансирования проектов, т.к. у девелоперов нет необходимого объема средств для вложения их и в приобретение большого участка земли, и в строительство инженерных коммуникаций. Например, на обеспечение электроэнергией 1 га промышленного парка нужно не менее 10 млн. рублей, а 100 га – это уже 1 млрд. Кроме того парк необходимо снабдить также сетями водоснабжения и канализации, что тоже дорого, а на части территорий вообще невозможно из-за отсутствия источников этих ресурсов [6].

По оценке зарубежных партнеров профессиональных услуг Bright Rich итоговый бюджет проекта локализации производства в Российской Федерации на 30-40% выходит дороже по сравнению с другими странами BRICS – группы из пяти быстроразвивающихся стран: Бразилия, Российская Федерация, Индия, Китай, Южно-Африканская Республика. Ссылаясь на слова представителя представительства Beiten Burkhard в Санкт-Петербурге, в связи с тем, что предлагаемые площадки стоят относительно дорого, иностранным инвесторам, принимая во внимание определенные правовые и иные риски, дешевле самим подготовить свою площадку в течение двух-четырех лет [8].

Однако падение цен на аренду или выкупа возможно в условиях конкуренции, которая появится с реализацией проектируемых парков.

При проведении аналогии с Азербайджанской Республикой ввиду того, что создаваемые в стране промышленные парки являются государственными (т.е. создаются за счет средств государственного бюджета), то проблем в их финансировании не наблюдалось. Однако, наряду с этим, одной из угроз может быть риск их зависимости от государственного бюджета. Относительно финансирования также отметим, что резидентам промышленного парка осуществляется выдача Фондом Развития Предпринимательства льготных кредитных средств, а также в этом процессе принимает участие Азербайджанская Инвестиционная Компания [10]. Следует отметить наличие примеров совместного предпринимательства с участием иностранных (сингапурского, российского и иранского) капиталов.

Другой проблемой является проблема неподготовленности площадок. Когда в Томский промышленный парк приехали с целью размещения производства западные и восточные иностранные инвесторы, то из-за того, что не было подготовленных земельных участков, соответствующей инфраструктуры, они направились в регионы с благоприятными условиями. Поэтому инвесторов оптимально привлекать на готовые производственные

площади, что позволит им инвестировать больше средств в технологии и оборудование.

Построение промышленных парков в Азербайджанской Республике столкнулось со следующей проблемой. Итак, в 35 км-е магистрали Баку-Ростов на территории, где создан Сумгаитский Химический Промышленный Парк, было выявлено огромное количество не взорвавшихся боевых припасов. Вблизи депо быстро воспламеняющихся веществ когда-то был расположен пункт приема металлов. Впоследствии ликвидации пунктов часть припасов, которые были среди привезенных на территорию металлов, были покрыты землей, а часть остались в открытом состоянии [12, 11].

Основными проблемами при создании частного промышленного парка являются трудности, связанные с переводом земель в другую категорию, подключением коммуникаций, развитием транспортной сети. Из-за сложности перевода земель в категорию промышленного назначения девелоперы практически отказались от рассмотрения участков сельскохозяйственного назначения, потому, что согласования обычно занимают довольно много времени. В связи с этим здесь необходима поддержка государства во время создания промышленного парка посредством разработки механизма индивидуальной административной поддержки для потенциального резидента.

К примеру, проблема, связанная с переводом земель в другую категорию, актуальна также и для Азербайджанской Республики. Относительно этого вопроса отметим, что согласно «Правилам отнесения земель к категориям и перевода их из одной категории в другую» с указанием определенных данных и планируемых конкретных направлений использования перед Кабинетом Министров поднимается ходатайство, рассмотрев которое с целью исследования предложения на основе документов и проведения землеустроительных работ дает соответствующее поручение Государственному Комитету по Имущественным Вопросам, который готовит и утверждает карту. Далее Государственный Комитет по Имущественным Вопросам один экземпляр подготовленной, согласованной с соответствующими местным органом исполнительной власти, муниципалитетом или организациями карты с указанием основы отнесения земель к категориям и перевода их из одной категории в другую и других данных, согласованный проект распоряжения Кабинета Министров и свой отзыв для рассмотрения представляют в Кабинет Министров. На основе решения Кабинета Министров об отнесении земель к категориям и переводе их из одной категории в другую со стороны Государственного Комитета по Имущественным Вопросам осуществляются изменения в данных государственного реестра недвижимого имущества и государственного земельного кадастра, о чем официально извещается субъект, поднявший ходатайство. Лишь после этого процесс считается завершенным [13]. Т.е. как было отмечено в проблемах по Российской Федерации, здесь также необходима поддержка государства.

Ещё одна из проблем промышленных парков связана как с привлечением прямых иностранных инвестиций, также с отсутствием информации о промышленных парках, готовых к строительству промышленных площадок с инфраструктурой. В качестве примера можно отметить японскую компанию, которая полтора года искала площадку для строительства завода. Инвесторам пришлось объехать 14 регионов.

Западные компании являются наиболее требовательными арендаторами и известны даже случаи вынужденного торможения распространения своей деятельности в Российской Федерации в связи с отсутствием помещения, соответствующего нормам противопожарной безопасности [7, 9].

Чтобы не было проблемы отсутствия информации о существующих промышленных парках, которая возникла на примере Российской Федерации, в Азербайджанской Республике проводятся мероприятия, связанные с информированием и привлечением инвесторов в наши парки. С этой целью был подготовлен План Мероприятий, проводятся деловые встречи с местными и иностранными компаниями, организуются презентации Сумгаитского Химического Промышленного Парка в стране и за рубежом, подготавливаются доклады на форумах, созданы сайты промышленных парков.

Девелопер ещё до начала строительных работ сталкивается с проблемой получения всей необходимой разрешительной и сопутствующей документации, необходимостью многочисленных согласований размещения объектов, со сложностью в оформлении участка земли под объект. Имеются и другие проблемы юридического характера, когда, например, изначально запланировав размещение предприятия на территории парка, в дальнейшем бывает трудно передать полученные мощности в распоряжение нового собственника [9].

В связи с тем, что определенные налоговые льготы Всемирной Торговой Организацией приравниваются к субсидиям, по отношению к которым применяются компенсационные меры – т.е. налоговые льготы для предприятий промышленных парков в Азербайджанской Республике подпадают под категорию специфических субсидий, при импорте в другую страну к товарам которого могут быть применены компенсационные меры, есть несоответствие требованиям, связанным с вступлением страны во Всемирную Торговую Организацию.

Другая группа проблем, которая актуальна в случае создания промышленного парка вне крупного города, вдали от развитой инфраструктуры, связана с получением технических условий и дополнительных объёмов инженерных мощностей, например, электроэнергии.

Несмотря на поддержку регионального правительства промышленных парков Среднего Урала даже на начальном этапе создания многие из них формируются и сопровождаются нарушениями. С самого начала существования химического парка «Тагил», созданного на базе предприятия «Уралхимпласт» в Нижнем Тагиле, вызвало недовольство общественности из-за близкого расположения к жилой зоне. Чтобы доказать плохое влияние на экологическую обстановку в городе и построение с нарушениями санитарной зоны, правозащитники организовывали митинг, пикет против химического парка, писала письма в прокуратуру, Президенту Российской Федерации, председателю правительства, губернатору. На самом деле в 700 метрах от площадки предприятия находится поселок Восточный, а расстояние между промышленным объектом и жилой зоной не должно быть менее 1000 метров.

Относительно экологической проблемы в Азербайджанской Республике можем отметить, что в утвержденном 15 мая 2013 года Решении Коллегии Министерства Экономики номером 8 «Формы заявления, представленного юридическими и физическими лицами промышленного парка для регистрации в качестве резидента, и приложенному к нему списку документов» учитывается

влияние предполагаемых выбросов ($CO$, $CO_2$, $NO_x$, $SO_2$, $SO$ и других) в промышленном парке в окружающую среду. Кроме этого учитывается предполагаемое физическое загрязнение в промышленном парке: вибрация, шум, электромагнитные лучи, радиация, промышленные выбросы и другие [2].

Другая обстановка у промышленного парка «Кольцово» - еще не реализованного проекта Корпорации развития Среднего Урала. Этому парку присущи две проблемы. Первая состоит в том, что, так как земли промышленного парка находятся в федеральной собственности, замедляется процедура получения разрешения на строительство объектов. Вторая заключается в довольно близком расположении территории промышленной площадки к аэропорту Кольцово, что, в свою очередь, также может иметь негативное последствие для обоих объектов [5].

Проблемы, связанные с ограничением развития промышленных парков, были обсуждены и на итоговом совещании Ассоциации индустриальных парков и Экспертного совета «Деловой России» и выявлены две основные группы факторов. Первую группу факторов связывают с закрытым характером российской экономики. Из-за неучастия в основных международных торгово-экономических альянсах и архаичного таможенного законодательства, нацеленного на сырьевую экономику, возникают преграды для локализации производства, которая ориентирована на экспорт из Российской Федерации в страны СНГ, Азии и Европы. Все наиболее перспективные отрасли не сырьевой экономики как производство товаров высокого передела, фармацевтика, создание средств производства связаны с выходом на мировые рынки. Вторую группу факторов связывают с низкими темпами развития отрасли промышленных парков. К ним относят незрелость частной инициативы при доминировании государственных проектов в инфраструктуре, дефицит институциональных инвестиций, отсутствие стандартов качества, способствующих росту бизнеса [4].

В законодательстве Азербайджанской Республики допускается создание совместных промышленных парков, однако пока нет правовых положений относительно создания промышленных парков частными лицами. А в случае не обеспечения правовых основ с целью функционирования частной формы собственности, существует вероятность не развития в стране частных промышленных парков.

Многие промышленные парки (особенно государственные) ориентируются на крупных инвесторов. Следует принимать во внимание то, что их насчитывается ограниченное количество и не все парки могут быть охвачены ими. Поэтому нужно обратить внимание и на ключевых, основополагающих и независимых элементов рыночной экономики - отечественных малых и средних инвесторов, учитывая при соответствующих затратах их возможности [6].

**Выводы**

Итак, выявленные в результате исследования проблемы, связанные с функционированием промышленных парков Российской Федерации, были сгруппированы по характеру развития сферы промышленных парков, финансовому, инфраструктурному, частному промышленному парку, информационному, юридическому и экологическому аспектам.

Таким образом, для решения комплекса отмеченных проблем поддержка государства является целесообразной и рациональной с точки зрения упрощения ряда процедурных вопросов и устранения лишней волокиты в правовых вопросах, а также решения проблем, связанных с оформлением земельных участков и финансированием. Следует также учитывать наличие коммуникаций и транспортных развязок, регистрацию и подбор квалифицированного персонала, позитивное отношение администрации, которые в комплексе представляют собой готовый конкурентоспособный продукт.

***Таблица. Проблемы формирования промышленных парков (пп) в Российской Федерации (РФ): аналогия с Азербайджанской Республикой (АР)***

| **Страна** | **Содержание** | **Выводы** | **Результат** |
|---|---|---|---|
| **1. Трудности по характеру развития сферы пп** | | | |
| **РФ** | низкий темп развития отрасли, соответствующими министерствами предложены мероприятия по созданию частных пп и передаче пп частным компаниям | доминирование государственных проектов в инфраструктуре, дефицит институциональных инвестиций | незрелость частной инициативы |
| **АР** | создаваемые пп являются государственными, Министерству Экономики поручено проведение необходимых работ с целью организации деятельности парка, осуществлен экспорт продукции, законодательством допускается создание совместных пп | отсутствие пока что правовых положений относительно создания пп частными лицами | вероятность не развития сферы частных пп ввиду не обеспеченности правовыми основами |
| **2. Трудности финансового характера** | | | |
| **РФ** | отсутствие у девелоперов необходимого объема средств для вложения их и в приобретение большого участка земли, и в строительство инженерных коммуникаций | иностранным инвесторам, принимая во внимание определенные правовые и иные риски, дешевле самим подготовить свою площадку в течение двухчетырех лет | падение цен на аренду или выкупа возможно в условиях конкуренции, которая появится с реализацией проектируемых парков |
| **АР** | создаются за счет средств государственного бюджета (резидентам пп осуществляется выдача Фондом Развития Предпринимательства | проблем в их финансировании не наблюдалось | наряду с этим одной из угроз может быть риск их зависимости от государственного бюджета |

| | | | |
|---|---|---|---|
| | льготных кредитных средств, а также в этом процессе принимает участие Азербайд-жанская Инвестиционная Компания) | | |
| **3. Инфраструктурного характера (в т.ч. неподготовленность площадок)** | | | |
| **РФ** | отсутствие подготовленных земельных участков, соответствующей инфраструктуры | ориентация иностранных инвесторов в регионы с благоприятными условиями | оптимальность привлечения инвесторов на готовые производственные площади, что позволит им инвестировать больше средств в технологии и оборудование |
| **АР** | на территории создаваемого пп выявление огромного количества не взорвавшихся боевых припасов | последствия ликвидации пунктов приема металлов | часть среди привезенных на территорию металлов припасов были покрыты землей, а часть остались в открытом состоянии |
| **4. Трудности частного промышленного парка (земельного, коммуникационного, транспортного характеров)** | | | |
| **РФ** | сложность перевода земель в категорию промышленного назначения (согласования обычно занимают довольно много времени) | отказ практический девелоперов от рассмотрения участков сельскохозяйственного назначения | необходимость поддержки государства посредством разработки механизма индивидуальной административной поддержки для потенциального резидента |
| **АР** | вопрос, связанный с переводом земель в другую категорию, также актуален (множество процедур и согласуемых субъектов) | процесс передачи земли осуществляется посредством решения Кабинета Министров | также необходима государственная поддержка |
| **5. Трудности информационного характера** | | | |
| **РФ** | связана с привлечением прямых иностранных инвестиций и отсутствием информации о пп, готовых к строительству промышленных площадок с инфраструктурой | объективная трата времени, приостановление распространения деятельности инвесторов в стране | уважительное отношение к требовательности иностранных инвесторов |
| **АР** | подготовлен План Мероприятий, проводятся деловые встречи с местными и иностранными компаниями, организуются презентации пп в стране и за рубежом, | проводятся мероприятия, связанные с информированием и привлечением инвесторов в пп | реализация совместного предпринимательства с участием иностранных (сингапурского, российского и иранского) капиталов |

| | | | |
|---|---|---|---|
| | подготавливаются доклады на форумах, созданы сайты парков | | |
| **6. Трудности юридического характера (в т.ч. закрытый характер экономики)** | | | |
| **РФ** | неучастие в основных международных торговоэкономических альянсах, нацеленное на сырьевую экономику архаичное таможенное законодательство, размещённость предприятий на территории пп | возникновение преград для локализации производства, ориентированной на экспорт, трудности в передаче полученных мощностей в распоряжение нового собственника | наиболее перспективные отрасли не сырьевой экономики связаны с выходом на мировые рынки, необходимость совершенствования сферы разрешительной и сопутствующей документации |
| **АР** | определенные налоговые льготы Всемирной Торговой Организацией приравниваются к субсидиям, по отношению к которым применяются компенсационные меры | налоговые льготы для предприятий пп подпадают под категорию специфических субсидий, при импорте в другую страну к товарам которого могут быть применены компенсационные меры | несоответствие требованиям в связи с вступлением страны во Всемирную Торговую Организацию |
| **7. Трудности экологического характера** | | | |
| **РФ** | расстояние между промышленным объектом и жилой зоной не должно быть менее 1000 метров | недовольство общественности | близкое расположение химического пп к жилой зоне (поселку, аэропорту), нарушение санитарной зоны |
| **АР** | принято соответствующее Решение Коллегии Министерства Экономики | учтение государством при разработке соответствующих форм заявлений | учитывается влияние предполагаемых выбросов ($CO$, $CO_2$, $NO_x$, $SO_2$, $SO$ и других) в пп в окружающую среду. Кроме этого учитывается предполагаемое физическое загрязнение в пп: вибрация, шум, электромагнитные лучи, радиация, промышленные выбросы и другие |

*Источник: таблица составлена автором на основе [1-13]*

Абстрагируясь от имеющегося опыта у государства и выдвинутых практических рекомендаций, хотелось бы отметить, что данная статья может быть своего рода методическим компонентом при разработке дорожной карты по развитию сферы промышленных парков для потенциальных частных девелоперов.

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. İsmayılova N.F. Rusiyada sənaye parklarının dövlət və təşkilati dəstəyi // Bakı: “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” Elmi Əsərlər Toplusu, - 2012. XII Buraxılış, - s. 265-272.

2. “Hüquqi və fiziki şəxslərin sənaye parkının rezidenti kimi qeydiyyatdan keçmək üçün təqdim etdikləri ərizənin forması və ona əlavə edilən sənədlərin siyahısı”nın, “Sənaye parkının qeydiyyat şəhadətnaməsinin forması”nın və “Sənaye parkının rezidentlərinin reyestrinin aparılması qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının Qərarı: [Elektron resurs] / - Bakı, 15 may, 2013, № 8. URL: http://www.e-qanun.az/framework/25821

3. Итальянский Индустриальный Парк: [Электронный ресурс] / Masterpark Italia S.p.A. - 23 с. URL: http://www.masterparkitalia.com/Masterpark_Italia_files/Dmitrov%20Presentation%20RU.pdf

4. Итоги совместного совещания Ассоциации индустриальных парков и Экспертного совета Деловой России: [Электронный ресурс] / Ассоциация индустриальных парков. URL: https://indparks.ru/press/news/508/

5. Кожихова, Т. Идите парком. Индустриальным. В Свердловской области проблемы у четырех из пяти: [Электронный ресурс] / Информационное агентство «ФедералПресс». - 18 января, 2013. URL: http://uralpolit.ru/news/econom/reviews/1358496490-idite-parkom-industrialnym-v-sverdlovskoi-oblasti-problemy-u-chetyrekh-iz-pyati

6. Кошкин, И. Индустриальная готовность: [Электронный ресурс] / Эксперт Северо-Запад. - 05 сентября, 2011, № 35 (531). URL: http://expert.ru/northwest/2011/35/ndustrialnaya-gotovnost/

7. Матвеев, Б. Индустриальные парки: настоящее и будущее: [Электронный ресурс] / Склад и Техника. - 2007. № 12. URL: http://www.sitmag.ru/article/buildsklad/2007_12_A_2008_03_27-20_56_34/

8. Парки для новой промышленности: [Электронный ресурс] / Эксперт. - № 48 (830). URL: http://m.expert.ru/expert/2012/48/parki-dlya-novoj-promyishlennosti/

9. Эксперты усомнились в качестве российских индустриальных парков: [Электронный ресурс] / ООО «РуФокс». - 22 мая, 2012. URL: http://realty.rufox.ru/articles/236652.htm

10. URL: http://anfes.gov.az/az/show.page.php?guid=d2f7fbbc-269c-11e0-8e86-0022190362dd

11. URL: http://az.apa.az/news.php?id=249122

12. URL: http://www.milaz.info/news.php?id=21353

13. URL: http://e-qanun.az/framework/34682

## *RUSİYA FEDERASİYASINDA SƏNAYE PARKLARININ FORMALAŞDIRILMASI PROBLEMLƏRİ: AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ANALOGİYA*

*Nərminə İSMAYILOVA*

### *Xülasə*

*Rusiya Federasiyası oxşar iqtisadiyyatı və sənaye parklarının fəaliyyəti sahəsində mövcud olan təcrübəsi ilə qonşu ölkə olduğundan, Azərbaycan Respublikası üçün sənaye parklarının sahəsi formalaşdırılan ölkə kimi gələcəkdə nəzərə almaq məqsədilə sənaye parklarının istismarında əmələ gələn problemlərindən öyrənmək faydalı olardı.*

*İnvestorların cəlb edilməsinin səmərəli yolu olan sənaye parklarının yaradılması rusiya iqtisadiyyatının inkişafının aktual təmayülüdür. Ölkənin regionlarında istehsalı yaratmaq və sonradan inkişaf etdirmək, həmçinin rəqabət mühitində investorları cəlb etmək üçün sənaye parklarının fəaliyyətində mövcud olan problemləri aşkar etmək zəruridir.*

*Məqalə Rusiya Federasiyasının təcrübəsinə əsaslanaraq sənaye parkları sahəsinin konseptual təzahürü, həmçinin sənaye parklarının yaradılması və inkişafında əmələ gələn problemlərin tədqiqinə həsr edilmişdir. Bundan başqa mövcud olan problemlərin Azərbaycan Respublikası ilə analogiyası aparılmışdır.*

*Nəticədə aşkar edilmiş problemlər kompleksinin həll edilməsi üçün dövlətin dəstəyinin məqsədyönlü və rasional olduğu aşkar edilmişdir.*

***Açar sözlər:*** *sənaye parkları, konseptual proses, formalaşdırılma problemləri, analogiya, çətinliklər, dövlətin dəstəyi*

## *PROBLEMS OF FORMATION OF INDUSTRIAL PARKS IN THE RUSSIAN FEDERATION: ANALOGY WITH THE REPUBLIC OF AZERBAIJAN*

*Narmina ISMAYILOVA*

### *Abstract*

*Due to the fact that Russian Federation is a neighboring country with similar economy and with an existing experience in the field of functioning of industrial parks, for the Republic of Azerbaijan as the country in which the scope of industrial parks is being formed, it would be useful to learn from the problems encountered in the operation of industrial parks in order to further taking into account.*

*The creation of industrial parks, which are an effective way to attract investors, is a topical trend of development of the Russian economy. In order to create and develop in the subsequent production in the regions of the country, as well as attract investors under competitive conditions necessary to identify existing problems in the functioning of industrial parks.*

*This article is devoted to the conceptual reflection of industrial parks, as well as to research of problems emerging in the creation and development of industrial parks based on the experience of the Russian Federation. In addition, was carried out an analogy of the existing problems with the Republic of Azerbaijan.*

*As a result, it was revealed that for solution complex of identified problems support of the state is appropriate and rational.*

***Key words:*** *industrial parks, conceptual reflection, the problems of the formation, analogy, difficulties, support of the state*

*UOT 330.4*

# *BIG DATA-NIN İQTİSADİ POTENSİALI*

*Məkrufə HACIRƏHİMOVA,*
*AMEA İnformasiya Texnologiyaları İnstitutu, hmakrufa@gmail.com,*
*Aybəniz ƏLİYEVA,*
*AMEA İnformasiya Texnologiyaları İnstitutu, aliyeva.a.s@mail.ru*

**_Xülasə_**

*İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı böyük miqdarda verilənlərin sürətlə toplanmasına və emalına şərait yaradır. Big data adlanan bu verilənlərin iqtisadi və sosial fəaliyyət sahələrində istifadəsi innovasiyanın stimullaşdırılmasına və məhsuldarlığın artmasına səbəb olur. Eyni zamanda verilənlərin artan həcmi, sürəti, müxtəlifliyi və sosial-iqtisadi dəyəri verilənlərə əsaslanan sosial-iqtisadi modelə uyğun paradiqma dəyişikliyinin baş verməsini mümkün edir. Mövcud təkamülü fərqləndirən və keyfiyyət dəyişikliklərinə səbəb olan əsas faktor verilənlərin manipulyasiyası zamanı Big data və süni intellekt texnologiyalarının birləşməsidir. Lakin bu yeni verilənlər dəstləri və analitik üsullar tədqiqat və iqtisadi siyasət sahəsində bir çox üstünlüklərlə yanaşı, iqtisadçılar üçün müəyyən çətinliklər də yaradır. Məqalədə Big data-nın mahiyyəti, üstünlükləri qısa şərh olunur, iqtisadi sahədəki potensial imkanları və bu imkanların istifadəsi ilə bağlı yaranan problemlər tədqiq olunur.*

***Açar sözlər:*** *big data, iqtisadi analiz, proqnostik analitika, verilənlər iqtisadiyyatı, big data bazarı*

## GİRİŞ

İnternetin, əşyaların interneti (Internet of Things), bulud hesablamaları kimi inkişaf etmiş intormasiya texnologiyalarının geniş istifadəsi və istehsal proseslərinin rəqəmsallaşdırılması mürəkkəb struktura malik verilənləri özündə birləşdirən mənbələrin sürətlə artmasına səbəb oldu. Eyni zamanda "big data" adlanan böyük həcmli bu verilənlərdən dəyərli informasiyanın çıxarılması və istifadəsinə istiqamətlənmiş verilənlər elmi (data science) adlanan yeni fənlərarası elm sahəsi yarandı. İqtisadi proseslər və insan davranışları haqqında məlumatları özündə birləşdirən mənbələrin əlyetərliyi və böyük verilənlər dəstlərinin analizindəki irəliləyişlər sosial-iqtisadi prosesləri öyrənmək üçün hesablama metodlarının tətbiqinə maraq yaratdı [1, 2]. İqtisadi araşdırmalarda İnternet verilənləri getdikcə daha çox istifadə edilməyə və onlayn verilənlərin intellektual analizinə yeni-yeni metodoloji töhfələr verməyə başladı. Böyük verilənlərin dərin analizi və istifadəsi ölkələrin dayanıqlı iqtisadi inkişafında və şirkətlərin rəqabətqabiliyyətliliyinin yüksəlməsində mühüm rol oynamağa başladı. McKinsey firmasının qeyd etdiyi kimi böyük verilənlər müasir sənayenin və biznesin bütün sahələrində geniş yayıldı və əsas istehsal faktoruna çevrildi [2]. Microsoft şirkətininun tədqiqatlar və strategiya üzrə direktoru Kreyq Mandinin qeyd etdiyi kimi "verilənlərə əsaslanan iqtisadiyyata" keçid qaçılmaz oldu. Başqa sözlə, verilənlərin artan həcmi, sürəti, müxtəlifliyi və sosial-iqtisadi dəyəri verilənlərə əsaslanan sosial-iqtisadi modelə uyğun paradiqma dəyişikliyinin baş verməsini sürətləndirdi [3].

Son zamanlar Big data-nın bütün dünyada elm, sənaye və eləcə də dövlət dairələrində geniş vüsət aldığı diqqəti cəlb edir. Böyük həcmli verilənlərin toplanması,

saxlanması, analizi, emalı və vizuallaşdırılması üçün güclü alətlər işlənmiş, dövlət sektorunun, biznes və elm sahələrinin verilənlərinə geniş girişin təmini üçün açıq verilənlər sferasında təşəbbüslər irəli sürülmüşdür. Bu mənada 2012-ci ilin mart ayında ABŞ dövləti tərəfindən elan edilmiş "Böyük verilənlərin tədqiqi və inkişafı" təşəbbüsü (Big Data Research and Development Initiative) yüksəktexnoloji sahələrdə strateji plan olmaqla yanaşı, həm də onun milli təhlükəsizliyi və sosial-iqtisadi inkişafının yüksəldilməsi planıdır. Birləşmiş Ştatlar tərəfindən həyata keçirilən bu strategiya bütövlükdə, qərb ölkələrində də öz tətbiqini tapmaqdadır. Bir sıra nüfuzlu beynəlxalq təşkilatlar və Böyük Britaniya, Yaponiya, Çin, Koreya və s. kimi inkişaf etmiş dövlətlər də bu sahədə uyğun təşəbbüslə çıxış etməyə başlamışlar [4]. Avropa Komissiyası elmi-tədqiqatlar və innovasiyalar sahəsində növbəti Horizon 2020 proqramını qəbul etmişdir. Big data-nın tədqiqi və tətbiqilə bağlı bu proqrama 120 milyon avro investisiya ayrılmışdır. Proqram yüksək bacarıq, sənaye rəhbərliyi və sosial problemlər də daxil olmaqla Big data iqtisadiyyatının uğurla həyata keçirilməsi üçün tədqiqat və innovasiya strategiyasını müəyyən etmişdir [5]. Birləşmiş Millətlər Təşkilatı (BMT) qlobal iqtisadiyyatın inkişafına yardım məqsədilə iqtisadi inkişaf üzrə "Global Pulse" adlanan layihə hazırlamışdı. Bu layihədə böyük həcmdə şəbəkə verilənlərinin təhlilindən istifadə etməklə müəyyən regionlarada işsizliyin səviyyəsi, xərclərin azaldılması və xəstəliklərin yayılması (epidemiya) kimi sosial məsələləri proqnozlaşdırmaq nəzərdə tutulmuşdur [6]. Eyni zamanda IBM, Google, Microsoft, Oracle və s. kimi qlobal nəhəng şirkətlər artıq Big data-nın proqram və aparat təminatını inkişaf etdirməyə başlamışlar.

Beləliklə, gələcəkdə ölkələr arasındakı iqtisadi və siyasi rəqabətin böyük verilənlərin potensial istifadəsinə əsaslanacağını desək yanılmarıq. Başqa sözlə böyük həcmli verilənlərin tədqiqi və tətbiqi istənilən ölkənin rəqabətqabiliyyətliliyinin artması üçün strateji zəruriyyətə və əhəmiyyətə malik olacaqdir. Bu səbəbdən Big data-nın iqtisadi potensialı, iqtisadi analizdəki üstünlükləri və istifadə problemlərinin araşdırılması vacibdir.

## 1. BIG DATA-NIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Qeyd edək ki, Big data-nın hamı tərəfindən qəbul edilmiş ümumi təyinatı yoxdur. Big data ənənəvi proqram vasitələri ilə çətin emal oluna bilən böyük və mürəkkəb həcmə malik verilənlər yığımı kimi təyin olunur. McKinsey Global İnstitutunun hesabatında isə bu termin informasiyanın toplanması, saxlanılması, idarə edilməsi, axtarışı və analizinin tipik verilənlər bazasının imkanları xaricində olan verilənlər dəsti kimi xarakterizə olunur [4, 7]. Big dataya fiziki dünyanı və kiberfəzanı əlaqələndirən və birləşdirən zəncir kimi də baxıla bilər. Bu mənada böyük verilənlər əsasən iki kateqoriyaya bölünə bilər:

1) sensor (ötürücü), elmi təcrübələr və müşahidələr (məsələn, bioloji, neyron, astroloji verilən və uzaq məsafədən zondla tədqiq edilən verilənlər) kimi fiziki aləmin verilənləri;

2) sosial şəbəkələr, İnternet, səhiyyə, maliyyə, iqtisadiyyat və nəqliyyat kimi mənbələrdən və ya sahələrdən əldə edilən insan cəmiyyətinin verilənləri [1].

Big data-nı təsvir etmək üçün ümumi xarakteristikalar mövcuddur. Bu xarakteristikalar böyük verilənləri təyin etməyə və digər verilənlərdən fərqləndirməyə kömək edir. Böyük verilənlərin əsas xarakteristikaları həcm (volume), sürət (velocity) və müxtəliflik (variety) kimi üç əsas qrupa bölünür və «3Vs» kimi işarlənir [1]. Qeyd

etmək lazımdır ki, bir çox analitiklər həqiqlilik (veracity) və dəyər (value) kimi xarakteristikaların əlavə edildiyi "5Vs" (Şəkil 1.) təsvirinə üstünlük verirlər [1, 7].

***Həcm (volume):*** böyük verilənlərin ən əsas xarakteristikasıdır, yaradılan və saxlanılan məlumatların miqdarını göstərir.

***Sürət (velosity):*** verilənləin yaradılması və emalı sürətini xarakterizə edir. Həcm artdıqca emal üçün də çox böyük sürət tələb olunur.

***Müxtəliflik (variety):*** verilənlərin növü və strukturu. Verilənlərin mətn, video, audio və s. kimi növlərini xarakterizə edir..

***Dəyər (value):*** böyük verilənlərin ən vacib elementi dəyərdir. Məhz "big data"-nın xüsusilə biznes qurumları tərəfindən diqqətdə olması əlavə dəyər yaratma xüsusiyyətinə görədir. Buna görə də bu faktor marketinq xarakteristikası kimi qiymətləndirilir.




***Şəkil 1. Big data-nın 5Vs təsviri***

***Həqiqilik (Veracity):*** verilənlərin dəqiqliyi və toplanan verilənlərin keyfiyyəti də önəmlidir. Çünki, əsasında qərar qəbul edəcəyimiz verilənlər nə qədər etibarlı və keyfiyyətli olarsa, alınan nəticələr də bir o qədər dəqiq olar. Məsələn, ötürücülər vasitəsilə alınan verilənlər sosial media verilənlərindən etibarlı hesab olunur.

Verilənlərin həcminin sürətlə artması bir reallıqdır. Almaniyanın bazar və istehlakçı verilənləri üzrə ixtisaslaşmış Statista şirkəti dünyada emal olunan verilənlərin ümumi həcminin 2021-ci ildə 79 zettabayta çatacağını (Şəkil 2.) proqnozlaşdırır. 2020-ci ildən 2025-ci ilə qədər olan proqnoz dövrü ərzində orta illik artım tempinin 19,2% olacağı, yəni 2025-ci ilədək qlobal verilənlərin həcminin 180 zettabaytdan çox olacağı gözlənilir [8].




***Şəkil 2. 2010-2025-ci illər üzrə dünyada yaradılan verilənlərin ümumi həcmi [9]***

Şəkil 2-dən göründüyü kimi 2020-ci ildə emal olunan verilənlərin həcmi gözləniləndən çox yüysək olmuşdur. Nümunə üçün, IDC şirkəti 2014-ci il hesabatında 2020-ci ildə verilənlərin həcminin 44 zetabayta çatacagını proqnozlaşdırmışdır [7]. COVID-19 pandemiyası səbəbindən daha çox insanın ev şəraitində işləməsi, təhsil

alması və daha çox ev əyləncəsindən istifadə etməsi verilənlərin həcminə də təsir etmişdir [8].

Bununla birlikdə, bu yeni yaradılan verilənlərin yalnız kiçik bir hissəsi (2%-i) saxlanılmışdır. Verilənlərin həcminin sürətlə artmasına uyğun olaraq, saxlama bazasının tutumunun da artması gözlənilir. Qeyd edək ki, 2020-ci ildə saxlama bazasının tutumu 6,7 zettabayta çatmışdır.

## 2. BIG DATA VƏ ONUN İQTİSADİ INKIŞAFA TƏSIRI

İqtisadi və sosial fəaliyyət bir qayda olaraq verilənlərə əsaslanır. Son illər bu sahələrdə böyük verilənlər dəstlərindən geniş istifadə olunmağa başlanmışdır. Verilənlərin artan həcmi, sürəti, müxtəlifliyi və sosial-iqtisadi dəyəri verilənlərə əsaslanan sosial-iqtisadi modelə uyğun paradiqma dəyişikliyinin baş verməsinə şərait yaradır [9]. Verilənlərin həcminin fasiləsiz olaraq artması ilə paralel olaraq verilənlərin və informasiya sistemlərinin də əlyetərliyi artır, verilənlərin toplanması, saxlanması, analizi, emalı və vizuallaşdırılması üçün yeni texnologiyalar hazırlanır. Bu isə Big data sahəsində fəaliyyətin aktivləşməsinə və böyük verilənlərin dəyərinin artmasına səbəb olur.

O'Reilly Media şirkətinin məlumatlarında yer alan “gələcək verilənləri məhsula çevirə bilən şirkətlərə və insanlara məxsusdur” ifadəsinin faktlara əsaslanaraq deyildiyi öz təsdiqini tapmaqdadır [10]. Avropa Birliyinin elektron texnologiyaları üzrə komissarı Neelie Kroes isə dəfələrlə böyük verilənləri gələcək iqtisadiyyatın nefti kimi dəyərləndirmiş, yaxın gələcəyin böyük verilənlərin erası olduğunu qeyd etmişdir [11]. Tədqiqatlardan da göründüyü kimi artıq verilənlər əhəmiyyətli rəqabət üstünlüyü yarada bilən, innovasiyaları inkişaf etdirə bilən, rəqabətqabiliyyətliliyi yüksəldən və sosial təsirə malik bir iqtisadi aktivə çevrilmişdir. Ona görə də Big data bütün sektorlar, təşkilatlar, ölkələr və regionlar üçün əsas iqtisadi aktiv kimi dəyərləndirilə bilər.

McKinsey qlobal konsaltinq şirkətinin iddialarına görə verilənlər bolluğu müəssisələrə potensial olaraq aşağıdakı kimi yeni imkanlar verə bilər [2]: 1) təşkilatın fəaliyyətini daha şəffaf etməklə effektivliyinin yüksəldilməsinə; 2) eksperiment və əks əlaqə sayəsində əməkdaşların və sistemlərin işinin daha dəqiq və hərtərəfli analizinə; 3) əhalinin seqmentləşdirilməsinə; 4) qərarların qəbul olunması vaxtı insanların iştirakını tələb etməyən avtomatik alqoritmlərin yaradılmasına; 5) yeni biznes-modellərin, məhsulların və xidmətlərin yaradılmasına.

Müxtəlif sektorlarda və sahələrdə Big data texnologiyalarının, proqram tətbiqlərinin və biznes modellərinin istifadəsi çox böyük sosial-iqtisadi potensiala malikdir. Böyük həcmdə verilənlərin toplanması və analizinin köməyi ilə gəlirləri və xərcləri optimal idarə etmək, maliyyə göstəricilərini yaxşılaşdırmaq və şəffaflığı yüksəltmək mümkündür. Big data həlləri sosial şəbəkə, zəng qeydləri, xidmət növləri və s. kimi müxtəlif mənbələrdən alınan verilənləri analiz edərək potensial alıcıları daha dəqiq bir şəkildə seqmentləşdirməyə və bu alıcıların ehtiyaclarını və motivasiyalarını daha dərindən dərk etməyə imkan verir.

Proqnostik analitika və verilənlərin intellektual analiz (data mining) kimi analitik üsullar verilənlərdən faydalı informasiyanın çıxarılmasına və yeni biznes ideyaların yaranmasına kömək edir. Araşdırmalar göstərir ki, Big data analitikanı istifadə edən şirkətlər digər şirkətlərlə müqayisədə məhsuldarlığı 5% -10% daha çox artırmaq imkanına malikdir. IDC-in məlumatına görə, ötən illərdə Big data və Biznes-analitika texnologiyalarına investisiya qoyuluşu üzrə beş sahə (ümumilikdə 91.4 milyard dollar) xüsusilə fərqlənmişdir [12] (Şəkil 3.).




***Şəkil 3. Sahələr üzrə Big data texnologiyalarına investisiya qoyuluşu [12]***

Müxtəlif sahələrdə Big data texnologiyalarının, proqram tətbiqlərinin və biznes modellərinin istifadə tempindən asılı olaraq Big data bazarının da həcmi artır. Big data bazarı İKT avadanlığı, proqram təminatı və İT xidmətlərinin milyardlarla dollarlıq satışını özündə birləşdirən bir biznes sahəsidir. Statista şirkətinin məlumatına görə qlobal Big data bazarının həcminin 2020-ci ildə 56 milyard dollardan 2027-ci il üçün 103 milyard dollara qədər artacağı (Şəkil 4.), proqnoz dövründə orta illik artım tempinin isə 11 faiz təşkil edəcəyi gözlənilir [13].

2019-cu ilin nəticələrinə görə Big data-nın dünya bazarında ABŞ-ın daha yüksək paya (big data bazarının yarıdan çoxu) sahib olduğu (Şəkil 5.), ölkədə Big data bazarının əhəmiyyətli dərəcədə inkişaf etdiyi müşahidə olunur [12]. Şimali Amerikadaki bu yüksək artım tempini regionun müxtəlif müəssisələrində Əşyaların İnterneti (IoT) qurğularının artan istifadəsi ilə əlaqələndirirlər. ABŞ-da təşkilatlar strateji biznes qərarlarının qəbulu və bazarda rəqabətqabiliyyətliliyi saxlamaq üçün analitik verilənlərin generasiyasında Big data həllərindən istifadə etməyə başlamışdırlar [13].




***Şəkil 4. 2015-2027-ci illər üzrə qlobal Big data bazarının gəlirlərinin ümumi həcmi [13]***

Tədqiqatlardan göründüyü kimi müəssisələr Big data texnologiyaları, proqram tətbiqləri və biznes modellərini istifadə edərək bazarda rəqabətqabiliyyətliliyi saxlayırlar. Eyni zamanda aparat avadanlıqları, proqram təminatı və İT xidmətlərin

satışından milyardlarla dollar gəlir əldə edirlər. Bu isə Big data-nın iqtisadi sahədə çox böyük potensial imkana malik olduğunu göstərir.




*Şəkil 5. Big data bazarında lider dövlətlərin payı (%) [12]*

## 3. İQTİSADİ ANALİZ SAHƏSİNDƏ BIG DATA-NIN ÜSTÜNLÜKLƏRİ VƏ PROBLEMLƏRİ

İqtisadi proseslər və insan davranışları haqqında məlumatları özündə birləşdirən mənbələrin əlyetərliyi və böyük verilənlər dəstlərinin dərin analizi ölkələrin dayanıqlı iqtisadi inkişafında və müəssisələrin rəqabətqabiliyyətliliyinin yüksəlməsində mühüm rol oynaya bilər.

Bir çox tədqiqatçılar Big data-nın iqtisadi analizdə tətbiqini müşahidə dəyişənlərin sayı, müşahidələrin sayının çoxölçülü olması, həmçinin böyük verilənlər dəstlərinin agentlərin davranışlarının təhlili üçün faydalı mikro səviyyəli məlumatlar təmin etməsi ilə əlaqələndirirlər.

Big data-nın tədqiqat və iqtisadi siyasət sahəsindəki üstünlüklərindən bəziləri aşağıda verilmişdir [9].

1. Vergilərin toplanması, sosial proqramlar, təhsil və ya demoqrafiya kimi sahələrdə mərkəzi və yerli dövlət idarələrinin mikro səviyyədə çox sayda inzibati məlumatları toplama imkanının olması. Bu verilənlər dövlət səviyyəsində iqtisadi fəaliyyətin monitorqi və proqnozlaşdırılmasının təkmilləşdirilməsinə təsir edə bilər.

2. Özəl sektorun iqtisadi fəaliyyətini izləmək üçün yeni verilənlərin, həmçinin real vaxt rejimi verilənlərinin (məs., inflyasinanın dəqiq göstəricisini müəyyən etmək üçün saytlardan toplanan verilənlər) istifadəsi iqtisadi fəaliyyətin tezlik və qranulyarlıq səviyyəsinin izlənməsi üçün ənənəvi sorğu verilənlərindən daha güclü vasitə ola bilər.

3. Onlayn axtarışlar və ya sosial media nəşrləri kimi meyarlar, məşğulluq və ev təsərrüfatları ilə bağlı iqtisadi göstəricilər üçün etibarlı əvəzedici kimi də istifadə edilə bilər. Məsələn, Google-da bir məhsulla bağlı aparılan sorğular bu məhsula olan tələbi dəqiq əks etdirə bilər.

4. Böyük həcmdə inzibati və özəl verilənlərin əlyetərliyi, daha geniş və daha qranulyar verilənlərlə iqtisadi təsirlərin (xüsusilə ayrı-ayrı agentlərin davranışları ilə əlaqədar olan) daha yaxşı ölçülməsinə gətirib çıxara bilər. Böyük verilənlər məhdud sayda müşahidələrin statistik problemini də həll edə bilər və təhlili daha etibarlı və dəqiq edə bilər.

5. Big data əmək bazarının dinamikası, məktəbəqədər təhsilin gələcək gəlirlərə təsiri, səhm bazarının dinamikası və onlayn bazarların fəaliyyəti kimi müxtəlif sahələrdə iqtisadçılara yeni məsələlər və tədqiqat mövzuları verməyə təşviq edə bilər.

6. "Təbii təcrübələr"i etmək imkanı. Məsələn, həftəlik verilənlərdən əhəmiyyətli dərəcədə daha yüksək tezlikli verilənlərə, istehlakçıya və ya fərdi məhsullara dair verilənlərə keçmək mikro səviyyəli detalları və ya dəyişiklikləri aşkar etməyə imkan verə bilər (məs., qiymət dəyişikliyi halında digər məhsulların əvəzlənməsi).

7. Daha güclü proqnozlaşdırıcı modellər (xüsusilə empirik mikroiqtisadiyyat sahəsində) yaratmaq üçün yeni statistik metodlar və maşın təlimi üsullarının istifadəsi. Proqnozlaşdırıcı modelləşdirmə üsullarının istifadəsi, tədqiqatçıların istehlakçı borc alma davranışlarını və borc verənlərin kreditləri necə qiymətləndirməli olduqlarını və kredit riski üçün limitlər təyin etmələrinə kömək edən "kredit riskinin qiymətləndirilməsi"ni qurmağa və s. imkan verir.

Big data və yeni analitik üsullar iqtisadi sahələr üşün bir çox imkanlar təqdim etməklə yanaşı bir çox çətinliklər yaradır. Verilənlərin strukturlaşmamış olması və onların təşkilində hər hansı bir qanunauyğunluğun olmaması onların analizi üçün ciddi problemlər yaradır. Bu problemlər əsasən böyük verilənlərin xüsusiyyəti, əlyetərliyi, cari analiz model və metodlar, verilənlərin emal sistemləri ilə bağlıdır. Bu problemlərdən bəziləri aşağıda verilmişdir [9, 14]:

***1) Verilənlərin əlyetərliyi***. Tədqiqatçıların istifadə etdikləri bu yeni verilənlərin böyük bir hissəsi müəyyən şirkətlərə aiddir və onların əldə edilməsi xərcləri çox vaxt iqtisadçılar üçün sərfəli olmur.

***2) Verilənlərin mürəkkəbliyi***. Böyük verilənlərə xas olan mürəkkəblik (növlərin, strukturların və nümunələrin mürəkkəbliyi daxil olmaqla) onun qavranılmasını, təsvir olunmasını, başa düşülməsini və hesablanmasını daha çətin edir və ümumi verilənlərə əsaslanan ənənəvi hesablama modelləri ilə müqayisədə hesablamanın mürəkkəbliyinin kəskin artmasına səbəb olur.

Verilənlərin strukturlaşdırılmamış təbiəti ekonometrik baxımdan, yəni tədqiq olunan sıralar arasındakı asılılığı ayırmaq üçün bir problem təşkil edir. Bu yeni reqressiya alətlərinin hazırlanmasını tələb edən bu tip verilənlərlə bağlı ən vacib texniki problemdir.

***3) Hesablamanın mürəkkəbliyi***. Böyük verilənlərin üç əsas xüsusiyyəti, yəni, multi-mənbələr, böyük həcm, və sürətli dəyişkənlik böyük verilənlərin ənənəvi kompüter üsulları (məsələn, machine learning, informasiyanın axtarışı və data mining kimi) ilə səmərəli emal, analiz və hesablanmasına şərait yaratmır. Kiçik həcmli verilənlərin emalı üçün istifadə edilən ənənəvi yanaşmalar - son statistik verilənlər, analiz üsulları və iterativ metodlar böyük verilənlərlə bağlı hesablamaların aparılmasına uygun deyildir. Böyük verilənlərlə bağlı problemlərin həlli zamanı onların hesablana bilmə qabiliyyəti, hesablamanın mürəkkəbliyi və alqoritmlər nəzərdən keçirilməli və tədqiq olunmalıdır.

***4) Big data və yeni statistik və maşın təlimi metodları ilə işləmə bacarığının kifayət etməməsi.*** Böyük verilənlərdən istifadə zamanı informasiyanın əldə olunması, məzmunun aşkarlanması, semantik və sentimental analiz kimi ənənəvi analiz və emal məsələləri son dərəcə çətin olur.

Böyük verilənlərlə əlaqədar paylanma və inteqrasiya qaydaları haqqında biliklərin kifayət etməməsi, böyük verilənlərin mürəkkəbliyi və hesablamanın mürəkkəbliyi, həmçinin böyük verilənlərin domenlərə istiqamətlənmiş emal metodları arasındakı qarşılıqlı əlaqənin tam dərk edilməməsi böyük verilənlərlə bağlı problemlərin həlli üçün yüksək təsirli hesablama model və metodlarının hazırlanması imkanlarını son dərəcə məhdudlaşdırır. İqtisadi tədqiqatların konseptual strukturunu böyük verilənlər bazası ilə əlaqələndirə bilmələri üçün iqtisadçıların inkişaf etmiş

proqram və dillər səviyyəsində (SQL, R və s.), həmçinin maşın təlimi alqoritmlərini, kompüter texnologiyalarını istifadə etmək sahəsində bacarıqlarını inkişaf etdirmələrinə ehtiyac vardır.

Nəhayət, Big data-nın təşkili və idarə olunması sahəsində menecerlərin çatışmazlığı. Böyük verilənlər bazaları tez-tez müxtəlif yollarla və fərqli məqsədlər üçün yaradılmış verilənləri birləşdirir. Bu verilənlərə həddindən artıq güvənmək hətta əks təsirlərə səbəb ola bilər; bu risk, İnternet axtarışlarından toplanan məlumatlar üçün xüsusilə böyükdür. Ona görə də iqtisadi analiz zamanı verilənlərin keyfiyyətinə və əldə olunduğu mənbənin etibarlığına diqqət etmək vacibdir. Belə ki, dəqiq iqtisadi nəticələr etibarlı verilənlər və inkişaf etmiş statistik metodların istifadəsi ilə sıx bağlıdır.

## NƏTİCƏ

Böyük verilənlərin müxtəlif sahələrdə istifadəsi, konkret böyük verilənlər bazarından daha çox sosial-iqtisadi potensiala malikdir. Böyük həcmli verilənlərin toplanması, emalı, analizi və istifadəsi ölkələrin iqtisadi inkişafında mühüm rol oynaya bilər. Qeyd edək ki, verilənlərin partlayışlı artımı bir reallıqdır. Bu verilənlərin bütün sahələrdə cəmiyyət, insanlar və biznes üçün dəyərə çevrilməsi labüddür. Lakin Big data və yeni statistik üsullar iqtisadi sahələr üçün bir çox imkanlar təqdim etməklə yanaşı iqtisadçıları bəzi problemlərlə üz-üzə qoyur. Bu problemlər əsasən böyük verilənlərin xüsusiyyətləri, əlyetərliyi, cari analiz model və metodlar, verilənlərin emal sistemləri ilə bağlıdır. Bu problemləri həll etmək üçün iqtisadçılar inkişaf etmiş proqram və kodlaşdırma (proqramlaşdırma) dilləri səviyyəsində, həmçinin maşın təlimi alqoritmlərini, kompüter texnologiyalarını istifadə etmək sahəsində bacarıqlarını inkişaf etdirməlidirlər.

Yuxarıda qeyd olunduğu kimi, gələcəkdə ölkələr arasındakı iqtisadi və siyasi rəqabət böyük verilənlərin potensial istifadəsinə əsaslanacaqdır. Başqa sözlə bütün dünyada verilənlərə əsaslanan iqtisadiyyata keçid qaçılmazdır. Bunun üçün Big data texnologiyalarını, proqram tətbiqləri və biznes modellərini müxtəlif sektorlarda və sahələrdə istifadə etmək vacibdir. Bu, onların təşkilatlar və şəxslər tərəfindən sürətlə tətbiq edilməsini təmin edəcək və əhəmiyyətli dərəcədə inkişaf və rəqabətqabiliyyəti qazanmağı təmin edəcəkdir

## ƏDƏBİYYAT

1. Arne H., “Amount of data created, consumed, and stored 2010-2025”, Jun 7, 2021, https://www.statista.com/statistics/871513/worldwide-data-created/.
2. Big Data: перспективы развития, тренды и объемы рынка больших данных 21 Декабря 2020, https://delprof.ru/press-center/open-analytics/.
3. EU Digital Commissioner: Open Public Data, The Oil Of The Digital Age, 2012, https://www.ip-watch.org/2012/03/05/eu-digital-commissioner-open-public-data/.
4. Əliquliyev R.M., Hacırəhimova M. Ş., "Big Data" fenomeni: problemlər və imkanlar”, İnformasiya texnologiyaları problemləri, 2014, №2, s. 3-16.
5. Hacırəhimova M.Ş., Əliyeva A.S., “İnkişaf etmiş ölkələrin “Big data” ilə bağlı təşəbbüsləri”, İnformasiya cəmiyyəti problemləri, 2017, №1, s.12–23.
6. Horizon 2020 - The EU Framework Programme for Research and Innovation 2014-2020, ec.europa.eu/programmes/horizon2020.

7. Jina X., Benjamin W. W., Chenga X., Wanga Y., "Significance and Challenges of Big Data Research", Big Data Research, 2015, vol. 2, no. 2, pp. 59–64.

8. Khalid B., Chaabita R., "Bıg data ın economıc analysıs: advantages and challenges", İnternational Journal of Social Science and Economic Research, Volume: 04, Issue: 07 "July 2019, 5196-5204.

9. Kimberly M. "Forecast revenue big data market worldwide 2011-2027", Jan 22, 2021, https://www.statista.com/statistics/254266/global-big-data-market-forecast/.

10. Loukides M., "What is data science?The future belongs to the companies and people that turn data into products", June 2, 2010, https://www.oreilly.com/radar/what-is-data-science/.

11. Makrufa Sh. Hajirahimova, Aybeniz S. Aliyeva, "About Big Data Measurement Methodologies and Indicators", International Journal of Modern Education and Computer Science (IJMECS), vol.9, no.10, pp. 1-9, 2017.DOI: 10.5815/ijmecs.2017.10.0.

12. Manyika J., Chui M., Brown B.et al., "Big Data: The Next Frontier for Innovation, Competition, and Productivity", San Francisco, USA: McKinsey Global Institute, 2011, pp. 1-137.

13. Martin H., "Big Data for Development: A Review of Promises and Challenges. Development Policy Review", martinhilbert.net.

14. UN Global Pulse, "Integrating Big Data into the Monitoring and Evaluation of Development Programmes", 2016, http://unglobalpulse.org/.

## *ЭКОНОМИЧЕСКИЙ ПОТЕНЦИАЛ БОЛЬШИХ ДАННЫХ*

*Макруфа ГАДЖИРАГИМОВА,*
*Айбениз АЛИЕВА*

### *Резюме*

*Развитие информационных и коммуникационных технологий позволяет быстро собирать и обрабатывать большие объемы данных. Использование этих данных, называемых большими данными, в экономической и социальной деятельности стимулирует инновации и повышает производительность. В то же время растущий объем, скорость, разнообразие и социально-экономическая ценность данных позволяют изменить парадигму в соответствии с социально-экономической моделью, основанной на данных. Ключевым фактором, который отличает текущую эволюцию и может привести к качественным изменениям, является сочетание технологий больших данных и искусственного интеллекта для манипулирования данными. Однако эти новые базы данных и аналитические методы имеют много преимуществ в области исследований и экономической политики, а также создают некоторые трудности для экономистов. В статье кратко объясняется сущность и преимущества больших данных, а также исследуются потенциальные возможности и проблемы в экономической сфере.*

***Ключевые слова:*** *большие данные, экономический анализ, прогнозная аналитика, экономика данных, рынок больших данных.*

# *THE ECONOMIC POTENTIAL OF BIG DATA*

*Makrufa HAJIRAHIMOVA,*
*Aybeniz ALIYEVA*

***Abstract***

*The development of information and communication technologies allows for the rapid collection and processing of large amounts of data. The use of this data, called Big data, in economic and social activities stimulates innovation and increases productivity. At the same time, the growing volume, speed, diversity and socio-economic value of the data make it possible to change the paradigm in accordance with the data-driven socio-economic model. A key factor that distinguishes the current evolution and could lead to qualitative changes is the combination of Big data and artificial intelligence technologies to manipulate the data. However, even though these new databases and analytical methods have many advantages in the field of research and economic policy, they also pose several challenges for economists. The article the essence and benefits of Big Data are interpreted briefly, and the potential opportunities and challenges are explored in the economic field.*

***Key words****: big data, economic analysis, predictive analytics, data economics, big data market*

*UOT 330.131.3*

# *SU TƏCHİZATI SEKTORUNDA XƏRCLƏRİN AZALDILMASINDA TƏBİİ İNHİSARIN MİQYAS VƏ SIXLIQ EFFEKTLƏRİNİN ÖLÇÜLMƏSİNİN ƏHƏMİYYƏTİ BARƏDƏ*

*Kəmalə Orduxan qızı YUSİBOVA,*
*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, doktorant, kamala.yusibova@mail.ru*

***Xülasə***

*Su və kanalizasiya vacib xidmətlərdəndir, belə ki, onlar iqtisadi tənzimlənmə, ətraf mühitin mühafizəsi, sağlamlıq və ictimai rifaha nail olunmasında əsas yer tutur. BMT-nin Su Təşkilatının GLAAS-a (Global Analysis and Assessment of Sanitation and Drinking Water - Tullantılarının təmizlənməsi və içməli su təchizatının qlobal təhlili və qiymətləndirilməsi 2017-ci il üzrə hesabat) əsasən 80 faiz ölkələrin Minilliyin su təchizatı və tullantıların təmizlənməsi məqsədinə qeyri-səmərəli maliyyələşmə səbəbindən nail ola bilməməsi nəticəsinə gəlinmişdir. Bu səbəbdən Minilliyin məqsədlərinə nail olunması üçün sektorun xərclərinin azaldılması məsələsi ən aktual problemlərdən biridir. Məqalədə su təchizatı və tullantı suların təmizlənməsi xidmətlərinin xərclərinin azaldılması məsələsinə münasibət bildirilir.*

***Açar sözlər**: su və tullantı suların axıdılması xidmətləri üzrə hədəflər, minilliyin inkişaf məqsədləri, təbii inhisarın miqyas və sıxlıq effektləri, xərclərin azaldılması*

## Giriş

Amerikalı iqtisadçı Joskow-a görə bir məhsulu digər müəssisələrə nisbətən ən aşağı qiymətə istehsal edən müəssisə həmin məhsulun istehsalı üzrə təbii inhisardır. Bu fikir 1982-ci ildə Şarney tərəfindən də təsdiqlənmişdir. Bu zaman sektorda tək bir satıcının mövcudluğu miqyas effektinə səbəb olur. [1] Miqyas effekti müəssisənin istehsalını genişləndirdiyi zaman xərclərinin səmərəli bölgüsündə əldə etdiyi qazancı ifadə edir. Qazanc məhsul və xidmətin vahidinə çəkilmiş xərclərlə istehsal olunmuş ümumi miqdar arasındakı tərs mütənasiblikdən meydana çıxır. İstehsal olunmuş məhsul və xidmətin miqdarı artdıqca vahidə çəkilən sabit xərclər aşağı olur. Miqyas effekti həmçinin məhsul və xidmət buraxılışının miqdarının artması ilə dəyişən orta xərclərin aşağı düşməsi kimi də müşahidə olunan effekdir. Bu müəssisənin səmərəli fəaliyyətinin və istehsalı genişləndirməsinin əmələ gətirdiyi müsbət nəticənin göstəricisidir. İstehsalın miqyasının genişləndirilməsindən vahidə düşən sabit xərclərin azalması və daha çox məhsul və xidmətin istehsalına bölüşdürülməsi, vahidə düşən dəyişən xərclərin azalması kimi effektlər alınır. Miqyas effektinin mənfi nəticələrə səbəb olması da müşahidə olunur. Bu zaman müəssisənin istehsalının miqyasını artırması xərclərinin artımı, xərclərin artımı isə öz növbəsində miqyasın gəlirlərinin azalması, müəssisənin idarəedilməsində çətinliklərin yaranması ilə nəticələnir. Başqa bir halda isə miqyasın artırılması müəssisəyə sabit gəlirlər gətirə bilər. Elastiklik neoklassik nəzəriyyənin əsas anlayışlarından biridir. Dolayı vergiqoyma, firma nəzəriyyəsində marjinal məhsul və xidmətlərin istehsalı konsepsiyalarının, istehlakçı seçimi nəzəriyyəsidə bir çox məhsul və xidmətlərin bölgüsü məsələlərində əhəmiyyətlidir. Elastikliyin ölçülməsi ictimai rifah, istehsal və istehlakın artıqlığı, vergi artıqlığı kimi göstəricilərin təhlili üçün vacibdir. İngilis riyaziyyatçısı Alfred Marşala miqyas effektini daxili və xarici olmaqla iki yerə ayırmışdır. Bir müəssisə xərcləri

azaltdıqda və istehsalının həcmini artırdıqda daxili miqyas effekti əldə edilmiş olur. Xarici miqyas effektləri bir firmanın xaricində, bir sənaye sahəsi daxilində meydana gəlir. [3] Təbii inhisarda bircinsli məhsulun istehsalı miqyas effekti üçün kifayət edən və vacib şərtə çevrilir.

**1. İstehsal elastikliyi** Auckland Universitetinin iqtisad elmləri üzrə professoru Panzar və Prinston Universitetinin İqtisadiyyat və ictimaiyyətlə əlaqələr üzrə professoru Willig 1977-ci ildə İsrailin iqtisad elmləri üzrə fəxri professoru Hanok 1975-ci ildə məhsul və xidmət buraxılışının sıxlığı və istehsalın elastikliyi əmsallarını hesablamışlar. İstehsal elastikliyi xərclərdə 1 faiz dəyişikliyin istehsal olunmuş məhsulun həcmində neçə faiz dəyişikliyə səbəb olduğunu müəyyən edir. Bu əmsala əsaslanaraq dəyər [xərc] funksiyasının bazasında sıxlıq və miqyas effektlərini hesablamaq mümkün olmuşdur. Müəlliflərə görə məhsul və xidmət buraxılışının sıxlığı onların buraxılışının elastikliyi ilə qarşılıqlı əlaqədədir. Əlaqəni aşağıdakı kimi ifadə etmişlər:

$$E_d = \frac{1}{\varepsilon y} \qquad (1)$$

Burada Ɛy- istehsal elastikliyidir

$$\varepsilon_y = \frac{\partial \ln TC}{\partial \ln Wdel} \qquad (2)$$

Wdel-istehlakçılara çatdırılmış, təhciz edilmiş su, TC isə çəkilmiş ümumi xərcləri ifadə edir. İstehsal elastikliyi göstəricisi ümumi dəyər funksiyasının istehsal olunmuş xidmətin miqdarına görə törəməsidir.

Su təchizatı müəssisəsi irəlidə Sukanal müəssisəsi kimi qeyd olunacaq. Sukanal idarəsi yəni agent bəzi istehsal mərhələlərində suyun dəyərinin yəni ona çəkilən xərclərin aşağı salınması üçün xərclərin strukturuna dair qərarlar verə bilər. Modeldə xərclərin strukturu və xərc funksiyası aşağıdakı kimi göstərilmişdir:

$$C = c\,(y, w, z, t, f) \qquad (3)$$

Burada y-cəlb edilən resursların miqdarı; w - cəlb edilən resursların qiyməti; z - idarəetmədə dəyişikliklərin qiyməti; t - müşahidə aparılan zaman aralığının qiyməti; f - xidmətdə dəyişikliklərin qiymətini ifadə edir.

Xərclərin kompleksi xidməti göstərən təşkilatın fəaliyyətinə dair əlçatan məlumatların çoxluğundan asılıdır. Su təchizatı və tullantı suların axıdılması xidmətləinin göstərilməsi kommunal xidmətlər üçün ümumi xərc funksiyasının təsvirini hazırlamaq lazımdır. Bunun üçün xidmət göstərilməsinin iki nəticəsindən $Y_{ws}$ istehsal olunmuş ümumi suyun həcmi və $Y_w$ təmizlənmiş ümumi tullantıların həcmi istifadə edilir. Su təchizatı və tullantılarının təmizlənməsi və axıdılması xidmətinin əsas istehsal faktorları əmək, elekrik enerjisi və kapitaldır. Sukanal idarəsi xərcləri azaltmaq üçün bu üç amilə birlikdə düzəliş etməli olacaqdır. Kapital qoyuluşu xərcləri sabit xərclər siyahısında olduğu üçün onların azaldılması real deyil. Bu səbəbdən xüsusi olaraq dəyişən xərclərin müəyyən edilməsi və qısamüddətli dövrdə xərc funksiyasına kapital xərclərinin stabil saxlanılması şərti ilə baxmaq lazımdır. Dəyişən xərclər funksiyası dəyişən resursların və kapital resursları isə dəyişənlərin idarəedicisi kimi daxil edilir. [6] Təklif olunan empirik yanaşmada elektrik enerjisi, əmək haqqı xərci və sair xərclər nəzərə alınır. İstehsala daxil olan xərclərin qiymətləri kompleksi w=($w_c$ $w_e$ $w_l$ $w_0$) kimidir. Əsas kapital xərci su şəbəkəsinin uzunluğu boyu yönəlir. Su təchizatı

müxtəlif ərazilərdə göstərildiyi üçün onun keyfiyyəti də müxtəlif ola bilər. Xərc funksiyasına nəzarət dəyişənlərinin daxil edilməsi bu baxımdan vacib hesab edilir. Bunlar aşağıdakılardan ibarətdir:

Dur (duration) - su təchizatı xidmətinin gündəlik müddəti (saat);

Eff (effectiveness) - ümumi istehsal olunmuş xidmətin həcmi ilə satılan xidmət arasındakı nisbət effektivlik səmərəlilik göstəricisidir;

MCO - şəbəkəyə qoşulma faizi;

Ntow - su təchizatı idarəsinin xidmət göstərdiyi şəhərlərin sayı;

Pbr - cari ildə şəbəkədə baş vermiş qəzaların sayı;

Pop - su təchizatı idarəsinin xidmət göstərdiyi əhalinin sayı;

Vres - əhaliyə satılmış xidmətin faiz göstəricisi.

Dəyər funksiyasının bu şəkildə qiymətləndirilməsi istehsalın miqyas, sıxlıq və digər ölçülərini müəyyən etməyə imkan verir. Əhali qrupunun sayı və şəbəkənin uzunluğu göstəricilərinin sabit qalmasını nəzərə alaraq, istehsal olunan suyun ümumi həcminin dəyişməsi və təmizlənmiş çirkli suyun həcminin buna müvafiq olaraq artıb-azalması yoxlanılır. Dəyərin elastikliyi istehsal olunmuş suyun həcmi və təmizlənmiş tullantıların həcminə nisbətdə aşağıdakı kimi ifadə olunur:

$$\varepsilon_w = \frac{\partial \ln C}{\partial \ln Yws} + \frac{\partial \ln C}{\partial \ln Yww} \qquad (4)$$

Ümumi xərclərin dəyişməsinin istehsal olunmuş suyun həcmi göstəricisinin dəyişməsinə olan nisbəti ilə eyni göstəricinin təmizlənmiş tullantılarının həcminin dəyişməsi göstəricisinə olan nisbətinin cəminə bərabərdir. İstehsalın sıxlığının gəliri:

$$R_{pd} = \frac{1}{\varepsilon w} \qquad (5)$$

Bu göstərici $R_{pd} > 1$ olarsa, istehsalın sıxlığı mövcuddur;

$R_{pd} = 1$ istehsal sıxlığı sabit gəlir gətirir;

$R_{pd} < 1$ istehsalın sıxlığı gəlir gətirmir və iqtisadi cəhətdən səmərəsizdir nəticəsinə gəlməyə kömək edir.

Müştəri sıxlığının elastikliyinin hesablanması göstəricisi su paylayıcı şəbəkənin uzunluğunun sabitliyi vəziyyətində müştərilərin sayının artımının istehsal olunmuş suyun və təmizlənmiş tullantılarının həcminin artması ilə istehsal xərclərinin necə dəyişəcəyini müəyyən etməyə kömək edir.

$$\varepsilon_{pop} = \frac{\partial \ln C}{\partial \ln pop} \qquad (6)$$

ümumi xərclərin dəyişməsinin müştəri sıxlığının dəyişməsinə olan nisbəti;

$$R_{cd} = \frac{1}{\varepsilon w + \varepsilon pop} \qquad (7)$$

müştəri sıxlığının gəliri göstəricisi. [2]

$R_{cd} > 1$ şərti ödənilməlidir. Müştəri sıxlığı göstəricisi şəbəkənin hər metrinə düşən müştərilərin sayıdır. Bu göstərici xüsusilə İEOÖ üçün vacibdir, çünki bu əhalinin təmiz su və kanalizasiya xidmətləri ilə təchiz olunması səviyyəsini müəyyən edir. Müstəri sıxlığı təmin olunarsa, şəbəkəyə yeni qoşulma orta xərclərin azalması ilə müşahidə olunacaq.

Miqyas istehsalı

Xərclərin elastikliyini şəbəkənin uzunluğuna görə hesablasaq,

$$\varepsilon_n = \frac{\partial \ln C}{\partial \ln leng} \quad (8)$$

Ümumi xərclərin dəyişməsinin ümumi şəbəkənin uzunluğunun dəyişməsinə olan nisbətidir. Bu zaman miqyas istehsalının gətirdiyi gəlir,

$$RTC = \frac{1-\varepsilon n}{\varepsilon w+\varepsilon pop} \quad (9)$$

kimi hesablanacaqdır.

İstehsalın miqyas effekti RTC > 1 şərtində mövcuddur. RTC=1 şərtində istehsal sabit gəlirlə təmin olunub. RTC < 1 şərtində isə son hədd xərclərinin vasitəsilə təyin olunan qiymət istehsalın faktiki xərclərini aşmır deməkdir.

Uzunmüddətli dövrdə istehsalın miqyasına görə gələn gəlirlər müştəri sıxlığının gəlirləridir. İstehsala daxil olan resursların miqdarında olan dəyişikliklərə görə onların qiymətlərinin sabit qalması şəraitində ümumi xərclərin azalması müşahidə olunacaqdır. [2]

**Su təchizatı müəssisəsi-sukanal idarəsinin istehsal elastikliyi göstəricilərinin təhlili**

***Cədvəl №1. İstehsal elastikliyinin ümumi xərclər və təchiz edilmiş xidmətin ümumi dəyərinə əsasən hesablanması***

| Göstəricilər | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| İstehlakçılara göstərilmiş su təchizatı xidmətinin dəyəri | 138821.5 | 140452.5 | 151351.9 | 158970.2 | 162141.4 | 186963.6 | 190909.0 | 200207.2 | 217309.3 |
| Çəkilən ümumi xərclər (min manatla) | 145231.0 | 176897.2 | 211103.6 | 201050.1 | 263977.1 | 291177.1 | 322240.5 | 313345.0 | 367915.6 |
| İstehsal elastikliyi | | 19.4 | 3.1 | -1.3 | 19.8 | 1.1 | 7.9 | -1.0 | 3.2 |

*Mənbə: “Azərsu” ASC-nin maliyyə-iqtisadi göstəriciləri*

***Cədvəl №2. İstehsal elastikliyinin xərclərin strukturuna əsasən hesablanması***

| Göstəricilər | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| Əmək haqqı xərcləri (DSMF daxil) | 42960.71 | 53849.6 | 57227.1 | 63423.4 | 62843.0 | 68204.3 | 66347.7 | 70980.8 | 95764.2 |
| Əmək haqqı xərclərinin dəyişməsinə görə istehsal elastikliyi | | 6.7 | 0.3 | 0.8 | -0.2 | 0.2 | -0.5 | 0.5 | 1.4 |
| Elektrik enerjisi xərcləri | 31605.0 | 32292.9 | 32759.3 | 32705.8 | 32032.4 | 33620.7 | 44723.5 | 47155.8 | 47328.7 |
| Elektrik enerjisi xərclərinin dəyişməsinə görə istehsal elestikliyi | | 0.42 | 0.04 | -0.01 | -0.21 | 0.1 | 2.8 | 0.3 | 0.0 |
| Amortizasiya xərcləri | 35010.9 | 37951.0 | 44777.5 | 47517.3 | 77042.6 | 129419 | 155688.8 | 143356.5 | 166956.6 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Amortizasiya xərclərinin dəyişməsinə görə istehsal elestikliyi | | 1.8 | 0.6 | 0.4 | 9.3 | 2.1 | 6.7 | -1.3 | 1.4 |
| Digər xərclər | 35654.4 | 52803.7 | 76339.7 | 57403.6 | 92059.1 | 59933.2 | 55480.5 | 51851.9 | 57866.1 |
| Digər xərclərin dəyişməsinə görə istehsal elestikliyi | | 10.5 | 2.2 | -2.5 | 10.9 | -1.3 | -1.1 | -0.4 | 0.4 |
| Cəmi | | 19.4 | 3.1 | -1.3 | 19.8 | 1.1 | 7.9 | -1.0 | 3.2 |

*Mənbə: "Azərsu" ASC-nin maliyyə-iqtisadi göstəriciləri*

Maliyyə-iqtisadi göstəricilər su təchizatı və tullantıların təmizlənməsi və axıdılması xidməti ilə birlikdə ümumi təhlil edilmişdir. Qeyd edək ki, ölkə üzrə su təchizatı və tullantı suların təmizlənməsi və axıdılması xidmətinin qiyməti tarif şurası tərəfindən müəyyən olunur. Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üzrə su təchizatı xidmətinin 1 kubmetrinin qiyməti 0.35 AZN, digər inzibati ərazi vahidləri üçün 0.30 AZN, qeyri-əhali qrupu üçün 1 AZN, tullantı suların axıdılması xidmətinin 1 kubmetr xidmətin qiyməti əhali qrupları üçün 0.15 AZN, qeyri-əhali qrupu üzrə isə 1 AZN təşkil edir. [10]

Sukanal idarəsi su təchizatı və tullantı suların axıdılması xidmətinin dəyərini xərclərini ayırmadan birlikdə müəyyən edir və hesablama aparır. Sukanal idarəsinin ümumi xərcləri və istehsal etdiyi xidmətin ümumi dəyəri haqqında informasiyaya malik olduğumuz üçün modelin ilkin variantındakı nəzarət dəyişənlərinin qiymətlərini ayrı-ayrılıqda aydınlaşdırmağa xərc funksiyası vasitəsilə çəkilən ümumi xərcləri hesablamağa ehtiyac olmamışdır. Müşahidə apardığımız və istehsal-miqyas elastikliyini hesabladığımız dövrdə su təchizatı müəssisəsinin istehsal elastikliyinin istehlakşılara çatdırılmış su təchizatı xidmətinin dəyəri ilə onların istehsalına çəkilmiş xərclərin dəyişməsi arasında asılılıq 2012, 2015 və 2017-ci illərdə kəskin, 2013, 2014, 2018, 2019-cu illərdə isə az kənarlaşma ilə qeydə alınmışdır. 2016-cı ilin göstəricisinin 1.1 olması su təchizatı xidmətinin xərcləri örtə bilən sabit gəlirlə fəaliyyət göstərdiyini deməyə əsas verir. Miqyas elastikliyinin 1-dən kiçik alınan qiymətlərinin müşahidə olunduğu 2014 və 2018-ci illərdə istehsal olunan xidmətlərinin həcminin su təchizatı müəssisəsinin səmərəli fəaliyyət göstərməsi şərti üçün kifayət etməməsinin göstəricisidir. İstehsal elastikliyinin illər üzrə ayrı-ayrı xərclərin dəyişməsinə görə alınan nəticələrini təhlil etsək yuxarıda deyilənləri daha ətraflı açıqlamış olarıq.

Su təchizatı müəssisəsinin istehsal elastikliyi cəmi xərcləri əmək haqqı, elektrik enerjisi, amortizasiya xərcləri olmaqla əsas və digər xərclər kimi hissələrlə təhlil edilmişdir. 2012-ci ilin göstəricilərinə nəzər yetirsək istehsal elastikliyinin yüksək alınmasının səbəbini istehlakçılara çatdırılmış suyun miqdarının cəmi 1.17% artmasına qarşı əmək haqqı xərclərinin 25.3%, digər xərclərin də eyni zamanda 10.5% artmasının müşahidə olunması ilə izah etmiş olarıq. Bu xərclər idarəetmə qərarları və struktur dəyişikliyinin nəticəsində artmışdır. 2015-ci ilin xərclərinin strukturuna nəzər salsaq amortizasiya xərclərinin 2014-cü ilə nisbətən 62.1% artdığını, təchiz edilmiş suyun-göstərilmiş xidmətin dəyərinin isə cəmi 2% artdığını görmüş oluruq. Bununla da istehsal elastikliyi göstəricisi də normanı 19.4 dəfə üstələmişdir. Amortizasiya xərclərinin artmasının müəssisənin balansına yeni şəbəkələrin, su təchizatı qurğularının, tikililərin alınması göstəricilərinin artımı ilə bağlı olduğunu deyə bilərik. 2017-ci ilin göstəricilərinə əsasən istehlakçılara çatdırılmış su təchizatı xidmətinin dəyərinin 2016-ci ilə nisbətən 2.1% artmasına qarşı əmək haqqı xərclərinin 2.7%, digər

xərclərin 7.4% azalması, elektrik enerjisi xərclərinin 33%, amortizasiya xərclərinin isə 20.3% artmasının istehsal elastikliyinin 5.06 dəfə normanı keçməsinə səbəb olduğunu görmüş oluruq.

İstehsal elastikliyi göstəricisinin 1.1-ə, istehsal sıxlığının səmərəli olduğunu göstərən normaya yaxın olduğu 2016-cı ilə xüsusi nəzər yetirək. Təchiz edilmiş su xidməti əvvəlki ilə nisbətən 15.31% artmışdır, əmək haqqı xərcləri 8.5%, elektrik enerjisi xərcləri 5% artmışdır. Amortizasiya xərcləri isə ötən ilin artım faizini cəmi 5.9% üstələmişdir. Digər xərclər 34.9% azalmışdır. Beləliklə 2016-cı il istehsalın miqyas effektinin müşahidə olunduğu ildir. Bu ildə istehlakçılara çatdırılmış su təchizatı xidmətinin ümumi dəyəri ilə müəssisənin xərclərinin dəyişməsi elastikdir. Miqyas effektində də qeyd olunan kimi göstərilən xidmətin miqdarı və uyğun olaraq dəyərinin artması onların istehsalına çəkilən xərclərin artımını üstələyir. Müəssisə istehsalın miqyasını artırarkən xərclərin istehsal olunmuş xidmətin dəyərinə nisbətən elastikliyi göstəricisi 1-ə bərabər olur və ya elastik olur.

**Nəticə**

Göstəricilərin təhlili istehsal elastikliyi göstəricisinin müəssisənin xərclərinin dəyişməsi ilə göstərdiyi ümumi xidmətin dəyərinin dəyişməsi arasında asılılığın mövcud olduğunu və xərclərin azaldılması məqsədilə bu asılılığa nəzarət olunaraq idarəetmə qərarlarının verilməli olduğunu təsdiqləyir. İstehlakçılara çatdırılmış və ya təhciz edilmiş xidmətin dəyərinin dəyişməsinin ən yüksək müşahidə olunduğu ildə xərclərin elastikliyinin mövcud olması istehsalın miqyasının genişləndirilməsinin xərclərdə olan dəyişikliyə mütənasib aparılmalı olduğunu sübut edir. Su təchizatı və tullantı suların axıdılması sektorunda xərclərin azaldılması sektor üzrə xidmət şəbəkəsinin genişləndirilməsi ilə paralel aparılmalıdır. Xərclərə daxil olan nəzarət dəyişənlərinin müşahidə aparılan dövrdə dəyişməsi xərclərin dəyişməsində də öz təsirini göstərmişdir. Xərclərin azaldılması məsələsində onlara xüsusi nəzarət edilməsi vacibdir. Minilliyin su təchizatı və tullantı suların təmizlənməsi və axıdılması üzrə məqsədlərinə nail olunması üçün sukanal müəssisəsinin maliyyə və təsərrüfat fəaliyyətinin nəticələrinin təhlil edilməsi üçün istehsalın miqyas effekti modelinə əsaslanmasını təklif edirəm.

## Ə D Ə B İ Y Y A T


1. André de Palma, Julien Monardo CREST ENS "Natural Monopoly in Transport" Paris, University of Paris-Saclay, -2019, 11s.
2. Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi, - Bakı, -2016, 106 s.
3. Campbell R. Mcconnell "Economics prıncıples, problems, and polıcıes" 13th edıtıon [21 editions]. – 1999, - 984 s.
4. Corporate Finance Institute rəsmi internet ünvanı [https://corporatefinanceinstitute.com/ ].
5. Douglas W Caves, Laurits R Christensen and Joseph Swanson "Productivity Growth, Scale Economies, and Capacity Utilization in U.S. Railroads" American Economic Review, - 1981, vol. 71, issue 5, -1002 s.
6. GLAAS (Global Analysis and Assessment of Sanitation and Drinking Water) "Financing Universal Water, Sanitation And Hygiene Under The Sustainable Development Goals" BMT-nin Su Təşkilatının hesabatı –Cenevrə, -2017, 96 s.

7. John C Panzar and Robert D Willig “Economies of Scope” American Economic Review, -1981, vol. 71, issue 2, 268 s.

8. Nauges, Céline; van den Berg, Caroline. How "Natural" are Natural Monopolies in the Water Supply and Sewerage Sector? Case Studies from Developing and Transition Economies. Policy Research Working Paper; No. 4137. World Bank, Washington, DC. – 2007, 38 s.

9. Principles of Economics By Alfred Marshall 8th edition [8 editions] London - Macmillan and Co., Ltd 1920 (s-69)-(1920). - 699 s.

10. Tarif Şurasının rəsmi internet səhifəsi [http://www.tariffcouncil.gov.az/]

11. Wikipedia Academic Dictionaries and Encyclopedias [https://en-academic.com/]

## *ВАЖНОСТИ ИЗМЕРЕНИЯ ЭФФЕКТА МАСШТАБА И ПЛОТНОСТИ ЕСТЕСТВЕННЫХ МОНОПОЛИЙ В СНИЖЕНИИ ЗАТРАТ В СЕКТОРЕ ВОДОСНАБЖЕНИЯ*

*Камала ЮСИБОВА*

***Резюме***

*Вода и санитария являются важными услугами, поскольку они играют ключевую роль в достижении экономического регулирования, защиты окружающей среды, здравоохранения и общественного благосостояния. Согласно GLAAS (Глобальный анализ и оценка состояния санитарии и питьевой воды-отчет за 2017 год) восемьдесят процентов стран не смогли достичь Целей Тысячелетия в области водоснабжения и санитарии из-за неэффективного финансирования. Поэтому сокращение расходов сектора на достижение Целей развития тысячелетия - одна из самых актуальных проблем. В статье рассматривается вопрос снижения стоимости услуг водоснабжения и водоотведения.*

***Ключевые слова:*** *Целевые показатели по услугам водоснабжения и очистке сточных вод, Цели Развития Тысячелетия, эффект масштаба и плотности естественных монополий, снижение затрат.*

## *THE İMPORTANCE OF MEASURİNG THE SCALE AND DENSİTY EFFECTS OF NATURAL MONOPOLİES İN REDUCİNG COSTS İN THE WATER SUPPLY SECTOR*

*Kamala YUSİBOVA*

***Abstract***

*Water and sanitation are important services as they play a key role in achieving economic regulation, environmental protection, health and public welfare. According to GLAAS (Global Analysis and Assessment of the State of Sanitation and Drinking Water - Report 2017), eighty percent of countries have failed to meet the goals of the Millennium water and sanitation targets due to ineffective funding. Therefore, reducing sector spending on achieving the Millennium Development Goals is one of the most*

*pressing problems. The article discusses the issue of reducing the cost of water supply and sanitation services.*

***Key words:*** *Water and sanitation targets, Millennium Development Goals, scale and densıty effects of natural monopoly, cost reductıon*

UOT 33.338

# *KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA “BİRLƏŞDİRİLMİŞ İXRAC” MARKETİNQ MODELİNİN PERSPEKTİVLƏRİ*

*Sənan Hacıağa oğlu YƏHYA,*
*Azərbaycan Respublikası Müdafiə Nazirliyi,*
*Bakı Qarnizonu Mənzil-İstismar hissəsinin aparıcı mühəndis iqtisadçısı,*
*marketing_sanan@mail. ru*

***Xülasə***

*Verilmiş məqalədə 1998-ci ildə aparılan torpaq islahatlarının nəticəsi olaraq Respublikada 620000-dən çox ailə-kəndli təsərrüfatının formalaşması və ümumi torpaq bölgüsündə 97% torpaqların kiçik paya sahib ailə-kəndli təsərrüfatlarının payına düşməsi qeyd olunmuşdur. Bunun nəticəsi olaraq Azərbaycan Respublikasında ailə-kəndli təsərrüfatlarının kənd təsərrüfatı məhsullarının istehsalında payının 90%-dən yuxarı olması bu sahənin potensialından xəbər verir.*

*Ailə kəndli təsərrüfatlarının2000-2019-cu ilədək istehsal payları, kənd təsərrüfatı (heyvandarlıq, bitkiçilik, ərzaq) mallarının xarici ticarət balansı təhlil edilərək mövcud ixrac problemləri göstərilmiş və kənd təsərrüfatı məhsullarının ixrac problemlərinin həll edilməsi istiqamətində “Birləşdirilmiş ixrac” modeli müəllif tərəfindən təklif edilmişdir.*

***Açar sözlər:*** *marketinq, qeyri-neft sektoru, kənd təsərrüfatı, istehsal, tədqiqat*

## Giriş

Məlum olduğu kimi, XX əsrin ikinci yarısından etibarən, marketinq fəaliyyəti inkişaf etməyə, müəssisələrin fəaliyyətinin səmərəliliyinin artırılmasında önəmli rol oynamağa başladı. Müasir bazar iqtisadiyyatı sistemində firmalar, müəssisələr öz bazar paylarını artırmağa, mənfəətlərini maksimallaşdırmağa çalışırlar. Bu məqsədlə də marketinq fəaliyyətlərini genişləndirirlər. Uğurlu marketinq fəaliyyəti firmanın inkişafına xidmət edir və onun bazar payını artırmağa şərait yaradır, iqtisadiyyatın rəqabətədavamlı inkişafını formalaşdırır.

Bir sıra müəssisələrin müxtəlif səbəblərdən marketinq fəaliyyətlərində dövlətin dəstəyinə ehtiyacı olur. Dövlət özünün marketinq fəaliyyəti ilə (birbaşa olmasa da, dolayısı ilə) firmaların istər daxili, istərsə də xarici bazarlarda fəaliyyətlərini genişləndirmələrinə yardımçı olur. Bazarda kəskin rəqabətin olduğu müasir şəraitdə marketinqin rolu artmaqdadır.

Azərbaycan Respublikasında dövlət marketinq fəaliyyətinin artırılması istiqamətlərindən biri kənd təsərrüfatı sahəsidir ki, strateji hədəf olaraq görülür.

Cədvəl 1-dən göründüyü kimi son 20 ildə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalında 6 dəfədən artıq istehsal artımı olduğu halda ixracında problemlər yaranmışdır. Qəbul olunan proqramlar ölkədə rəqabətə davamlı məhsulların istehsalının təmin edilməsi və istehsalçıların ixrac fəaliyyətlərinin stimullaşdırılmasını məqsəd olaraq qarşıya qoymuşlar.

Azərbaycan Respublikasının 36% əmək ehtiyatlarının bu sektorda çalışmasını və ixracın genişləndirilməsini özündə əks etdirən 2016-cı il 06 dekabr tarixində təsdiqlənən “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” qəbul edilmişdir. [1] Lakin 2019-cu ildə statistik təhlil üsulu ilə aparılan araşdırma göstərir ki, ÜDM-in istehsalında kənd təsərrüfatı

məhsullarının payı 5.7% təşkil edir. Bu göstərici bu sahədə çalışan əmək ehtiyatlarının potensialına uyğun deyil.

***Cədvəl 1. Kənd təsərrüfatının ÜDM-də payı və kənd təsərrüfatında məşğul əhalinin payının müqayisəli qiymətləndirilməsi***

| İllər | 2000 | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| ÜDM milyon manat/dollar | 4718,1<br>5272,8 | 42465,0<br>52909,3 | 59014,1<br>75234,7 | 54380,0<br>52996,8 | 60425,2<br>37862,8 | 70337,8<br>40867,9 | 80092,0<br>47112,9 | 81896,2<br>48174,2 |
| ÜDM-də kənd təsərrüfatının payı, min manat | 758,9<br>16,1% | 2344,6<br>5,5% | 3139,2<br>5,3% | 3359,4<br>6,2% | 3386,8<br>5,6% | 3944,1<br>5,6% | 4174,8<br>5,2% | 4664,2<br>5,7% |
| Kənd təsərrüfatında məşğul əhali | 1509,4<br>39,2% | 1655,0<br>38. 2% | 1691,7<br>36,7% | 1698,4<br>36,4% | 1729,6<br>36,3% | 1752,9<br>36,4% | 1770,8<br>36,3% | 1777,7<br>36,0% |

*Mənbə: Dövlət Statistika Komitəsi www. stat. gov. az [7]*

## 1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının ticarət balansının təhlili

Azərbaycan Respublikasında 1998-ci ildə aparılan torpaq islahatı nəticəsində 620000-dən çox ailə-kəndli təsərrüfatı formalaşmışdır. Ümumtorpaq bölgüsündə 97% torpaq kiçik paya sahib ailə-kəndli təsərrüfatlarının payına düşüb. [10] Mövcud proseslərin təhlili göstərir ki, torpaq islahatı ilə meydana gələn kiçik-ailə təsərrüfatları köklü dəyişikliklərin idarə olunmasında çətinliklərlə üzləşiblər. Hər zaman istehsal etdikləri məhsulun alıcısı dövlət olaraq, bazarları da dövlət idarə edirdi. Mövcud vəziyyət torpaq islahatlarından öncəki dönəmdən çox fərqlənir və ailə-kəndli təsərrüfatları dövlətin icra etmiş olduğu bir çox funksiyanı fərdi formada həyata keçirir. Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının (bitkiçilik və heyvandarlıq) istehsalı statistikasında ailə-kəndli təsərrüfatlarının istehsal payı ümumi kənd təsərrüfatı məhsullarının istehsalının 90%-dən çoxunu təşkil edir. Lakin ailə-kəndli təsərrüfatlarının mühüm hissəsi dövlətin həyata keçirdiyi marketinq üzrə maarifləndirmə (rəqabətqabiliyyətli məhsul yetişdirilməsi və satışa dəstək) tədbirlərindən faydalana bilmir.

***Cədvəl 2. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının (bitkiçilik və heyvandarlıq) istehsalı (təşkilat və istehsal növünə görə (mln manat))***

| İllər | 2000 | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi kənd təsərrüfatı sektoru | 1112,4 | 3877.7 | 5225.8 | 5635,3 | 5632,4 | 6580,0 | 7010,0 | 7836,7 |
| Kənd təsərrüfatı müəssisələri | 23,9 | 192.6 | 404.5 | 410,1 | 449,2 | 645,4 | 660.9 | 713.2 |
| Ailə-kəndli təsərrüfatları | 1088,5 | 3685.1 | 4821.3 | 5225,2 | 5183,2 | 5934,6 | 6349.1 | 7123.5 |

*Mənbə: Dövlət Statistika Komitəsi www. stat. gov. az [7]*




*Qeyd: Şəkil müəllif tərəfindən hazırlanmışdır*

**Şəkil 1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının ( bitkiçilik və heyvandarlıq) istehsalı (təşkilati və istehsal növünə görə (mln manat))**

Cədvəl 2-yə nəzər yetirdikdə görürük ki, ümumi kənd təsərrüfatı məhsullarının istehsalı 2019-cu ilə nisbətdə 2000-ci ildə 7 dəfədən çox artmışdır. Kənd təsərrüfatı müəssisələrinin məhsul istehsalı 30 dəfə yüksəlmişdir. Ailə-kəndli təsərrüfatlarının məhsul istehsalı 6.5 dəfə yüksəlmişdir. Bu yüksəlişlər ölkə üzrə kənd təsərrüfatı məhsullarının idxalının azalmasına təsir etməmişdir.

Azərbaycan Respublikasında ümumi kənd təsərrüfatı sektoru üzrə məhsul istehsalı 2000-ci ildə 1112.4 milyon manat təşkil etmişdir. 2000-ci ildə ümumi kənd təsərrüfatı sektoru üzrə məhsul istehsalının tərkibində kənd təsərrüfatı müəssisələrinin payı 23.9 milyon manat (2.2%), fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarının payına baxdıqda aydın olur ki, ailə kəndli təsərrüfatlarının payı 1088.5 milon manat (97.8%) təşkil etmişdir.

2010-cu ildə ümumi kənd təsərrüfatı sektoru üzrə məhsul istehsalı 3877.7 milyon manat təşkil etmişdir ki, onun tərkibində kənd təsərrüfatı müəssisələrinin payı 192.6 milyon manat (5%), fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarının payını araşdırdıqda aydın olur ki, ailə-kəndli təsərrüfatlarının payı 3685.1 milon manat (95%) olmuşdur.

2019-cu ildə ümumi kənd təsərrüfatı sektoru üzrə məhsul istehsalı 7836,7 milyon manat təşkil etmişdir ki, onun tərkibində kənd təsərrüfatı müəssisələrinin payı 713.2 milyon manat (9.1%), fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarının payınanəzər saldıqda görürük ki, ailə-kəndli təsərrüfatlarının payı 7123.5 milon manat (90.9%) təşkil etmişdir.

Azərbaycan Respublikasında kənd təsərrüfatı (heyvandarlıq, bitkiçilik, ərzaq) məhsullarının xarici ticarət balansında yeri idxal-ixracın 2019-cu il göstəricilərinə əsasən, 1 milyard dollardan artıqdır. Bu təhlil göstərir ki, ölkədə kənd təsərrüfatı məhsullarının əsas istehsalçısı olan ailə-kəndli təsərrüfatlarının ixrac problemi vardır. [7]

**`Cədvəl 3. Kənd təsərrüfatı (heyvandarlıq, bitkiçilik, ərzaq) mallarının xarici ticarəti**

| Mal qrupları | 2000 | 2010 | 2011 | 2012 | 2014 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| İxrac (mln ABŞ dolları) | | | | | | | | |
| Cəmi kənd təsərrüfatı və ərzaq malları | 53.3 | 405 | 543.3 | 610.5 | 650.5 | 641.9 | 688.3 | 753.7 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Ondan: | | | | | | | | |
| Heyvandarlıq məhsulları | 0.5 | 0.5 | 0.7 | 0.7 | 3.3 | 12.6 | 12.1 | 23.2 |
| Bitkiçilik məhsulları | 28.6 | 190.3 | 268.8 | 308.1 | 331.1 | 518.4 | 585.5 | 625.9 |
| Ərzaq malları | 24.2 | 214.2 | 273.8 | 301.7 | 316.1 | 110.9 | 90.7 | 104.6 |
| İdxal (mln ABŞ dolları) | | | | | | | | |
| Cəmi kənd təsərrüfatı və ərzaq malları | 210.6 | 1136.4 | 1298.1 | 1335.2 | 1465.6 | 1551.4 | 1562.3 | 1784.8 |
| Ondan: | | | | | | | | |
| Heyvandarlıq məhsulları | 31.6 | 82.6 | 118.7 | 113.8 | 149.6 | 255.9 | 278.9 | 299.5 |
| Bitkiçilik məhsulları | 119.5 | 437.4 | 519.6 | 500.1 | 427.0 | 559.5 | 560.0 | 745.7 |
| Ərzaq malları | 59.5 | 616.4 | 659.8 | 721.3 | 889.0 | 736.0 | 723.4 | 739.6 |
| Saldo (mln ABŞ dolları) | | | | | | | | |
| Cəmi kənd təsərrüfatı və ərzaq malları | -157.3 | -731.4 | -754.8 | -724.7 | -815.1 | -909.0 | -874.0 | -1031.1 |
| Ondan: | | | | | | | | |
| Heyvandarlıq məhsulları | -31.1 | -82.1 | -118 | -113.1 | -146.3 | -243.3 | -266.0 | -276.3 |
| Bitkiçilik məhsulları | -90.9 | -247.1 | -250.8 | -192 | -95.9 | -41.1 | 25.5 | -119.8 |
| Ərzaq malları | -35.3 | -402.2 | -386 | -419.6 | -592.7 | -625.1 | -623.7 | -1031.1 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi məlumatlari əsasında saldo müəllif tərəfindən hesablanıb. [2], [3]*




*Qeyd: Şəkil müəllif tərəfindən hazırlanmışdır.*

**Şəkil 2. Kənd təsərrüfatı (heyvandarlıq, bitkiçilik, ərzaq) mallarının xarici ticarət balanslı**

Cədvəl 3-dən aydın olur ki, kənd təsərrüfatı (heyvandarlıq, bitkiçilik, ərzaq) mallarının xarici ticarət saldosu (mln ABŞ dolları) 2000-ci ildə (idxal-ixrac) 153.3

milyon dollar təşkil edirdisə, 2019-cu ilə bu göstərici 1031.1 milyon dollardan artıq olmuşdur. Mənfi saldo 6.6 dəfə yüksəlmişdir.

Dünya bankının (2000-2019) statistik məlumatlarının təhlili göstərir ki, ailə-kəndli təsərrüfatları tərəfindən istehsal edilən kənd təsərrüfatı məhsulları beynəlxalq standartlara cavab vermədiyi üçün ənənəvi Rusiya bazarlarına istiqamətlənirlər. Cədvəl 4-ə nəzər yetirdikdə görürük ki, 2015-2019-cu illlərin (bitki, ərazaq, heyvan) ixrac statistikasının təhlili göstərir ki, Rusiya bazarlarından asılılığın dərinləşməsi davam edir.

***Cədvəl 4. Azərbayca Respublikasının kənd təsərrüfatı (vegetable, food products, animal) mallarının xarici ticarətində Rusiyanın dünya dövlətlərinə nisbətdə payı faizlə (min ABŞ dolları)***

| Mal qrupları | 2000 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Dünya | 56708,75 | 593366,87 | 770466,15 | 525543,14 | 658910,38 | 704416,26 | 729474,72 |
| Rusiya Federasiyası | 24138,32 | 451647,9 | 268076,38 | 323378,58 | 445420,3 | 520758,55 | 572589,99 |
| İxracda Rusiyanın payı % | 42,6% | 76,1% | 34,8% | 61,5% | 67,6% | 73,9% | 78,5% |

*Mənbə: Dünya Bankı https://wits. worldbank. org/ [6]*

Azərbaycan Respublikasında ixracın təşviqi sahəsində İxracın və İnvestisiyaların Təşviqi Fondu, Kiçik və Orta Sakibkarlığın İnkişafı Agentliyi və “Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyi fəaliyyət göstərir. AZPROMO [9] və KOBİA əsasən ixracın təşviqi sahəsində 4 istiqamətdə (informasiya, hüquqi, təşkilati və marketinq dəstəyi) fəaliyyətlərini davam etdirirlər. Fərdi formada meyvə və tərəvəz istehsalı və ixracı ilə məşğul olan fiziki və hüquqi şəxslərə nisbətdə ailə-kəndli təsərrüfatlarının maarifləndirilməsi zəif təşkil edilmişdir. Buna misal olaraq 16 sentyabr 2016-cı ildə “Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyi təsis edilmişdir. Məqsəd ölkədə meyvə və tərəvəz istehsalı və ixracı ilə məşğul olan sahibkarların fəaliyyətini əlaqələndirmək, onlar arasında əməkdaşlığı genişləndirmək, ümumi meyvə-tərəvəz istehsalını artırmaq, ölkənin ixrac imkanlarını genişləndirmək məqsədi ilə təsis edilmişdir. Bu günədək Assosiasiyanın 60 üzvü var. Lakin Azərbaycan Republikasında ailə-kəndli təsərrüfatlarının sayı 600000-dən yuxarıdır.

Nəticədə ailə-kəndli təsərrüfatları ciddi maddi itkilərə məruz qalırlar. Mövcud vəziyyət ümumi kənd təsərrüfatına və regionların sosial-iqtisadi inkişafına mənfi təsir göstərir.

## 2. Ailə-kəndli təsərrüfatlarının ixrac problemləri

Azərbaycan Respublikasının ərzaq balansı statistikasına nəzər yetirdikdə görürük ki, bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi bəzi sahələr üzrə 2009-cu ildən 2019-cu ilədək 100%-dən artıq təmin etsə də, bir çox ərzaq məhsullarının özünü təminetmə səviyyəsi 100% həcmində olmamışdır. Aparılan statistik təhlil göstərir ki, ölkədə istehsal edilən məhsulların daxili və xarici bazarlarda satış problemi olduğu üçün kənd təsərrüfatı məhsullarının idxalı ilə nisbətdə yüksək ixrac dinamikası müşahidə olunmur.

Avropa İttifaqının Şərq tərəfdaşlığı çərçivəsində ixrac güzəştləri tətbiq etməsinə baxmayaraq, Azərbaycan Respublikasında ailə-kəndli təsərrüfatları subyektiv və

obyektiv problemlərin səbəbindən ənənəvi satış bazarlarının asılılığından qurtara bilmirlər. Subyektiv səbəblərə aid məlumatsızlıq və təcrübəsizliklə əlaqəli olan amilləri aşağıdakı sıralamada qeyd etmək olar:

• ailə-kəndli təsərrüfatlarının istehsal və ixrac potensialının mövcud vəziyyətinin düzgün qiymətləndirilməməsi;

•ixracyönümlü rəqabətqabiliyyətli məhsul istehsalı məqsədilə ailə-kəndli təsərrüfatlarının məhsulların standartlaşdırılması, sertifikatlaşdırılması, etiketləndirilməsi və qablaşdırılması qaydaları üzrə məlumatsızlıq;

• ixrac edilən məhsulun üçüncü ölkələrin ərazisində malın mənşəyində dəyişikliyə səbəb olacaq şəkildə mal üzərində etiket dəyişikliklərinin qadağası haqqında məlumatsızlıq;

• Avropa İttifaqının kənd təsərrüfatı məhsullarının istehsalının qanunvericilik bazası haqqında ailə-kəndli təsərrüfatlarının məlumatsızlığı;

• idarəetmədə keyfiyyətə nəzarət sistemlərinin formalaşmaması;

• Avropa İttifaqının və Azərbaycan Respublikasının qanunvericilik bazası üzrə gömrük keçid qaydaları haqqında məlumatsızlıq;

• kiçik pay torpaqlarına sahib olan ailə-kəndli təsərrüfatlarının fərdi qaydada ixracı həyata keçirməklə, yüksək xərc itkisinə məruz qalması;

• ailə-kəndli təsərrüfatlarının Rusiya bazarlarından başqa potensial xarici bazarlar haqqında məlumatsızlıqları. [10]

Subyektiv problemlərin həllinə mane olan amillər isə aşağıdakılardan ibarətdir:

1) ailə-kəndli təsərrüfatlarının maliyyə imkanlarının zəif olması nəticəsində istehsal olunan malların yerli və xarici bazarda tanıdılması (reklam) həyata keçirilmir;

2) ailə-kəndli təsərrüfatlarının yerli və xarici bazarlarda araşdırma aparma imkanlarının olmaması;

3) ailə-kəndli təsərrüfatlarının ixracat sahəsində (texniki və hüquqi) təcrübəsizlikləri;

4) ailə-kəndli təsərrüfatlarının xarici ticarətlə bağlı təcrübəsizliyi mövcuddur;

5) ailə-kəndli təsərrüfatlarında istehsal və satışda beynəlxalq keyfiyyət standartlarının və idarəetmə korporativ menecmentinin tətbiqi həyata keçirilmir;

6) ailə-kəndli təsərrüfatlarının maliyyə mənbələrinə (kreditlər) çıxış imkanlarının məhdud olması;

7) müasir texnoloji avadanlıqların qiymətinin yüksək olması.

Obyektiv səbəblər isə Azərbaycan Respublikasında dövlət marketinq fəaliyyətini həyata keçirən dövlət və qeyri-dövlət təşkilatlarının dünya təcrübəsinə uyğun olmayan praktik, nəzəri və qarşılıqlı əlaqəli milli ixrac strategiyasını tətbiq etməmələridir.

Sahibkarlığın İnkişafı Fondu, İxracın və İnvestisiyaların Təşviqi Fondu ailə-kəndli təsərrüfatlarına marketinq və ixrac dəstəyinin genişləndirilməsini dinamik olaraq həyata keçirməlidirlər. Kənd təsərrüfatı və ərzaq mallarının ixracının artırılması xarici ticarət balansının optimallaşdırılması baxımından zəruridir. Belə ki, ixrac potensialının artması ilə ailə-kəndli təsərrüfatlarının maliyyə vəziyyəti güclənəcək, aqrar sektorun inkişafına stimul verəcək.

Azərbaycan Respublikasında ailə-kəndli təsərrüfatlarının ixrac prosesinin genişləndirilməsinə mane olan əsas amillərdən biri ixrac qaydaları üzrə tələb olunan sənədlərin çox olması və nəqliyyat xərclərinin yüksək olmasıdır. Xarici ticarət haqqında qanunvericiliyə uyğun olaraq, ixrac əməliyyatlarını həyata keçirmək üçün aşağıdakı sənədlər gömrük orqanları tərəfindən tələb edilir: [4]

➢ hüquqi şəxsin Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş kodu;

- xarici şəxslərlə bağlanmış müqavilə;
- ixrac olunan malların mənşəyi haqqında sənədlər;
- ixrac olunan malların haqqının qabaqcadan ödənilməsi və ya akkreditiv açılması barədə müvəkkil bankın sənədi;
- bu qaydalar nəzərdə tutulan hallarda Nazirlər Kabinetinin sərəncamı və ya İqtisadiyyat Nazirliyinin müsbət rəyi;
- gömrük yük bəyannaməsi;
- ixrac edilən yeyinti məhsullarına keyfiyyət sertifikatı.

2015-ci ildən etibarən həyata keçirilən islahatların davamı olaraq nəticədə Azərbaycan Respublikasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2017-ci il tarixli fərmanı ilə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi yaradılmışdır. [9] Lakin kənd təsərrüfatı məhsullarının xarici ticarət saldosu mənfiyə doğru böyüməkdədir.

Mövcud ərzaq balansının statistik təhlili göstərir ki, Azərbaycan Respublikasında ərzaq məhsullarının, meyvə və tərəvəzlərin özünü təminetmə vəziyyəti 100% həcmində deyil. Öncə ailə-kəndli təsərrüfatlarının istehsal və ixrac potensialının mövcud vəziyyətinin düzgün qiymətləndirilməsi zəruridir.

Misal olaraq, 2009-cu ildə meyvə və giləmeyvə istehsalı 718 205 ton təşkil etmişdir. Bu sahə üzrə özünü təminetmə 136% olmuşdur. 2009-cu ildə meyvə və giləmeyvə idxalı 62 531 ton 8.7%, ixracı 252 643 ton 35.2%, itki 9050 ton 1.3%, qalıq 36500 ton 5.1% olmuşdur.

2019-cu ildə meyvə və giləmeyvə istehsalı 1099 710 ton təşkil etmişdir. Bu sahə üzrə özünü təminetmə 123.1% olmuşdur. İdxalı 141 528 ton 12.9%, ixracı 347 917 ton 31.6%, itki 18 388 ton 1.8%, qalıq 59 307 ton 5.4% olmuşdur.

Ümumi statistik təhlil göstərir ki, 2019-cu ilin 2009-cu ilə nisbətində meyvə və giləmeyvə üzrə ölkədə istehsal 381505 ton artmış, 53.1%, özünü təminetmə 12.9% azalmışdır, idxal 126.3%, ixrac 37.7%, itki 103.2%, qalıq 62.5% artmışdır. Mövcud itkilərin qarşısı alınarsa, qalıq məhsullar hesabına ölkədə xarici bazarlara malsatma imkanlarını genişləndirmək olar. Azərbaycanın bu sahədə qoz və fındıq istehsalı və ixracı statistikası bunu deməyə əsas verir. Məlumdur ki, Azərbaycan Respublikasında qoz və fındıq məhsulları Rusiya bazarından fərqli olaraq, beynəlxalq standartlar çərçivəsində istehsalı genişləndirilərək, Avropa və Kiçik Asiya ölkələrinə ixrac edilir. Müşahidələr göstərir ki, Azərbaycan Respublikasında ailə-kəndli təsərrüfatlarında standartlara uyğun məhsul istehsaletmə təcrübəsi çox aşağı səviyyədə olduğu üçün itkilər və satış problemləri ilə üzləşirlər.

### 3. "Birləşdirilmiş ixrac" modelinin dəstəklənməsi

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazarlarda məhsul təklifi daha çox böyük şirkətlər tərəfindən həyata keçirilir. Belə olan halda müəssisələrdə istehsalın təşkili ilə bağlı xərclər nisbətən aşağı düşür və son nəticədə istehsala çəkilən ümumi xərclərin aşağı düşməsinə gətirib çıxarır. Ümumi xərclərin aşağı olduğu təqdirdə təbii ki, qiymət səviyyəsi digər müəssisələrlə müqayisədə aşağı olur. Nəticədə məhsulların ixracına müsbət təsir edir.

Müqayisəli təhlil göstərir ki, kənd təsərrüfatı sektorunda ixracatda 2000-ci illə 2019-cü illər arasında artımın 14.1 dəfədən çox olmasına baxmayaraq, idxalat ixracdan 2.4 dəfə çoxdur. Lakin 2014-cü illə müqayisədə ixracın 2018-ci ildə 5.8% artması əsasında bitkiçilik sahəsində rəqabətə davamlılıq əldə olunmuşdur. Lakin 2018-ci ildə əldə edilmiş rəqabətə davamlılıq 2019-cu ildə itirilmişdir. Mövcud vəziyyəti nəzərə

alaraq, öncə istehsal olunan məhsulların idxal olunan məhsullara nisbətdə rəqabətqabiliyyətli formada yetişdirilməsinə nail olunmalıdır ki, məhsul itkisi və idxal azalsın və özünü təminetmə səviyyəsi yüksəlsin. Bunlara nail olmaq üçün ailə-kəndli təsərrüfatlarının kiçik istehsal həcmlərini, ənənəvi istehsal üsullarını və ənənəvi xarici bazar təfəkkürlərini nəzərə alaraq, onların ənənəvi satış bazarlarından asılılığının aradan qaldırılması və beynəlxalq standartlara cavab verən rəqabətqabiliyyətli məhsul istehsal edə bilmələri üçün "Birləşdirilmiş ixrac" modeli çərçivəsində kənd təsərrüfatı məhsullarının yeni üsullarla yetişdirilməsi və ixracı ilə bağlı Avropa standartları üzrə maarifləndirilmələri zəruridir.

"Birləçdirilmiş ixrac" modeli üzrə ailə-kəndli təsərrüfatlarına Avropa standartları çərçivəsində istehsal üsulları, ixracat marketinqi və planlaşdırması mövzusunda məsləhət xidməti göstərilir. Başlıca mövzular bunlardır:

- istehsal olunan son məhsulun keyfiyyətinin və ekoloji təmizliyinin təmin olunması üçün vaxtaşırı (su, torpaq, hava) monitorinqlərin keçirilməsi və tədbirlərin görülməsi;
- istehsal olunmuş son məhsulda pestisid qalıqları, qida əlavələri və s. standartları, orqanik kənd təsərrüfatı məhsullarının istehsalı haqqında informasiyanın verilməsi;
- AB daxilində vahid effektiv bazarın qoyduğu ciddi monitorinq və nəzarət sistemləri barədə maarifləndirmə;
- xarici bazarlara məhsul ixrac etmək üçün istehsal edilən məhsulların standartlaşdırılması, sertifikatlaşdırılması, etiketləndirilməsi və qablaşdırılması qaydalarının öyrədilməsi;
- istehsal və ixrac potensialının mövcud vəziyyətinin düzgün qiymətləndirilməsi; (istehsal edilən məhsulların xarici bazarların tələblərinə uyğunluğu);
- ixracyönümlü rəqabətqabiliyyətli məhsul istehsalı məqsədilə ailə-kəndli təsərrüfatlarının məhsulların standartlaşdırılması, sertifikatlaşdırılması, etiketləndirilməsi və qablaşdırılması qaydaları üzrə maarifləndirmə;
- ixrac edilən məhsulun üçüncü ölkələrin ərazisində malın mənşəyində dəyişikliyə səbəb olacaq şəkildə mal üzərində etiket dəyişikliklərinin qadağası haqqında maarifləndirmə;
- Avropa İttifaqının kənd təsərrüfatı məhsullarının istehsalının qanunvericilik bazası haqqında ailə-kəndli təsərrüfatlarının maarifləndirilməsi;
- idarəetmədə keyfiyyətə nəzarət sistemlərinin formalaşdırılması üzrə ailə-kəndli təsərrüfatlarının maarifləndirilməsi;
- Avropa İttifaqının və Azərbaycan Respublikasının qanunvericilik bazası üzrə gömrük keçid qaydaları haqqında ailə-kəndli təsərrüfatlarının maarifləndirilməsi;
- kiçik pay torpaqlarına sahib olan ailə-kəndli təsərrüfatlarının birgə ixracı həyata keçirməklə, yüksək xərcinin azaldılması istiqamətləri üzrə maarifləndirilməsi;
- Azərbaycan Respublikasının xarici ticarət sahəsində gömrük keçid məntəqələrində tələb olunan sənədlər üzrə ailə-kəndli təsərrüffatlarının maarifləndirilməsi;
- ailə-kəndli təsərrüfatlarının Rusiya bazarlarından başqa digər potensial xarici bazarlar haqqında maarifləndirilməsi.

**Nəticə**

Kənd təsərrüfatının inkişaf etdiyi ölkələrin təcrübəsi göstərir ki, xarici və daxili bazara məhsul təklif edən böyük şirkətlərdir. Bu təcrübəni Azərbaycan Respublikasının real vəziyyətinə uyğunlaşdırmaqla, ailə-kəndli təsərrüfatları kənd təsərrüfatı məhsullarının əsas istehsalçısı olmaqla bərabər, xarici bazarlara da məhsul ixracında mühüm rol oynaya bilərlər. Buna nail olmaq üçün ailə-kəndli təsərrüfatları birgə ixracı həyata keçirə bilməlidirlər. Belə modelin həyata keçirilməsi ailə-kəndli təsərrüfatlarının birgə istehsalın təşkili və ixracı ilə bağlı xərcləri aşağı düşəcək və son nəticə olaraq, yerli məhsulların daxili və xarici bazarlarda rəqabətə davamlılığının yüksəlməsinə gətirib çıxarır. Ümumi xərclərin aşağı olduğu şəraitdə ailə-kəndli təsərrüfatlarının məhsulları daxili və xarici bazarlarda digər istehsalçılara nisbətdə aşağı qiymətlərlə təklif olunacaq. Nəticədə ailə-kəndli təsərrüfatlarının ənənəvi bazarlardan asılılığı qurtaracaq və yeni (Avropa) bazarlara istiqamətlənməsinə müsbət təsir edəcək.

## Ə D Ə B İ Y Y A T

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalıda dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il dekabr tarixli Fərmanı. www.prezident.az.
2. Dünya Bankı, https://wits.worldbank.org/
3. Qənbərov F. Xarici iqtisadi əlaqələr və iqtisadi artım Bakl: Elm, 2012, 448 s.
4. Şərqi Avropa tərəftaş ölkələrinin kənd təsərrüfatı və kənd yerlərinin inkişafının qiymətləndirilməsi. Hesabat-2012.
5. Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi, www.smb.gov.az.
6. İxracın və investisiyaların Təşviqi Fondu, www.azproma.az.
7. Dövlət Gömrük Komitəsi, www.customs.gov.az.
8. Azərbaycan Respublikasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, www.ereforms.gov az.
9. Dövlət Statistika Komitəsi, www.stat.gov.az.
10. Yəhya S.H. Marketinq bazar münasibətləri şəraitində idxal və ixracı tənzimləyən iqtisadi mexanizm kimi. Bakı Biznes Universiteti, I-Xüsusi Buraxılış, Bakı – 206; s. 70-73.

## *ПЕРСПЕКТИВЫ МАРКЕТИНГОВОЙ МОДЕЛИ «КОМПЛЕКСНЫЙ ЭКСПОРТ» В РАЗВИТИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА*

*Санан ЯХЬЯ*

### *Резюме*

*В статье отмечается, что в результате земельной реформы 1998 г. в Республике было образовано более 620 тысяч семейных фермерских хозяйств, при этом 97% земель в общем распределении земель приходилось на мелкие семейные фермерские хозяйства. В результате доля семейных фермерских хозяйств в производстве сельскохозяйственной продукции в Азербайджанской*

*Республике превышает 90%, что свидетельствует о потенциале этого сектора.*

*Проанализированы производственные доли семейных фермерских хозяйств за 2000-2019 годы, баланс внешней торговли сельскохозяйственной продукцией (животноводство, растениеводство, продукты питания), показаны существующие экспортные проблемы и для решения проблемы экспорта сельскохозяйственной продукции автором предложена модель "Комбинированный экспорт".*

***Ключевые слова:** Маркетинг, ненефтяной сектор, сельское хозяйство, производство, исследования*

## *PERSPERTIVES OF THE "INTEGRATED EXPORT" MARKETING MODEL IN AGRICULTURAL DEVELOPMENT*

*Sanan YAHYA*

### *Abstract*

*The Article notes that, as the resullt of land reforms in 1998 more than 620.000 families were formed peasant agryculture in the country and 97 % lands was registered in the total land distribution fell to small scaled family–farm agrycultures.*

*As the resul of that, family farm shares in the production of the agricultural products beiing more than 90 % indicates the potential of this sector in the Azerbaijan Republic.*

*The existing export problems were identified by analyzing the production shares of family farms products up to 2000-2019, foreign trade balance of agryculture (livestock, crops, food) and the "Combined Export" model was proposed by the author on solving the export problems of agricultural products.*

***Key words:** marketing, non-oil field, agryculture, production, reseach*

UOT 657.631

# KOMMERSİYA TƏŞKİLATLARININ FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ VƏ DÜZGÜN QƏRAR VERİLMƏSİNDƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABATIN DOLAYI METODLA HAZIRLANMASI VƏ ROLU

**Abdullah Nazim oğlu ADİLLİ,**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) "Mühasibat uçotu və audit" kafedrası, doktorant, muhasibat2020@gmail.com*

**Xülasə**

**Tədqiqatın məqsədi** - *Bu məqalənin məqsədi kommersiya təşkilatlarında pul vəsaitlərinin hərəkəti haqqında hesabatın ən mühüm metodikasını təqdim etmək, nəzəri və metodoloji əsaslarını müəyyən etmək və praktik tərtibini əks etdirməkdir.*

**Tədqiqatın metodologiyası** – *Araşdırılan problemə sistemli və kompleks yanaşmadan, habelə müasir dövrdə pul vəsaitlərinin hərəkəti haqqında məlumatın müəyyən edilməsi ilə bağlı metodlardan ibarətdir.*

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - *Pul vəsaitlərinin hərəkəti haqqında hesabatda təşkilatın hər üç fəaliyyəti ilə təmin edilmiş xalis nağd pullar bir şirkətin pul əmələ gətirmə qabiliyyətini göstərmək məqsədi daşıyır.*

**Tədqiqatın nəticələri** – *Kommersiya təşkilatlarında pul vəsaitlərinin hərəkəti haqqında hesabatın dolayı yolla hazırlanmasında daha asan və praktik yoldan istifadə edilərək hazırlanılır.*

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – *Təhlilçilər üçün bu hesabatın əsas önəmi ondan ibarətdir ki, bu hesabat müəssisənin qısa və uzun müddətli borclarını ödəmə qabiliyyətinin nə yerdə olduğundan xəbər verir. Yəni, müəssisənin borclarını qarşılaya bilməsi üçün əlində kifayət qədər nağd vəsaiti varmı. Bir şirkətin maliyyə hesabatları investorlara və analitiklərə hər əməliyyatın müvəffəq olmasına töhfə verdiyi işdən keçən bütün əməliyyatların portretini təqdim edir. Nağd pul hərəkəti hesabatının, bütün maliyyə hesabatları arasında ən asan başa gəldiyi düşünülür, çünki bu, müəssisənin üç əsas əməliyyat yolu, investisiya və maliyyələşdirmə yolu ilə əldə etdiyi pul vəsaitlərini izləyir. Bu üç hissənin cəminə xalis pul axını deyilir. Nağd pul hərəkəti hesabatının bu üç fərqli hissəsi investorlara bir şirkətin və ya bütövlükdə şirkətin dəyərini müəyyənləşdirməyə kömək edə bilər.*

**Açar sözlər:** *Kommersiya təşkilatları, pul vəsaitlərinin hərəkəti haqqında hesabat (PVHHH), dolayı metod, nəğd pul, əməliyyat fəaliyyəti, investisiya fəaliyyəti, maliyyə fəaliyyəti, aktivlər, öhdəliklər, kapital.*

## Giriş

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat pul vəsaitlərinin mənbəyi və istifadəsini əks etdirir və beləliklə, bu hesabat müəssisənin likvidliyinin və borclarını ödəyə bilmə qabiliyyətinin faydalı göstəricisidir. Pul vəsaitlərinin mədaxili və məxarici haqqında məlumat pul vəsaitlərinin hərəkəti haqqında hesabatda əks olunur. Bu hesabat müəssisənin likvidlik vəziyyəti haqqında kifayət qədər aydın təsəvvürün yaradılması üçün böyük əhəmiyyət kəsb edir. Misal üçün, B kiçik bir şirkətdir və öz fəaliyyətinə 1 yanvar 20X9-cu il tarixində başlamışdır. 20X9-cu il ərzində B Şirkəti 100.000 ₼ məbləğində mənfəət qazanmışdır. Səhmdarlar şirkətin birinci il üçün göstərdiyi fəaliyyətindən çox razıdırlar. Lakin mənfəətin hamısı pul vəsaiti şəklində deyil.

Mənfəətin yarıdan çoxu, yəni 60.000 ₼ məbləğində mənfəət debitor borcları şəklində qalmışdır. Təəssüflər olsun ki, sonradan müəssisənin iqtisadi vəziyyəti pisləşir. B Şirkətinin debitor borclarının ödənilməsində problemlər yaranır. Mal-material ehtiyatlarının bir qismi isə köhnələrək sıradan çıxır. Pul vəsaiti vaxtlı-vaxtında əldə edilə bilmir. Bundan əlavə, kreditorlar uzun müddət gözləməyə hazır olmur. Beləliklə, B Şirkəti öz borclarını vaxtında ödəyə bilmir və iflas etdiyini elan edir. Səhmdarlar bu xəbəri təəccüblə qarşılayırlar. Onlar işlərin necə bu dərəcədə pisləşdiyini başa düşə bilmirlər. Bəs, görəsən problem nədə idi?

Problem ondadır ki, B Şirkəti mənfəət qazanmasına baxmayaraq, onun likvidlik vəziyyəti heç də yaxşı deyildi. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat tərtib edilmədiyi üçün səhmdarlar belə bir əhəmiyyətli məlumata malik deyildilər. Bu səbəbdən, onlar düzgün qərar qəbul etməmişdilər. Bu nümunə, pul vəsaitlərinin hərəkəti haqqında hesabatın nə dərəcədə böyük əhəmiyyətə malik olduğundan xəbər verir.

Bu nümunədən sonra bir daha aydın olur ki, müəssisənin likvidlik vəziyyətini MGHH və ya MVHH əsasında müəyyənləşdirmək olmur. Bu haqda məlumatı ayrıca bir hesabatdan, yəni pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan əldə edə bilərik. Pul vəsaiti hər bir müəssisənin fəaliyyətində böyük rol oynayır. Sahibkarların, eləcə də digər istifadəçilərin pul vəsaitlərinin hərəkəti haqqında kifayət qədər məlumata malik olması çox əhəmiyyətlidir. Pul vəsaitinin yaxşı idarə olunmaması müəssisənin biznes fəaliyyətində müəyyən çətinliklərin yaranmasına gətirib çıxarır. Gələcəkdə pul vəsaitlərinin hərəkəti haqqında hesabat hazırlamaq üçün yaxşı bir mühasib kimi sizə müraciət oluna bilər. Sizin hazırlayacağınız hesabat müəssisə rəhbərliyinin və eləcə də, müştərilərin verəcəyi qərarlarda böyük rol oynayacaq. Belə bir məsuliyyətli işin (mühasib vəzifəsinin) öhdəsindən uğurla gəlmək üçün siz bu məqaləni diqqətlə oxumalısınız.

Beləliklə, sözügedən hesabat müəssisənin likvidliyini əks etdirdiyinə görə istifadəçilər üçün mühüm informasiya mənbəyidir. Hesabat dövründə nağd pulların hansı mənbədən formalaşdığını yalnız bu hesabat vasitəsilə görmək mümkündür. Bundan əlavə, PVHHH vasitəsilə pulların daha çox hara sərf olunmasını müəyyən etməklə, müəssisənin maliyyə siyasətini də qiymətləndirmək olar.

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın dolayı metodla hazırlanması**

Əməliyyat fəaliyyəti üzrə PVHHH-nin dolayı metodla hazırlanması birbaşa metoda nisbətən daha az və sadə informasiyadan istifadə etməklə mümkündür. Əgər birbaşa metodda nağd pul vəsaitlərini tapmaq üçün gəlirlər və xərclərə ayrı-ayrılıqda düzəliş edilirdisə, dolayı metodda birbaşa mənfəətə düzəlişlər edilir [3].

Dolayı metodun mahiyyəti ondan ibarətdir ki, MZHH-a aşağıdan başlayaraq yuxarıya doğru düzəliş verilir [4]. Belə ki, MZHH-ın xalis mənfəəti (zərəri) götürülərək (adətən vergiyə qədər mənfəət götürülür) ona düzəlişlər edilir.

Düzəlişlərin hər birinə ayrılıqda baxaq:

1) əməliyyat fəaliyyəti ilə bağlı gəlir və xərclərin qeyri-pul komponentlərinə düzəlişlər. Bu cür düzəlişlər xalis mənfəətin üzrəinə cari aktiv və öhdəliklərə bağlı düzəlişlərin edilməsi yolu ilə aparılır.

Belə düzəlişlərin edilməsinin ümumi qaydası aşağıdakı kimidir:

| **1** | **Hesabat dövründə qısamüddətli aktivlərin artması** | **Çıxılır** |
|---|---|---|
| **2** | Hesabat dövründə qısamüddətli aktivlərin azalması | Əlavə edilir |
| **3** | Hesabat dövründə qısamüddətli öhdəliklərin artması | Əlavə edilir |
| **4** | Hesabat dövründə qısamüddətli öhdəliklərin azalması | Çıxılır |

Bu (1) düstürü biraz daha parçalasaq:

**Pul** = **QÖ** − **QA** − **UA** + **UÖ** + **Niz. Kapitalı** + **Gəlirlər** − **Xərclər** − **Dividend** (1)

(Gəlirlər − Xərclər = **Mənfəət**)

Bu (2) düsturunda mənfəəti önə gətirsək:

**Pul** = **Mənfəət** + **QÖ** − **QA** − **UA** + **UÖ** + **Niz. Kapitalı** − **Dividend** (2)

PVHHH daha da zənginləşdirmək məqsədilə uzunmüddətli aktivləri və ya qısamüddətli aktivləri parçalaya bilərik. Biz əgər (2) düstüründa uzunmüddətli aktivi parçalasaq (uzunmüddətli aktivlər-toplanmış amortizasiya) aşağıdakı düsturu alarıq:

**Pul** = **Mənfəət** + **QÖ** − **QA** − (**UA** − **toplanmış amortizasiya**) + **UÖ** + **Niz. Kapitalı** − **Dividend** (3)

Burada mötərizəni açsaq işarələr dəyişəcək və aşağıdakı kimi qruplaşdıraq:

**Pul** = **Mənfəət** + **toplanmış amortizasiya** + **QÖ** − **QA** − **UA** − **UÖ** + **Niz. Kapitalı** − **Dividend** (4)

Məlumdur ki, müəssisə fəaliyyət göstərdikcə bu göstəricilərdə dəyişiklik baş verəcək, ona görə bu dəyişikliyi delta ilə qeyd edərək düsturu təkmilləşdirək:

**ΔPul** = **Mənfəət** + **Δtoplanmış amortizasiya** + **ΔQÖ** − **ΔQA** − **ΔUA** − **ΔUÖ** + **ΔNiz. Kapitalı** − **Dividend** (5)

Beləliklə, horizontal modeldə düsturun elementlərinin hesabatlar üzrə bölüşdürülməsini aşağıdakı cədvəldə daha aydın şəkildə görmək olar:

***Cədvəl 1. Horizontal model***

| | | MZHH-da | | Balans hesabatında | | KDHH-da |
|---|---|---|---|---|---|---|
| **Δ PV** | = | Mənfəət | + | ΔToplanmış amortizasiya + Δ QÖ - Δ QA - ΔUA + ΔUÖ + Δ Niz. Kapitalı | - | Dividend |

Cədvəldən göründüyü kimi, digər 3 hesabatda göstərilən maddələrin məbləğlərini yerinə qoymaqla da pul vəsaitlərini dolayı yolla almış olarıq. Bu bizə maliyyə hesabatları arasında sıx əlaqənin olmasını aydın şəkildə görməyə imkan verəcəkdir.

Düstur 4 və 5-i təhlil etdikdə görürük ki, bu düstura görə aşağıdakı ehtimallar olması hər zaman özünü doğruldacaqdır:

1) pul olmayan aktivlərdə baş verən dəyişikliklərlə nağd pulda olan dəyişikliklər tərs mütənasibdir [1];

2) öhdəliklər və xüsusi kapitalda olan dəyişikliklərlə nağd pulda olan dəyişikliklər düz mütənasibdir [2]. Yəni öhdəliklərlə nağd pulda olan dəyişikliklər düz

mütənasibdir. Yəni öhdəliklər artanda, nağd pul artır, öhdəliklər azalanda isə nağd pul azalır.

Artıq düstur 5, təhlil nöqteyi-nəzərindən daha informativ və PVHHH-ın tərtib olunması üçün daha uyğun bir düstur olacaqdır. Hesabatın tərkib elementlərinə uyğun olaraq düsturumuzu aşağıdakı kimi təsnif edəcəyik:

$$\Delta \text{PV} = \underbrace{Mənfəət}_{ƏF} + \underbrace{\Delta Toplanmış\ amortizasiya}_{ƏF} - \underbrace{\Delta QÖ}_{ƏF} - \underbrace{\Delta QA}_{ƏF} - \underbrace{\Delta UA}_{İF} + \underbrace{\Delta UÖ}_{MF} + \underbrace{\Delta Niz.Kapitalı}_{MF} - \underbrace{Dividend}_{MF} \quad (6)$$

Burada:

ƏF – Əməliyyat fəaliyyəti;

İF – İnvestisiya fəaliyyəti;

MF – Maliyyə fəaliyyəti.

Düstura uyğun olaraq maliyyə bərabərliyində baş verə biləcək dəyişikliklərin PVHHH-ın hansı fəaliyyətinə daxil olmasını aşağıdakı cədvəldən daha aydın şəkildə görmək olar:

***Cədvəl 2. Maliyyə hesabatının elementlərində baş verən dəyişikliyin PVHHH-da əksi***

| Balansın bölmələrində (maliyyə bərabərliyində) baş verə biləcək dəyişikliklər | Nağd pulun hərəkəti haqqında hesabatın aşağıdakı bölmələrində əks etdirilir |
|---|---|
| **Qısamüddətli (cari) aktivlər** | Əməliyyat fəaliyyəti |
| **Qısamüddətli (cari) öhdəliklər** | Əməliyyat fəaliyyəti |
| **Uzunmüddətli aktivlər** | İnvestisiya fəaliyyəti |
| **Uzunmüddətli öhdəliklər** | Maliyyə fəaliyyəti |
| **Xüsusi kapital** | Maliyyə fəaliyyəti |
| **Mənfəət** | Əməliyyat fəaliyyəti |
| **Toplanmış amortizasiya** | Əməliyyat fəaliyyəti |

Beləliklə, PVHHH-ın ümumi forması hər hansı bir A şirkətinin timsalında aşağıdakı cədvəldə göründüyü kimi öz əksini tapacaq:

***Cədvəl 3. PVHHH-ın ümumi forması***

| Dolayı metodla PVHHH-nin hesablanması düsturu: | |
|---|---|
| **Əməliyyat fəaliyyəti** | |
| ***Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin axını:*** | **$X_1$** |
| ✓ xalis mənfəət/zərər (və ya vergiyə qədər olan mənfəət/zərər); | X |
| ✓ toplanmış amortizasiya üzrə artma; | (X) |
| ✓ kreditor borcları üzrə artma/azalma; | (X) |
| ✓ alınmış avanslar və gələcək dövrün gəlirləri üzrə artma/azalma; | (X) |
| ✓ faiz öhdəliyi; | X |
| ✓ uzunmüddətli aktivlərin satışından yaranmış zərər/mənfəət; | X/(X) |
| ✓ sair qısamüddətli öhdəliklər üzrə artma/azalma; | (X) |
| ✓ qazanılmamış gəlir; | (X)/X |
| ✓ vergi öhdəliyi; | X |
| ✓ ehtiyatlar (alınmış mallar) üzrə artma/azalma; | X |
| ✓ ödənilmiş vergi; | (X) |
| ✓ debitor borcları üzrə artma/azalma; | X |

| | |
|---|---|
| ✓ verilmiş avanslar və gələcək dövrün xərcləri üzrə artma/azalma; | X |
| ✓ sair qısamüddətli aktivlər üzrə artma/azalma. | X |
| ***= Əməliyyat fəaliyyəti üzrə cəmi pul vəsaitlərinin xalis axını*** | X/(X) ⋔ |
| **İnvestisiya fəaliyyəti** | |
| ***İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin axını:*** | $\mathbf{X_2}$ |
| - uzunmüddətli aktivlər üzrə artma (alış); | (X) |
| + uzunmüddətli aktivlər üzrə azalma (satış və ya silinmə); | X |
| - uzunmüddətli investisiya üzrə artma (investisiya qoyuluşu); | (X) |
| + uzunmüddətli investisiya üzrə azalma (satış və ya geri götürmə); | X |
| + digər təşkilatların borc və ya pay qiymətli kağızlarına qoyulan investisiyaların satışından; | X |
| + digər müəssisələrə verilən kreditlər üzrə əsas borcun toplanmasından; | X |
| + alınmış faiz*; | X |
| + depozit gəliri; | X |
| + investisiya fəaliyyətindən əldə edilmiş dividend*; | X |
| - digər təşkilatların borc və ya pay qiymətli kağızlarına investisiya yatırmaq; | (X) |
| -uzunmüddətli qeyri-maddi aktivdə artma/azalma; | (X)X |
| - digər qurumlara avans və borc vermək; | (X) |
| - maliyyə fəaliyyətlərinə aid oluna biləcək dilinq və ticarət əməliyyatları üzrə müqavilələr və pul ödənişləri istisna olunmaqla fyuçers, forward müqavilələri, opsionlar və svoplar üzrə pul ödənişləri. | (X) |
| ***İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin xalis axını*** | X/(X) ⋔ |
| **Maliyyə fəaliyyəti** | |
| ***Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin axını:*** | $\mathbf{X_3}$ |
| + kapital qoyuluşu üzrə artma; | X |
| + ümumi səhm satışından; | X |
| + banklardan və digər kredit institutlarından kredit götürülməsi; | X |
| + borc öhdəliklərinin, istiqrazların, veksellərin buraxılmasından, kreditlərdən və digər qısa və uzunmüddətli borclardan pul vəsaitləri; | X |
| - uzunmüddətli borcu ödəmək və ya kapital fondunu (xəzinə fondunu) geri almaq; | (X) |
| - səhmlərə və istiqrazlara görə ödəniş; | (X) |
| - maliyyə icarəsinə görə ödəniş; | (X) |
| - sığorta ödənilmələri və iddiaları, rentanın sığortalanması məbləğləri və sığorta polisləri üzrə digər məbləğlərə görə sığorta şirkətinin pul daxilolmaları, yaxud ödənişləri; | (X) |
| - dividend vergisi; | (X) |
| - dividend ödənişi*; | (X) |
| - ödənilmiş faiz*; | |
| - kapitalın geri çıxılması; | |
| - maliyyə fəaliyyəti ilə əlaqədar dividend gəliri*; | X |
| ***Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin xalis axını*** | X/(X) ⋔ |
| **Pul vəsaitlərinin ümumi xalis axını ($\mathbf{X_1+ X_2+ X_3}$)** | $\mathbf{X_n}$ |
| **Hesabat dövrünün əvvəlinə pul vəsaitlərinin kəmiyyəti** | **Y** |
| **Hesabat dövrünün sonuna pul vəsaitlərinin kəmiyyəti** | **Z** |

Bu metod daha asan, sürətli və az məsrəflidir. Buna görə də bir çox müəssisələr, məhz bu metoda üstünlük verirlər.

İnvestisiya və maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkətində isə, birbaşa metodla eyni qaydada hesablanır.

**Əhəmiyyətli anlayışlar**

*1. Xalis mənfəət*

Hesablamaya başlayarkən, MGHH-yə əsasən xalis mənfəət və ya zərər məbləği başlanğıc göstərici kimi götürülür və daha sonra bu məbləğə aşağıda təqdim edilmiş maddələrin təsirləri üzrə düzəlişlər edilir.

*2. Mal-material ehtiyatları, debitor borcları və kreditor borclarının qalığında olan dəyişikliklər*

Əvvəlki bölmələrin birində bəhs edildiyi kimi, hesablama zamanı aktivlərdə, yəni debitor borclarında olan artım və azalmalar burada da tətbiq edilir. Məsələn, Müəssisə 500.000 ₼ məbləğində pul vəsaiti ilə mənfəət qazanmışdır. Müəssisənin 1 yanvar 20X9-cu il tarixi üzrə mal-material ehtiyatları 120.000 ₼ təşkil etmişdir, lakin ilin sonunda, yəni 31 dekabr 20X9-cu il tarixində bu göstərici 160.000 ₼ olmuşdur. Deməli, 500.000 ₼ məbləğində pul vəsaiti mənfəətinin 40.000 ₼ (yəni, 160.000 – 120.000) hissəsi əlavə mal-material ehtiyatları ilə əlaqələndirilir. Bu səbəbdən, əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaiti 500.000 – 40.000 = 460.000 təşkil edir.

*3. Qeyri-pul vəsaiti maddələri*

MGHH-də amortizasiya, qiymətləndirilmiş öhdəliklər, təxirə salınmış vergilər və digər bu kimi, pul vəsaitlərinin hərəkətini əks etdirməyən maddələrə rast gələ bilərik. Başlanğıc göstərici kimi götürülən xalis mənfəət və yaxud zərər məbləğinə bu maddələrin də təsiri olur. Buna görə də bu maddələrin məbləği xalis mənfəət və ya zərər məbləğindən çıxılmalıdır. Amortizasiya ilə bağlı bir nümunəni nəzərdən keçirək. Keçmişdə satın alınmış aktiv üzrə amortizasiya xərcləri tətbiq edilir. Biz MGHH-də amortizasiya üzrə qeydiyyat apararkən onu xərc kimi göstəririk, lakin bu xərc üzrə faktiki pul vəsaiti məxarici baş vermir:

*Əməliyyat fəaliyyəti üzrə pul vəsaiti mənfəəti+Əməliyyat fəaliyyətindən olan reallaşdırılmamış gəlir- Amortizasiya xərcləri = Xalis mənfəət.*

Bu düsturdan istifadə etməklə, əməliyyat fəaliyyəti üzrə pul vəsaiti mənfəətini aşağıdakı kimi hesablaya bilərik:

*Əməliyyat fəaliyyəti üzrə pul vəsaiti mənfəəti = Xalis mənfəət - Əməliyyat fəaliyyətindən olan reallaşdırılmamış gəlir + Amortizasiya xərci*

Beləliklə, belə bir nəticəyə gələ bilərik ki: Əgər hesablamaya xalis mənfəətdən başlayırıqsa, bütün qeyri-pul vəsaiti xərclərini xalis mənfəət məbləğinin üzərinə əlavə edib, bütün qeyri-pul vəsaiti gəlirlərini isə bu məbləğdən çıxmalıyıq.




***Diaqram 1. Pul vəsaitlərinin hərəkətinin dolayı metodla hesablanması***

**Nəticə**

Müəssisənin uğurlu fəaliyyəti üçün pul vəsaiti əsas meyarlardan biridir. Demək olar ki, bütün növ fəaliyyətlərin arxasında bilavasitə pul vəsaiti dayanır. Əgər pul vəsaiti müntəzəm olaraq reallaşdırıla bilmirsə, o zaman müəssisənin əməliyyatlarının gedişində gündən-günə problemlər yarana bilər. Rəhbərlik gələcəkdə pul vəsaitlərinin hərəkətini planlaşdırmalı və lazım olduğu zaman maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün müvafiq addımların atılmasına təşəbbüs göstərməlidir.

Müəssisənin fəaliyyəti o zaman uğurlu hesab edilir ki, bu müəssisə həyata keçirdiyi əməliyyatlar müqabilində pul vəsaiti əldə edə bilsin. Hesabatlarda göstərilən mənfəəti gözdən keçirməklə, müəssisənin fəaliyyətinin uğurlu olub-olmaması barədə qərar vermək olmaz. Məsələn, vəsaitlərin böyük hissəsinin mal-material ehtiyatları şəklində olması müəssisənin likvidlik vəziyyətinin aşağı olmasından xəbər verir. Müəssisənin malik olduğu pul vəsaitinin hamısının mal-material ehtiyatlarına investisiya edilməsi də analoji hal hesab edilə bilər. Bu səbəbdən, rəhbərlik pul vəsaitlərinin hərəkətinə gündəlik olaraq nəzarət etməlidir.

Eyni səbəblərdən, kreditorlar və banklar da müəssisədə baş verən pul vəsaitlərinin hərəkəti ilə maraqlanır. Onlar əslində bilavasitə olaraq, müəssisənin krediti ödəmə qabiliyyəti ilə maraqlanır. Bu aspekti də nəzər almaqla, rəhbərlik pul vəsaitlərinin hərəkətinin yaxşı idarə edildiyindən əmin olmalıdır.

Pul vəsaitlərinin yaxşı idarə olunmaması müəssisənin fəaliyyətinə əks təsir edə bilər. Əgər böyük məbləğdə pul vəsaiti kassada istifadəsiz saxlanılarsa, onda bu pul vəsaiti gəlirin yaranmasına səbəb olmayacaq. Buna oxşar olaraq, əgər debitor borcları müntəzəm olaraq müştərilərdən toplana bilinmirsə, bu zaman da anoloji hal baş verir. Halbuki, bu pul vəsaitlərini digər alternativ əməliyyatlara sərf etməklə, mənfəət əldə edə bilərik.

Beləliklə, rəhbərlik "müəssisənin mənfəətliliyi" və "müəssisənin likvidliyi" arasında müəyyən balans yaratmalıdır. Bu iki amil bir-birilə tərs mütənasibdir. Belə ki, daha çox likvidlik (böyük miqdarda pul vəsaitinin olması) daha az mənfəətlilikdən xəbər verir. Digər tərəfdən, müəssisədə az miqdarda pul vəsaitinin olması krediti ödəmə qabiliyyətində müəyyən çətinliklərin yaranması ilə nəticələnə bilər.

## Ə D Ə B İ Y Y A T

1. Cornell D.W. and Apostolou B., Direct Approach to Cash flow Enhances Credit Analysis, Business Credit, 1992, Vol. 94, No. 4, pp. 10-13.

2. Goyal M.K., A survey on popularity of the direct method of cashflow reporting, Journal of Applied Management Accounting Research, 2004, Vol. 2, No. 2, pp. 41-52.

3. Jung Y.M. and Ha A.H., Relationship between Net working capital and Cash flows in General Hospitals, Hospitals, Journal of the Korea Academia-Industrial cooperation Society, 2017, Vol. 18, No. 6, pp. 312-318. https://doi.org/10.5762/KAIS.2017.18.6.312

4. Kang J. and Ahn J., A Systematic Method for Preparing a Direct Method Cash Flow Statement, The Journal of Business Education, 2017, Vol. 31, No. 3, pp. 131-153.

5. Kang S.S., A Model on Economy Evaluation Regarding to Cash Flow, Journal of Society of Korea Industrial and Systems Engineering, 2008, Vol. 31, No. 4, pp. 177-187.

6. Klammer T.P. and Reed S.A., Operating Cash Flow Formats : Does Format Influence Decisions?, Journal of Accounting and Public Policy, 1990, Vol. 9(Fall), pp. 217-235. https://doi.org/10.1016/0278-4254(90)90011-N

8. Krishnan G.V. and Largay III, J.A., The predictive ability of direct method cash flow information, Journal of Business Finance & Accounting, 2000, Vol. 27, No. 1, 2, pp. 215-245. https://doi.org/10.1111/1468-5957.00311

9. Lee J.T., The Comparison of Direct Method with Indirect Method in Predicting the Operating Cash Flows, Korean Academic Society of Accounting, 2002, Vol. 7, No. 1, pp. 1-84.

## *ФУНКЦИЯ И ПОДГОТОВКА КОСВЕННЫМ МЕТОДОМ ОТЧЕТА О ДВИЖЕНИИ ДЕНЕЖНЫХ СРЕДСТВ ПРИ ОЦЕНКЕ ДЕЯТЕЛЬНОСТИ И ПРИНЯТИИ ВЕРНОГО РЕШЕНИЯ В КОММЕРЧЕСКИХ ОРГАНИЗАЦИЯХ*

*Абдулла АДИЛЛИ*

### *Резюме*

***Цель исследования*** *- Цель данной статьи - представить важнейшую методологию отчета о движении денежных средств в коммерческих организациях, определить теоретические и методологические основы и отразить практический сборник.*

***Методология исследования*** *- состоит из системного и комплексного подхода к изучаемой проблеме, а также методов определения информации о денежных потоках в современное время.*

***Значение исследования*** *- В отчете о движении денежных средств чистые денежные средства, полученные от всех трех видов деятельности предприятия, предназначены для демонстрации способности компании генерировать денежные средства.*

***Результаты исследования подготовлены*** *с использованием более простого и практичного способа составления косвенного отчета о движении денежных средств в коммерческих организациях.*

***Оригинальность и научная новизна исследования*** *- Основное значение данного отчета для аналитиков состоит в том, что он показывает, где компания может выплатить краткосрочные и долгосрочные долги. То есть есть ли у предприятия деньги для погашения долгов? Финансовая отчетность компании предоставляет инвесторам и аналитикам портрет всех произошедших транзакций, которые способствовали успеху каждой транзакции. Отчет о движении денежных средств считается самым простым из всех финансовых отчетов, поскольку он отслеживает денежные потоки, которые предприятие получает через три основных направления деятельности: инвестиции и финансирование. Сумма этих трех частей называется чистым денежным потоком. Эти три отдельные части отчета о движении денежных*

*средств могут помочь инвесторам определить стоимость компании или компании в целом.*

***Ключевые слова**: коммерческие организации, отчет о движении денежных средств (ПВДХ), косвенный метод, денежные средства, операционная деятельность, инвестиционная деятельность, финансовая деятельность, активы, обязательства, капитал.*

## REPORT ON THE CASH FLOW IN THE EVALUATION OF THE ACTIVITIES OF COMMERCIAL ORGANIZATIONS AND MAKING THE RIGHT DECISION

*Abdullah ADİLLİ*

### *Abstract*

**The purpose of the research** - *The purpose of this article is to present the most important methodology of the statement of cash flows in commercial organizations, to determine the theoretical and methodological basis and to reflect the practical compilation.*

**Research methodology** - *consists of a systematic and comprehensive approach to the problem under study, as well as methods for determining information about cash flows in modern times.*

**Significance of the study** - *In the statement of cash flows, the net cash provided by all three activities of the entity is intended to demonstrate the ability of a company to generate cash.*

**The results of the research** *are prepared using an easier and more practical way to prepare an indirect statement of cash flows in commercial organizations.*

**Originality and scientific novelty of the research** - *The main significance of this report for analysts is that it shows where the company is able to pay its short-term and long-term debts. That is, does the enterprise have enough cash to meet its debts? A company's financial statements provide investors and analysts with a portrait of all the transactions that have taken place that have contributed to the success of each transaction. The cash flow statement is thought to be the easiest of all financial statements because it tracks the cash flows that an entity receives through its three main operating pathways, investment and financing. The sum of these three parts is called net cash flow. These three distinct parts of a cash flow statement can help investors determine the value of a company or a company as a whole.*

**Key words:** *Commercial organizations, cash flow statement (PVHHH), indirect method, cash, operating activities, investment activities, financial activities, assets, liabilities, capital.*

# *MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR*

1. "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" Elmi Əsərlər Toplusuna iqtisad elmlərinə aid Azərbaycan, rus və ingilis dillərində məqalələr qəbul edilir.
2. Məqalənin ümumi həcmi, qrafik materiallar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 8 səhifədən az olmamalıdır.
3. Məqalənin mətni Times New Roman-12 şrifti ilə 1 intervalla çap olunmalıdır.
4. Məqalədə UOT indeksi göstərilməlidir.
5. Məqalədə müəllif(lər)in tam ad(lar)ı və elektron poçt ünvan(lar)ı, işlədiyi (işlədikləri) müəssisənin (müəssisələrin) ad(lar)ı və yer(lər)i göstərilməlidir.
6. Məqalədə qrafik materiallar, cədvəllər, düsturlar mətnə uyğun yerlərdə yerləşdirilməli, ixtisar edilmiş sözlər birinci dəfə açıq yazılmalıdır.
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır (məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır). Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır, biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə təsdiq edilmiş «Dissertasiyanın tərtibi qaydası»nın «İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr» bölməsinin tələbləri əsas götürülməlidir.
10. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.
11. Məqalənin hər üç dildə xülasəsi və açar sözləri verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri və açar sözlər bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır, müəllif(lər)in gəldiyi elmi nəticələri, işin elmi yeniliyini, tətbiqi əhəmiyyətini və s. əks etdirməlidir. Hər bir xülasədə məqalənin adı, müəllif(lər)in tam ad(lar)ı göstərilməlidir. Beş açar sözü verilməlidir.
12. Məqalə Müəllif anketi ilə birlikdə təqdim edilməlidir.

## MÜƏLLİF ANKETİ

| | |
|---|---|
| Müəllifin adı, ata adı, soyadı | |
| Məqalənin UOT indeksi, adı | |
| Müəllifin e-mail ünvanı | |
| Telefonu | |
| Təhsil aldığı müəssisənin adı | |
| Elmi dərəcəsi, vəzifəsi, işlədiyi təşkilatın adı və yeri | |
| Məqalənin digər jurnallara göndərilmədiyi haqqında zəmanət | |
| Məqalənin təhvil verildiyi tarix | |
| Müəllifin imzası | |

## ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. В Сборник научных трудов «Особенности и проблемы реализации экономических реформ в Азербайджане» принимаются статьи по экономике на азербайджанском, русском и английском языках.
2. Общий объем статьи, включая графические материалы, таблицы, формулы, список литературы, резюме, должен быть не менее 8 страниц.
3. Текст статьи должен быть набран шрифтом Times New Roman-12 с одинарным межстрочным интервалом.
4. В статье следует указать индекс УДК.
5. В статье следует указать полное имя и адрес электронной почты автора(ов), название и место работы.
6. В статье графические материалы, таблицы, формулы должны размещаться в соответствии с текстом, сокращенные слова первый раз пишутся открыто.
7. В конце научной статьи должны быть указаны научный результат, к которому пришел(ли) автор(ы), научная новизна, прикладная значимость, экономическая эффективность работы и т.д.
8. В статье должны указываться ссылки на научные источники (например, [1] или [1, с. 119]). Список литературы дается в конце статьи и нумеруется по алфавиту. При повторном цитировании литературы, ссылка указывается прежним номером.
9. Информация о каждой ссылке со списка литературы должна быть полной и точной. Библиографическое описание ссылаемого источника должно соответствовать его типу (монография, учебник, научная статья и т.д.). При библиографическом описании цитируемого источника нужно основываться на требования раздела «Библиографическое описание используемой литературы и примеры», утвержденным решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики «Правил оформления диссертаций».
10. В списке литературы должны преобладать научные статьи, монографии и другие источники последних 5-10 лет.
11. В статье следует дать резюме и привести ключевые слова на трех языках. Составленные на разных языках резюме и ключевые слова должны быть идентичными, соответствовать содержанию статьи и отражать научную новизну, прикладную значимость работы и научные итоги автора(ов). В каждом из резюме должно указываться заглавие статьи, полное имя автора(ов). Следует указать 5 ключевых слов.
12. Рукопись статьи представляется в редакцию вместе с Анкетой автора.

## АНКЕТА АВТОРА

| | |
|---|---|
| Полное имя автора | |
| Индекс УДК и название статьи | |
| E-mail автора | |
| Телефон | |
| Место учебы | |
| Ученая степень, должность, название и место работы | |
| Подтверждение того, что статья не была послана в другие периодические научные издания | |
| Дата подачи статьи | |
| Подпись автора | |

## RULES FOR AUTHORS

1. In Collection of scientific works "Peculiarities and Problems of Realization of Economic Reforms in Azerbaijan" articles on economics are accepted in Azerbaijani, Russian and English languages.
2. The total volume of the article, including graphical materials, tables, formulas, references, summary, should be at least 8 pages.
3. The text of the article should be typed in Times New Roman-12 font with single line spacing.
4. The article should indicate the UDC index.
5. In the article should be indicated the full name and e-mail address of the author(s), name and place of work.
6. In the article, graphic materials, tables, formulas should be placed in accordance with the text, abbreviated words are first written openly.
7. At the end of the scientific article, must be indicated the scientific result, that the author(s) came to, the scientific novelty, the applied significance, the economic efficiency of the work, etc.
8. The article should refer to scientific sources (for example, [1] or [1, page 119]). The list of references is given at the end of the article and is numbered alphabetically. When re-quoting the literature, the reference is indicated by the previous number.
9. Information about each link from the list of literature should be complete and accurate. The bibliographic description of the source referred to must correspond to its type (monograph, textbook, scientific article, etc.). The bibliographic description of the cited source should be based on the requirements of the section "Bibliographic description of the used literature and examples", approved by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan " Rules for the formulation of dissertations".
10. In the list of literature should prevail scientific articles, monographs and other sources of the last 5-10 years.
11. The article should give a summary and key words in three languages. The summary and key words in different languages should be identical, correspond to the content of the article and reflect the scientific novelty, applied significance of the work and scientific results of the author(s). Each summary should contain the title of the article, the full name of the author(s). Should indicate 5 keywords.
12. The manuscript of the article is submitted to the editorial office together with the author's Questionnaire, as specified in the appendix.

## AUTHOR'S QUESTIONNAIRE

| | |
|---|---|
| Author's full name | |
| UDC index and title of the article | |
| Author's E-mail | |
| Telephone | |
| Place of study | |
| Academic degree, position, title and place of work | |
| Confirmation that the article was not sent to other periodical scientific publications | |
| Date of submission of the article | |
| Author's signature | |
| Signature of the recipient | |

AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİYYAT NAZİRLİYİNİN
İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

XXI buraxılış

Bakı – 2021

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu,
AZ 1122, Azərbaycan Respublikası, Bakı şəhəri,
H.Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70;
Faks: (+99412) 430 03 06
Elektron poçt: journal.isrer@gmail.com
İnternet səhifəsi: http:// www.ier.az